**İsgəndər Atilla**

# Hüseyn Cavid:

## Mərd olun, mərd ölün.

***Zaman gələcək yazılmamış əsərlərimə, qaranlıq zindanıma xalqım da ağlayacaq. Tarixə, xalqa xeyir vermiş, vaxtından əvvəl itirilmiş günahsız, ləkəsiz zavallılar için nə qədər təəssüf ediləcək…***

***H.C.***

**B a k ı 2 0 1 0**

*Bu kitab, başda görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid olmaqla, Stalin siyasəti və kommunist rejiminin qurbanları olmuş, mərd ölməyi namərd yaşamaqdan üstün tutmuş sovet vətəndaşlarının xatirəsinə ithaf edilir.*

**Redaktor:** Rəna Məmmədsəfa qızı

**Korrektorlar:** Günel Babayeva, Aysel Həsənli

İsgəndər Əhməd oğlu Atilla. Mərd ölmək namərd yaşamaqdan üstündü, Bakı, «Ozan», 2009 – 256 səh.

*Sovet tarixi yalnız sosializmin və xalqın Hitler Almaniyası üzərində qələbəsi tarixi deyildi, həm də milyonlarla günahsız insanların məhvi, faciəsi, repressiyası və öz vətənlərindən didərgin düşməsi tarixi idi. Stalin epoxası və siyasətinin qurbanları barəsində qəmli bir dastanı xatırladan bu kitabda Cavidlərin və başqa namuslu və vicdanlı sovet adamlarının ağrılı-acılı həyatı işıqlandırılır, dünən və bu gün baş verən hadisələr arasında əxlaqi, mənəvi və tarixi bağlılıq axtarılır. Qəddar və amansız bir quruluşda yaşamış insanların tarixi faciələri kitabından bəzi səhifələr varaqlanır.*

*Əfsus ki, gördüyüm rəzalətləri, keçirdiyim günlərimi heç bir yerdə qeyd edə bilmədim.*

## B i r i n c i h i s s ə

## *Durnalar şimala uçur*

1

Qayıdacaqmı durnalar?.. Soyuqdan öləcəkmi durnalar?.. Qanadları qırılacaqmı?..

Zəfər və faciə! Qorxu, vahimə və xof! Şüarçılıq və avantürizm! Zorakılıq və qəddarlıq…

Bu sözlər Sovet İttifaqının tarixinə tikanlı məftillə, insan ahları ilə, xəncərlə, güllə ilə, qəhrəmanlıqla, dönməzliklə, leninizm və stalinizm ideyaları uğrunda mübarizələrlə, əqidə çarpışmalarilə yazılmışdır. İnsan saralmış armud kimi saplağından tarixin ölüm dirəklərindən asılı qalmışdı. İnsan oğlu yeni dünya tarixinin sınağından çıxırdı, onun əsəbləri, dözümü, sözümü yoxlanrdı. Təzə dünyanın hayqıran səsinə səs verirdi insan oğlu! Səsi gur-gur çıxanlar da vardı, səsi batırılanlar da. Sınaqdan çıxarılırdı insan oğlu; yeni cəmiyyəti qurmaq, yaratmaq sınağından, bəşəriyyətin min illərdən bəri qazandığı mədəniyyəti, ana təbiəti yaşatmaq və yox etmək sınağından. Bu sınağı dözürdü insan oğlu, dözmürdü insan oğlu. Sınaqsa dəhşətli sınaq idi. Bəşəriyyət, qoca dünya, ağsaçlı tarix, sonsuz zaman hələ belə sınaq görməmişdi…

*Ah, köpürdükcə şu xain bəşər,*
*Yer üzü daim qusacaq zülmü şər*

Dünya bina olandan bəri köpürür, gəbərir, gövərir, ölür. Ulu şahlar, ulu krallar, ulu xaqanlar, çılğın çarlar insan üçün zülm və şər toru qurur.

XX əsr bəşərin köpürməsi, gəbərməsi, gövərməsi, ölməsi əsri idi.

Sevgili oxucum! Sən bu kitabı «Tarixlə söhbət» də adlandıra bilərsən.

2

Sevgili oxucum! Mən bu kitabda keçmiş tarixlə, bugünkü həyatla söhbətləşəcəm; tarixin mürəkkəb, dolanbac yollarında azmamağa, doğru istiqamət almağa çalışacam; köpürən, harınlayan, qanqusan, qanqusduran, cızığından çıxan, «Ya şərəfli bir ölüm, ya dəyərli bir həyat!» arzulayan bəşərin tarixi önündə fəzilət və qəbahətindən, zəfər və faciəsindən danışacam.

- Zaman gələcək, yazılmamış əsərlərimə, qaranlıq zindanıma xalqım da ağlayacaq. Azərbaycana vurulan yaralar çox dərindi. Namərd əllərdə mərd alim oğullar itirdi. Əsrlər boyu bu yaralar sızlayacaq.

Cavid bu sözləri ailəsi ilə son görüşdə demişdi. Özü də sevgilisi Mişkinaza. Ruhu şad olsun Mişkinaz xanımın. Cavidin sözlərini haqqında yazdığı xatirələrdə qoruyub saxlamışdı. Tarixin istifadəsinə vermişdi; bugünkü insanlara, gələcək nəslə ərməğan qoyub getmişdi.

Uzaqgörən şair həmin sözləri peyğəmbərcəsinə söyləmişdi. Şairin dediyi zaman gəlmişdi. Xalqı onun yazılmamış əsərlərinə, qaranlıq zindanına ağlamışdı, ağlayır, ağlayacaqdı; doyunca, ürəyini boşaldanacan. Azərbaycan xalqına vurulan yaralar çox dərindi, bu yaralar sağalası deyil. Tarix Cavidin, otuz yeddinci illərin qurbanlarının yaralarına bu gün də məlhəm qoyur, sabah da qoyacaq, fəqət bu yaralar sağalmır, sağalmayacaq. Hər nəsil olub, keçənlərin bir cür qavrayacaq, bir cür başa düşəcək, bir cür duyacaq və dərindən köks ötürəcək. Hər yeni nəsil keçmişləri öz ağlı, zəkası ilə dərk edəcək, bizim düzgün fikirlərimizi bəyənəcək, səhv fikirlərimizin üstündən xətt çəkəcək. Tarixin xasiyyəti belədir. O, yaxşını da, yamanı da, pisi də, əyrini də, düzü də yaddaşında yaxşı saxlayır.

## 3

- Namərd əllərdə nə qədər mərd oğullar itiririk.

Bu sözlərdə nə qədər böyük həqiqət var, məşəqqət var, həsrət var, arzu var, dilək var, ah-nala var, dərd-ələm var. Belə namərd əllərdə

itirilən oğullardan biri də Hüseyn Cavid idi. Xalqının istəklisi, sevimlisi Cavid!

Oxucu dostum! Mən aşkarlıq zamanında səninlə Cavid, Turan haqqında, Stalin epoxasının, Qorbaçov «perestroykasının» qurbanları barəsində danışmaq istəyirəm. Baş tutacaqmı bizim söhbətimiz? Bilmirəm. Fəqət danışmaq istəyirəm, ürəyimi kağızın üstünə boşaltmaq istəyirəm. Mən Caviddən danışmaq üçün tarixə, müasir həyata səyahətə çıxacaq, o dövrdə ölkədə baş verən hadisələri izləməyə, dərk etməyə çalışıcam. Həqiqəti həqiqət kimi anlamağa cəhd göstərəcəm.

Keçmiş və gələcək! Bu anlayışlar arasında fərq, əlaqə varmı? Varsa necədir? Bizim inamımızca, gələcək keçmiş üzərində qurulur, gələcək keçmişdən dərs alır. Bunlar arasında dialektik bağlılığı görməmək olmaz.

«Keçmişə tapança atsan gələcək səni topa tutucaq». Ancaq, ulu şair, hansı keçmişə? Keçmiş var ki, ona nəinki tapança atmaq, atom bombası salmaq lazımdı. Sağlam insandan, sağlam insanın əməllərindən törəyən, boy atıb dirçələn sağlam keçmişi qoruyub saxlamaq, indiki və gələcəyi onun üzərində qurmaq hər bir namuslu insanın borcudur.

4

Mişkinaz Cavid:

- Cavid işləyirdi. Uşaqlar yatmışdılar. Mən həmişəkindən tez olaraq saat 11-də keçdim yataq otağına. Bir azdan Cavid qapını açıb soruşdu:

- Yatmısan?

- Yox! – dedim, - nə lazımdı?

- Heç… Elə bildim yatağına girməmisən, qəhvə istəyirdim – dedi.

Qalxdım ki, geyinəm, qoymadı:

- Özüm bişirərəm.

Çox vaxt qəhvəqabını bufetin üstünə qoyardım. Gecələr işləyəndə özü bişirərdi.

… Yuxuda gördüm böyük bir ilan mənə tərəf gəlir. Çığırıb yuxudan ayıldım. Yarıyuxulu, qorxmuş halda evdə qarışıq səslər eşitdim. Heç bir

şey ayırd edə bilmədim. Elə bu vaxt Cavid qapını açıb ömrümdə eşitmədiyim narahat bir səslə:

- Qalx, geyin – dedi.

Qapının arasından baxıb tanımadığım adamları gördüm. Aman Allah, bunlar kimdi?

İndi o vəziyyəti demək çox çətindi. Əllərim əsir, geyinə bilmirəm. Saniyələr bir il qədər uzun. Bir təhər geyinib çıxdım.

Cavid qapının yanında ayaqüstə durmuşdu. Rəngi ağappaqdı. Onu elə görüb başım hərləndi. Mən onun hər dəqiqəsinin rahat olmasına fikir verirdim. Bu qara bulud hardan gəldi?..

Qolumdan tutmasaydı yıxılardım. Qolumu bərk sıxıb:

- Otur. Sakit ol, - dedi.

Qolumu sıxmaqla demək istəyirdi bu, başlanğıcıdı.

Qapını açıb bu evə keçəndə birinci bufetin üstünə baxdım ki, görüm qəhvəqabı ordadımı? Cavid qəhvə bişiribmi? Qəhvəqabı orda yoxdu. O mənə böyük bir niskil oldu. Özüm özümü danladım: Niyə mən onun sözünə baxdım, durmadım. O vaxtdan indiyəcən mən bir dəfə də olsa qəhvə içməmişəm. Özüm də qəhvə xoşlayanam.

Gələnlər üç nəfərdilər. Bir adam da qonşudan çağırdılar, şahid kimi. Gecə 1-in yarısından səhər 7-nin yarısınacan evi ələk-vələk etdilər. Baxılmayan yer qızımın yatacağı oldu. Kiçik olduğuna üçünmü, ya nə isə onu oyatmadılar. Amma onlardan biri elə hey mırtlanırdı ki, niyə ora baxılmadı.

Cavid o gecə bir qutu yarım papiros çəkdi.

Kibriti yandıran vaxt onlardan da biri cibindən papiros çıxardı. Cavid öz papirosunu yandırıb ona sarı tutdu. O isə yandırmadı. Cavid çöpü söndürüb, udqundu. Bu udqunmaqla o nələr dedi? Mümkünüm olsa idi o adamı boğardım. Ləyaqətsiz adam.

Cavid hiss etdi ki, mən çox darıxdım. Qəmli-qəmli üzümə baxdı, qaşlarını yuxarı qaldırıb ah çəkdi, demək istədi ki, «hələ bu harasıdı?»

Haçan ki, biri-birinin papirosunu yandıran görsəm, Cavidimin əsəbi üzü, dərdlərimin başlanğıcı yadıma düşür…

Mən elə bilirdim ki, o gecədən ağır dərd olmaz. Sən demə, daha ağır dərdlər hələ qabaqdaymış. İki böyük çamadan əlyazmalarını, kitablarını götürdülər. Əlyazmalardan elələri vardı ki, əl makinasında çap olmuşdu, hərəsinin iki-üç üzü vardı. Cavid dedi:

- Bunların hərəsindən biri qalsın.

- Yox – dedilər.

Cavid ötkəm səslə:

- Necə lazımdı, elə edin – dedi.

Onların başçısı dedi:

- Dəyişəcək və yatacaq götür.

O kəlmə elə bil, ürəyimə iynə kimi sancıldı. Bütün bədənim titrədi. Yavaş səslə: «Aman Allah» - dedim. Cavid dönüb mənə baxdı. Ağlayan uşağı mülayim səslə neçə sakit edərlərsə elə:

- Sakit ol, üzülmə – dedi.

Qalxıb o biri evə keçdi ki, geyinsin. Yavaş səslə məni çağırdı.

İki dəst kostyumu vardı: biri təzə, digəri nimdaş.

- Bunların hansını geyim? Cib saatımı götürümmü? – soruşdu.

- Yox, - dedim.

Ona görə «yox» dedim ki, zindanda saata baxıb günün ləng getməsi onu daha da darıxdıracaqdı.

Cavid kostyumun qarasını geyinib dedi:

- Qara günə qara yaraşar.

Qapıdan çıxarkən Ərtoğrol ağlar səslə «Baba» dedi. Dönüb əlini qaldırdı, amiranə bir səslə dedi:

- Kişi ağlamaz! Sınar, əyilməz!..

Şairin başı yaradıcılığa bərk qarışmışdı. Qara qüvvələrin ona quyu qazması haqda xəbəri yox idi.

**Dekabr 1936.** İş № 24938. Cavidi həbs etmək üçün əldə «tutarlı» dəlil olmalıydı. Belə bir dəlili hazırlamaq üçün Azərbaycan SSR XDİK-nın dördüncü şöbəsinin əməkdaşı Tsinmana göstəriş verildi. Tsinman Cavidi istəməyənlərin, ədəbiyyat darğalarının köməyi ilə arayış hazırladı. Həmin arayışa görə şair Azərbaycan SSR cinayət məcəlləsinin 68, 72 və 73-cü maddələrilə təqsirləndirilirdi. Həmin arayışdan sətirlər.

... 1892-ci ildə anadan olub, azərbaycanlıdır. 1918-ci ildən Müsavat partiyasının və «Yaşıl qələmlər» müsavat birliyinin üzvüdür.

... H.Cavid ətrafında millətçi gənc şairləri toplayıb onları müsavat ruhunda tərbiyə eləyir.

... İranda, Dağıstanda, Ermənistanda, Gürcüstanda olan bütün Azərbaycan torpaqlarını birləşdirib, burjua təmayüllü müstəqil Azərbaycan dövləti yaratmaq uğrunda gizli fəaliyyət göstərən pantürkist əksinqilabçı təşkilatın üzvüdür.

... H.Cavid keçmişdə Müsavat partiyasının üzvü olub, indiyə qədər də təpədən-dırnağa müsavat ideyalı bir adam kimi də qalıb. Azərbaycanda nə H.Cavidi, nə də Əhməd Cavadı qəbul eləmədilər, qiymətləndirmədilər. Onlar türk xalqının əsas dayaqları sayılırlar, ürəklərində türk xalqına hamıdan çox yanırlar.

Burada Cavidin anadan olduğu tarixi doğru göstərilməmişdir.

Həmin arayış XDİK*-nın dövlət təhlükəsizlik idarəsinə daxil olduqdan sonra Sumbatov – Topuridze aşağıdakı qərarı imzaladı. «Yuxarıda göstərilənləri nəzərə alıb, belə hesab edirəm ki, Azərbaycan SSR Cinayət Məcəlləsinin 72, 73 maddələrinə əsasən H.Cavid məhkəmə məsuliyyətinə cəlb olunsun və bu barədə XDİK-nın işi aparan prokurorluğa məlumat verilsin.»

*3 iyun 1937-ci il.*

---

* XDİK – Xalq Daxili İşlər Komissarlığı
Azərbaycan SSR – Azərbaycan Sovet Sosialist Respublikası

Həmin arayışı şairə həbsxanada oxudular. Şair əsəbləşdi. Beynində sanki şimşək çaxdı. Fəqət özünü ələ aldı. Müstəntiq qərarı şairə uzatdı. O, qərarı oxudu. Daha da əsəbləşdi. Əsəblərini cilovlamağa cəhd göstərdi, ancaq mümkün olmadı…

- Bunları təsdiq edirsinizmi, - deyə müstəntiq soruşdu.

Şair əsəbi halda cavab verdi:

- Xeyr!

- Onda imzalayın.

Şairin əlləri əsəbdən əsirdi. O, latın əlifbası ilə bu sözləri yazdı: «Mən bu kağızı eşitdiyimə qol çəkirəm. H.Cavid 7.VI.1937».

Şair əsəbləşdiyindən sərbəst yazmaqda çətinlik çəkirdi. Tarixi bir neçə dəfə pozub təzədən yazmalı oldu.

Həyatla ölüm arasında mübarizə, sarsılmaz, mətin mübarizə başlandı. Bu, faciənin başlanğıcı idi. Faciənin davamı, inkişafı, kuliminasiya nöqtəsi daldaydı.

6

## ORDER № 509

Həmin order 3 iyun 1937-ci ildə, şairin evində axtarış aparılarkən yazıldı. İyunun dördündə isə axtarış protokolu tərtib edildi. Siyahıya şairin pasportu - № 549349, açıqlamalar, fotoşəkillər, əlyazmalar… - üst-üstə iki çamadan – salındı. Altı ədəd bir manatlıq, on səkkiz ədəd əlli qəpiklik gümüş sovet sikkəsi də siyahıya yazıldı. Protokol yazılıb qurtardıqdan sonra şairdən soruşdular:

- Axtarışla bağlı şikayətiniz varmı?

Şair əsəbi cavab verdi:

- Xeyr!

Protokolunun arxasına yazıldı: «Heç bir şikayəti yoxdur.»

Yeddi gündən sonra ciddi əşyayi-dəlil olmadığı üçün pulları geri qaytarmaqdan ötrü protokol yazıldı, qərar çıxarıldı. Məhbus Cavid pulun geri qaytarılması haqda qərara qol çəkdi. Bu gülməli komediya barəsində

düşüncələrə daldı. Bir neçə gündən sonra Mişkinaz Cavid qəbzə imza atıb pulları geri aldı.

Hazırda həmin pullar Cavidin Bakıdakı ev muzeyində saxlanılır.

7

## MƏHBUS № 1113

Cavidə həbsxanada həmin məhbus nömrəsini verdilər. Məhbus nəzarətçilərindən Sarkisyan və Federenko anket tərtib etdilər. Şair məhbus nömrəsini biləndə özü-özünə fikirləşdi: «Bu nəhs rəqəm məni daima izləyirdi.»

Sanki həmin nəhs rəqəm şairin gələcək müdhiş həyatdan xəbər verirdi. Şairin ağzındakı tüpürcək zəhərə döndü. O, udqundu. Tüpürcək ilişib bocazında qaldı.

4 iyun 1937-ci ildə tutlan anketdə aşağıdakılar qeyd edildi.

«Ev ünvanı: Bakı, Kommunist küçəsi № 8, mənzil №…

Şair, təqaüdçü, bitərəf.

1926-cı ilə qədər işləyib.

Tutulanda özünün 55, həyat yoldaşı Mişkinazın 35, oğlu Ərtoğrolun 16, qızı Turanın 18 yaşı vardı.»

Anketdə səhv yazılıb, onda Ərtoğrolun 18 yaşı, Turanın 14 yaşı vardı.

**Haşiyə.** Cavid teatrının tanrısı Abbas Mirzə Şərifzadənin «Mən getdim» sözü qulaqlarda indi də səslənməkdədi. Bu ikicə kəlmədə mən nifrət və qəzəb, həsrət və üsyan, təəssüf və həyacanın… səsini, Azərbaycan səhnəsində yaradılmamış neçə-neçə parlaq obrazın giley-güzarını duyuram… Böyük sənətkarın səsi-ünü məhbəs evinin divarları arasında eşidilməz olmuşdu. O, dindirilir, üzərinə yığın-yığın suallar yağdırılırdı. Cavid obrazlarının səhnədə canlandırılması, indi onun başına bir bəla olmuşdu. Səhnədə aldığı zövq indi onun burnundan gətirilirdi…

*Müstəntiq:* - Lakin siz Hüseyn Cavidin və millətçilik baxışlarını təbliğ edən başqa yazıçıların antisovet fəaliyyətindən xəbərdar idiniz. Xəbərdar ola-ola, onların əsərlərini təbliğ edir, onların pantürkist xəttini yeridirsiniz. Axı, sizin bütün repertuarınız onların əsərlərindən ibarətdir.

*Abbas Mirzə:* - Bu yazıçılar haqqında bir kəlmə də pis söz deyə bilmərəm, onların əsərləri isə ən əvvəl Azərbaycan xalqının mənafeyinə xidmət etmişdir. Mən bir artist kimi çalışmışam ki, özümə tapşırılan rolları mümkün qədər yaxşı oynayım…

- Bəs sizi Ruhulla Axundov ilə bağlayan nə idi?

- Mənim onunla heç bir əlaqəm olmamışdır. O tək bircə dəfə məni «Maqbet» faciəsinin tamaşasından sonra uğurlu çıxışım münasibətilə təbrik edib. Bir dəfə də səkkizinci Sovetlər Qurultayı haqqında məruzə ilə çıxış etmək üçün Kirovabad* səfərim barəsində onunla telefon vasitəsilə danışmışam.

- İstintaq sizdən bir daha tələb edir ki, hər şeyi səmimiyyətlə boynunuza alasınız.

- Axı nəyi boynuma almalıyam?..

8

*Stalin*! Bu adı sovet tarixindən silmək sərsəmlikdir. Stalinin törətdiyi dəhşətli faciələrə, cinayətlərə… göz yummaq cinayət və nadanlıqdır.

Hakimiyyətini möhkəmləndirmək üçün siyasi fırıldaqlara, terrora əl atan Stalin, həmçinin siyasi repressiyaların təşkilatçısı və ilhamçısına çevrildi. Əbülfəz Elçibəy demişkən, dünya diktatoru oldu!..

Stalin! O, 1875-ci ilin dekabrında doğulucaq, 1953-cü ilin martında öləcək. Sovet xalqı və adamları onu əvəzedilməz rəhbər kimi tanıyacaq, sevəcək və pərəstiş edəcək. Özünü leninizmin, hətta başı çıxmayan elmlərin bilicisi hesab edəcək. «Leninizmin əsasları haqqında» kitab yazacaq. Mən bir fəlsəfə lüğəti kitabında oxuyuram: «… Stalin yoldaşın

---

* İndiki Gəncə

«Leninizmin əsasları haqqında» kitabı trotskistlərə və bolşevizmin bütün başqa düşmələrinə, xalqın düşmənlərinə qarşı partiyanın mübarizəsində son dərəcə böyük rol oynamışdır. «ÜİK(b)P tarixinin qısa kursunda» deyilir: «Trotskizmi ideya cəhətincə darmadağın etmək və leninizmi müdafiə etmək işində Stalin yoldaşın «Leninizmin əsasları haqqında» teoretik əsərinin ciddi əhəmiyyəti olmuşdur…»[1]

Leninizmin əsasları və marksizmin nəzəriyyəsi ilə silahlanan Stalin, Sovet İttifaqının hər bir bucağında sinfi düşmən, xalq düşməni, trotskiçi, buxarınçı xarici agent… axtarırdı və tapırdı. Ölkə getdikcə insan sallaqxanasına çevrilirdi…

Tarix 30 il rəhbərin dediklərinə qulaq asacaq. Onun sözünün qabağında söz deyənlər ciddi cəzalandırılacaq, məhv ediləcək, Sibirə sürgün ediləcək…

9

**5 mart 1953. Saat 21$^{50}$**. Rəhbər Moskva vaxtilə saat ona on dəqiqə qalmış öləcək. Lakin o, hələ sağdır. Ölkə onun nəfəsilə «yaşayır». «Rəhbər ağır xəstədir». Bu xəbər ildırım sürətilə bütün ölkəyə, xaricə yayılır. Stalin ölməyib hələ, fəqət ölkə yas, kədər içindədir: Böyüyü də, kiçiyi də, dəlisi də, ağıllısı da. Xalqı bir məsələ düşündürür: Stalini kim əvəz edəcək? Ölkənin taleyi necə olacaq?.. Bu sual mənim az savadlı atam Əhməd kişini də, savadsız anam Mirəstə arvadı da, ağlı kəsən pioner və komsomolçunu da düşündürürdü.

Onda mənim on yaşım vardı, ikinci sinifdə oxuyurdum. Stalin haqqında aydın təsəvvürüm yox idi. Ancaq evdə də, məktəbdə də, ictimai yerlərdə də Stalinə sevgi hissi tərbiyə olunurdu. Ağzın nə idi Stalin haqqında pis danışasan? Haqqın nə idi Stalinin şəkli olan qəzetə bir şey bükəsən? Allah bir olduğu kimi, Rəhbər də bir idi. Onu sevməlisən, ona sitayiş etməlisən. Səməd Vurğunun o zaman orta məktəb dərsliklərinə salınmış «Rəhbərə salam» şeiri biz məktəblilərdə Rəhbərə hörmət və məhəbbəti bir qədər də artırırdı. Mühit beləydi. İnsanlar, gənc nəsil

[1] Müxtəsər fəlsəfə lüğəti (M.Rozental və R.Yudinin redaktəsi ilə), Bakı, Azərnəşr, 1941, səh. 122

rəhbəri sevməliydi, ona hörmət və məhəbbət bəsləməliydi. Hərçənd ki, hər bir rəhbər hörmət və məhəbbəti öz ağlına, kamalına, şəxsiyyətinə, yaxşı əməllərinə, xeyirxahlığına... görə qazanmalıdır. Stalin is ağılsız adam deyildi. Ailədə, məktəbdə, cəmiyyətdə ona qarşı sevgi hissi tərbiyə olunurdu. Sonradan bildik ki, bu sevgi müəyyən məqsəd daşıyır. Bu sevginin arxasında riyakarlıq, rəzalət, cinayət gizlənir...

10

**1966-cı il**. İyirmi üç yaşım var. Azərbaycan Dövlət Universitetinin tələbəsiyəm, filologiya fakültəsində oxuyuram. Bəzən auditoriyada Cavidin adı çəkilir. Özüm-özümə suallar verirəm: Kimdir Cavid? Nə üçün onun haqqında qorxa-qorxa danışırlar?.. Bəzi tələbələr müəllimlərə Cavid haqqında suallar verirlər. Alınan cavablar məni qane etmir. Sualdan sual törəyir. Suallara tam, dolğun cavab verən isə yoxdur. Hərə bir söz deyir – doğru, yalan, Allah bilir. Ancaq bir həqiqət biz tələbələrə, şəxsən mənə tam aydındır. Caviddən danışanlar da bunu gizlətmirlər. Cavid kişilik, mərdlik, cəsarət, qəhrəmanlıq, igidlik simvoludur. Bir müddət keçir, dilçi alim Ağamalı müəllimdən bu sözləri eşidirəm: «Cavid elə sənətkarlardan deyil ki, onu asanlıqla məhv edəsən. Onu torpağın altına quylasan da pırtlayıb çıxacaq.»

11

**1953-cü il**. Mart ayının əvvəlləridir. Rəhbər ağır xəstədir. Gündə radio ilə bir neçə dəfə onun səhhəti barəsində məlumat verilir. Martın beşidir. Səhər tezdən yuyunub, bir parça çörək yeyib, kitablarımı qoltuğuma vurub məktəbə yollandım. İkinci mərtəbəyə qalxdım. Sinfə girdim. Şagirdlər adi günlərdəki kimi kitabı qabağına açıb dərsini təkrar edir, kimi deyib-gülür, kimi sinifdə var-gəl edir, şuluqluq salır... Birdən hamı təəccüblənir, kimsə dillənir:

- Dərsin vaxtından keçib, ancaq zəngi vurmurlar.

Birdən qapı açıldı. Müəllimlərdən kimsə içəri girdi. Hamı bir nəfər kimi ayağa qalxdı. O, «oturun» demədi. Sinfi diqqətlə nəzərdən keçirdi. Ancaq o bizim həmişə gördüyümüz müəllimə oxşamırdı. Rəngi-ruhu qaçmışdı. Birdən o, elan etdi: Uşaqlar, Stalin vəfat edib. Müəllim bunu deyib dəsmalı gözünə basıb sinifdən çıxdı. Sinifdə bir şivən qopdu ki, gəl görəsən. Hamı öz yerində oturub ağlayırdı. Hıçqırıq səsi sinfi ağzına götürmüşdü. İraq olsun, elə bil ki, hamımızın dədəsi, anası ölmüşdü. Bir qədər sonra müəllimlərdən kimsə içəri girib dedi:

- Evə gedə bilərsiniz, dərs olmayacaq.

Səhv etmirəmsə, üç gün dərsə getmədik.

Ölkə matəm içindəydi, ölkə Stalini axırıncı mənzilinə yola salmağa hazırlaşırdı. Martın doqquzunda Stalin sarkofaqda mavzoleydə, Leninin yanında dəfn edildi. Rəhbərin ölümünün səbəbi belə izah olundu: Ürək-damar və nəfəs çatışmazlığından vəfat etmişdir.*

Stalinin dəfn mərasimində iştirak edənlər arasında bir nəfər seçilirdi. Bu, Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırov idi. Stalin ölkə üçün nə idisə, Bağırov Azərbaycan üçün o idi (Sonralar Babaheydər Azərbaycan üçün onların hər ikisi olacaq). Bağırov bu anlarda nə düşünürdü? Dəqiq demək çətindir. Hər halda gələcək həyatı və taleyini düşünərdi...

**Haşiyə**. Məndə Cavidə maraq getdikcə artırdı. Çox istəyirdim ki, onun əsərlərini oxuyum. İçimdə şübhələr baş qaldırdı. 1958-ci ildə nəşr edilmiş seçilmiş əsərlər kitabını tapıb oxudum, sonra Məmməd Cəfərin «Hüseyn Cavid» monoqrafiyasını. Bunları dönə-dönə oxudum, Cavidi anlamağa çalışdım. Fəqət əsl Cavidlə onun haqqında yazılanlar arasında bir uçurum, bir anlaşılmazlıq gördüm. Özüm-özümlə, Molla Nəsrəddin demişkən, götür-qoy etdim: Pişik budursa, ət hanı? Ət budursa, pişik hanı? Düşündüm: Deməli, Cavid haqqında yazılan bir çox şeylər doğrudursa, onun bir şair kimi yaşamağa haqqı yoxdur. Mənim Cavid haqqında bildiklərimlə oxuduqlarım arasında dərin bir ziddiyyət əmələ

---

* Sonralar məlum olacaq ki, o zəhərlənib öldürülmüşdür. Budur hər diktatorun sonu!..

gəlirdi. Kimə inanasan? Kimdir haqlı? İnamım Cavid tərəfindəydi, şübhəm yazılanlarda.

12

SSRİ Xalq Daxili İşlər komissarı L.P.Beriyanın alovlu nitqi Mircəfər Bağırovu düşüncədən ayırdı. Stalinin dəfnində çıxış edən Beriya deyirdi: «Ölkəmizin fəhlələri, kolxozçu kəndliləri, ziyalıları inamla işləyə bilərlər. Onlar bilməlidirlər ki, Sovet dövləti Stalin Konstitusiyasına arxalanaraq onların hüququ qayğı ilə, yorulmadan müdafiə edəcəkdi.» Beriya bu sözləri Moskvada deyirdi, onu bütün ölkə dinləyirdi. Bu sözləri milyonlarla günahsız adamı məhv etmiş bir rejimin adlı-sanlı nümayəndəsi deyirdi. Ancaq o bilmirdi ki, Sov. İKP MK-nın 1953-cü ildə çağırılmış iyul plenumunda Beriya Kommunist Partiyası və sovet xalqının düşməni elan ediləcək, SSRİ Ali Məhkəməsinin qarşısında cavab verməli olacaq. 1953-cü il dekabrın 23-də güllələnəcək.

13

Bu gün bizim leksikonumuza möhkəm daxil olmuş 1937-ci ilə çox qalıb. Cavid bir tərəfə çəkilib, öz əsərlərini yazır. Əsərləri teatrda tamaşaya qoyulur, böyük uğurlar qazanır. Cavid mətbuatda ciddi tənqidə məruz qalır. O, nədə ittiham olunmur? Azərbaycandan yazmamaqda, panislamizmdə, pantürkizmdə, məhdud dünyagörüşünə malik olmaqda, tarixi şəxsiyyətləri idealizə etməkdə, yeni həyatdan yazmamaqda, dilini osmanlılaşdırmaqda, yad ölkələrdən mövzu almaqda, nədə, nədə?.. Burnunun ucundan uzağı görməyən tənqidçilər, öz səadətlərini başqalarının fəlakəti üzərində qurmağa can atanlar qələmlərini itiləyib, şairə hücum çəkirlər, onun əsərlərini daşa basırlar. Cavid böyük iradə, dözüm və yazıçı nəzakəti nümayəiş etdirərək, dözür, yenə də dözür, yenə də dözür. Fəqət, həmişə bu, mümkün olmur.

Bir dəfə Mustafa Quliyev Cavidi öz evinə dəvət edir. O zaman Quliyev həm tənqidçiliklə məşğul olurdu, həm də müxtəlif məsul vəzifələr-də çalışırdı. Quliyevin kabinetində Cavidin diqqətini divara vurulmuş

şəkillər, təbiət təsvirləri, gözəl qadın portretləri və s. cəlb edir. Quliyev üzünü şairə tuturaq deyir:

- Cavid əfəndi, Siz böyük şairsiniz, xalq sizi çox sevir. Lakin sizin poeziyanız bizim yeni həyatımızdan çox geri qalır. Siz təbiət, məhəbbət, gözəl qadınlar və sair apolotik mövzularda yazırsınız. Siz kəndlərimizdə yaranan dəyişiklikləri görmürsünüz. Kənddə həyat kökündən dəyişilib, çöllərdə traktorlar işləyir. Lakin təəssüflə deməliyəm ki, sizin şeirinizdə biz traktora təsadüf etmirik…

Şair tutulur, özünəməxsus müdrikliklə divardan asılan tabloları göstərib, kinayəli təbəssümlə ona cavab verir:

- Yoldaş Quliyev, sizin kabinetinizin divarında nələr görürəm? Təbiət, məhəbbət, gözəl qadın, alma, armud, qədəh, kuzə… Bu divarda bir dəfə də olsun traktor şəkli asılmayıb. Axı, traktorlar bizim çöllərə səs salıb. Nə üçün bu qadın portretlərinin yanından bir dənə də olsun traktor şəkli asmamasınız?

- Siz nə danışırsınız, yoldaş Cavid! – Quliyev etirazını bildirir. – Bunlar bədii lövhələrdir, traktorların bunların yanında nə işi var?

- Yoldaş Quliyev, bəs mənim şeirlərim bədii deyilmi? Siz niyə öz tırtıllı traktorlarınızı mənim şeirlərimin içinə soxursunuz? Əgər sizin divarlarınızdan heç olmasa bircə traktor şəkli asılsa, o zaman siz traktorun səsini mənim şeirlərimdən də eşidərsiniz…

Bir gün yazıçıların yığıncağında Quliyev yenə Cavidin üstünə düşür, onu kəskin tənqid edib deyir:

- Bizim inqilab qatarımız gedir, Cavid həmin qatara dal vaqondan minmiş, yarımstansiyaların birində düşmüşdür. Tələsin Cavid əfəndi, trenə minməyə tələsin!..

Şair dözmür, acıqla deyir: - Cəhənnəmə getsin!..

14

**İyun 1937**. Həmin ayda Bakıda bir neçə gün Azərbaycan Şura Yazıçıları İttifaqının üzvlərinin və üzvlüyünə namizədlərin ümumi

yığıncağı keçirilmişdir. Yığıncağın qətnaməsindən sətirlər: «... Əsərlərində panislamist, pantürkist, millətçi ideyalar təbliğ edən qatı müsavatist H.Cavid İttifaqın sırasından xaric edilir».

**5 iyun 1937**. Şair ikinci gündür ki, həbsxanadadır. O, artıq əynində olan qara kostyumunun sol döşünün üstündə 1113 nömrəli məhbus nömrəsini gəzdirir. Həyatında ilk dəfədir ki, müstəntiqlə üz-üzə dayanıb, sorğu-suala tutulur. Ömrünün ən gərgin anlarını yaşayır şair. Suallara qəti, inandırıcı, əsəbi cavab verir.

- İstintaqa məlumdur ki, siz gizli əksinqilabi millətçi təşkilatın üzvüsüz. Bunu boynunuza alırsınızmı?

- Mən bu fikri qəti rədd edirəm.

- Müsavatçılardan, millətçilərdən kimi tanıyırsınız?

- Keçmiş müsavatçılardan mən Əhməd Cavadı, Seyid Hüseyni, Sanılını, Xəlil İbrahimi tanıyıram. Amma bu gün onların müsavatçı kimi fəaliyyətindən heç bir xəbərim yoxdur. Və onlarla əlaqə saxlamıram. Heç bir millətçini də tanımıram.

15

**Dekabr 1937**. Şairin həbsxanada ilk sorğu-sualından yarım ildən çox keçir. Dekabrın 21-də sual-cavab davam etdirilir.

- Siz uzun müddətdir ki, inadkarlıq göstərib, istintaqın fikrini yayındırıb, özünüzün əksinqilabi gizli təşkilatın üzvü olduğunuzu pərdələməyə çalışırsınız. İndi necə, istintaqa düzgün cavab vermək fikriniz var, ya yox?

- Təzədən bir də təkrar edirəm, mən Hüseyn Cavid heç vaxt, heç zaman əksinqilabi gizli millətçi təşkilatın üzvü olmamışam.

- Siz yenidən inadkarlıq göstərirsiz. Biz məcburuq, sizə sizin həmfikirlərinizin ifadələrini oxuyaq. Budur, onlardan biri: «... Millətçi burjua gizli əksinqilabi təşkilatın üzvlərindən mənə yazıçı H.Cavid məlumdur». Buna nə deyirsiz?

- O da kökündən yalan deyir.

- Biz məcburuq təzədən həmin ifadənin bəzi yerlərini sizə xatırladaq: «... Mən 1935-36-cı illərdə R.Axundovun göstərişi ilə məndən əvvəl əksinqilabi gizli təşkilata üzv qəbul olunmuş H.Cavidlə əlaqə yaratdım...». Bəs buna sözünüz?

- Mən nə edim ki, ifadə verən yalan deyir?

- Siz hər vəclə məsuliyyətdən və cinayətdən yaxa qurtarmağa çalışırsınız. Gələcəkdə də belə etsəniz, vəziyyətiniz daha pis olacaq. Biz bunu sizə xatırlatmağı özümüzə borc bilirik. Yaxşısı budur, hər şeyi boynunuza alın.

Olmayan şeyi necə boynuna alasan? Bu, özün öz qətlinə fərman vermək deyildimi? «Vəziyyətiniz daha pis olacaq», «Bunu sizə xatırlatmağı borc bilirik». Sözə bax? Hiyləyə bax? Məqsəd şairə psixoloji təsir göstərmək, onu öz inamından döndərmək idi. Müdrik şair bunu yaxşı başa düşürdü. Naşı oxucu müstəntiqin nəzakətinə, mədəniyyətinə qibtə edə bilər. Heyhat! Belə nəzakət, mədəni rəftar arxasında cinayət, fəlakət dayanırdı.

Şair bir neçə gün idi ki, NKBD-nin* daxili həbsxanasında yatırdı. Məhbus nömrəsini sol döşünün üçtünə vurmuşdu. Şairin artıq adı, familiyası, atasının adı dörd rəqəmli ədədlə ifadə olunurdu: 1113. O, dərin düşüncələrə dalmışdı. Bu zaman kameranın qapısı açıldı. Gözətçi içəri girdi.

- 1113 nömrəli məhbus bayıra, - deyə o, dilləndi. Şair öz ürəyində fikirləşdi: «Görəsən məni hara aparırlar? Sorğu-sualamı? Bəlkə məni evə buraxacaqlar? Bəlkə Mişkinaz görüşə gəlib?..» O, biri digərini təqib edən fikirlər içində kameradan çıxdı. Şair ağır-ağır addımlayırdı. Həyəcanlı olsa da, vüqarla, başını dik tutaraq yeriyirdi. Əynində qara kostyum vardı. Ağ köynəyin yaxasını adəti üzrə pencəyinin yaxası üstünə salmışdı. Boğazının altı, sinəsi az da olsa aydın görünürdü. Üzünü tük basmışdı. Tüklərin dibi hərdən qaşınırdı. Şair üzü tüklü olmağa hələ alışmamışdı. Dodaq boyu saxladığı nisbətən qalın bığı sifətinə özünə məxsus məğrur-

---

* Народный Комиссариат Внутренних Дел – Xalq Daxili İşlər Komissarlığı

luq, kişilik əlaməti verirdi. Təpəsinin tükü tamamilə tökülmüşdü. Onun geniş alnı daha aydın görünürdü. Şairin siması onun müdrikliyindən, məğrurluğundan xəbər verirdi. Açıq alının üstündə bir cüt qaş, bir cüt qaşın altından boylanan bir cüt qapqara göz şairə xüsusi yaraşıq verirdi. Fəqət şair daxilən əsəbi, gərgin bir vəziyyətdə idi. Bunu onun üzünün ifadəsindən, alnındakı qabarmış damarlardan aydın görmək olardı.

Onu fotoqrafın yanına gətirdilər, öndən və yandan şəklini çəkdilər. Həmin şəkil şairin 24938 №-li işinə yapışdırıldı. Cavidin əlli beş yaşında son şəkli beləcə yarandı, həbsxanada çəkildi. Şair yenidən kameraya qaytarıldı. Məhbuslara baxdı, öz-özünə dedi: «Yığın-yığın bəşəriyyət ölümlə pəncələşir».

17

Durnalar şimala uçur… Stalin epoxasının qurbanlarının ah-naləsini şaxtalı, qarlı, çovğunlu diyara aparır; ürəklər alovlanır, beyinlər od tutub yanır. Gedir durna qatarı – fikirli, zikrli; özüynən dağ boyda dərd aparır durna qatarı. Hüseyn Cavid də bu qatarın içindədir…

Mən dərdli, ələmli çağdan bu günə qayıtmaq istəyirəm. Bilmək və görmək istəyirəm: Ulu şairin ulu qızı hansı işlərlə məşğuldu? Qonaqmı qarşılayır? Qonaqmı yola salır? Kiməsə dərdinimi söyləyir? Kiminsə dərdinəmi şərik olur? Körpə təbəssümüylə gülümsəyirmi? Acı qəhqəhələrlə gülürmü? Daxilində fəğanmı qoparır? Faciələr içində monoloqmu söyləyir?.. O, bunların hamısını edir. Bu ölçüsüz dünyadan xoş gün, rəhbərlərdən qayğı gözləmir Turan. Ömrünü vicdanla, namusla başa vurmağa çalışır Turan.

Mənim onunla şəxsən tanışlığım mənə çox şey verib. Cavidi duymağıma kömək edib. Onun evində, Cavidin ocağında mən bir çox adlı-sanlı adamlarla, onların övladları ilə tanış olmuşam. Onlardan biri tənqidçi Xəlil İbrahimin qızı Solmaz xanım idi. Bu, o İbrahimdir ki, vaxtilə Cavid haqqında bir sıra tənqidi məqalələr yazmışdı. Qızı Solmaz xanım atasının yazdıqlarına haqq qazandırmağa, onu duruluğa çıxarma-

ğa çalışır. Abırına qısılan Turan xanım qonağın söylədiklərinə dinməzcə qulaq asır…

Mənim Ömər Faiq Nemanzadənin qızı Kamilə xanımla tanışlığım da Turan xanımgildə olmuşdur…

18

Cavidin yubileyinə aid tədbir keçirilirdi. Dilim dinc durmadı. Turan xanıma dedim:

- Daha yaxşı keçirmək olardı. Dərhal da cavabımı aldım:

- Çox yaxşı keçdi!..

Səhv danışdığımı həmən anladım.

Mən Turan xanımın adını telefonda tez-tez çəkirdim. Bir dəfə o, çox incə şəkildə mənə anlatdı:

- Mən danışanda heç vaxt telefonda ad çəkmirəm.

Mən «pis adətimi» tərgitdim. Duydum ki, o, bu sözü mənə eşitdirməkçin çoxdan məqam gözləyirmiş.

19

Cavid yaradıcılığına marağım getdikcə artırdı. Onu yaxşı oxumağa, yaxşı öyrənməyə can atırdım. Haqqında oxuduqlarım isə məni çaşbaş salmışdı. Bilmirdim ki, kimə inanım. Onun haqqında o qədər ziddiyyətli, dolaşıq, dumanlı fikir və mülahizələr deyilmiş, əsərlər yazılmışdı ki, müəyyən bir istiqamət almaq da mənim üçün çətin idi. Mənə istiqamət verən, həqiqəti pıçıldayan bir mənbə vardısa, o da dramaturqun əsərləriydi. Universiteti qurtardıqdan sonra Caviddən yapışmaq, dissertasiya mövzusu götürmək xəyalına düşdüm. Mövzu götürmək üçün bir neçə il universitetə ayaq döyməli oldum…

**Oktyabr 1974-cü il**. ADU-nun Azərbaycan sovet ədəbiyyatı kafedrasında iclas keçirilirdi. İclasda mənim dissertasiya mövzum müza-

---

Qeyd. Rəfiqənin, Toğrulun, Günelin, Ayselin Turan xanımı görmək çoxdankı arzusuydu. Onlar öz arzusuna 4 iyun 1989-cu ildə, Cavidin həbs edildiyi gün də çatdılar.

kirə edilirdi. Mövzunun adını özüm müəyyənləşdirmişdim: «Hüseyn Cavid Azərbaycan ədəbi tənqidində». Azərbaycan sovet ədəbiyyatı kafedrasının müdiri professor Abbas Zamanovla məsləhətləşmişdim, o, mövzunu bəyənmişdi. İclasda mübahisələr, mənə dodaq büzənlər, şübhə ilə yanaşanlar da, hətta başqa mövzu götürməyi tövsiyyə edənlər da tapıldı. Belələrinə Abbas Zamanov cavab verməli oldu:

- Mən bu oğlanı yaxşı tanıyıram, inanıram ki, işin öhdəsindən gələr. Vaxtilə Əbülfəz İbadoğlu «İblis» mövzusunda dissertasiya mövzusu götürürərkən, ona öz etirazını bildirənlər vardı. Əbülfəz yazdı, müdafiə etdi, əsərini çap etdirdi.

Kimsə yerdən söz atdı. Abbas müəllim ona dərhal cavab verdi:

- Caviddən yazmaq kişilik əlamətidir!.. Hər adam Cavidə girişmək istəmir…

Mənə bir neçə sual verdilər. Keçib yerimdə oturarkən professor Yusif Seyidov üzünü mənə tutub dedi:

- Əsərlərini çox oxu…

Hörmətli müəllimlərimdən biri məni müdafiə etdi, o birisi isə məsləhət verdi.

20

**4 iyun 1937**. Gecə Cavidin evində axtarış aparılır. Evindəki qiymətli kitablar, əlyazmalar həsir çamadanlara doldurulur. Şair qara kostyumu geyib, qabağa düşür. O, bir daha bu evə qayıtmayacaq. Fəqət ümid edir ki, qayıdacaq. Yenə öz balaca iş otağında yeni-yeni əsərlər yaradacaq. Dram teatrında tamaşaya qoyulacaq əsərlərinə Mişkinazla, Turanla, Ərtoğrolla birgə baxacaq. Heyhat!..

Bir neçə aydan sonra Cavidin ailəsi öz evindən «Sovetski» küçəsinə «sürgün» edilir. Cavidin ailəsi üçün məşəqqətli, faciəli, dəhşətli günlər başlanır. Ailə uçuq-sökük daxmada yerləşdirilir. Cavid kamerada doyunca nəfəs ala bilmir, ailəsi bu komada. Əzazil bir qonşu isə onlara rahatlıq vermir. Hey deyinir, hey mırtdanır, hey söylənir. «Xalq düşməni»nin

ailəsidir, nə desən «yaraşar». Bu əzazil, nainsaf, çullu-noxtalı uzunqulaq bir balaca işıq, hava, nəfəs gələn evin yanından divar qaldırır, sanki Cavidin ailəsini də həbsxanaya salmaq istəyir. Hamıdan çox Mişkinaz narahatdır, abırına qısılıb dinib-danışmır. Dinib-danışsa nə olacaq, «xalq düşməni»nin səsinə səs, harayına haray verən kimdir? Çarəsiz qalan Mişkinazın harayına bəlkə o – Tanrı çatdı.

Mişkinaz xanım otuz altı ildən sonra həmin müdhiş günləri belə xatırlayacaq:

- Gəlib çıxdıq Sovet küçəsinə. Maşın bir döngənin qarşısında dayandı. Mən dalandakı qapılardan birini açdım ki, soruşum boş ev hardadı? Aman Allah, nə həyət, nə ev. Az qaldım, çığırıb qaçam.

Həmin həyətdə on doqquz il nələr çəkdim? Oğullu getdim, oğulsuz çıxdım.

Bir evin qapısını açıb:

- Bağışlayın, burda boş ev hardadı? – soruşdum.

... Bunu deyən kimi arvad yerindən qalxmaq üçün hərəkət edəndə elə bil, paraxod tərpəndi. Elə çığırdı ki, donub qaldım:

- Sağ olmayasınız... Nə tez xəbər tutdunuz ki, burda boş ev var.

Mən tez geri qayıtdım... Öz-özümə: - Bəlalı başım, hələ bu başlanğıcdı, bunlarla necə dolanacam? – dedim.

Bir qədər sonra işçilər milis nəfəri ilə gəldilər. Demə, ev sahibinin cəncəl adam olduğunu bilirmişlər... Evi vermirdi. Ev sahibiylə milis nəfəri əlbəyaxa vuruşmağa başladılar.

Axır tapaçaya əl atanda gələnlərdən biri tez biləyindən tutdu. Ev sahibini milis şöbəsinə apardılar. Sonra şeyləri daşıyıb gətirdilər. Ev onların ixtiyarından çıxarılıb bizə veriləndən sonra kişini buraxdılar. Arvadı gəlib durdu qarşımda. Əlini-qolunu ölçə-ölçə dedi:

- Heç sağlıqla oturmayasan, heç xeyir görməyəsən.

Ağlaya-ağlaya dedim:

- Əgər mən öz öz arzumla gəlib sənin evini zəbt etmişəmsə, sən deyən olsun.

Qoca qonşu arvad ona dedi:

- Ay arvad, görmürsən o bəndeyi – Xuda səhərdən indiyəcən ac-susuz oturub, göz yaşı tökür. Onu qurban olduqlarım kimi əsir gətiriblər.

... Oğlum məni qucaqlayıb dedi:

- Anacan, ağlama. Bir gün gələcək, haqq üzə çıxacaq, - əmisi oğlunu, dayısını göstərib – biz ölməmişik ki, sən ağlayasan. İnsanlıq, şərəf, mənlik yerindədi. Onları itirmək silinməz ləkədi. Evin, əşyanın dərdini çəkmə.

Bəlalı başım, qanlı-qadalı müharibə onların üçünü də əlimdən aldı. Oğlumun soyuq məzarına sahib oldum, onlarınkına isə binəsib qaldım. Oğlum əsgərlikdə xəstələnib geri qaytarıldı, sonra tələf oldu. Onlar isə o gedən oldular.

... Ev nə ev. Üç pillə aşağı enir. Bir göz otaq. Nazik taxta ilə aradan kəsilmiş. Hərəsi doqquz kvadratmetr. Birini mənə, birini də qonşuma verdilər. Onlara verilənin heç qapısı da yoxdu. Bir pəncərəydi. Xeyli sonra o pəncərədən qapı açdılar. Onlar da bizim evdən keçirdilər. İndi gəl, fəryada bax. Üç uşaq. İki böyük bacısı da onunla olurdu.

21

**1937**. Cavidin NKBD-nin komendaturasına gətirdilər. Axtardılar. Üstündə nəyi vardısa götürdülər. NKBD-nin daxili həbsxanasına apardılar. Bakıda çoxları, heç Cavid də bilmirdi ki, NKBD-nin həyətində daxili həbsxana var. həmin həbsxana beşmərtəbəli binada yerləşirdi. Binada bütün mərtəbələrə yol vardı. Cavidi kameraya saldılar. Qapını qıfılla bağladılar. Kamerada bir neçə nəfər adam da yatırdı. Onların üzü qırxılmamışdı, ancaq ağır işgəncə verilmişdi. Kamera dünyadan, canlı həyatdan təcrid edilmişdi. Şairi kədər bürüdü. O, gözlərini bir nöqtəyə zilləmişdi. Öz «günahını» götür-qoy edirdi. Onun günahı isə yox idi. Nə yazmışdı, çoxunu çap etdirmişdi, etdirə bilmədiyi isə NKBD-nin əlində idi. Orada da hökumət əleyhinə bir şey yazmamışdı.

Üzücü istintaq saatlarca davam edirdi. Şair mənasız sorğu-suallardan cana doyurdu. Müstəntiqlər onun canına qorxu, vəlvələ salırdı. Şair dediyi sözün üstündə möhkəm dayanırdı.

22

*Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli.*

Zavallı insanlar həbsxanalarda təhqir edilirdi, alçaldılırdı. İyirmi dörd, otuz altı, qırx səkkiz saat ayaq üstə saxlanırdı. Saatlarla ayaqlarını yerdən üzməklə stullarda oturdulurdu. Məcbur edirdilər ki, dustaqların özləri, özlərini ifşa etsinlər, özləri, özlərinə quyu qazsınlar, böhtan atsınlar. Onlara uydurma, yalan, şəxsi imzaları, ad-familiyası altında olmayan ifadələr göstərirdilər. Bunları NKBD-nin istintaq şöbəsi təşkil edirdi.*

Cavidi bir müddət daxili zindanda saxladıqdan sonra başqa həbsxanaya apardılar. Cavid bir müddət Keşlə həbsxanalarında yatmalı oldu. Onu yenidən daxili həbsxanaya gətirdilər. O, iki il gah o, gah da bu həbsxanada saxlanır. Yenə cansıxıcı sorğu-suallar, incitmələr başlanır. Əzab-əziyyətlər onun polad iradəsini qıra bilmir.

23

**11 yanvar 1934**. «Ədəbiyyat qəzeti». Qəzetdə Azərbaycan yazıçılarının Mircəfər Bağırova hansı əsərləri yazacağı vəd edilir. Ortada Bağırovun, «dördgözün» portreti verilib. Altda vəd edən yazıçılar, o cümlədən Cavid imza atıblar.

AK (b) FMK katibi M.Bağırovun AK (b) F XP qurultayındakı məruzəsindən: «Türkiyədə bulunan müsavatçılar Cavidə Azərbaycanın millətçi bir yazıçısı kimi baxmaqda davam edirlər. O, öz əsərini daha qəti

* Mən Cavidlə əlaqədar DTK-nın əməkdaşı Qarabağlı ilə danışarkən, o, bunu təsdiq elədi. Dedi ki, kimsə S.Rüstəmə deyib ki, danoslar arasında səninki də var. Kişini infarkt vurub…

surətdə yenidən qurmalı, müsavat məfkurəsi və müsavat ünsürləri ilə mübarizə aparmalıdır». («Ədəbiyyat qəzeti», 10 fevral 1934-cü il).

Azərbaycan Şura Yazıçılar İttifaqı təşkilat komitəsinin plenumunda Hacıbaba Nəzərli deyir: «Son zamanlarda təşkilat komitəsinin aparmış olduğu kəskin mübarizə sayəsində ədəbi dilimizin osmanlılaşdırılması tərəfdarlarının mövqeyi zəifləmişdir. Hətta həmin cərəyanın başçısı olan Hüseyn Cavidin son əsəri olan «Səyavuş»da belə. «Cavidin osmançılıqdan ədəbi dilimizi «azərbaycanlaşdırmağa» dönüş yapdığı görünməkdədir...» («Ədəbiyyat qəzeti», 15 aprel 1934-cü il).

24

Dissertasiya mövzusu götürdükdən sonra kitabxanaları ələk-vələk eləməyə çalışıram, məqalə və kitabları araşdırıram. Önümdə böyük bir dağ, keçilməz meşələr, daş-kəsək, tikan görürəm. Beynim Cavidlə yaşayır, beynim Caviddən qida alır. Fikrim-zikrim Cavidlə məşğuldur. Hardandır bu sevgi, bu məhəbbət, bu sədaqət? Bilmirəm. Ancaq qarşımda namuslu, xeyirxah, öz xalqını sevən, Azərbaycan teatrı və dramaturgiyasını yüksəkliklərə qaldıran, yazıçı vicdanına qarşı çıxmayan, sərbəst düşünən, yazıb-yaradan, öz ədəbi-estetik mövqeyində möhkəm dayanan, sənətdə güzəştə getməyən, ürəyi söz üstə yanan bir kişi, bir şair görürəm. Bu, Caviddir! Cavid mənim nəzərimdə əlçatmaz bir zirvədir, idealdır, heykəldir, tanrıdır, sözü bütöv bir ər, ərəndir. Mənim həyatım da, havam da, çörəyim də, günəşim də Caviddir. Onun haqqında yöndəmsiz danışanlardan xoşum gəlmir, belələrinə acığım tutur, əsəbləşirəm. Nəhayət, günlərin bir günü ömrümdə görmədiyim, canlı sözünü eşitdiyim bu müdrik kişini yuxumda görürəm. Vücudca zəifdir, əlində əsası var, mənim narahatlığıma, dissertasiya mövzuma işarə edərək deyir: - Sən də götürməyə mövzu tapdın da...

Oyanıram. Cavidi görmək istəyirəm. Heyhat! Cavid hardaydı?..

Günlərin bir günü uşaqlıq dostum, məktəb yoldaşım, incəsənət institutunun tələbəsi Müsafir İbrahimovu görürəm. Mahirə (biz onu belə çağırardıq) Cavid haqqında mövzu götürməyi deyirəm. O, soruşur:

- Turan xanımı tanıyırsanmı?

- Kimdir Turan?

- Cavidin qızıdır. Bizim institutda dərs deyir. Gedək tanış edim.

Durub ikimiz də Turan xanımın yanına gəlirik. O, teatr muzeyinin direktorudur. Muzeyin dördüncü mərtəbəsinə qalxırıq. Onun kabinetinə giririk. Tanış oluruq. Mövzumu ona deyirəm. O, fikrə gedir. Əsərlərinin adını xatırlayıram: «İblis», «Şeyx Sənan», «Peyğəmbər», «Knyaz», «Dəli Knyaz»... O dərhal məni düzəldir: «Knyaz» elə «Dəli Knyaz»dır. Deyirəm ki, ordan-burdan oxuduqlarım məni çaşbaş salıb. Elə bilmişəm ki, «Knyaz»dan savayı «Dəli Knyaz» da var. Öz-özümə fikirləşirəm: «Cavidimi soxdan axtarırdım, tapmışam...»

25

37-ci ildə və sonralar tutulanlara ağır cismani və mənəvi cəzalar, işgəncələr verilib. Bu haqda çox yazılıb, çox deyilib. Yejovun, Beriyanın, Vışinskinin... cəza üsulları və metodları faşistlərinkindən fərqlənmirdi, artıq idi, əskik deyildi. Həbs olunanlara dözülməz işgəncə verilirdi, əl barmaqlarının sədəfləri qoparılırdı, rezin dəyənəklərlə döyülürdü, saatlarla sorğu-suala tutulurdu, gecə yuxusuz saxlanır, səhər istintaqa çağrılırdı. Onlara nəcisləri yedirdilir, sidikləri içirdilirdi. Zavallı insanlar heyvandan seçilmirdi. Başları, damarları kəsilirdi. Gic oluncaya qədər döyülürdü, ac-yalavac saxlanırdı, istədikləri məlumatı almadıqda yumruqlar işə düşürdü. Onlara yalan vədlər verilirdi. Zavallı bəşər isə inanır və aldanırdı. Bəzi kameralar dar, alçaq, rütubətli idi; elə düzəldilmişdi ki, dustağın qəddi-qaməti açılmasın, dik dayana bilməsin. Burada insan ləyaqəti hər addımda ayaqlar altına atılıb tapdanırdı. «Günahını» boynuna almayanları qohum-əqrəbalarına, ailəsinə, hətta körpə uşaqlarına işgəncə verməklə hədələyirdilər. Saxta ittihamlar,

yalanlar ayaq açıb yeriyirdi. Həbsxanada olanlar da ölürdü, olmayanlar da.

**Mişkinaz Cavidin xatirələrindən**. Səhərisi gün soraqlaşa-soraqlaşa yerini öyrəndim. Birinci dəfə 1937-ci il iyunun 14-də bağlama verdim. Bir dəst dəyişik, üz dəsmalı, mələfə, nazbalınc üzü. Nəyə icazə verilirdisə siyahı yazmışdılar... Cavabını üç saatdan sonra verəcəkdilər. Üç saat mənə üç il qədər uzun gəldi. İnana bilmirdim ki, o bu on günü dözüb, bu vaxtı qədər sağ-salamatdı. Çünki o, əsəbi, çox narahatdı. İşləyən vaxt, bir saatdan, yarım saatdan bir durub gəzər, çay içər, papiros çəkərdi. Çox nadir hallarda birdən üç-dörd saat yerindən qalxmadan oturardı. Deyərdi ki, gərək, dram əsərini elə yığcam qurasan ki, mənalı və məzmunlu olsun. Tamaşaçı oturmaqdan, ifaçı danışmaqdan, hərəkətdən yorulması. Romanda hadisələri geniş təsvirli yazmaq olar, dram əsərini yox. Heç vaxt işsiz oturmazdı. Ya kitab oxuyardı, ya da yazı ilə məşğul olardı. Tez-tez çay içərdi. Hər dəfə gərək təzə dəm olaydı...

Elə səbrsiz bir adam elə bir şəraitdə. Çox ağır, dözülməz dərddi. Amma dünyada insandan dözümlü heç nə yoxdu. Ona görə deyirlər:

*Daş olsaydım ərirdim*
*Torpağıydım dayandım.*

İçəridən dəyişiyini verdilər. Evə gəlib bağlamanı açdım. İçindən kiçicik bir məktub çıxdı: «Şeyləri aldım, Sox sağ ol. Mən yaxşıyam. Nigaran olmayın». Məktubun yarısını cırmışdılar. Dəfndən sonra qəbiristandan geri qaytarılan əşya necə təsir bağışlarsa, bunlar da elə. Əynindən çıxan, kif qoxusu verən paltarı, cırılmış kağızı qoyub, bir cənazə üstündə necə ağlanırsa – yorulunca ağladım. Dərdlilərin, acizlərin silahı göz yaşıdı. Onun da heç nəyə xeyri yoxdu.

Ağız dolusu «qardaşım, dostum» deyənlərin artıq heç biri yox idi. Görünməz olmuşdular. Elə bir dövrdü ki, heç kəsdən heç nə ummaq mümkün deyildi. Yeridiyin yer adamın ayağını yandırırdı. Bu gün azad

gördüyün sabah zindandaydı. Artıq iki ay keçmişdi, ona baxmayaraq, mən hər gün, hər saat onun yolunu gözləyirdim.

Üç gündən sonra dəyişik verəcəkdim. Ayda üç dəfə götürürdülər. Hər kəsin müəyyən günü vardı. Əlifba sırası ilə. O günü çatdıra bilməsəydi, qalırdı gələn dəfəyə. Onda da o nə qədər nigaran qalardı.

Hazırlaşırdım ki, gedib növbəyə yazılım, mən çıxmaq istərkən qapı döyüldü, açdım. Üç nəfər tanımadığım kişi «buyurun» demədən girdilər içəri, ürəyim şiddətlə döyünməyə başladı.

- Ev əşyasını aparmağa gəlmişik.

- Nə üçün?

- Niyəsi iki ay əvvəl sənə məlumdu.

Nə deyə bilərdim. Düşmən zalım, mən məzlum, bütün bədənim əsirdi. Yorğan-döşəkdən, qab-qacaqdan başqa, iri dəyərli əşyaların hamısını apardılar, oturub fikirləşdim. Nə edim? Dərdim çox, dərmanım, köməyim yox. Durub qapını bağladım. Açarın müəyyən yeri vardı, qoyurdum ora ki, uşaqlar gələndə götürüb açsınlar. Amma indi yerinə qoymadım. Ona görə ki, qapını açıb evi elə görüb… nə hala düşərdilər.

## 28

Gedib növbəyə yazıldım, beş-altı qadın iki saat növbədə durduq. Sonra bizi əvəz edənlər gəldilər…

Yol uzunu fikirləşdim ki, necə deyim ki, qızımın ürəyi sıxılmasın. Axı o balacadı. Onsuz da dərdi ona ağırdı… Yolboyu uydurduğum yalanı əzbərləyirdim ki, yadımdan çıxmasın. Gəldim ki, ikisi də rəngləri qaçmış halda küçə qapısının qabağında durub məni gözləyir. Onları görəndə özümü itirdim. İlahi, ikisini də birdən qucaqlayıb küçədəcə hönkür-hönkür ağladım. Dedilər:

- Açarı niyə yerinə qoymamısan?

- Gecikirdim, başım elə qarışdı ki, yadımdan çıxdı. O gün bir arvad dedi ki, qonşularını evdən çıxarıb başqa yerə köçürüb. Köçümüz yüngül olsun deyə, keçən gün ordan gələndə girdim komisionnıya, dedim ki, ev

əşyaları götürürsüz? Dedilər: «Hə». Belə tez olacağını bilmədim. Heç sizə də demədim. Köçəndə yüngül olarıq. Qızım qorxmuş halda:

- Hara? – soruşdu:

- Burdan yaxşı yerə – dedim.

Danışa-danışa yuxarı çıxdıq. Qapını açdım. Birinci qız girdi. Yad evə girirmiş kimi tez geri qayıtdı. Titrək səslə:

- Bu nədi? Baba gəlib nə deyər?

Qızı hər ikimiz birdən qucaqladıq.

- Baba gələn kimi gedib gətirəcəyik.

Oğlum vəziyyəti bilirdi. Bir neçəsini eşitmişdi. Qız əlini yumağa çıxanda oğlum:

- Ana, dediklərin düzdü?

- Yox, - dedim, - bacın bilməsin.

- Demək, hələlik gəlişini gözləməyək.

- Belə gedirsə, yox.

## 29

Ağır günlər, ağır aylar gəlib keçirdi. 10-15 gün olardı ki, evin iri və dəyərli əşyalarını aparmışdılar. Ev köçəri haldaydı. Qapı döyüldü... O saat bildim ki, xeyir yox, şər işdi. Çünki qapımızı xeyirli əllər döymürdü. Gələn ayaqlar, verilən salamlar artıq kəsilmişdi. Yarəbbim, görəsən yeni nə bəladı? Qapını açdım. İki nəfər tanımadığım kişi girdi içəri. Evə bir müştəri gözüylə baxırdılar. Biri dedi:

- Cavidin «Azərnəşr»ə iki min borcu var, onu siz verməlisiniz.

- Görürsünüz, - dedim, - hər şeyi aparıblar. Baxın, evdə dəyərli bir şey varsa, aparın.

Bir-birinin üzünə baxdılar:

- Qonşudan bir adam çağırın.

Çıxıb bir nəfəri çağırdım. Şahid kimi. Yazdılar: «Evdə dəyərli bir şeyə olmadığı üçün verilmiş pulu geri ala bilmədik».

* * *

İsmayıllı rayonunun Kürdmaşı kəndi. Kəndin sakini Zərovşan Həsənova dindirilirdi. Ondan biabırçı və ağlasığmaz şeylər tələb edirdilər:

Başını bir yastığa qoyduğu əri barəsində irəli sürülən ittihamları təsdiq etməli, dəlil-sübut gətirməlidi.

Dəhşət! Qadın günahsız ərinin üzünə dayanmalıdı. Dəhşət! Ana uşaqlarının atasını güdaza verməlidi. Hanı haqq?!. Hanı ədalət?!. İnsanı bu qədər çıxılmaz vəziyyətdə qoymaqmı olar? Bir neçə aydan sonra ailəyə yeni övlad bəxş edəcək ananı bu qədər də qısnamaqmı, incitməkmi olar?.. Dəhşət! Arvad ərinin üzünə durmalıdır. Cinayət! Arvad əri haqda irəli sürülən qondarma ittihamları təsdiq etməlidir... Zərovşanla sorğu-sual sox təhqiramiz şəkildə aparılırdı. Qadın ona verilən fiziki və mənəvi əzablara tab gətirə bilmir. İstintaq faciəli sonluqla bitir. Boylu qadın uşaq salır, bir neçə saatdan sonra özü də ölür.

30

**3 iyun 1937**. Xalq komissarı Y.D.Sumbatov – Topuridze «Hüseyn Cavidə qarşı ittiham irəli sürülməsi və cəza tədbiri təyin edilməsi haqqında» qərarı imzalayır. Sənəddə deyilirdi: «Mən Azərbaycan Xalq Daxili İşlər Komissarlığı idarəsi 1 şöbəsinin rəisi, leytenant Klemençik təhqiq olunan 12493 nörəli işi nəzərdən keçirərək, 1882- ci ildə doğulmuş, azərbaycanlı, Azərbaycan SSR vətəndaşı, bitərəf, şair, teatr texnikumunun müəllimi Hüseyn Cavidin həmin işdə dəqiq ifşa olunmasını nəzərə alaraq, onun gizli millətçi əksinqilabi iştirakı barədə qərar qəbul etdim».

Şairin qara günləri başlanır. Guya ki, onun həyatda əməlli-başlı ağ günü olmuşdu. Cavid iki il bir ay Bakıda saxlandı, güllələnmədi. Bu, şairə edilən «hörmət» idi? Başlarına dəysin belə hörmət! O, həbsxanada olmazın əzab-əziyyətini çəkdi, alçaldıldı, təhqir edildi. Bəzən həbsxanada «Şeyda» faciəsindəki həbsxana səhnəsini xatırladı. Şeyda ilə özü arasında fərq görmədi. Bədbinliyə qapıldı. Fikirləşdi ki, Cavidə bədbinlik

yaraşmır, Cavid sınar, ancaq əyilməz, Cavid məhv olar, yalan danışmaz. Cavid ölər, xalqına düşmən çıxmaz. Həbsxana divarları arasında fikirlər min-min, xəyallar sonsuz. Cavid neçə müddət idi ki, əlinə qələm almırdı, qabağına kağız açmırdı, kitab vərəqləmirdi. Yazan adama bundan da dözülməz əzab nə ola bilərdi? Fikirlər beyninə sel kimi axırdı. Onları kağız üzərinə köçürmək istəyirdi. Buna imkan verilmirdi. Bu, şair üçün dəhşətli bir faciə idi. Xəyallar, ümidlər, arzular, fikirlər cövlan edirdi.

Cavid çox şeyi bilərdi, bəlkə adını da unudardı. Fəqət üç nəfəri heç bir vaxt: Mişkinaz, Turan, Ərtoğrol. Bu üç nəfər ömrü-günü, səadəti, xoşbəxtliyi, gülü-çiçəyi, arzusu, əməli, düşüncəsi idi. Cavid bu üç nəfərsiz yaşaya bilmirdi, darıxırdı, onlarla bir yerdə olmağa can atırdı. Yaxşı deyiblər: Sən saydığını say, gör fələk nə sayır?

*Yurdu sarmış qabalıq, yaltaqlıq,*
*Yüksəliş varsa, səbəb alçaqlıq…*

31

**1933-cü il idi**. Azərbaycan şura yazıçıları Azərbaycan K(b) MK və BK-nın katibi Mircəfər Bağırova raport verirdilər. Yazıçılar raportda «Aprel inqilabından» sonrakı yaradıcılıq işlərindən danışır, kolxoz quruculuğu, neftçilərin həyatına həsr etdikləri əsərlərdən söz açırdılar. Raportda deyilirdi: «Bunlardan əlavə şura yazıçıları ölkəyə tarixi-inqilabi xarakterli bir sıra əsərlər vermişlər: «Səyavuş» - Hüseyn Cavid, «1905-ci ildə» - C.Cabbarlı, «Dumanlı Təbriz» - Ordubadi, Yusif Vəzir – «1917-ci il» («İnqilab və mədəniyyət», 1933, №3)».

«Yoldaş Bağırov, biz vəd edirik» başlığı altında qeyd edilirdi: Hüseyn Cavid – «Ömər Xəyyam» - birinci Şərq materialistinin həyat və fəaliyyəti haqqında pyes; Əli Nazim – Hüseyn Cavid və Əbülhəsənin yaradıcılığı haqqında tənqidi məqalələri və s. Yazıçılar və tənqidçilər Bağırova iyirmi altı vəd verirdilər. Maraqlıdır ki, orada Cabbarlının adı çəkilmirdi.

Bağırov raporta baxarkən onun diqqətini daha çox Cavid cəlb etmişdi. O, siyahını bir neçə dəfə nəzərdən keçirdi, nəzəri Cavidin üzərində dayandı. Bir neçə müddət «Cavid» sözü onun gözləri önündən getmədi. AK (b) F-nin 1934-cü ildə keçirilən KP qurultayında Cavidi tənqid etməsi yadına düşdü…

Mən nə Cavidi, nə Mişkinazı, nə də Ərtoğrolu görmüşəm. Mişkinazı görə bilərdim, hətta söhbət də edə bilərdim. Ancaq başısoyuqluq etmişəm. Bu gün buna çox heyfslənirəm, özümü bağışlaya bilmirəm. Turan isə mənə həm Cavid, həm Mişkinaz, həm də Ərtoğroldur. Sanki bu üç şəxsiyyət Turanda birləşib. Ancaq deyəsən xasiyyətdə daha çox atasına çəkib. Mən onların sifətində də bir oxşarlıq görürəm. Birinci dəfə onunla tanış olarkən Turan xanımı qara paltarda görmüşəm. O vaxtdan çox keçib, mən bu gün də onu qara geyimdə görürəm. Özü etiraf edib deyir: - Babamdan (o, atasını belə çağırıb) sonra biz bir xoş gün görmədik.

Bəxtəvərin qızı, xoş gün bəyəm sənin üçün idimi?..

«Xalq düşməni»nin qızı həyatda böyük məhrumiyyətlərə düçar olub. Atası tutulduqdan sonra ac-susuz qalıb. Sağ olsun Cəfər Cəfərovu, işə düzəlməkdə Turana kömək edib. Sağ olsun Azərbaycan Dəmiryolu İdarəsinin rəisi Cəfərovu Cavidin ailəsini evlə təmin edib. Turan xanımla çoxlu görüşlərimiz, söhbətlərimiz olub. Sayını, hesabını itirmişəm. Qoy, Turan xanımın ruhu məni bağışlasın ki, onun bəzi «sirrini» oxuculara açıram. Mən yeri gəldikcə həqiqəti bütün çılpaqlığı ilə yazmağa çalışacam. Mən başqa cür də edə bilmərəm, çünki xasiyyətim belədir. Həqiqətə xəyanət etmək istəmirəm. Belə düşünürəm: «Həyat olduğu kimi yazılmalıdır, həqiqət olduğu kimi deyilməlidir». O, ailəsinin başına gələn müsibətləri mənə danışıb. Mən həmin danışıqları bircə-bircə beynimə köçürmüşəm. O cür söhbətləri unutmaqmı, yaddan çıxarmaqmı olar?..

## 32

Hüseyn Cavidin anadan olmasının 100 illiyi ilə əlaqədar əsərləri çapa hazırlanırdı. Tərtibçisi Turan Cavid, redaktoru Əkrəm Cəfər idi.

Mən kitabın nəşrə hazırlanması prosesində onunla bir neçə dəfə görüşdüm. Qanı qara idi, tez-tez əsəbləşirdi. Redaktorun yersiz redaktələri onu əsəbləşdirirdi. O, çalışırdı ki, əsərlərdə lüzumsuz redaktə işi aparılması, əsərlər orijinalına daha çox uyğun olsun. Açıq deyim, nəinki o, mən də əsəbləşirdim. Adicə bir misal Cavidin mənzum dramlarında «şu» çox işlənib. Onu «bu» ilə əvəz etməyin mənası yoxdur. Məgər dramaturq bilmirdimi ki, türk dilində «bu» da var? Bilirdi, bizdən yaxşı bilirdi. Ancaq Cavid əsərlərində «şu» işlənib, özü də o bunu təsadüfən işlətməyib. İşləndiyi yerinə, mənasına və səslənməsinə görə «şu» «bu» dan fərqlənir. «B» kar, «ş» cingiltili səsdir. Bəlkə də adi bir şeydir, fəqət Cavid şeiri üçün bunun böyük əhəmiyyəti var. Cavidin mənzum pyeslərində «şu»nun ayrıca yeri var.

Nə isə, dördcildlik yubiley nəşrləri çap edildi. Dramaturqun «Peyğəmbər» mənzum tarixi dramı rus qrafikası ilə ilk dəfə bu dördcildlikdə çıxdı. Dördcildliyin üçüncü cildini seçdim. Onu təsadüfən seçməmişdim. Dramaturqun ən çox sevdiyim əsərlərindən biri olan «Peyğəmbər» Cavid bədii dühasının yeni keyfiyyətlərini, nəyə qadir olmasını üzə çıxarır, Azərbaycan dramaturgiyası tarixində yeni səhifədir. Kitabı diplomata qoyub, Turan xanımın yanına getdim və dedim:

- Gətirmişəm ki, bu kitaba avtoqraf yazasınız.

- Arasına bir kağız yaz qoy ki, bilim kimindir.

Mən də yazdım: «İsgəndər».

Kitab Turan xanımda çox qaldı. Yeri düşəndə xatırladırdım. Deyirdi: «Başqaları da verib, tələsmə, yazacam». Turan xanım həqiqətən də tələsmirdi. Sonradan özüm üçün aydınlaşdırdım ki, tələsiməməkdə haqlıdır Turan xanım. Bir işi düşünüb-daşınmadan etmir Turan xanım. Mən Azərbaycan Dövlət Dram Teatrında Rafael Hüseynovun «Vaxtdan uca» kitabı müzakirə edilərkən, müəlliflə görüş keçirilərkən bir daha bunun şahidi oldum. Görüşdə Azərbaycan Dövlət Tibb İnstitutunun tələbələri iştirak edirdilər. Görüşdən sonra bir neçə qız Turan xanıma

yaxınlaşıb xahiş etdilər ki, əllərində tutduqları kitaba avtoqraf yazsın. Turan xanımın üzündən gəlmədi, əvvəl istədi yazsın, sonra dedi:

-Muzeyə gələrsiniz orada yazaram…

Nəhayət, mənim kitabıma avtoqraf yazıldı: «Cavid sənətinin yorulmaz tədqiqatçısı hörmətli İsgəndərə ən səmimi hisslərlə və ən xoş arzularımla. 4 dekabr 1987. Turan Cavid».

Kitabxanamda qiymətli kitablarım çoxdur. Ancaq Cavidin avtoqraflı üçüncü cildindən qiymətli kitabım yoxdur.

33

**1937**. Ölkə həyəcan, təşviş, qorxu içindədir. Mətbuat «xalq düşmənləri»ndən yazır, radio bundan danışır. Qəzetlər belə başlıqlarla çıxır: «Faşist nökərlərinə ölüm!» Kim idi faşist nökərləri? Sovet adamları, namuslu, vicdanlı, günahsız sovet ziyalıları, günahlı və günahsız partiya və dövlət xadimləri. Qəzet səhifələrində bəzi-bəzi yazıçılar «xalq düşmənləri»nə, öz qələm dostlarına söyüşlər yağdırırlar. Şair şairə böhtan atır, şair şairi satır. Ağıllı başlar dumanlanmışdı. 1937-ci il 16 iyun tarixli «Ədəbiyyat qəzeti»ndə Səməd Vurğun «Səadət düşməninə» adlı şeirini çap etdirir. Mötərizədə belə yazır: «Xalq düşməni Hüseyn Cavidə». Şair şairə: «O murdar arzuların torpaqlara gömüldü, sənin yaratdıqların özündən əvvəl öldü» deyir. O, Cavidi pisləyir, təhqir edir, Stalini tərifləyir. Bilmir ki, onu qarşıda dəhşətli günlər, «İnsan»ı, «Aygün»ü basqılar gözləyir. Bir vaxt gələcək ki, Azərbaycan K(b)P-nın XIX qurultayında çıxış edərkən Mircəfər Bağırov onun sözünü ağzında qoyacaq və deyəcək:

- Sənləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan!

Cambul öz şeirlərində «xalq düşmənləri»nə nifrət və qəzəbini bildirir, Yejova «Löbimeü stranı, zorkoqlazıy Ejov!»* deyə mədh edirdi. Cavidin tələbəsi, Moskvada oxuyan Əkrəm Cəfər «H.Cavidə açıq

* Ölkənin sevimlisi, itigözlü Yejovu!

məktub» («İntiqab və mədəniyyət», 1930, № 11-12) şeirini yazırdı. «Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü» beytini (beyt «Peyğəmbər»dəndir, Əkrəm Cəfər onu bir təhrif etmişdir) epiqraf verən şagird müəlliminə sataşırdı, gülürdü, onu lağa qoyurdu.

*Müzəffər bir döyüş nəşəsilə*
*Axınca alınlarının təri,*
*Şeirlərimə bir şey demir artıq*
*«Bahar şəbnəmləri».*[*]

Məmməd Rahim qələm yoldaşı Mikayıl Müşfiqə ölüm nəğməsi oxuyurdu. B.Pasternak Cavid kimi mərdlik, kişilik nümayiş etdirirdi. O, yeganə yazıçı idi ki, Yakir, Tuxaçevski və başqa görkəmli hərbçilərin güllələnməsi barəsində məktuba imza atmırdı. Stalinin sözlərinə diqqət yetirin: «Hər hansı bir xəstəni müalicə etməkdənsə, onu o dünyaya göndərmək daha yaxşıdır».

Mən heç kimi ittiham etmək istəmirəm, həqiqəti dərk etmək istəyirəm. Həqiqəti dərk etməyin yolu əzab-əziyyətlidir, çətindir. Mən bizim sənətkarlarımızı mühakimə etmək niyyətində də deyiləm. Ancaq onları tarix mühakimə edir. Bugünkü qavrayışla, düşüncə ilə dünənki hadisələrə qiymət vermək çətindir. Ancaq bir həqiqət də var: Ölkəni bürümüş sarsıdıcı, dağıdıcı dalğanın təsiri altına düşənlər də var idi, düşməyənlər də. Stalinə mədhiyyələr yazanlar da var idi, yazmayanlar da. Ölümünün qorxusundan dovşan kimi qaçıb gizlənənlər də vardı, gizlənməyənlər də. Məgər Cavidin, Müşfiqin, Əhməd Cavadın, Pasternakın, Seyid Hüseynin ailəsi, əzizləri yox idimi? Can onlarçün şirin deyildimi? Kim öz başını cəllad kötüyü üstünə könüllü qoyar?.. Atalar düz deyiblər. Mərdlik, namərdlik, kişilik, nakişilik çətin ayaqda bilinər. Yeni Azərbaycan tarixi üçün olduqca ağır, mürəkkəb olan illərdə insanlıq, vətəndaşlıq, sənətkarlıq borcundan şərəflə çıxanlar da oldu, namərd, nakişi çıxanlar da; it kimi yaltaqlananlar da, xalça tək ayaq altına

[*] Cavidin şeirlər kitabıdır

döşənənlər də. Bəşəriyyət öz tarixində belə adamları çox görmüşdü, görürdü və görəcək…

34

**1939-cu il. İyul**. Mişkinaz Cavid: Keşləyə gəldim. Nə gördüm? İlahi, nə qədər adam. Hər qapıda iki-üç əli tüfəngli dayanıb. Adamları qoyun sürüsü kimi belədən belə qovurlar. Qoyun çox qiymətlidi. Sürüdən bir qoyun itsə onu bir neçə adam axtarar… Bir pəncərənin qarşısında o birilərinə nisbətən adam az idi. Yanaşıb soruşdum ki, burda nə üçün durmusunuz? Dedilər: Görüş üçün ərizə vermişik. Cavab gözləyirik. Elə bu vaxt orda işləyən tanış bir qadına qast gəldim:

- Dünən yadımdan çıxıb qalan şeyləri gətirmişəm. Mümkündürsə mənə görüş verməyə kömək edin.

- Keç, orda dayan – dedi.

Bir saata qədər dayandım. Görüş verəcəkləri adamın adını çağırıb deyirdilər ki, hansı qapıya get. Hər dəfə pəncərə açılanda ürəyim şiddətlə döyünürdü. Hər görüş istəyənə və hər sürgünə gedənə görüş verilmirdi. Bu gün də dustaq yola salırdılar. Ona görə də uzaqdan, yaxından görmək ümidi ilə hamı axışıb gəlmişdi. İynə atsan, yerə düşməzdi. İndi də o mənzərə gözümün önündədi, o səslər qulağımdadı. Mənə elə gəlirdi ki, yer üzündə bu saat bir nəfər də olsa gülərüzlü, şad bir insan yoxdu. Hamı bu mənzərəni görür, hamı bu ağlaşma və yalvarış səslərini eşidir. Çoxuna rədd cavabı verirdilər.

… Pəncərə açıldı. Adlar çağırıldı. Mənim də adım. Çəkildi. O bədbəxtlərin, o boynubüküklərin içində ən xoşbəxt adam mən oldum. O saat fikrimdən keçdi ki, Cavidə deyəndə ki, sənə görüş verirlər, nə qədər sevinib və təəccüb edib.

… Dünənki həyət. Adam az. Divar tərəfdə, yaxında heç kəs yox. Oturub. Gözü qapıda. Əlimdəki şeyləri… yoxlamaq üçün oranın nəzarətçisinə verib içəri keçdim. Məni görən kimi qalxdı ayağı. Yola baxdı ki, görsün uşaqlar da gəlirmi? Sevincli səslə:

- Nə yaxşı! – dedi.

Dünənkinə nisbətən bu gün bir az sakit idi. İrəli apardığım gözlük gözündəydi. Arada iki nəfər gözçü gəzirdi. Biri elə dolanıb gəlib dururdu yanımızda. O keçəndə mən onun dalınca narazı baxışlarla baxdım. Cavid dedi:

- Onun da vəzifəsi budur. Məhbus nəzarətsiz, cəzasız olmaz.

Mən «cəza» sözündən darıxmış halda üzünə baxdım. Mülayim və kədərli bir səslə:

... Təmiz adına ləkə vurulması, başı-qulağı üç qəpiyə dəyməyənin qarşısında dayanıb təhqirli sözlər dinləmək, anlamaz qarşısında susmaq, anlatmağa haqqın olmamaq cəza deyilmi? Elə təhqirli sözlər deyirlər ki, dözmək mümkün deyil. Gərək nə qədər ürəksiz, şərəfsiz adam ola ki, olmayan sözləri danışa. Nə isə... Sözlərim çoxdu. Əfsus ki, vaxt azdı. Nə qədər deyiləsi sözlərim, deyiləsi dərdlərim, görüləsi işlərim var. Əsl xain yaxşıları pis adlandırıb məhv edənlərdi. Vaxt gələcək tarixə, xalqa xeyir vermiş, vaxtından əvvəl itirilmiş bu günahsız, ləkəsiz, zavallılar üçün nə qədər təəssüf ediləcək.

... Bir neçə dostunun adını soruşdu. Dedim:

- Heç birini görməmişəm.

Biri haqqında dedi:

- Görməsən yaxşıdı, o yarım adam satandı, hələ yaxşısı budu. Neçə kişilər nakişi oldu. Əvvəl-axır ölümdü. Mərd ölmək namərd yaşamaqdan yaxşıdı.

Dedim:

- Canın sağ olsun. Gələndən sonra özün ayırd edərsən.

Fikrində danışırmış kimi çox yavaş səslə öz-özünə dedi:

- Həə... umulmaz umud.

35

<u>**Ş. Aslanova**</u>:

- Atam, Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin müavini Hüseynbala Ağaverdiyev tutlandan sonra cəmisi üç ay yaşadı.

Sonra anamı apardılar. Savadsız, çadralı, xəstə qadını o zaman XDİ naziri olan Y.D.Sumbatov – Topuridze evdən apardı ki, həyat yoldaşınla görüşəcəksən. Anam atamın görüşünə yox, «üçlüyün» sərəncamına getdi.

«Xalq düşməni» arvadı olduğu üçün ona 8 il iş kəsdilər. Qazaxıstana göndərdilər. Rus dilini qətiyyən bilməyən anam 1943-cü ildə orada yalqız, kimsəsiz öldü. Qəbrini belə tapa bilmədik. Bizim ailəni «Neftçilər» prospektindəki 103 nömrəli evdən çölə atdılar…

*Şu kirli cənnətə vardıq qaraldı gözlərimiz*

Cavid həbsxanadaydı. Fikirləşirdi ki, bir yerdə çörək kəsdikləri, deyib-danışdıqları dostları, yoldaşları onun dadına çatacaq, heç olmasa ailəsinə mənəvi dayaq olacaq, ona kömək əlini uzadacaqlar. «Bəxtiyar şair! Səni sərməst edən dadlı xəyal, yalnız xoş bir təsəllidir». Mərdlik, namərdlik, kişilik, nakişilk çətin ayaqda üzə çıxdı. Cavidin ən yaxın dostlarından biri olan Şaiq, o tutulan kimi ondan üz döndərdi… «Dünyada hər şey dəyişilmişdi. Elə bil dünyanı dəyişən dəhşətli bir zəlzələ olmuş, yerin altı üstünə çevrilmişdi. Dünənə qədər tanıdıqların tanınmaz olmuş, dostlar düşmənə çevrilmişdi. Sədaqətinə inandığın adamlar vəfasız, danosbaz, mərd bildiyin qonşu – namərd; can qardaşı kimi tanıdığın – qan düşməni olmuşdu…» (Əzizə Cəfərzadə).

36

**16 noyabr 1976**. Cavidin vəfalı həyat yoldaşı Mişkinaz dünyadan köçmüşdü. Baş daşında bu sözlər yazılmışdı:

*Uyuyub qaldı, onun həsrəti çox,*
*Bu amansız gecənin gündüzü yox!*
*Parlayıb söndü qaranlıqlarda,*
*Bir xəyal oldu, nə səs var, nə səda.*

Cümə axşamları mən də yas yerinə gedirəm. Burada Mirəli Seyidovu, Abbas Zamanovu, Mehdi Məmmədovu, Mirzə İbrahimovu, Zahid Əkbərovu, Qulu Xəlilovu, Əbülfəz İbadoğlunu… görürəm. Yas

yerində iştirak etməyə borclu olan bəzi yazıçılar, alimlər gözümə dəymir. Bəzi alimləri, şairləri, yazıçıları, Cavidin tədqiqatçılarını şəxsən birinci dəfədir ki, burada görürəm, tanış oluram. Cavid haqqında deyilənləri danışılanları eşitməyə, yadımda saxlamağa çalışıram. Fikirləşirəm ki, bu təkcə Mişkinazın deyil, Cavidin də yas yeridi. Axı, Cavid vətəndən uzaqlarda ölmüş, ona yas saxlayan, cümə axşamı verən, qırxını, ilini keçirən olmamışdı. Fikirlər beynimdə toqquşur. Ürəyim göynəyir. İçimdə özüm-özümə deyirəm: Yox! Yox! Məgər xalqımız neçə illərdən bəri deyil ki, Cavidə yas saxlayır. Məni fikirdən Yazıçılar İttifaqının rəhbərlərindən birinin gözlənilməz sualı ayırır:

- Görəsən Cavidin nəyi qalıb? Oğlu varmı?..

Ayağım yerə yapışır, quruyub qalıram. İllərdən bəri əsərlərini sevə-sevə oxuduğum yazıçıya içərimdə nifrət hissi baş qaldırır…

37

Elmi axtarışlar aparıram. Cavid haqqında yazılmış beş yüzdən çox məqaləni nəzərdən keçirərəm. Məmməd Cəfərin, Əbülfəz İbadoğlunun, Zahid Əkbərovun, Məsud Əlioğlunun kitablarını, Əli Sultanlının məqaləsini oxuyuram, yenidən Cavidin əsərlərinə qayıdıram. Suallar məni çulğayır: Kimdir Cavid? Necə sənətkardır Cavid? Hansı tənqidçi, hansı ədəbiyyatşünas haqlıdır, hansı haqsızdır? Suallar içində batıb qalmışam. Başımı itirmişəm. Cavidin aşağıdakı misralarından ilham alıram:

*Onu duymaq, duyurmaq istərkən,*
*Gərirəm hər bəlayə köksümü bən.*
*Daş, tikən, ox, qılıc, tokat, yumruq*
*Həpsi xoş, hər nə gəlsə dönmək yox…*

Cavidi qavramağa, dərk eləməyə çalışıram. Fəqət bu dərketmənin nə əvvəli var, nə sonu. Kim etiraf edib deyə bilər ki, mən Cavidi tamam-kamal dərk etmişəm? Məncə, belə adam sərsəmdir. Bütün böyük filosofları, mütəfəkkirləri, şəxsiyyətləri, ulu sənətkarları tam dərk etmək

«onların ölümüdür». Böyük sənətkar, dahi şəxsiyyət hər dövrün, hər zamanın sənətkarıdır, dahisidir. Hər yeni gələn nəsil ondan bir inci bulur, ona öz münasibətini bildirir, onu dərk etməyə çalışır. Buna görə də Cavid ölməzdi, Cavid əbədidir, Cavid sonsuzdur. Cavidi dərk etməyə bir insan ömrü, bir nəslin həyatı azdır. Onu dərk eləmək üçün əsərlər, qərinələr lazımdır. Əziz oxucum, bəlkə də mən səhv edirəm. Ola bilər, lakin mən belə düşünürəm. Cavidi dərk eləməkdə Turan xanım mənə kömək edir. Öz yerişi, duruşu, baxışı, sözü, söhbəti ilə, öz davranışı, insanlara münasibəti, incə qəlbi, incə ruhu ilə. Qarşımda sanki Cavidi görürəm. O, mənə özündən, ailəsindən, ailəsinin başına gətirilən müsibətlərdən danışır; asta-asta, aram-aram, saatlarla. Mənim beynim isə onun dediklərini lentə köçürür, bu gün, sabah, gələcək üçün.

Kimdən Cavid haqqında eşidirdimsə, Turan xanımla dəqiqləşdirirəm, onunla məsləhətləşirəm. Bir dəfə «Kommunist» qəzetində bir yazı gözümə sataşdı. Bir nəfər, səhv etmirəmsə adı Məhəmməd idi, oxuculara Cavidə çox yaxın bir adam kimi təqdim edilirdi. Bunun izinə düşdüm, ondan Cavid haqqında ətraflı məlumat almaq istədim. Məlum oldu ki, o, Cavidi bir neçə dəfə opera teatrında uzaqdan görüb.

38

Elmi işim hazırdır. Caviddən mövzu götürmək və yazmaq əzabın başlanğıcı, Caviddən dissertasiya müdafiə etmək əzabın sonudur. Keçmiş illərin tör-töküntüləri, Cavidi sevməyən, ona həqarətlə baxanlar hələ də qalıb. Onlar yeri düşdükcə işə mane olur, özü mane ola bilməsə də başqası vasitəsilə təsir göstərir. Elmdə mafiya, rejionçuluq, qohumbazlıq, yerlipərəstlik, pul açıq və gizli şəkildə özünü göstərir. İstər-istəməz düşünürsən: «Ağıllı başlar, ağıllı beyinlər doğurdanmı zəhərlənmişdi? Zəhərlənən beyini, şüuru müalicə etmək olarmı? Cəmiyyətdə, insan münasibətlərinin «tənzimlənməsində» pul bu qədər rol oynayırsa, bəşəriyyətin, dövlətin taleyi necə ola bilər?» Heyhat! Ağıllı başlar zəhərlənibsə, dəhşət! Bu dəhşətin sonu fəlakətdir!

Elmi işimi əlavə rəyə vermişəm. Burada da pul umanlar var. İşə bir bax, işim Abdulla Şaiqin oğlunun əlinə gəlib düşüb. O, məgər güzəştə gedərmi? Əlinə yaxşı fürsət keçməyibmi? Mən isə dadlı xəyallardan, şirin arzulardan sərməst olmuşam. Böyük alim olmaq eşqindəyəm. Doktorluq mövzusu götürmək barəsində düşünürəm. Ömrümü-günümü elmə sərf etmək istəyirəm. Bəxtiyar dissertant! Gör nələr fikirləşir? Gör xoş təsəlliləri nədə tapır? Ta bilmir ki, ondan nəinki «böyük alim», heç kiçik alim də çıxmayacaq. Ta bilmir ki, bəzi alimlər onda özünə, ətrafındakılara, elmə qarşı ikrah hissi oyadacaq. Ta bilmir ki, möhtərəm alimlərin «qiymətli fikirləri», «qiymətli məsləhətləri» üzərində baş sındıracaq, vaxtını boş-boş şeylərə sərf edəcək. Qızıl kimi vaxtı yelə verəcək. Sonra isə yana-yana deyəcək: «Hayıf o «qiymətli fikirlərin» düzəlişinə sərf etdiyim günlərə, hayıf!»

Şaiqin oğlu Kamal ağzı köpüklənə-köpüklənə danışır:

- Bu nədir! Bu nə əsərdir? Sizin məqsədiniz nədir?..

«Məqsədiniz nədir?» deyəndə istədim cavab qaytarıb deyim ki, sizin yerinizi tutmaqdır. Fikrimdən tez də daşındım. Düşündüm: «Axı, bizdə böyüyə-kiçiyə hörmət-izzət var, etika var, nəzakət var, ədəb var. Bəs böyük öz hörmətini gözləməyəndə nə edək?»

Möhtərəm alim qızışmışdı:

- Bu elmi iş deyil. Bundan elmi iş çıxmaz. Məqsədin nədir, bilmirəm?..

Alimin ədəbsizliyindən belə nəticə çıxardım: Böyük alimlər hər şeyi yazıb qoyublar, kiçiklər onları təqlid etməlidir. Mötəbər alimlərin açdığı cığırla, yolla getməlisən, yoxsa azarsan. «Böyük alimlərin» nüfuzu qarşısında baş əyməlisən, yoxsa başın bədənindən qoparılar. Böyük alim düz də, yalan da desə haqlıdır, dissertant, aspirant düz danışsa da haqsızdır. Bu, elmə qayğıdırmı? Elm budurmu? Belədirsə, min lənət! Belədirsə, min nifrət!

Alim həddini aşmışdı. Mən mat-məəttəl qalıb ona qulaq asırdım. Yazıq, utancaq bir vəziyyət almışdım. Alim abrımı ətəyimə bükdü.

Danışığından belə çıxdı ki, mən bu mövzunu bir kənara qoyub, gedib başqa işlərlə məşğul olmalıyam. Suyum süzülə-süzülə kabinetdən çıxdım. Hirsim bağırsaqlarımı kəsirdi. Əsəblərimə tarım çəkilmişdi. Hirsimi üstünə tökmək üçün adam axtarırdım. Gücüm evdəki arvad-uşaqdan başqa kimə çatacaqdı?..

Fikir məni almışdı. Özüm özümə nifrət edirdim. Düşünürdüm: «Mənim işim bəlkə də heç bir şeydi, bəlkə də heç bir elmi əhəmiyyətə malik deyil; məgər bunu adam kimi demək olmazdımı? İş bəlkə də zəif idi, bəs alimin qanacağına nə gəlmişdi?.. Mən heç, bəs Cavid? Axı onun atası ilə Cavid dost olub…»

## 39

Cavid neçə ay idi ki, həbsxanada yatırdı. «Görüşə» daha çox Mişkinaz gedirdi. Hərdən o, Turan və Ərtoğrolu da özü ilə aparırdı. Ona hansı cəzalar verilirdi? Demək çətindi. Həqiqət budur ki, şairi öpüb gözləri üstə qoymurdular…

Adətən, istintaq məhbusu əzişdirməklə başlanırdı. Həbs olunanları ağacla, təpiklə, rezin dəyənəklə, stulların ayaqları ilə, bir sözlə, ələ nə keçirdisə, onunla döyürdülər, incidirdilər. Onları günlərlə ayaq üstə saxlayır, yemək-içmək vermir, yatmağa qoymurdular. Məhbuslardan tələb edirdilər ki, «Günahını» boynuna alsınlar. Məcbur edirdilər ki, əksinqilabçı təşkilatçıların üzvü olmaları, xarici ölkə agentlərilə casusluq əlaqəsinə girmələri haqda saxta sənədlərə imza atsınlar. Əgər tutulan boyun qaçırırdısa, onu əzişdirməkdə davam edirdilər, yarımcan olanadək döyürdülər. Ruhulla Axundovu Sumbatov-Topuridzenin kabinetində o qədər döymüşdülər ki, onu kameraya kabinetdən xərəklə aparmışdılar. Dadaş Bünyadzadəyə o qədər işgəncə vermişdilər ki, kameranın qapısı açılan kimi qaçıb dəmir çarpayının altında gizlənirdi…

*Bütün yirminci əsrin müstəbid övladı həp alim…*
*Bütün yirminci əsrin müstəid evladı həp zalim…*
*Cahan bir qətlgah olmuş, aman yox zülmü vəhşətdən*

*Dənizlər qan, buludlar qan, hava qan, iştə hər yer qan…*
*Böyük başlar dumanlanmış da atəş püskürür hər an,*
*Qılıclar, süngülər, toplar, tüfənglər gurlayıb parlar.*
*Nə istər birbirindən anlaşılmaş saygısız insan?!*

«Xalq düşmənləri»nə qarşı «ümumxalq hücumu» başlanmışdı. Jurnalistlr yazılarını, şairlər şeirlərini qəzet və jurnallarda dərc etməyə tələsirlər. Qəzetlər barbar bağırır: Xalq düşmənlərinə ölüm! Onlar aşağıdakı başlıqlarda çıxır: «Podlaə banda ubiytsğ i şpionov»* («Pravda»), «Xalqın iradəsi yerinə yetirildi», «Mühakimə olunan Levinin istintaqı», «Başqa cür hökm ola da bilməzdi», «Yoldaş Stalini salamlayırıq», «Sovet tibb işçiləri tələb edir ki, vətən satqınları, alçaq xalq düşmənləri məhv edilsin», «Mircəfər Bağırova raport veririk», «Biz əclaf faşist nökərlərinə ölüm deyirik»… Deyəsən, zavallı bəşəriyyət yolunu azıb, cızığından çıxıb, beyinlər qızışıb, ağıllar çaşıb. Ağıllı insanlar odla-su arasında dayanıb. – Kimdir haqlı, kimdir haqsız? – Bu sualları özləri, özlərinə verir, onu aydınlaşdırmağa çalışırlar.

Gözəl, istedadlı təbib V.Vinoqradov qanunsuzluğun qurbanı olan Dmitri Pletnyova, öz müəlliminin əleyhinə qaldırılmış cinayət işinə imza atır. Sovet həkimlərinə qarşı qaldırılmış cinayət prosesindən sonra Vinoqradova RSFSR-in əməkdar elmi xadimi fəxri ad verilir. O, 1944-cü ildə SSRİ Tibb Elmləri Akademiyasına üzv seçilir, Stalinin şəxsi həkimi olur. Fəqət bu, onun həyatını xilas edə bilmir. Vinoqradov 1952-ci ildə «həkimlərin işi» üzrə cinayət məsuliyyətinə cəlb edilir.

## 40

**Mart 1938.** Şair on aydı ki, həbs edilmişdi. On ay on ilə dönmüşdü.

Bahar yaxınlaşırdı, təbiət cana gəlirdi. Bakıda baharın ətri duyulurdu, həbsxanada cəhənnəm iyi. Çox ailələrin isti aşına soyuq su qatılsa da, hamı novruz bayramını adət və ənənəyə görə yaxşı qarşılamağa çalışırdı. Cavidin ailəsi də beləcə. Ancaq hər şey olduğu kimi

---

* Cəllad və casusların alçaq bandası

alınmırdı. «Cavidsiz nə novruz bayramı?» Evdəkilər belə düşünürdülər, Cavid həbsxanada başqa cür. Həbsxanada bahar ətri hiss olunmurdu. Həbsxanada «həbsxana ətri» duyulurdu.

Martın iyirmi biridir. Cavid həbsxanada sorğu-suala tutulur. Sorğu-sual qəsdən bu günə salınıb. Müstəntiqlər məhbusun əsəblərilə oynayırlar. Baharın ilk günündə «haqlı» soruşur, «haqsız» əsəblərinə tarım çəkilmiş halda, bəzən qaşlarını çataraq, bəzən düşüncələrə dalaraq, olub-keçənləri yadına salaraq suallara cavab verir, səhv etməməyə, artıq-əskiki danışmamağa çalışırdı.

- Hansı məktəbdə oxumusuz?

- 13-14 yaşımda rus-tatar məktəbində.

- Hansı illərdə xaricdə olmusuz?

- Məktəbi qurtarandan sonra mən İrana – Təbrizə getmişəm. Onda mənim 20 yaşım olardı.

- Təbrizdə nə iş görürdünüz?

- Ruhani məktəbində oxuyurdum. Böyük qardaşım Məmməd Rasizadə də Təbrizdə ruhani seminariyasında oxuyurdu. Mən də ona görə birillik ruhani məktəbində oxumağı qərara almışdım.

- İrandan hansı ildə qayıtmısız?

- Bir ildən sonra. Və Naxçıvanda «Məktəbi-tərbiyədə» türk və fars dillərini tədris elədim. İl yarımdan sonra isə ticarətlə məşğul oldum.

- Türkiyəyə hansı ildə getmisiniz və harada qalırdınız?

- 1905-ci ildə xal-xalça alıb Türkiyəyə getdim. İstambulda «Sühlət» mehmanxanasında qalırdım. Onda xalçanın biri o vaxtın pulu ilə 2000 manata idi. İstambulda xəstə gözlərimi həkim Ziyaya göstərdim. O, mənə dedi ki, gözlərim o qədər də zəif deyil, oxuya bilərəm. Ona görə də mən İstambulda Rza Tofiq müəllimin yanında bir il təhsil aldım. Sonra onun zəmanıti ilə elə həmin şəhərdə universitetin tarixi və ədəbiyyat fakültəsinə daxil oldum. Türkiyədən Naxçıvana 1910-cu ildə qayıtdım.

- Türkiyədən qayıdandan sonra nə işlə məşğul oldunuz?

- Türkiyədən mən xəstəliyimə görə qayıtmışam. 2-3 ay müalicədən sonra Bakıya gəlib işə girdim. İran konsulluğunun Bakıda yaşayan iranlılar üçün açdığı «İttihad» məktəbində il yarım türk dilindən dərs dedim.

- Sizə məktəbdə işləmək üçün kim zəmanət vermişdi?

- Türkiyədə Rza Tofiqin yanında mənimlə Gəncədən Abdulla Məmmədzadə adlı bir gənc oxuyurdu. Bakıya o məndən tez qayıtmışdı. Elə onun zəmanəti ilə də işə daxil oldum. O, özü də bu məktəbdə dərs deyirdi (sonra öldü).

- «İttihad»dan çıxandan sonra nə işlə məşğul oldunuz?

- «İttihad»dan çıxandan sonra (mən oradan maddi çətinliyimə görə çıxdım). 1912-ci ildə Gəncəyə getdim və 1913-cü ildə qədər orada «Mədrəsəi-ruhanidə» (ruhani seminariyası) işlədim. 1913-1914-cü ildən imperialist müharibəsinə qədər Tiflisdə İran Konsulluğunun təşkil elədiyi «İttifak» İran məktəbində dərs dedim.

- «İttifak»dan sonra harada, nə işlə məşğul olmusuz?

- Sonra Kaxetiyaya gedib dəmir yolunda hesabdar işləmişəm. Mən oraya xəstəliyimə – Tiflisin havasının mənə düşmədiyinə görə getmişəm. Elə xəstəliyimə görə də orada qala bilməyib, Yesentukiyə getdim. Bütün bunlardan sonra təzədən Bakıya qayıdıb və 1918-ci ilə qədər «Səfa» məktəbində (Nağıyevin təşkil etdiyi) işlədim. 1918-ci ilin mart hadisələrində isə əvvəlcə İrana, sonra isə Naxçıvana qayıdıb məktəbdə dərs dedim.

- 1918-1919-cu illərdə harada və nə işlə məşğul olmusuz?

- Müsavatın hakimiyyəti illərində əvvəlcə seminariyada, sonra isə qızlar məktəbində dərs demişəm.

- Müsavat hakimiyyəti dövründə hansı müsavat jurnalları ilə əlaqə saxlayırdınız?

- «Qurtuluş» və «Yaşıl qələm»lə.

- 1919-cu ildə Müsavat partiyası və onun lideri Məmməd Əmin Rəsulzadəyə münasibətiniz?!

- O vaxt nə müsavat partiyası, nə də onun lideri ilə heç bir münasibətim olmayıb.

- Sovet hakimiyyəti qurulandan sonra hansı ildə xaricdə olmusuz?!

- 1926-cı ildə Berlində, Boden-Bodendə müalicə olunmuşam. Məni Almaniyaya keçmiş maarif naziri Mustafa Quliyev göndərmişdi.

- Xaricdə hansı müsavatçılarla görüşübsüz?

- Heç biri ilə.

- Xaricdə olanda gizli polis sizinlə əlaqə yaratmağa çalışırdımı?

- Yox.

- Siz səmimi etirafdan qaçırsınız. Deyin görüm. Türkiyədə hansı pantürkistlərlə əlaqəniz olub?

- Heç biri ilə.

- Bəs Bakıda hansı türklərlə əlaqə saxlamısız?

- Mən Bakıda vaxtaşırı İsmayıl Hikmət və Xəlil Fikrətlə görüşmüşəm.

- Onlarla əlaqəniz nədən ibarət olub?

- İldə bir-iki dəfə Yazıçılar İttifaqının keçirdiyi tədbirlərdə görüşmüşük…

Müstəntiq çirkin və hiyləgər vasitələrə əl atsa da, polad iradəli şairin boynuna heç bir şey qoya bilmir.

41

**22 mart 1938.** Novruz bayramının ikinci günü. Şair dünənki sorğu-sualdan hələ özünə gələ bilməmişdi. Gecə kirpiklərini də yummamışdı. Həbsxanada kirpiyi kirpik üstə qoymaqmı olur, bəxtiyar müəllif?

Mişkinaz bütün gecəni yatmadı, fikirləşdi: «Görəsən Cavid həbsxanada nə edir?» Axı, birinci dəfəydi ki, ailə novruz bayramını Cavidsiz keçirirdi.

Məhbus Cavidi düşüncədən gözətçinin səsi ayırdı. Onu sorğu-suala apardılar. Sorğu-sual bilərəkdən əziz günlərə salınmışdı.

- Dünən hər vəchlə istintaqda özünüzün pantürkist, panislamist, burjua-millətçi mövqeyinizi gizlətməyə çalışırdınız. Bu gün necə? Boynunuza almaq fikriniz var, ya yox? – Müstəntiq sual etdi.

- Mən heç zaman burjua-millətçi mövqeyində olmamışım. Olmayan işin nəyini boynuma alım?

- Bəs onda əsərlərinizdəki türk təsiri hardandır?

- Mən ki, sizə dedim. Uzun zaman Türkiyədə yaşamışam. Bu yalnız ondan ola bilər.

- Siz yalan deyirsiniz. Biz məcburuq daha bir yazıçı-şahidin ifadəsi ilə sizi tanış edək: «... Şəxsi söhbətlərində H.Cavid mənə deyirdi ki, siz gənc şairlər rus siyasətinin təsiri altındasınız, buna görə qocaman yazıçıları tənqid edir, Azərbaycan dilinin ruslaşdırılmasına can atırsınız. O təsdiq edirdi ki, rus orientasiyasından öncə türk-osmanlı ədəbiyyatına üz çevirmək lazımdır». Buna nə deyirsiniz?

- Yalan deyir. Mən heç zaman rus dilinə, rus ədəbiyyatına qarşı çıxmamışam.

- Bəs şahidin bu ifadəsinə nə deyirsiniz? «... H.Cavid mənim yanımda həmişə YİK (b) P-nin, Sovet dövlətinin ünvanına böhtançı fikirlər söyləyirdi». Kifayət deyilmi? Biz tələb edirik, inadı buraxıb istintaqa doğru, düzgün ifadə verəsiniz.

- Mən bu böhtanı da rədd edirəm. Bir doğru həqiqət varsa, mən deyəndi.

Cavidə böhtan atılırdı, qara yaxılırdı. Şair isə həqiqəti, yenə həqiqəti deyirdi. Ona atılan böhtanları böyük cəsarət və inamla rədd edirdi. Suallara doğru-düzgün cavab verirdi.

Mart ayında keçirilən ilk sorğu-sualdan sonra şair uzun müddət dindirilmir. Nə üçün? Görünür, ya əldə tutarlı dəlil-sübut yox idi, ya da ki, ona psixoloji təsir göstərilirdi...

O, növbəti sorğu-suala 10-11 noyabr 1938-ci ildə tutulur. Dəmir iradəli şair bu dəfə də bütün yalan ifadə və ittihamları inad və cəsarətlə rədd edir. İki il davam edən istintaq prosesində şair böyük əzmkarlıq

nümayiş etdirir. Buna görə də ona ölüm cəzası verilmir. Bakıda keçirilən məhkəmədə belə bir qərar çıxarılır: «Hüseyn Cavid ona verilən ittihamda özünü günahkar saymır. Ancaq başqa müttəhimlərin ifadələrində haqqında deyilən bütün təqsirlər təsdiq olunur. Buna görə də o, Azərbaycan SSR Cinayət Məcəlləsinin 72, 73 maddələri ilə təqsirkar sayılır və cinayət işi baxılmaq üçün SSRİ XDİK-ya göndərilir.»

Daha doğrusu, SSRİ XDİK-nin Xüsusi Müşavirəsinin sərəncamına göndərilir. Moskva müşavirəsi Bakı məhkəməsinin qərarını təsdiq edir. Şair 8 il azadlıqdan məhrum edilir və islah-əmək düşərgəsinə – Sibirə göndərilir.

42

Cavidin istintaq işində on dörd şahidin ərizəsi var. Onlar şairə böhtan atır, haqqında əsassız ittihamlar irəli sürürdülər.

XDİK dördüncü şöbəsinin rəisi Gerasimovun adına yazılmış bir ərizədən sətirlər: «Tutulduğum ilk gündən bildirmişəm ki, mənim 1930-cu ilə qədər bəzi millətçi günahlarım olub, düzünü desəm, bir sıra cinayət işləmişəm... Partiyaya bərpa olunandan – 1932-ci ildən tutulduğum 28 yanvar 1937-ci ilə qədər mən heç zaman ikiüzlülük eləməmişəm və partiyanı aldatmamışam. Mən bu barədə istintaq zamanı da demişəm. Amma müstəntiq Qalustyan (öz-özlüyündə o, bəlkə də ən humanist kommunistdir) mənə əksinqilabi millətçi təşkilatın üzvü kimi baxır və olmayan işləri mənim boynuma qoymaq istəyir. 12 gün ərzində mən təkid elədim ki, keçmiş təqsirlərimin üstündə mənə nə cəza verirsiz verin, amma mənim əksinqilabçı təşkilat ilə heç bir əlaqəm olmayıb, sözümü eşidən olmadı. 12 günlük təkadamlıq kamera həyatı, yarıac rejim, ilk tərəddüdlər, yuxusuz gecələr məni o yerə gətirib çıxardı ki, yalançı təxribatçı ifadələr verdim. Bir də güman etdim ki, mənim haqqımda əsl həqiqəti deyərlər, deyərlər ki, mən əksinqilabi təşkilatın üzvü deyiləm, heç belə bir təşkilatın olduğundan xəbərim yoxdur. Amma belə olmadı, müstəntiq mənə inanmadı. Ona görə də acizanə surətdə xahiş edirəm ki,

istintaq əsl həqiqəti – mənim əksinqilabi gizli təşkilatın üzvü olmağımı aşkara çıxarana qədər mənim rejimimi yüngülləşdirəsiniz.»

13 gün sonra, 26 fevral 1937-ci ildə Gerasimovun ünvanına həmin məhbusdan ikinci ərizə gəlir. Görün müstəntiqdən rəisə şikayətin nəticəsi haraya nə olur?

- Axırıncı üç gündə 23 fevral 1937-ci ildən sonra istintaq qarşısında mən özümün iyrənc, biabırçı hərəkətimi tam aydınlığı ilə başa düşdüm. Bəli, mən cinayət etmişəm, rəhbərliyin etimadını doğrultmayıb onları aldatmağa çalışmışam. Mən bütün deyilənləri boynuma alıram. Mən yaramaz və provakatoram. Sizə müraciət etməkdə məqsədim odur ki, partiya rəhbərliyinin yüksək humanizmi naminə mənim birdəfəlik məhv olmamağıma kömək edəsiniz.

Cavid haqqında yazılan bir neçə ifadədən sətirlər: «Ötən ifadəmdə mən H.Cavidin adını çəkmişdim... H.Cavidin casusçuluq fəaliyyətini aşkar etmək üçün arxeoloji tədqiqat lazımdır. Hələ rəhmətlik Nikolayın vaxtında H.Cavid türk şpionu idi, indi isə mənimlə gizli əksinqilabi təşkilatda işləyir...»

«H.Cavidin əksinqilabi fəaliyyətini mən onda görürəm ki, bir-birinin ardınca ideya cəhətdən zərərli əsərlər yazıb. Xüsusən dramaturgiya sahəsində əksinqilabi millətçi əsərlərini sovet səhnəsinə çıxarmağa nail olub. Bu əsərlər türk gənclərinin beynini korlayıb. Keçmiş istilaçıları («Topal Teymur», «İblis») tərənnüm edən bu əsərlərdə panislamist, osmanlı-pantürkist, kamalist, panturanist ideyaları tərənnüm edən Cavidin bir cinayəti də ondadır ki, müasir gənc yazıçıları da öz təsir dairəsinə salıb. Qatı türkçü olan Cavid, nə müddətdir Müşfiqi və S.Vurğunu özünün əksinqilabi, milləçi təsiri altında saxlayır.»

«Cavid deyirdi ki, «Şəhla» pyesinə R.Axundov düzəlişlər və əlavələr eləyib. Sonralar bu pyes Sovet gerçəkliyinə zidd olduğundan brak edildi. 1932-ci ildə qadağan olunan «Telli saz» dramında da böhtancasına Azərbaycanın dağıdılıb parçalandığı ideyasını irəli sürür. Haqlı tənqidi quluqardına vurub deyirdi ki, mən pinəçi deyiləm, göstəriş, qanun və

fərmanla da əsər yazmaq fikrim yoxdur, heç bir tənqid məni öz mövqeyimdən döndərə bilməz, bədii ədəbiyyat sinfi mübarizədən və siyasətdən uzaq olmalıdır.»

43

Zindanın qapısı açıldı. Simonyan içəriyə bir nəfər cavan oğlanı itələyib saldı. Onu o qədər döymüşdülər ki, özündə deyildi. Cavan özünə gəldi. Ətrafına baxdı. Yarımqaranlıq kamerada heç bir şey görə bilmədi. Elektrik çırağı kameranı zəif işıqlandırırdı. Göz gözü, demək olar ki, görmürdü…

Cavidin zəif gözləri kameranın işığına çoxdan alışmışdı. O, burada nə baş verdiyini görürdü. Şair özü-sözünü bilməyən həmin cavanın başını dizi üstə almışdı. Onun özünə gəlməyi gözləyirdi.

Cavan oğlan gözlərini açdı. Başını kiminsə dizləri üstə gördü. Həmin adama diqqətlə baxdı və tanıdı. Tez «Cavid əfəndi» dedi. Cavid soruşdu:

- Bala səni də gətirdilər?.. Kimlərdənsən?
- Həmzə kövrəldi və dedi:
- Naxçıvandanam, Əlixan məhləsində yaşayırıq.

O, kimin oğlu olduğunu söylədi. Cavid onun atasını tanıdı, ancaq bir söz demədi. Məhbus həyatı ona çox şey öyrətmişdi…

Həmzə başını qaldırmaq istədi. Amma şair qoymadı. Əli ilə onun çiynindən basdı, başını yuxarı qaldırmağa mane oldu. O, bu hərəkəti elə ustalıqla etdi ki, necə deyərlər, cavanın ruhu da incimədi. Şair yaxşı başa düşürdü ki, ona göz qoyula bilər. O, izlənilə bilər. Buna görə də çox asta və siyasətcil şəkildə dedi:

- Bala, bu, sovet dövlətidi. Günahın varsa, boynuna alarsan, cavansan, səni bağışlayarlar.

Şair susdu. Ətrafına zəndlə baxdı, sonra sözünə davam etdi:

- Günahkarsansa, onsuz da sübut etdirəcəklər. Yox, əgər günahın yoxdursa, yenə sovet dövlətidi, səni azad edərlər.

Şair bu sözləri ehyamla dedi. Həbsxananın sirlərini Həmzəyə andırmağa çalışırdı. O, son sözləri deyərkən Həmzənin başını dizi ilə azca

yuxarıya qaldırdı. Gözlərini onun gözlərinə zillədi. Bir anlığa xəyalında oğlu Ərtoğrol canlandı. Aman allah! Hə deyirdi o baxışlar?..

*Ya rəbb, bu nə dəhşət, nə fəlakət?*
*Ya rəbb, bu nə vəhşət, nə fəlakət?*
*Yox kimsədə insafü mürüvvət,*
*İblisəmi uymuş bəşəriyyət!*

İstintaq zamanı Həmzə Cavidin sözlərini xatırladı. Anladı ki, ingəncələrə, üzücü sorğu-suallara dözməyib, «günahkar olduğunu» boynuna alanlar həmən güllələnir.

Müdrik şair bir gənci ölümdən, güllələnmədən «xilas etdi». Həmzə Cavidlə bir neçə gün bir kamerada qaldı. Sonra Uzaq Sibirə göndərildi. On beş-on altı il burada qaldı. Sibirdən qayıtdıqdan sonra Cavidin orada həlak olduğunu eşitdi. Buna çox təəssüfləndi. Söz düşəndə iftixarla dedi:

- Mənim həyatımı Cavid əfəndi xilas etdi…

44

Vaxtilə V.İ.Lenini, R.Rollanı müalicə edən Lev Levinə indi böhtan atılırdı. Levinin kiçik oğlu Vladimir Xalq Daxili İşlər Komissarlığında işləyirdi. Atasının tutulmasını eşidən Vladimir onun tutulması haqda Molotova məktub yazır. Molotov ona belə bir dərkənar qoyub Yejova göndərir: Nə üçün Levin NKVD-də yox, narkomdeldədi?.. Vladimirin taleyi bununla həll olunur. Atası öldürüldükdən sonra onu da güllələyirlər. Dikbaşların, artıq söz danışanların, haqq və ədalət axtaranların, Stalinə, Molotova məktub yazanların çoxunun aqibəti belə olurdu. Nə yaxşı ki, Mişkinaz, Ərtoğrol, Turan nə Stalinə, nə də Molotova məktub yazıb. Ancaq Cavid Maqadandan göndərdiyi məktub-lardan birində Mişkinaz xanımdan soruşurdu: «Yazın görüm mənim barəmdə bir yerə şikayət etmisinizmi?»

Mən həmin məktubu oxuyarkən Turan xanıma sual verdim: «Etmişdinizmi?» O, mənə qəribə bir nəzər salaraq dedi:

- O zaman kiməsə şikayət etmək olardı?..

Yəni sənin özünü əlli-ayaqlı aparardılar.

45

Həbsxanalarda dəhşətli cəza üsulları tətbiq edilirdi.

**Şəhla Mümtazzadə** (Salman Mümtazın qızı):

- 1938-ci ildə həbsxanaya atımın görüşünə gələndə dəhşətdən özümü itirdim: Atamın bütün dişlərini vurub sındırmışdılar, üz-gözündə şiş, göy vardı... Atam üç gün əvvəl Mircəfər Bağırovla bərk mübahisə etmişdi. Sonra birbaşa evə gəldi, öz otağına girdi, üç gün heç yana çıxmadı. Topladığı əlyazmalarını qaydaya saldı, bir də nə isə yazdı.

*İnsanlıq bu imişsə, nifrət, binlərcə nifrət,*
*Böylə möhtəris, səfil, alçalmış ömrə lənət.*

Salman Mümtaz:

- Taxta kimi quru çörək verirlər, onu da yeməyə diş qoymuyublar. Amma heç bir şeyi boynuma almıram. Özüm-özümə şər atmayacam.

Stalinizm, Stalin fenomeni üzərində indi çoxları baş sındırır. Stalinizmin, ölkədə böyük miqyas alan repressiyaların köklərini, mənbəyini, tərkib hissəsini axtarırlar. Repressiyaların mənbəyi sovet quruluşu idi. O, sovet diktaturasından, avtoritarizmdən, totalitarizmdən irəli gəlirdi. Kommunist rejimi ölkədə kütləvi yalana, kütləvi donoslara və böhtanlara şərait yaratmışdı. Yalan və böhtanların yanında həqiqət yox idi. O sanki göyə çəkilmişdi.

46

Sovet İttifaqının müxtəlif regionlarında baş verən hadisələr Azərbaycanda təkrar olunurdu, özü də ondan artıq dərəcədə, artıq qəddarlıqla, daha faciəli halda. Məcid Katibli yazır: «1937-ci il idi. Hər gün ağlasığmaz hadisələr baş verir, dəhşətli xəbərlər yayılırdı. Adamların qəlbindən daş kimi ağır nisgil asılmışdı. Onlar bir-birilə görüşüb danışmaqdan, hətta salamlaşmaqdan belə çəkinir, gözə görünməməyə, tək qalmağa çalışırdılar. Elə gün olmazdı ki, kiminsə qohumu, kiminsə dostu,

kiminsə tanışı «xalq düşməni» çıxmasın. Şübhə, qorxu, güman ayaq açıb yeriyirdi. Qəzetlər hər gün müəssisə və idarələrdə, elm və tədris ocaqlarında, şəhərlərdə və kəndlərdə gizli «əksinqilabçı», «qəsdçi», «ziyançı», «trotskçi», «pantürkist», «panislamist» təşkilatçıların aşkar edilməsindən, «xalq düşmənləri»nin əl-qol açmasından yazırdılar». («Kommunist», 11 iyun 1988-ci il).

Hər yerdə «Fiziki təzyiq metodu» tətbiq edilirdi, saxta ittihamlar ayaq açıb yeriyirdi, insanlara çar, şah üsul-idarəsində olduğundan da betər divan tutulurdu. Otuz yeddinci ildə Azərbaycanda 32 raykom katibi, 28 icrakom sədri, 18 narkom və onun müavini, 66 mühəndis, 8 professor, 88 hərbçi həbs edilmişdi. Mircəfər Bağırov Azərbaycan K(b)P XIII qurultayında (iyun 1937-ci il) deyirdi: Bir baxın, Yazıçılar Şurasında kimlər əyləşmişdi. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç və başqa əclaflar! Xalqın qəddar düşməni Ruhulla Axundov nüfuzundan istifadə edərək, Yazıçılar Şurasını bərbad hala salmışdır.

47

Bağırov Azərbaycan SSR Daxili İşlər Xalq Komissarı H.Rizayevi öz kabinetində tapança ilə vurub öldürmüşdü, Tiflisdə Beriya öz kabinetində Ermənistan K(b)P Mk-nın keçmiş birinci katibi A.Xancanyanı güllələmişdi. Nərimanova böhtan atmış C.Orconikidze intihar etmişdi... Bu hadisələr keçmişdə olmuşdu. Buna bənzər hadisələr yetmişinci illərdə Azərbaycanda baş verirdi. Günün günorta çağı Neftçala rayon partiya komitəsinin birinci katibi Təvəkkül Xankişiyev intihar etmişdi. Jdanov rayon partiya komitəsinin birinci katibi Vahid İsmayılov «özünü asıb» öldürmüşdü. Stalinizm davam edirdi, başqa şəkildə, başqa ölçüdə, başqa biçimdə...

48

Yetmişinci illərdə Azərbaycan sovet sosialist respublikasının fəxri vətəndaşı olmaq hamıya nəsib olmur. Ancaq bu, Leonid İliçə nəsib olur.

Leonid İliç ölkənin heç bir diyarına üç dəfə getmir. Fəqət Bakıya gəlir. Bu gəlişin arxasında böyük-böyük niyyətlər, böyük-böyük təltiflər, arzu-diləklər gizlənirdi. Vaxtilə Xruşşov da gəlmişdi. O, Ermənistanda olarkən ermənilər Göyçə gölündən «qızıl balıq tutaraq» ona göstərib, «qızıl balıqlar»ın məhv olmasını dedilər. Arpaçayın ağzını gölə döndərdilər, Naxçıvan su qıtlığına düçar oldu. Leonid İliç sanki yetim qalmış məmləkətin başına sığal çəkir, başını tumarlayır, onu mədh edirdi. Azərbaycan Sovet İttifaqının çiçəklənən respublikasıdır. Ta ki olsun, istəməyənin gözü çıxsın. Fəqət, heyhat! Yuxarılar belə düşünürdü, aşağılar başqa cür. Məclislərdə təriflər ərşə qalxırdı, kütlə ağır yük altında ağır-ağır nəfəs alırdı. Respublikanın ali sovetinin sessiyasında haray salırdılar ki, bu boş hay-küyün, çığır-bağırın arxasında yalan rəqəmlər, cinayət, saxtakarlıq dayanır. Yalan, şişirdilmiş rəqəmlər, korrupsiya, rüşvətxorluq adi bir hal alıb, cəmiyyətin məişətinə, insanların şüuruna hakim olub. Bunun müqabilində Leonid İliçə qiymətli hədiyyələr verilirdi. Bir hədiyyənin isə qiyməti yox idi. O, qaşlı, barelyefli üzük idi. Üzüyün üzərində ağ qızılda Leonid İliçin portreti bərq vururdu. Həmin üzük zərgərlik zavodunda Azərbaycan ustaları tərəfindən böyük sənətkarlıqla hazırlanmışdı. Zavodun direktoru elə bildi ki, dövlətin sifarişilə hazırlanan üzüyün pulu veriləcək. Fəqət verilmədi. Bizim dövlətimiz varlıydı, bir üzük onun üçün nəydi ki?! Direktor dözmədi, ürəyi partlayıb öldü. Böyüklərin xoşbəxtlikləri kiçiklərin fəlakətləri üzərində belə qurulurdu…

*Yetər çıldırdınız hökumət! – deyə,*
*Evləri yıxdınız, ədalət! – deyə.*
*Məzlumlar qanından badə sondunuz,*
*Qarğa-quzğun kibi leşə qondunuz.*
*Qanun deyə doğruluqdan caydınız,*
*Xalqın namusunu heçə saydınız.*
*Aldıqları nəfəs – zəhərli ahlar,*
*Qidasız çocuqlar ot yeyib yaşar.*
*Söylə, öyündüyün ədalət bumu?*
*Hökumət dediyin rəzalət bumu?*

49

Azərbaycan iri addımlarla addımlayırdı, ildə bir qırmızı bayraq alırdı, respublikada «sosial ədalət» hökm sürürdü, «bir milyon ton» pambıq yığılırdı, iki milyon tondan artıq üzüm toplanırdı, cənnət görmək istəyənlər Azərbaycana axışırdılar. Nə idi bu? Keçmiş geri qayıdardımı? Tarix təkrar olunurdumu? Sonradan məlum olacaq ki, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz, İsa Hüseynov, Ziya Bünyadov, Xəlil Rza, İsmayıl Şıxlı və b. namuslu şair və yazıçılar, alimlər, ziyalılar, adi vətəndaşlar rəhbərlərə qarşı öz etiraz səslərini nahaq yerə qaldırmamışlar. Sonradan məlum olacaq ki, Azərbaycan iri addımlarla geriləyir, Azərbaycan uşaq ölümünün sayına görə ittifaqda rekord vurur, xəstəlik uşaqları ana bətnində yaxalayır, qadınlar qadınlığını zəhərli pambıq tarlalarında itirirdilər. Respublikada yalan, riyakarlıq, yaltaqlıq, bürokratizm, mafiya, korrupsiya, rüşvətxorluq, cinayətkarlıq, ədalətsizlik, haqsızlıq tüğyan eləyir, dil açıb danışır. Azərbaycanın sinəsinə çalın-çarpaz dağ çəkilir, elə bir dağ ki, onun sağalmasına on illər lazım gələcək. Bəlli olacaq ki, təmtəraqlı, bərli-bəzəikli sözlərin, öhdəliklərin, vaxtından qabaq və artıqlamasilə doldurulan planların arxasında cinayət dayanır, dəhşət, faciə dayanır. Xalq, zəhmətkeş kütlə aldadılır. Onlarda dövlətə də, rəhbərlərə də, partiyaya da inam itir. Kimə inanasan? Kimə tapınasan? Yer allahlarınamı? Göy allahlarınamı? Ölkənin başqa bir bucağında Adılovlar, Beriyalar kimi tüğyan edirdilər. O yerdə ki, Adılovlar meydan sulayır, o yerdə ki, Adılovların şəxsi həbsxanası var, o yerdə namuslu insanların səsi-ünü duyulmaz.

«Əhaliyi incidən bir hakim, yavrusunu parçalayan bir heyvan qədar şüursuzdur…» («Topal Teymur»)

50

Sov. İKP XIV Ümumittifaq konfransının qətnaməsindən:

- Sov. İKP şəxsiyyətə pərəstiş və durğunluq dövrləri ilə bağlı olan hər hansı halların gələcəkdə təkrarına heç vaxt yol verməyəcəkdir. Bu

hallar sosializm cəmiyyətində dərin deformasiyalar doğulmuş, onun inkişafını on illərlə ləngitmiş, çoxlu insan qurbanlarına, saysız-hesabsız mənəvi itkilərə və ideya itkilərinə səbəb olmuşdur.

Moskvada və Bakıda uca tribunalardan uca sözlər söylənirdi. Dəyirman öz işində idi, çax-çax baş ağrıdırdı. Sovet İttifaqında zorakılıq, qəddarlıq, yalançılıq, bürokratçılıq, «...pokazuxa...» davam edirdi. Rus sovet hökuməti dildə bir, gerçəklikdə başqa siyasət yeridirdi. Kiçik xalqlara, xüsusən türk xalqlarına dərin mənəvi və fiziki zərbələr vurulurdu...

Nikita Xruşşov Stalinin şəxsiyyətə pərəştiş siyasətini və antipatiya qrupunu ifşa etdi. Siyasi represiyalara düçar olmuş on minlərlə sovet vətəndaşına bəraət verildi... Mixail Qorbaçov ondan çox-çox sonralar sovet cəmiyyətinə yeni ab-hava gətirmək istədi. Onun «Perestroyka» və «Demokratiya»sının ən ağır zərbəsi Azərbaycana dəydi... Siyasət həmin siyasət idi...

Mən bu barədə daha geniş başqa kitabımda söz açmışam. Burada, ötəri də olsa, 1988-1990-cı illərdə Quzey Azərbaycanında baş vermiş hadisələrə münasibətimi bildirməklə kifayətlənəcəm.

51

Uca tribunalardan uca sözlər söylənir, fəqət gerçəklikdə başqa siyasət yeridilir.

**Noyabr 1988. Bakı.** Anamız Azərbaycan həyəcanlı, ağır, əsəbi, mürəkkəb günlərini yaşayır. Bu tarixi günlərdə hər bir Azərbaycan türkünün qəlbi milli qeyrət, cəsarət, milli qəhrəmanlıq hissilə alovlanıb yanır, dolub boşalır, beyinlərdə «intiqam» nidaları baş qaldırır. Oxucum, mən bu tarixən zərurətli, əhəmiyyətli məsələlərin üzərindən sükutla keçə bilmərəm. Xalqda milli şüur, milli özünüdərketmə prosesi elə bil ki, inqilabi sıçrayışla inkişaf edir. Ermənistandan qovulmuş, didərgin düşmüş, evsiz-eşiksiz qalmış azərbaycanlıların sayı gündən-günə artır, yüz min nəfərə çatmaqdadır... Stalinin vaxtında 1947-1948-ci illərdə

azərbaycanlılara qarşı yeridilmiş ekspasionist siyasət təkrar olunur, başqa şəkildə, başqa görümdə. Stalinin, Mikoyanın, Qorbaçovun... türk xalqlarına qarşı qəsbkarlıq siyasəti yenidən dirçəlib, çox böyük ustalıqla iki xalqın arasına düşmənçilik toxumu səpilir. Erməni millətçilərinin baş qərargahı – Kreml bu siyasətin beşiyinə çevrilib. Müsəlman məmləkətlərinə, türk xalqlarına qarşı rus şovinistlərinin, erməni terrorçularının hücumu başlanıb. Bizim başçılarımız susur, susmasa da əlindən bir iş gəlmir, haqsızlıqlar, ədalətsizliklər, özbaşınalıqlar haqda millətin tarixinə yeni səhifələr yazılır. Xalq neyləsin ki, onun başçıları başçı deyil...

*- İdrakı sönük başçıların qəfləti ancaq,*
*Etmiş, edəcək milləti həp əldə oyuncaq.*

## VƏZİYYƏT AĞIRDIR

*(Akademiyadakı mitinqdən. 16 mart 1988-ci il)*

«Saat $13^{30}$-da çıxışların məzmunu dəyişməyə» başladı. Bu isə növbəti natiqin – Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri namizədi Əbülfəz Əliyevin sayəsində oldu. Özündən qabaq danışanlara minnətdarlığını bildirəndən sonra dedi ki, biz ermənilərin, daşnakların tarixini öyrəndik, onların bizə etdiyi zülmlərlə tanış olduq, hərəkətlərini pislədik. Ancaq bununla iş qurtarmır.

Vəziyyət ağırdır, onu düşünməliyik.

Ermənilər «Qarabağ» komitəsi yaradıblar. Aldığımız məlumata görə, burada gənclərdən ibarət müdafiə şöbəsi fəaliyyət göstərir.

Bu gün respublikamızın əleyhinə bütün dünyada güclü ideoloji və maddi təxribat aparılır. «Amerikanın səsi», «Azadlıq», «Bi-bi-si» və b. radiolara qulaq asın, görün xalqımızın haqqında nə deyirlər. Sumqayıtdakı hadisələri biz «xuliqanlıq», «Cinayətkarlıq» adlandırdıq. Dünya radioları bundan istifadə edib xalqımıza «talançı» deyir. Halbuki bu işdə düşmən əli vardır.

Nyu-Yorkda buraxılan ingiliscə «Qlasnost» jurnalının Moskvada yaşayan müxbiri, yaradıcılarından biri Qriqoryantsın nümayəndəsi

Andrey Şelkov qırğın vaxtı Sumqayıtda olub, hadisələri lentə alıb və xaricə ötürüb. Onlar hadisələrin olacağını haradan bilirdilər? İkinci sual: şəhərin dövlət təhlükəsizliyi orqanları harada qalmışdı?

Bu sözlər alqışlarla qarşılandı. Ancaq az qala bütün varlığı sim kimi gərilmiş Əbülfəz müəllim əsəbi şəkildə dedi: - Əl çalmayın! Artist deyiləm ki, əl vurursunuz! Dərdimizdən danışırıq, düşünək, görək hansı çıxış yolumuz var.

Ermənilər Moskvada hər bazar günü qəbiristanlıqlarda yığıncaqlar keçirirlər. Rusları da bura cəlb ediblər.

Bəyannamə buraxan daşnaklar Dağlıq Qarabağdan başqa Naxçıvan, Daşkəsən, Gəncə, Xanlar və Şamxoru da istəyirlər.

Mən təklif edirəm ki xalqımızı erməni hücumundan qorumaq üçün müdafiə cəmiyyəti yaradılsın. Adını sonra da dəqiqləşdirmək olar. Kim cəmiyyətin üzvlüyünə kimi məsləhət bilirsə kürsüyə çıxıb namizədini desin.

Bu vaxt (saat $13^{44}$) birinci katib[*] Xəlil Xəlilov mikrofona yaxınlaşıb rəsmi sözlərlə bildirdi ki, ortada sənədlər, müraciət var. onsuz da düşmənlərimiz aranı qızışdırmaq istəyirlər. Bu da bəhanə olar.

Siz burada S.Tatlıyevin, Dövlət Təhlükəsizliyi Komitəsi əməkdaşlarından birinin buraya gəlməsini tələb etdiniz. Gəlin gələn birinci günədək (ayın 21-inədək) gözləyək. Camaatın bir sözlə «yox!» deməsi X.Xəlilovu kürsüdən düşməyə məcbur etdi.

[*] AKP 26-lar rayon partiya komitəsinin birinci katibi – Ə.T.

## AZƏRBAYCAN XALQINI MÜDAFİƏ CƏMİYYƏTİ YARATMIŞIQ

*(16 may 1988-ci il Azadlıq meydanındakı mitinqdən)*

$14^{58}$-də universitetin rektoru Yəhya Məmmədov tələbələri sakitliyə çağırdı. Ona da sonadək danışmağa imkan vermədilər. Əbülfəz Əliyev xalq içərsindəki nüfuzundan istifadə edərək meydandan dağılmaq istəməyən cavanları yumşaltmağa çalışdı. O dedi ki, mətbuatda, televiziyada hadisələr düzgün işıqlandırılsaydı belə vəziyyət yaranmazdı. İndi sözümüzü dedik, tədbir görməsələr yenə yığışarıq *(Camaat dağılmadı)*.

«Əbülfəz bəy isə dedi ki ($15^{33}$), Azərbaycan torpağı uğrunda son damla qanımızadək vuruşacağıq. Torpaqdan pay olmur, Vətən müqəddəsdir, Xalq gücü böyük şeydir. Ancaq biz bir-birimizi eşitməyi də bacarmalıyıq. Biz yalnız ədalətlə qalib gələ bilərik. İğtişaşlar bizə baha başa gəlir. Unutmayın. Biz Azərbaycan xalqını müdafiə cəmiyyəti yaratmışıq…

DQMV* ləğv olunmalıdır. Poqosyan və onun bandası götürülməlidir.

Siyasi şüurumuz Amerikadakı zəncilərdən qat-qat aşağıdır. Gözəl, böyük alimlərimiz var, ancaq vətəndaşlıqları yoxdur… Elan etməklə xalq cəbhəsi olmaz!..»

52

Azərbaycandan Ermənistana gedən ermənilərin sayı qat-qat az, Ermənistandan Azərbaycana qovulan azərbaycanlıların sayı qat-qat çoxdur. Bu, xalqın milli heysiyyətinə, mənliyinə toxunur. Beyinlər qızışır, beyinlər alovlanır, intiqam hissi vulkan kimi püskürür, beyinlərdə qəzəb tüğyan edir, hər gələn idrakı sönük rəhbər ölkəni özündən əvvəlkindən betər günə qoyur. İnsanlar, xalq çaşbaş qalıb. Kimə inanasan? Bu, siyasi

---
* Dağlıq Qarabağ Muxtar Vilayəti

oyunbazlıq deyilmi? Bu siyasi oyunbazlıqda udan kimdi, uduzan kim?.. Məncə, udan siyasi oyunbazlar, uduzan xalq, kütlədir. Kütlənin passivliyi öz başında çatlayır, onun uzun illərdən bəri şüuruna, psixologiyasına yeridilmiş müti tabeçilikdən, ətalətdən yaxa qurmarmaq hələm-asan məsələ deyil.

*Bir ölkə ki səsi-ünü çıxmaya,*
*Haqsızlığa qarşı yumruq sıxmaya,*
*O bir məzarlıq ki, görənlər şaşar,*
*İçində həp canlı ölülər yaşar.*

Erməni ekstremistləri Manuçarovlar, Aqanbekyanlar, Vazgenlər «Böyük Ermənistan» xülyası ilə yaşayırlar, tarixin təkərini geri döndərməyə, Azərbaycandan yeni torpaqlar qoparmağa çalışırlar. Millətçi «Krunk» təşkilatının başçısı, gizli milyonçu A.Manuçarov, onun əlaltıları B.Arakelyan, Ş.Vavesyan, A.Nersesyan, A.Barseqyan, Q.Mesropyan, A.Kasyan, S.Atoyan, A.Abramyan, A.Babayan, R.Sarkisyan, Poqosyan Qarabağda at oynadır. Erməni quldur dəstələrinə başçılıq edirlər. Böyük xristian dövlətlərindən dəstək və yardım alırlar.

Mən bu sətirləri 1988-ci ilin noyabrın iyirmi səkkizində yazıram. Fikrimi bir yerə cəmləşdirməyə çalışıram, fəqət dağınıq, dibsiz fikirləri bir yerə yığmaq mənimçün çətindir. Artıq on bir gündür ki, respublikamızda, onun paytaxtı Bakıda, mərkəzi Lenin meydanında mitinqlər keçirilir. İnsanlar sel təki meydana axışır, ora gündə yüz minlərlə adamla dolub boşalır. Erməni ekstremistlərinin, daşnaklarının qanunsuz hərəkətləri, Azərbaycan respublikasının suverenliyinin, konstitusiya hüquqlarının pozulması, Dağlıq Qarabağda yaranmış təhlükəli vəziyyət xalqı narahat edir, düşündürür, qəzəbləndirir. Böyükdən kiçiyə, ağsaqqaldan ağbirçəyə hamı ayağa qalxmışdı, erməni ekstremistləri və millətçilərinin özbaşına hərəkətlərinə son qoyulmasını tələb edir. Mənim qırx beş yaşım var, birinci dəfədir ki, belə izdiham, xalqın birliyini, həmrəyliyini görürəm. Bu, əsl xalq hərəkatıdır. Onun rəhbəri Əbülfəz Əliyev – Elçibəydir!

Meydan hərəkatı! Meydan epopeyası! Şimali Azərbaycanda meydan hərəkatı başlanmışdır. Azərbaycan xalqı Azərbaycanın milli azadlıq tarixinə yeni səhifələr yazır…

Qorbaçovun yenidənqurması yenidənqırma ilə nəticələnir. Bir-birinin ardınca Bakıda hərbi vəziyyət elan edilir. Xalqı qabaqda 20 yanvar hadisələri gözləyir. Ermənipərəst Moskva həmin qırğına ciddi hazırlaşır…

Ermənilər həddini aşıblar. Dünyanı yalanları ilə işğal ediblər. Onlar getdikcə azğınlaşıblar. Azərbaycandan yeni torpaqlar qoparmağa çalışırlar. Bu işdə onlara rəsmi Moskva, Vaşinqton və Paris dayaq durur…

Azərbaycan təklənibdir. Azərbaycan dünyadan haqq və ədalət umur, ancaq haqsızlıq, ədalətsizlik və zorakılıqla qarşılaşır. Azərbaycan dünyanın demokratik qüvvələrini köməyə çağırır.

Əbülfəz Elçibəy:

- Təklənmiş xalq başçısından da təklənməməlidir. «Zalımın zülmü varsa sevənin də Allahı var». Vəzirova və Polyaniçkoya dedim ki, siz karyera uğrunda vuruşursunuz, biz vətən uğrunda… İndiki fəaliyyətimiz Qarabağ üzərindədir. Laçını qüvvətləndirməliyik. Orada üç gündür dava gedir. Bizdən iki nəfər ölub, ermənilərdən də ölən var. Laçın Qarabağın darvazasıdır…

Mən azadlığın və demokratiyanın təntənəsinə inanıram!..

İnsanlar sel kimi Bakının küçə və meydanlarından keçir. Sel gücünü görmüşəm, el gücünü görürəm. İzdiham sanki vulkan kimi püskürür. İnsanların əsəbləri gərginləşib. Ölkənin Ali Sovetinin bu ilin iyulunda qəbul etdiyi qərarın Dağlıq Qarabağın partiya və sovet rəhbərləri tərəfindən yerinə yetirilməməsi, əksinə, daşnakların millətlərarası münasibətləri gərginləşdirməsi xalqın güclü narazılığına səbəb olmuşdur. İzdihamdan səslər, şüarlar qopur. Hamı bir ağızdan deyir: «Bakı gözəl şəhərdi ermənilər olmasa», «Qarabağ! Qarabağ», «Qarabağ bizimdir!», «Erməni ekstremistlərinə, millətçilərinə, ölüm!»

Bütün rayonlardan Bakıya nümayəndələr axışıb gəlir. Onlar bakılılarla həmrəy olduqlarını bildirirlər. Mitinqdə məsul partiya və sovet işçiləri, ziyalılar, alimlər, fəhlələr, kəndlilər, gənclər çıxış edirlər. Hamı xalqın dediyini deyir, hamı əmin-amanlığa, şüurlu, intizamlı hərəkətə, təmkinliyə çağırır. Və buna da əməl olunur. İnqilab beşiyini xatrladan mərkəzi meydanda yüzlərlə plakatlar asılıb, ağızlardan yüzlərcə çağırış, şüar çıxır, çadırlar qurulub, gecələr yüzlərcə tonqal qalanır. Tribunada Babəkin büstü qoyulub, bunun dərin rəmzi mənası var. Mən oxuyuram:

- Ölərik əldən əgər getsə vətən!..
- Qarabağ bizimdir!
- Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyat verilsin!
- Dağlıq Qarabağın muxtariyyatı ləğv edilsin!
- Rədd olsun erməni millətçiləri!
- Öldü var, döndü yoxdu!
- Tı rab, tı vor, tı armənin (Puşkin).*
- Ankara-Bakı-Təbriz – güc birlikdədir!
- Azərbaycan həkimləri sizinlədir!
- Yaşasın Azərbaycan – gürcü dostluğu!
- Azərbaycan xalqına eşq olsun! (Bu şüar həm latın, həm də rus qrafikası ilə yazılıb).
- Bizim haqlı tələbəlrimiz yerinə yetirilsin!..

Xalq teatrının aktyorları meydana şəbihlə daxil olurlar. Eşşək və donuz başları yaxşıca yaraşığa mindirilib. Biri Poqosyanı, o birisi Balayanı təmsil edir. Vazgenin millətçi Andronik təki qulağı kəsilib əlinə verilib.

Stalinin vaxtında xalqın ağzına qıfıl vurulmuşdu. İndi həmin qıfıl açılıb. Hansı yaxşıdı? Bu suala qoy oxucular cavab axtarsınlar. Ancaq bir həqiqət var ki, uzun illərdi demokratiya xalqın əlindən alınmışdı. İndi

* Əslində Lermontovun sözləridi. «Sən qulsan, sən oğrusan, sən ermənisən.»

demokratiyaya yiyələnirik. Biz ona tam yiyələnə biləcəyikmi? Bunu tarix göstərəcək. Artıq neçə gündür ki, Bakıda xüsusi vəziyyət elan edilib, əsgərlər hərbi zirehli maşınlarla doldurulub. Mən xalqımın səsinə səs, harayına haray verib deyirəm: Nə qədər ki, Aqanbekyanların, Balayanların, Poqosyanların burnu ovulmayıb, Azərbaycan xalqına rahatlıq olmayacaq!..

Oxucu dostum, Azərbaycanda baş verən hadisələrin tarixi əhəmiyyətini bütün incəliyilə dərk etməyə zaman gərəkdir. Mən tarixçilərin kitablarını gözləyirəm, şairin isə qiymətli sözlərini oxucuların nəzərinə çatdırıram.

*Mən bir türkəm, dinim, cinsim uludur*
*Sinəm, özüm atəş ilə doludur.*

54

**Yanvar 1919.** Milli Komitənin sədri Mir Hidayət Seyidzadənin İrəvan quberniyası müsəlman nümayəndələrinə müraciətindən: - Son zamanlar ermənilər Zəngəzur uyezdinə, bizə, Şərura və İrəvan uyezdinə qarşı yenə də özlərinin düşmənçilik hərəkətlərinə başlamışlar; onlar bizim kəndlərə hücum çəkir, böyük soyğunçuluq edir, əhaliyə işgəncə verirlər, Zəngəzur uyezdində iyirmiyəcən kənd öz doğma yurdlarını atmışdır, xilas olmaq üçün İrana, Qarabağa və bizim şəhərə qaçmışdır.

Bu cəhətdən onların məqsədi budur ki, əgər buna onların gücü çatarsa, Zəngəzur, Şərur, Naxçıvan və Ordubad uyezdlərinin bütün müsəlmanlarını doğrasınlar, uyezdi bütün müsəlmanlardan «təmizləsinlər» və gələcək sülh konfransında xalqlara sübut eləsinlər ki, həmin yerlər onlarındı və onları Ermənistanın ərazisi elan etsinlər, ona görə ki, bütün xalqlar müsəlmanlardan təmizlənmiş uyezdləri ermənilərinki hesab edirlər... Hər yerə, hara baxsan, hər yerdə müsəlman qaçqınlarıdır, hər yerdə qadın və qız ağlaması eşidilir. Nə vaxta qədər bizim hökumət yad adam kimi öz müsəlman qardaşlarına işgəncə verilməsinə, onların məhv edilməsinə soyuqqanlı baxacaq, ermənilərin tamamilə bizim müsəlman-

lara qarşı yönəldilmiş darmadağını nə vaxtadək davam edəcək? Nəhayət, başqa xalqlara mərhəmətli olan amerikalılar və avropalılar bizim xalqın taleyini nə vaxt öz əllərinə alacaqlar. Bizim Gəncədə və Bakıda yaşayan qan qardaşlarımız öz torpaqlarında yaşayan qardaşlarını nə vaxt yada salacaqdırlar. Əgər ermənilər həmin ərazidən müsəlmanları* təmizləsələr, burada bizim xalqımızdan bir iz də qalmayacaq, onda burada bizim varlığımızdan, bizim istəyimizdən və cəhdlərimizdən yalnız bircə arzu qalacaq.

Bu qədər quldurçuluğa və talançılığa qarşı bizim xalqımız tərəfindən heç bir tədbir görülməmişdir. Bizim xalqımızın bu fəaliyyətsizliyi və bizim hökumətimizin hərəkətsizliyi bizim xalqımızın vəziyyətini daha da dərinləşdirir. Bizim millətimiz tərəfindən hər hansı bir addım atılmasına ümidini itirən bizim gənclərimizdən kimi hara bacarırsa ora da qaçır...**

55

Dünən olmuş hadisəylə 1988-1990-cı illərdə baş verən hadisələr arasında nə qədər də böyük oxşarlıq var!.. Ermənilər ermənipərəst Moskvaya güvənərək, yenə Azərbaycanda dəhşətli qırğınlar, talanlar törədir, xaricdən dəstək, silah-sursat alırlar.

*Məkr!*
*Təbii zəlzələ fəlakətdir,*
*Qurama zəlzələ cinayətdir.*
*Ən əvvəl günahsız xalqım,*
*Sonra da günahı olmayan*
*İki xalq, iki millət...*
*Mənim qəlbi yuxa,*
*Mərd, günahsız xalqım.*
*Heç vaxt olmayıb*
*Tək-tənha,*
*Arxasız, köməksiz,*
*Pənahsız xalqım.*

---

* Azərbaycan türklərini

** Azərbaycan SSR EA Xəbərlər (tarix, fəlsəfə, hüquq), 1989, №2, səh. 130 (Əsas mənbə: «Azərbaycan» qəzeti 14 (I) yanvar 1919, rusca)

*Məkr!*
*Söhbət təkcə*
*Qarabağ söhbəti deyil.*
*Burada*
*Azərbaycan dilinin*
*Dövlət və səlahiyyət*
*Bayrağı yüksəlir,*
*Məkr!*
*Başa düş!*
*Azərbaycan torpağı*
*Xuliqanlarıyla yox,*
*Qəhrəmanlarıyla yüksəlir,*
*Məkr, başa düş!*
*Şahə qalxan ata*
*Qamçı qaldırma,*
*Məkr!*
*Mərdi namərdə qatıb*
*Tora saldırma.*
*Məkr!*
*Məkr!*
*Erməni dönüb gəldi*
*Yenə Azərbaycana.*
*Azərbaycanlı neçin*
*Bəs qayıda bilməyir*
*Yurdu Ermənistana.*

Mənim ulu, igid, qəhrəman, mehriban, məhəbbətli, sədaqətli, müdrik, uzaqgörən xalqım həmişə odun üstünə su tökməyə, dostunan dost, qonşuynan qonşu, yadla yad, düşmənlə düşmən təki davranmağa çalışıb. Mənim qorxmaz xalqım – Azərbaycan türkləri milli ədavət toxumunun cücərti verən gözünü dağlayıb ki, törəmə verməsin: millətlər arasında düşmənçilik ehtiraslarının qızışdırılmasının dəhşətli nəticələrini bildiyi, ona ölçümlü, biçimli, duyumlu, soyumlu yanaşdığı üçün; tarixin ibrət dərslərini müdrik ağsaqqal kimi tərəzinin gözünə qoyub çəkdiyi üçün.

Ey Azərbaycan türkü! Dünən və bu gün tarixdə baş vermiş və verən hadisələri unutma! Yadında yaxşı saxla. Sənin şanlı, qanlı tarixin var, əsl-nəcabətin, qeyrətin, mədəniyyətin var, sən ermənilər kimi quldur, qaniçən, qəddar ola bilməzsən. Ağılla görülən iş uvand olar. Bir də ulu

şairimiz Cavidin düşmənin başından da qiymətli sözlərini yadından çıxarma:

*İlk istəyim: hiç bir zaman sevgidən əl çəkməyin,*
*İnsan oğlu sevgi için yaradılmış, doğmuşdur.*
*Yery üzünü qardaş bilin, insan qanı dökməyin,*
*Bu dünyada bir qaşıq su  çoq zalimlər boğmuşdur.*
*Arslan kibi cəsur olun, fəqət haqsız çıqmayın*
*Haqsızlığa qarşı qoyun, buraxmayın şımarsın*
*Zalımları, cəlladları çeynəyin, hiç qorqmayın,*
*Türk milləti, görülməmiş boyun büksün, yalvarsın.*

## İ k i n c i  h i s s ə

### Canlar yaqar, ellər yıqar insan

1

Cavid iki ildən çox idi ki, həbsxanadaydı. Ona «hörmət» edirdilər. Tutulanlar artıq məhv edilmişdi. Müşfiq, Seyid Hüseyn, Əhməd Cavad... Onların harada asılıb-kəsilməsi də məlum deyildi. Ancaq Cavidə «hörmət» edirdilər, öldürmürdülər. Fəqət şairi ölümdən betər günlər gözləyirdi. Namuslu, vicdanlı adamlar Cavidin həyatını xilas etmək barəsində düşünürdülər. Son sözü, son fərmanı SSRİ XDİK yanında Xüsusi Müşavirə deməli idi.

Keçmiş hadisələrin üstündən qırx il keçəcək, Nurəddin Babayev belə yazacaq: «1937-ci ilin avqust ayı idi. Məktəbdən qayıdanda gördüm ki, atalığım Məmmədəli Əlizadə divar peçini qalayıb, özü də qabağında əyləşib. O, böyrünə yığdığı kitabları, köhnə qəzet və jurnalları bir-bir peçə tullayır, çırthaçırtla yanmağını gözləyirdi. Məni görəndə günahkar nəzərlərlə üzümə baxıb dedi: «Bala, hirslənmə, əgər məni tutsalar, bu kitabların hər biri cəzamın bir il artmasına səbəb olacaqdı. Əhməd Cavadın kitabları kimi...» Əyilib həmin kitabların arasından Hüseyn Cavidin «Səyavuş»unu, Əhməd Cavadın «Otello»nun tərcüməsini, bir də Mikayıl Müşfiqin «Duyğu yarpaqları» adlı rübailərinin çap olunduğu «Ədəbiyyat» qəzetini götürdüm...»

Cavidin, başqa yazıçı və şairlərin kitabları, qədim əlyazmalar tonqallarda, ocaqlarda, sobalarda, təndirlərdə yandırılırdı, torpağa guylanırdı. Xalqın mənəvi sərvətinə qəsd edilirdi. Tarix isə nadanların, despotların hərəkətinə gülürdü, Stalindən, Yejovdan, Beriyadan qorxub cınqırını çıxarmırdı.

2

Şair həbsxana divarları arasında qalmaqdan cana doymuşdu. Azadlığa çıxmaq, azad nəfəs almaq istəyirdi. Heyhat! Bəxtiyar şair! Gör hansı xəyallarla yaşayır? O, tələsirdi, yazı masasının arxasında oturmaq,

sel kimi axan fikirləri kağız üzərinə köçürmək istəyirdi şair. Heyhat! Gör hansı arzularla yaşayır bəxtiyar şair. Sən saydığını say, gör fələk nə sayır?

*Bir xəyal iştə – məhal olsa – bən*
*Tanrı olsaydım əgər gerçəkdən,*
*Ya bu insanları xəlq etməz idim,*
*Əgər etsəm, yaşadardım daim*
*Şadü məsud… O da olsaydı məhal*
*Yaqaraq həp kül edərdim dərhal.*

Ümid Cavidin ən böyük təsəllisiydi. Şair təsadüfən deməmişdi: Ümiddir qayələr qayəsi, acıdır ümidsizliyin meyvəsi. Cavid ruhdan düşürdü, bütün kainata, insalara, allahlara qarşı üsyana qalxmaq istyirdi, ümidlərin ağuşuna atılıb azad, sərbəst nəfəs almağa can atırdı. Böyük ürəkli, böyük qəlbli Mişkinaz xanım – Gözəl ana ərinin istəyini, arzusunu, məsləhətlərini yerinə yetirməyə çalışırdı. Vaxtlı-vaxtında ona yemək, dəyişəcək aparıb verirdi. Əri, ütülənmiş, səliqəli dəyişəcəklərdən arvadının əlinin ətrini, evinin qoxusunu duyurdu. Ancaq bu qoxu, o qoxuya bənzəmirdi. O qoxuya ki, Cavidin ömrünün on yeddi ili həmin evdə keçmişdi. O qoxuya ki, şair «Peyğəmbər», «Topal Teymur», «Atilla», «Çingiz», «Səyavuş», «Xəyyam» kimi şah əsərlərini o evdə yazmışdı.

Oxucu dostum! Zindandakı dözülməz şərait onun iradəsini sındıra bilmədi. Onu daha dözümlü, daha mətin və sınmaz etdi. Şair ölümə hazır idi, ta ki, adına iynənin ucu qədər ləkə gəlməsin.

Cavid başqa cür olsaydı Cavid olmazdı. Olsaydı, Cavid şəxsiyyəti və sənəti bugün bizim üçün çox cılız görünərdi.

Cavid bir neçə dəfə həbsxanada dindirilmişdi. O, heç bir şeydə özünü günahkar hesab etmirdi. İstintaq prosesində elə bir ciddi sübut da aşkara çıxarılmamışdı. Ona əziyyət də verilmişdi, fəqət o, müstəntiqləri təmin edən yalan ittihamları, uydurma sübutları təsdiq etməmişdi.

Cavid fikirləşərkən, işlərkən həmişə sağ əlinin şəhadət barmağı ilə alnını döyəcləyərdi. Fikrini bir yerə toplamağa çalışardı. O, beləcə işlər, fikrə, xəyala dalardı, fikir karvan kimi baş alıb gedərdi. Bu, şairdə artıq

adətə çevrilmişdi. Həbsxanada onu yazmaqdan və oxumaqdan məhrum etmişdilər. Ancaq düşüncədən, fikirdən yox. Şair qeyri-iradi barmağını döyəclədiyi yerə apardı, həbsxana divarları arasında dərin fikrə daldı…

3

**19 dekabr 1938.** Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı birinci xüsusi şöbəsinin rəisi Koqan Suxanov Cavid haqqında məlumat hazırlayır. «Xidməti qeyd» adlanan həmin məlumatda belə yazılır: «Xüsusi sərəncama qədər məhkum Hüseyn Cavid daxili həbsxanadan heç yerə keçirilməsin».

4

**1934-cü il idi.** SSRİ Şura Yazıçıları İttifaqı təşkilat komitəsinin plenumu keçirilirdi. Plenumda Hacıbaba Nəzərli məruzə edirdi. Onun məruzəsindən sətirlər: «Cavid tərəfindən son üç il ərzində yazılan «Dəli Knyaz» və «Səyavuş» dramları və «Azərdən parçalar» bu yazıçının da daxilində bir dəyişiklik əmələ gəlməkdə olduğunu göstərir. Lakin Cavidin yenidən qurulması başqalarına nisbətən daha ağır, daha asta gedir. Cəfər Cabbarlı şura Azərbaycanın talantlı dramaturqlarından biridir. O uzun müddət (1920-ci ilə qədər) yazdığı əsərlərdə pantürkizm və panislamizm ideyaları yürüdürdü («Yulduz» və «Ədirnənin fəthi».) («Ədəbiyyat qəzeti», 15 aprel 1934-cü il).

Nəzərli plenumda bu sözləri deyərkən Cavid «Xəyyam», «Azər» və b. əsərlər üzərində düşünürdü, işləyirdi, Cabbarlının səhhəti isə yaxşı deyildi. Onun ölümünə səkkiz ay qalmışdı.

Sovet adamları – sovet fəhlələri, kəndliləri, ziyalıları, qulluqçuları, hərbçilər iş başında, evdə, zəmidə, tarlada, vəzifə başında, dəzgah arxasında, idarədə, xırmanda, gecə evdə yatdığı yerdə yaxalanırdı. Şamaxının Təklə kəndində bir gündə altmış kolxozçu, İsmayıllının Kürmaşı kəndində yetmiş altı nəfər tutuldu. Onların arasında cavanı da,

qocası da var idi. Onların yaşı on səkkizdən yetmişədək idi. Nə idi kolxozçu kəndlilərin günahı? Heç kəs bilmirdi.

Təklə kəndində gecə yarısı tükürpədici səslər eşidilirdi:

- Mənim heç bir günahım yoxdu, yoldaşlar! Mənim günahım yoxdu!..

Səs, səsə, hıçqırıq, hıçqırığa qarışmışdı. Kəndin başı papaqlı kişiləri cürət edib eşiyə çıxa bilmirdilər. Qarmaqarışıq haray səsləri eşidənlər özlərini eşitməzliyə vururdular. Evindən kişi aparılan qadınlar, oğlu aparılan analar, atası aparılan uşaqlar şivən qoparırdılar. Sanki faşistlər Şamaxıya, İsmayıllıya... girmişdilər. Bakıda gecə yarısı Xəzər Gəmiçiliyi İdarəsinin partiya komitəsinin katibi Müzəffər Nərimanovun boğuq səslə dediyi sözlər şəhərə yayılırdı: «Əclaflar! Faşistlər! Alçaylar!..»

İsmayıllıda tutulanların ana-bacı və arvadlarının harayı dağlara dəyib əks-səda verirdi. Hansı cinayətlər, hansı fəlakətlər, hansı faciələr törədirdi azğın bəşər, bunu dərk edirdimi?..

## 5

**Əliheydər Babayev:**

- İki epizod heç vaxt yadımdan çıxmaz. Birincisi, gecə yuxulu gözlərimizi qamaşdıran lampa işığında evimizin küncünə qısılaraq, axtarış ağ paltarlı şübhəli adamlara vahimə içində baxmağımız. İkincisi, səhərisi Şamaxıya aparılan kişilərin həbs olunduğu haqqında Təklə kəndinə xəbər yayılanda bütün həyətlərdən gələn ah-vaylı ağlaşma səsləri. Onda beş uşaqlı anamın ən böyüyünün on iki yaşı vardı. Anamın dərdi, özü dediyi kimi, yerə-göyə sığan deyildi.

Molotovun ölkədə müxtəlif dillərdə üç qəzet səhifəsi həcmində məqaləsi dərc edilmişdi. Məqalə belə adlanırdı: «Trotskiçilərə və başqa düşmənlərə, təxribatçılara və casuslara qarşı mübarizədə bizim vəzifələrimiz». Bu məqalənin şərəfinə kollektivlərdə sosialist öhdəlikləri götürülürdü: hansı kollektiv daha çox trotskiçi, xalq düşməni, təxribatçı,

casus aşkara çıxaracaqsa, planlı təsərrüfat sistemi burada tətbiq edilirdi. Çaşmışdı bəşəriyyət, yolunu azmışdı rəhbərlər.

Beriya ölkənin baş cəlladı olaraq, ağır və ağlasığmaz cinayətlərə əl atmasilə rəhbərin nəzərində ucalmağa, onu inamını qazanmağa can atırdı. Milyonlarla günahsız insanın qanı onların gözlərini örtmüşdü. Bilmirdilər ki, bu gün olmasa da, sabah o milyonlar qara torpağın altından baş qaldırıb bu günkü cinayətlərin haqq-hesabını istəyəcəkdir. Təkcə onlar yox, mən də, sən də, o da.

6

Azərbaycanda tutulanların bir hissəsi Bulla adasında güllələnirdi, balıqlara yem olurda. Sovet repressiyası bəşəriyyət tarixində insanlara qarşı edilmiş cinayətin bəlkə də ən dəhşətlisi, insanlara qarşı amansız hücumun ən təhlükəlisi idi. Həbs düşərgələrindən, həbsxanalardan adamlar güllələnməyə on-on, on beş-on beş aparılırdı. Serqo Orconikidzenin arvadı Zinaida Qavrilovnanın kürəyinə qızarmış dəmirlə dağ basırdılar. Həbs düşərgələrində, həbsxanalarda hamıya, demək olar ki, eyni cəza, işgəncə verilirdi. Məhbuslar on-on iki saatadək boğaza qədər sidik içərisində saxlanırdı. Kameralar tabut təki hazırlanırdı; bir metr iyirmi santimetr hündürlüyündə. Nə qəddini düzəldə bilirdin, nə uzana bilirdin. Günlərlə yarıbükülü şəkildə qalırdı zavallı insan, taqətdən düşür, ayaqlar kötüyə dönürdü. İnsanları ağır işgəncələr gözləyirdi, elə işgəncələr ki, yalanı, böhtanı boynuna almaqla ölməyi yaşamaqdan üstün tutsunlar. Yejov, Beriya, NKVD işçiləri dustaqları inandırmağa çalışırdılar ki, günahlarını boyunlarına alsalar həyatları qorunacaq, evlərinə-eşiklərinə buraxılacaqlar, əks təqdirdə ailəni də, yaxın adamları da, qohumları da, hətta körpələri də ölüm təhlükəsi gözləyirdi. İnsanlar isə bu cür şirin, hiyləgər, siyasətcil vədlərə inanındılar. Allanırdı zavallı bəşər, allanırdı. Yalnız allanmırdı, aldadılırdı ümidli bəşər. Bu gün biz olb-keçənlərdən asanlıqla danışırıq, buna imkanımız, hüququmuz, mənəvi haqqımız var. Bəs onda? O qanlı-qadalı illərdə necə? Biz o zaman yaşasaydıq necə

olardıq? Bu suallara cavabı oxucuların öhdəsinə buraxıram. Fəqət fikrimi onlardan gizlətmək niyyətində də deyiləm. İnamım belədir: Kimimiz bu günə üzüqara, kimimiz üzüağ, alnıaçıq gələrdik. Bütün dövrlərdə belə olmuşdur: Cahan öz qoynunda kişiləri də, nakişiləri də, mərdləri də, namərdləri də, ficdanlıları da, vicdansızları da, həqiqət yolunda özünü qurban verənləri də, cəlladları da bəsləmişdir.

7

Azərbaycan fəhlələri, kəndliləri, ziyalıları İspaniyada, Madriddə baş verən dəhşətli hadisələrdən danışırdılar. İspaniyalı uşaqların acından ölməməsi üçün öz ağızlarından tikələrini çıxarıb onlara verməyə hazır idilər. Ta ki körpələr ölməsin, ta ki cocuqlar yaşasın. Ürəyiyumşaqlıq, halayanımlıq, humanizm, vətənpərvərlik, qəhrəmanlıq bu xalqın qanında, canındadır. Bu xalq dostlara qarşı nə qədər ürəyi açıqdırsa, düşmənə qarşı bir o qədər sərt və amansızdır. Çünki bu xalqın qanında Dədəm Qorqudun qanı var, bu xalqın ürəyində Dədəm Qorqudun ürəyinin döyüntüləri eşidilir; bu xalqda Qorqud müdrikliyi, Qorqud təmkinliyi, Qorqud ağlı, kamalı, Qorqud uzaqgörənliyi, Qorqud vəsiyyəti var. Yetmiş ildən sonra ermənilər, daşnak törtöküntüləri Qorqud vətənindən torpaq qoparmaq istəyirlər. Bilmirlər ki, Qorqud dədəmiz bizə tapşırıb ki, qonşun nə istəsə ver, əl tut, kömək elə, hətta canını, ürəyini də ver. Ancaq torpağını, qeyrətini, ar-namusunu vermə. Dədəm Qorqudun vəsiyyətinə qarşı çıxmağa kimin, hansı türkün haqqı var? Torpaq bir xalqın namusudur, qeyrətidir, şərəfidir, şöhrətidir.

8

Cavid öz xalqının səsinə qulaq asıb, bir küncə çəkilib, öz balaca iş otağında yazıb-yaradırdı. «İblisin intiqamı» dramı üzərində işləyirdi. Dramada İspaniyada baş verən hadisələri təsvir edirdi. Faşizm mövzusunu ədəbiyyatımıza gətirirdi.

- İspaniya getdikcə qarışır. Hər könüldə kin və dəhşət, hər ağızda qan qoxusu var. Ölkə və xalq ikiyə bölünmüş. Bir yanda cümhuriyyətçilər ilə inqilabçılar, bir yanda faşizm generalları ilə qiyamçılar!..

**İblis.** Xeyir, o işlərdə cənab Trotski məndən daha mahirdir. Əməkçilər və işçilər arasında olmasa da, kapitalistlər və imperialistlər yanında az-çox nüfuzu var.

**Lord.** Gözəl tanıyırıq, istedadsız adam deyil.

Dramaturq bu sözləri yazaraq düşüncələrə daldı. Əsər üzərində gərgin işləyirdi. İstəyir ki, onu tez yazıb qurtarsın, teatra versin. O, əsəri yazıb bitirəcək, ancaq onu nə teatra verəcək, nə də tamaşasını görəcək.

Fikrim-zikrim Caviddir, onun barəsində irəli sürülən fikir və mülahizələrdir. «Peyğəmbər» pyesi barəsində yazılanları oxuyuram. Hər yazılanı, hər deyiləni qəbul etmirəm. Əsərin özünü isə oxumamışam, o heç rus əlifbası ilə də nəşr edilməmişdi. Hansı nəşriyyat məsuliyyəti boynuna götürüb belə bir əsəri çap edə bilərdi? Kommunist rejimi fikirlərdə, hisslərdə, cəsarətli addımlarda bir durğunluq, bir ətalət yaratmışdı. Beyinləri his-pas basmışdı. Şüurlar, düşüncələr paslanmışdı. Həqiqəti danışanların ağzına daş basılırdı. Sovet cəmiyyəti insanların əxlaqını, mənəviyyatını, məişətini pozmuşdu. Namuslu, vicdanlı insanlar daxilən əzab çəkirdilər, içəriləri özünü, çölü özgələrini yandırırdı.

Yetmişinci illərdi. Kommunistlərin böyük bir yığıncağında rüşvətxorluqdan söhbət gedirdi. Rüşvətdən o adamlar danışırdılar ki, özləri rüşvətxor idilər. Çuval-çuval pul alırdılar; tək-tək adamlar varlanır, xalq kasıblaşırdı. Tarixdə belə şeylər az olmayıb. Fironların dövrünə nəzər salmaq kifayətdir. Görünür, tarix təkrar olunur, başqa şəkildə, başqa formada, başqa biçimdə, başqa ölçümdə. Həmin yığıncaqda qocaman bolşevik Gülbala tab gətirə bilmir. Xitabət kürsüsünə qalxıb deyir: - Siz bu sözləri kimə deyirsiniz? Kimdir rüşvət alan? Sizin özünüz*, birinci katiblər, nazirlər…

---

* Azərbaycan KP MK-nın məsul işçiləri və məmurlar nəzərdə tutulur.

Başqaları vəzifəsindən, bir çoxu canından qorxub belə sözlər danışmırdı. Gülbala kimdən qorxacaqdı? Hayı getmişdi, vayı qalmışdı. Rəsul Rza bir şair, deputat, xalq elçisi kimi Ali Sovetin yığıncaqlarında haray çəkirdi ki, respublika dağılır, rayonlar sosial-iqtisadi cəhətdən geri qalır, rayon, kənd var ki, orada əsl mədəni inqilab etmək lazımdı. Kim idi şairə qulaq asan? Kim idi onun sözünə qiymət verən? Taki cibişdanlar dolsun, ta ki mənim günüm xoş keçsin, ta ki daş məndən çıxsın, kimə dəyir dəysin. Onlar deyirdilər: «Millət necə tarac olur, olsun, nə işim var?» Bu zırramalar şairin nə dediyini başa düşmürdülər. Bilmirdilər ki, ulu Sabir başqa cür də deyib: Naəhl olana mətləbi andırmaq olurmu, qanmayanı zor ilə qandırmaq olurmu?..

9

Üz tuturam Turan xanıma. Deyirəm ki, mən «Peyğəmbər»i oxumaq istəyirəm. Turan xanım kimin sözünü yerə salmışdı ki, mənim sözümü də yerə salaydı. Lazım gəlsə tikəsini, bir parça çörəyini də yarı bölərdi, necə ki, Hacının qızı Sara xanımla bölmüşdü. Əziz adama gözünün üstündə də yer verərdi. Əzəz oxucum, bir qədər gözlə məni, bir haşiyəyə çıxmaq istəyirəm.

**Haşiyə.** Bir dəfə onun yanına gələndə qanı bərk qara idi. Kimsə ona atasının hədər yerə tutulmadığını üzünə demişdi. Kim idi bu nadan? Kim idi bu qanmaz?.. Kim idi bu alçaq? Əlimə keçsəydi didib-parçalamağa hazır idim. Turan xanım bərk incidilsə də, özünü təmkinli, ağır, nəcabətli aparırdı. Başqa cür də ola bilməzdi, Cavidin qızıydı. Daha doğrusu, Cavidin həm qızı, həm oğluydu, son beşiyi, son yadigarı idi.

O, rus əlifbası ilə yazılmış «Peyğəmbər» kitabını mənə verdi. Mən gətirib onun üzünü çıxardıb qaytardım. Gündüz-gecəmi bir-birinə qatıb pyesin üzərinə düşmüşəm, oxuduqca oxuyuram, oxuduqca doymaq bilmirəm. Özümü böyük bir sənət aləmində, bədii fikir və düşüncənin ucu-bucağı görünməz bir okeanında, VII əsrin tarixi hadisələri burulğanında görürəm. Sənət nədir? Anlamaq istəyirəm, «Peyğəmbər»i başa düşməyə

çalışıram. Özü-özümə sual verirəm: «Peyğəmbər»i oxumaqla Cavidi başa düşməkmi olar? Qəti cavab verirəm: yox! Tarixə üz tuturam, tarix yumaq kimi gözümün önündə çözələnib gedir… Qənaətim belə olur: «Peyğəmbər»lə «Peyğəmbər »haqqında yazılanlar arasında Çin səddi var. Düşünürəm: Bu pyes barəsində köhnə stereotipləri necə dağıtmaq olar? Gözlərim önündə möhtəbər alimlər, nüfuzlu şəxslər canlanır. Bir tərəfdən, onların yerinə xəcalət çəkib utanıram, digər tərəfdən, Mirzə Cəlilin məhşur bir sözü yadıma düşür: «Xub, sən də get fikirləş…»

«Peyğəmbər» iyirminci illərdə yazılsa da tamaşaya qoyulmamışdı. Pyes (heç şair bunun marağında da olmamışdı) ümumiyyətlə, səhnə üzü görməmişdi. Görünür, buna görədir ki, görkəmli rejissorumuz Mehdi Məmmədov onu Kirovabad (Gəncə) Dövlət Dram Teatrında tamaşaya qoymaq istəyirdi. Amansız ölüm nə Adil İsgəndərova, nə də Mehdi Məmmədova öz arzularını yerinə yetirməyə macal vermədi. Adil İsgəndərov «Topal Teymur»u akademik dram teatrında tamaşaya hazırlamaq niyyətindəydi. Yadıma Mehdi Məmmədovla aktyor Mikayıl Mirzəyevin dialoqu düşür:

- 85-ci ildə (1985) teatrımızı nə ilə sevindirəcəksiniz, Mehdi müəllim?

- «Peyğəmbər» ilə kədərləndirəcəm.

- Kim oynayacaq Peyğəmbəri?

- Sənətin Tanrısı kimdirsə, O!..

Kim bilir? Bəlkə Mehdi müəllimin özünün könlündən səhnədə Peyğəmbəri yaratmaq keçirmiş. Xəyyam kimi, bu obraz da ona çox yaraşırdı…

10

Həmin qara gün gəldi. Cavidi Bakıdan tərpətməli oldular. «Yerindən, yuvasından» etdilər. Artıq xüsusi sərəncam gəlmişdi, SSRİ XDİK-dan. Allah göydən yerə ensəydi belə Cavidi Bakıda saxlamaq olmayacaqdı. Cavidin ailəsinin ümidi puç olmuşdu. İyirmi yaşlı Ərtoğrol, in altı yaşlı Turan atasını bir daha görməyəcəklər, dərdli, ələmli Mişkinaz

xanımı fikir aparmışdı. Düşünürdü ki, Cavidi yaxşı yola salmaq lazımdı. Ona nə lazımdısa nəyin bahasına olursa olsun tapılmalıdı. Səfər ağır səfər idi. Ailə bu ağırlığı indi bəlkə də o qədər də dərindən dərk etmirdi. Bunun ağrısı, acısı sonralar daha dərindən dərk ediləcək, qəlbləri, ürəkləri, beyinləri yandırıb-yaxacaq, təkcə şairin ailəsinin yox, bütün namuslu insanların, bütün xalqın. İndilikdə sevinirdilər ki, Cavid ölümə məhkum edilmədi. Onun yaşaması üçün, evə qayıtması üçün ümid işığı vardı. Yoxsa qanun tanımayan, vicdan əzabı çəkməyən cəlladların əlində insan ölümü nəyiydi ki? İnsanın bir qarışqa qədər dəyəri yox idi.

*Hər günəşə vardım ləkəli gördüm,*
*Hər vicdana girdim, kölgəli gördüm,*
*Parlaq imanları şübhəli gördüm.*
*Yaralı könlümü tikanlar deşdi,*
*Kimdən vəfa umdum qanımı içdi.*

Mişkinaz Cavid:

- ...Ümid edirdim ki, Cavidim gələcək, yaralı ürəyimə təsəlli verəcək. Göz yaşımı siləcək. Keçirdiyim günlərimi qələmə alacaq. Əfsus ki, o yola gedən gəlməzmiş. Mən ən dəyərli bir evin sahibəsi, ən qiymətli bir alim ailəsi, oğul-qız anası bəxtəvər bir qadın idim.

... Xoşbəxt ailəmizi, şöləli yanan çırağımızı görünməz xain əllər dağıtdı, qaranəfəslilər üfürüb söndürdü.

Gəlib gördüm uşaqlar məni gözləyir. Qapıdan girən kimi əlimə baxdılar ki, görsünlər, şeyləri verə bilmişəmmi?

- Babadan sizə çoxlu-çoxlu salamlar, - babanın əvəzinə, - deyib, hər ikisini opdüm.

İkisi də birdən dedi:

- Kaş biz də gedəydik, necəydi, nə dedi?

Ona düzünü dedim, narahat oldu, bunlara (Ərtoğrola, Turana) yalan deyib sakit etdim.

Onun qəmli sözləri, dumanlı ahı, kədərli üzü, nəmli gözləri... barədə uşaqlara heç nə demədim.

- Çox yaxşıdı.

... Kiçicik bir bağlama verdim, bir şələ dərd, kədər, niskil gətirdim.

Ayın 5-də [iyul 1939-cu ildə] Keşləyə getdim ki, bir xəbər bilim. Bir pəncərəyə yaxınlaşıb soruşdum. Dedilər:

- Dünən gecə yola saldılar.

Mənə elə gəldi ki, ayağımın altında bir quyu açıldı, məni çəkdi aşağı. Başım gicəlləndi. Yerə baxdım. Quyu-filan, heç nə yoxdu. Soruşdum:

- Neçə il iş veriblər?

Dedilər:

- Səkkiz il. Nədi ki, beş ildən sonra gələcək.

## 11

Şair 1937-ci il iyunun dördündə evindən aparıldı, 1939-cu il iyulun dördündə işi SSRİ Xalq Daxili İşlər Komissarlığına göndərildi. Onun işinə Xüsusi Müşavirədə baxıldı. Budur, həmin protokoldan çıxarış.

### SSRİ XALQ DAXİLİ İŞLƏR KOMİSSARLIĞI YANINDA XÜSUSİ MÜŞAVİRƏNİN 14 №-Lİ PROTOKOLUNDAN ÇIXARIŞ

*9 iyun 1939-cu il*

| **Eşidildi** | **Qərara alındı** |
|---|---|
| 19. İş № 24938/ Azərb. SSR H.Cavidin mühakiməsi üzrə, 1982-ci ildə Naxçıvan ş. doğulmuş, ruhani ailəsindən çıxmışdı, birtərəf, qulluqçu, azərbaycanlı,SSRİ vətəndaşı həbs olunanadək şair-dramaturq. | Hüseyn Cavid – antisovet təşkilatında və təbliğatında iştirakına görə, əmək düşərgəsi, cəza müddəti səkkiz il, cəza müddəti 4 iyun 1937-ci ildən hesablansın. İş arxivə verilsin. |

**SSRİ Daxili İşlər Komissarlığı yanında**
**Xüsusi Müşavirə Katibliyinin rəisi: Markeyev**

12

**21 avqust 1940.** Stalin işə adəti üzrə saat on ikiyə qalmış gəldi. Poskrebışevlə salamlaşdı. Kabinetinə keçdi. Kresloda oturdu. Adəti üzrə kağızları qabağına çəkdi. Köməkçisi həmişəki kimi cari işlər, telefon zəngləri, təxirəsalınmaz müşavirələr barəsində məlumat vermədi. Bu zaman Azərbaycanın böyük şair-filosofu Cavid Maqadanda sürgündə idi. O, artıq öz vəziyyəti barəsində Moskvaya yazmışdı.

Stalinin köməkçisi qeyri-təbii və qəribə bir gülüşlə teleqramı Stalinə uzatdı. Bu gülüşdə razılıq əlamətindən çox, kinayə vardı. Orada yazılmışdı: «Trotski ölümcül yaralanmışdı, bəlkə də öldürülmüşdü. Daha ətraflı sonra».

Stalin bu məlumatı soyuqqanlı qarşıladı. Fəqət daxilində bir razılıq hissi duydu. Qəribə hisslər keçirdi. O, bunu çoxdan gözləyirdi, ancaq məlumat ona qəflətən verilmişdi. O, halını pozmadı. Rus inqilabının iki «görkəmli rəhbəri»nin duelinə son qoyulmuşdu. Bu duel mübarizəsi iyirmi ilə yaxın idi ki, davam edirdi. Həmin mübarizədə hər iki tərəf böyük mənəvi sarsıntılara düçar olmuşdu, mənəvi döyüşlərdə, soyuq çarpışmalarda döş-döşə gəlmişdi. Nəhayət, Stalin qələbə çalmışdı. Onu razı salan da bu idi. Onların hər ikisi Lenini əvəz etməyə səy göstərmiş, amma Stalinin bəxti gətirmişdi.

Stalinin gensek (Baş katib) olmasını Lenin təklif etmişdi. Bəlkə də bu, onun səhvi idi. Sonralar Stalinin genseklikdən uzaqlaşdırılması təklifini də Lenin irəli sürmüşdü. Ancaq bu, baş tutmamışdı. Stalin artıq cəmiyyətdə, dövləti idarəetmə sistemində öz mövqeyini möhkəmləndirə bilmişdi. Onun bu işdə ən böyük düşməni Trotski idi. Trotski Stalin üçün böyük əngələ çevrilmişdi. Stalin ondan xilas olmağa çalışırdı. Qəribə burası idi ki, Trotski özü də hiss etmədən Stalinin partiyadakı mövqeyini

möhkəmləndirmişdi, diskussiyalar ardınca diskussiyalar yaratmışdı... Ancaq Stalin Trotskiyə nisbətən daha mətin və ardıcıl siyasətçi idi. Sonradan Trotski onun haqqında bu sözləri yazacaq: «Stalinin yüksəlişi prosesi sanki zülmət siyasət pərdəsi arxasında baş verdi. Bir zamandan sonra onun siması hakimiyyətlə tamamilə silahlanmış halda qəfildən Kreml divarlarından aşağı düşdü». («Pravda», 9 sentyabr 1988-ci il).

Stalinlə Trotski arasında baş vermiş şəxsi və siyasi çəkişmə və intriqa hakimiyyət üstündəydi. Onların hər ikisi hakimiyyətə can atırdı. Hər ikisi qüdrətli bir dövlətə sahib olmaq istəyirdi.

Cavid «İblisin intiqamı» pyesi üzərində işlərkən Trotski artıq xaricdə yaşayırdı, Stalinin qılıncının dalı da, qabağı da kəsirdi. Stalin gilyotinlə silahlanmışdı. Cavid öz əsərlərində Trotskinin adı çəkmiş, onun intellektual və siyasi bacarığını qiymətləndirmişdi. O, Stalinin adını heç bir əsərində çəkməmişdi. Stalin Trotski ilə çarpışmada böyük qüvvə sərf etmişdi. Ölkədə trotskizmə qarşı müharibə elan etmişdi. Ölkədə trotskizm isə o qədər də dərin kök atmamışdı. Stalinə isə trotskizm lazım idi. O, «trotskizm» pərdəsi altında on minlərlə, yüz minlərlə adamı aradan götürməli idi.

Trotski Stalindən ağılsız adam deyildi. Onlar həmyaşıd idilər. Ancaq Trotski Stalindən daha intellektli idi. Klassik alman fəlsəfəsini, xüsusən Feyerbaxı yaxşı öyrənmişdi. Leninlə Trotski arasında ideya ixtilafı olsa da, birinci ikincinin istedadını qiymətləndirirdi. 1917-ci ildə antibolşevik mövqedə dayanan Trotski partiyaya sağdan və soldan atış açırdı. Lenin on yeddinci ilin fevralında həyəcanla deyirdi: «Baxın, Trotski həmişə özünə güvənir, solçu kimi təsir göstərir, fırıldaq işlədir, riyakarlıq edir, nə qədər mümkündürsə, sağçılara ömək eləyir...»

Stalin belə hesab edirdi ki, Trotski Leninə ondan daha yaxındı. Lenin Trotskiyə teleqramla və məktubla 78 dəfə, Stalinə 62 dəfə müraciət eləmişdi. Lenin Trotskini öz qanadları altına almış, dəfələrlə onu müdafiə etmiş, ondakı təşkilatçılıq və təbliğatçılıq istedadını qiymətləndirmişdi. Trotski Stalini Stalinin ətrafındakılardan – Kaqanoviçdən, Molotovdan,

Voroşilovdan, Malenkovdan… daha yaxşı tanıyırdı. Stalin ailəlikcə Meksikada yaşayan Trotskiyə qəsd hazırlatdı. Birinci qəsd baş tutmadı. Bir dəstə silahlı adam onlara hücum çəkdi, evlərini gülləboran etdi. Xoşbəxtlikdən ailə salamat qaldı. Təhqiqata gələn polis nümayəndəsi soruşdu:

- Cənab Trotski, siz bu qəsdə konkret olaraq bir kəsdən şübhələnirsinizmi?

- Əlbəttə, - deyə Trotski dərhal cavab verdi. O, əyilib polmsin qulağına dedi:

- Qəsdin müəllifi İosif Stalindir…

13

Stalin Trotskini sevmirdi, Trotski Stalinə nifrət edirdi. Hakimiyyət Stalinin xarakterini kəskin surətdə dəyişirdi. Trotski diktator Stalinin qarşısında baş əymək istəmirdi. Belə hesab edirdi ki, Stalin anadan cani, cinayətkar, əxlaqi cəhətdən qəddar, yırtıcı doğulmuşdu… Kor kora kor deməsə bağrı çatlar. Tarixi mühit, tarixi şərait, tarixi hadisələr Stalinin xasiyyətinə tarixin möhürünü vururdu, Stalinin xarakterindəki naqisliyi daha da naqisləşdirirdi, hər halda otuz yeddinci ildəki Stalin sürgündəki Koba, oktyabr çevrilişindən əvvəlki, iyirminci illərdəki Stalin deyildi. Sürgün həyatı onun xasiyyətini sərtələşdirmişdi. Stalin ağıllı danışırdı. Ağıllı terminlər icad edirdi, fəqət natiq deyildi. Nitqində gürcü ləhcəsi apaaçıq hiss olunurdu. Danışığında məntiqi mühakimələr güclüydü. Trotski isə əsl natiq idi. Onun sözləri beyinlərə, şüurlara, ürəyə nüfuz edirdi. Bakıda Opera və Balet Teatrının eyvanında çıxış edən Trotskinin eşidənlər bunu yaxşı xatırlayırlar. Onun çıxışına qulaq asan Emil Ağayevın atası bu sözləri təsadüfən deməmişdi: «Trotskinin çıxışından sonra onunla odun, alovun içinə girməyə hazır idim.» Trotskinin böyük siyasi səriştəsinə, ağlına deyil, həm də natiqlik məharətinə də Stalinin paxıllığı tuturdu…

Ölüm Trotskini hər addımda izləyirdi. O, bunu duyurdu. Buna görə də «Stalin» adlı əsərini tez qurtarmaq istəyirdi. 1939-cu ildə Cekson adlı bir biznesmen Trotski ilə şəxsən tanış olur. İblis kimi onun qəlbinə girir.

Trotski «Stalin» əsərinin əlyazması üzərində işləyirdi. Cekson onlara gəldi. Ağıllı Trotski vaxtilə bu adamdan şübhədənmişdi. İndilikdə həmin şübhədən əsər-əlamət qalmamışdı. Cekson plaşını stulun üstünə qoydu. Trotskinin başı yazıya bərk qarışmışdı. O, ehmalca plaşın altından dəmir uclu əl ağacını çıxartdı, gözlərini yumub, var gücüylə Trotskinin başına endirdi. Onun iş otağında dəhşətli bir bağırtı qopdu, Trotski öldü. Cekson çıxıb getdi, məhkəmədə belə dedi: - Mən həmin bağırtını bütün ömrüm boyu eşidəcəm.

Stalin kreslodan ayağa qalxdı. Gözü teleqramda yazılanlara sataşdı. O, daxilində bir yüngüllük hiss elədi. Onun qəddar düşməninin gözləri əbədi yumulmuşdu, ürəyi əbədi dayanmışdı. Stalinin önündə yaşıl işıq yanırdı. Daha Trotski kimi heç kəs cürət edib onunla kəllə-kəlləyə gəlməyəcək.

Stalin kabinetində qəlyan əlində var-gəl edirdi. O, dayandı. Stolun arxasında oturdu. Qarşısındakı qəzetə baxdı. Orada yazılmışdı: «Beynəlxalq casusa ölüm». Bu, Trotski idi. O, qəzeti bir kənara qoydu. Stolun üstündəki qovluğu özünə tərəf çəkdi. Qovluğun üzərində yazılmışdı: «Müdafiə Xalq Komissarlığının sənədləri». Günlər ötürdü, müharibə yaxınlaşırdı, insanlar sürgünlərdə can verirdi. Cavid Maqadanda ağır günlər keçirirdi. Moskvaya şikayət ərizəsi yazmışdı. Moskvadan cavab gözləyirdi…

## 14

Cavid ona kəsilmiş işin iki ilini çəkmişdi. Altı ili qalırdı. O, altı ildən sonra, 1945-ci ilin iyununda həbsxanadan buraxılmalı idi. Cavidin ailəsində həmin gün qeyd edilməli idi. Bəli, hesablamalara görə belə olmalıydı. Fəqət belə olmayacaq. Hamı, şairi yaxından tanıyanlar da, xalqı da buna təəssüf edəcək.

Mişkinaz daxili həbsxanada yatan Cavidə şey-şüy hazırlayırdı. Onun səliqə-səhmanı hər yerdə olduğu kimi, burada da bilinirdi. Yol boyu hey fikirləşirdi ki, görəsən bunun axırı necə olacaq? Minbir fikrə, minbir xəyala düşürdü. Fikirləşirdi ki, əri nə vaxtsa geri qayıdacaq, mehriban ailəsini başına yığacaq, bişirdiyi dadlı xörəkləri onun qabağına qoyacaq, birlikdə teatra gedəcək, Cavidin pyeslərinə baxacaq, alqışlanacaqlar. Fəqət bu dərdli qadın həqiqəti tam aydınlığı ilə dərk edə bilmirdi. Buna ümid, ümid, yenə ümid mane olurdu: - Birdən başqa cür oldu, - deyə o, özü-özünə pıçıldadı. Sonra özü də öz fikrini qəti surətdə rədd etdi:

- Yox, dilim-ağzım qurusun…

15

Mişkinaz Cavid:

- Üzünə baxıb ağladım. Əlimi bərk-bərk sıxıb dedi:

- Mən səni ağlar görmək istəməzdim. Keçirdiyin ağır günlərini bilirəm. Dönüklük edənləri, əyri yola düşənləri eşitdim. Əsl sədaqət ağır gündə bilinir. Silinməz ləkə, çəkiləsi dərd elə dərdlərdi. Şükür o adlar ki, adımızda yoxdu. Mən şad gedirəm, bu, hər şeydən üstündü. Qəmli qəlbimin sönməz yıldızı. Ağır qəmim yenilməz xalqımın yenilməsidi. Əllərdə qalxan olmasıdı. Nələr olub, nələr var, bunlar olduğu kimi bu bədbəxt xalqa çatacaqmı? Nə qədər rəzil insanlar varmış. İnsan nə qədər alçalarmış. Mərd ölmək namərd yaşamaqdan üstündü.

Çox qadınlar ərizə verib, ərlərinə «xalq düşməni» deyib boşandılar və ərə getdilər.

Evi soruşdu. Dedim ki, yaxşıdı. Onun dağlardan ağır dərdləri var, hələ bir mən də dərdinin üstünə dərd qoyum, onsuz da hər şeyi bilir.

- Ev sahibi, qonum-qonşu hamısı yaxşıdılar. Bizdən heç nigaran qalma. Yalnız sən mümkün qədər özünə fikir ver, darıxma.

Soruşdu:

- Evdə əsərlərdən bir şey qaldımı?

- Bütünü yox, bir neçə parça qalıb.

Altı-yeddi hazır dram əsəri vardı. Demək olardı ki, əksəriyyəti əl makinasında çap olmuşdu. Nəşriyyata vermək üçün. Bir dənə ümumi dəftərə nəşr olunmamış əsərlərinin məzmununu, iştirakçıların adlarını... bir neçə pyesin hamısını narın xətlə yazmışdı. Onu soruşdu:

- O evdə qalırmı?

Mən ölmüş, yalan danışmağı bacarmadığım üçün:

- Yox! – dedim.

Bərk həyəcanlananda, fikrini bir yerə toplaya bilməyəndə, dərin fikirləşəndə iki qaşını bir-birinə yaxın sıxar, alnının ortasında bir qırış görünərdi. Qaşını sıxıb fikrə getdi:

- Bir o qalsaydı, demək olardı ki, hamısı qalıb.

Gördü ki, mən də çox narahat oldum. Dedi:

- Mənə dedilər, əsərlərindən heç nigaran qalma, özün gələndə hamısını verəcəyik.

Ancaq siz adlarını, sayını unutmayın. «Attila»nı adını, bilirsən, dəyişdirib «Gözəl Eyida» qoydum. Ona görə ki, «Otello» ilə «Attila»nı qarışdırmasınlar. Gözəl Eyida əsərdəki qəhrəman qızın adıdı. Əl makinasında yazılanlardan – hərəsindən birini ayrı qoydular, əvvəl «Çingiz»i, «Telli sazı»ı, sonra o birilərini. Mən elə bildim ki, onlar evdə qalıb. Demə götürüblərmiş. Üzülmə, bu işləri gələcək həll edəcək. Harada olsa, bir vaxt aşkara çıxacaq... Turan onilliyi bitirib bir il fasilə versin. Çox üzgündü. Sonra qoysalar, ali təhsil alsın.

- Oğlun oxuyur, heç bir söz deyən yoxdu. Bu da oxuyacaq. Onu özün gəlib oxudacaqsan.

- Sən deyən olsa.

- İnşallah olar.

Oğlunun oxumağına mane olunmamasına çox şad oldu.

- Şükür, xeyirxahlar, qədirbilənlər varmış.

Haqlını haqsızdan xalq ayırıb qiymət verəcək. Əfsus ki, gördüyüm rəzalətləri, keçirdiyim günlərimi heç bir yerə qeyd edə bilmədim.

- Gələndən sonra hamısını yazarsan.

Təəccüblü bir iş, ya bir söz olanda qaşının birini qaldırardı... Qaşını qaldırıb, üzümə baxdı.

- Sözüm çoxdu, vaxt az. Bir də kim bilir, görüşmək qismət olacaqmı? Mən istərdim, biz həmişə bir yerdə, el içində şad, xoşbəxt olaydıq. Nə qədər işlərim, arzularım qaldı.

- Cavidim, sənə ümidsizlik yaraşmır. Gələnlərdən sonra bu acıları unudarsan.

Üzümə baxıb çarəsi mümkün olmayan təəssüflü bir səslə dedi:

- Zavallı yavrum. Unudulmaz acılar, umulmaz umud.

Ağladım.

Kədərli səslə:

- Səni ağlar görmək istəməzdim. Zaman gələcək, yazılmamış əsərlərimə, qaranlıq zindanıma xalqım da ağlayacaq. Azərbaycana vurulan yara çox dərindi: namırd əllərdə mərd alım oğullar itirdi. Əsrlər boyu bu yaralar sızlayacaq.

Başımı çiyninə qoyub:

- Can, Cavidim – dedim.

Əlini başıma çəkib:

- Sən arzu etdiyin kimi, gələsi olsam, onda hamısını danışaram... Üzləri «ağ» olsun ağ üzləri «qara» adlandıranların.

Baxdım ki, nəzarətçi bizə tərəf gəlir. Dedim:

- Vay... Demək vaxt qurtardı.

Udqundu:

- ... Sağlıq olsa yenə də görüşərik. Məktub yazmaq hüququna malikəm. Harda olsam, məktub yazacam. Məni bu yola yolçu edənlərdən yazsam, təbii ki, buraxmayacaqlar. Heç olmasa, bir-ikisinin adını deyim ki, biləsən...

Sözünü başlamışdı ki, nəzarətçi gəldi.

- Baxın, hamı gedib, mən sizi gözləyirəm.

Heç olmasa, beşcə dəqiqə gec gəlsəydi, o «mərdlərin» adını bilərdim. İkimiz də qalxdıq ayağa.

Cavidin rəngi ağardı, məni də rəngi qaçmış görüb:

- Vaxt nə tez çatdı – dedi.

Nəzarətçi utanmış halda:

- Məndən asılı olsaydı, hələ bir az da gec gələrdim – dedi.

İnsafsızlar içində insaflılar da varmış.

Var gücü ilə əllərimi sıxıb titrək səslə:

- Uşaqları öpərsən – dedi – Yaxşı dostlara, qonşulara salam de. Darıxmayın. Əlvida…

- Əlvida yox, hələlik – dedim, yaxın vaxtda görüşənə qədər.

Bərk əsəbiləşəndə, çox həyəcanlı olanda dodaqları səyriyirdi. Elə titrək dodaqlarnan:

- Sən deyən olsun, ağlar gözlərin gülsün.

- Amin əzizim.

Üzümə baxdı. Məni rəngi qaçmış, gözüyaşlı görüb qəmli səslə:

- Nə qələmim susacaq, nə də gülüm solacaq – dedi.

(Qələmini susdurdular, gülünü soldurdular).

… Gözucu baxırdım ki, nəzarətçi bir qədər bizdən aralansın. Heç olmasa bir kəlmə soruşum. Aman vermədi. Cavid üzü gəldiyi qapıya tərəf getdi. Ayaqlarm yerə yapışmışdı. Bir-iki addım gedib, dönüb baxdı. Gördü dayanmışam. Əlini qaldırıb salamatlaşdı. Həyətdən axırıncı mən çıxdım. Çıxıb yeriyə bilmədim. Söykəndim divara. Gözümü dikdim qapıya.

Cavidin solğun üzünü, kədərli gözlərini, həddən çox zəifləmiş vücudunu gözümün önünə gətirdim. Uzun yollara, ağır günlərə dözə biləcəkmi? Əvvəl onun rahatlığı üçün şərait yaratmağa çalışardım. Sonra uşaqların qayğılarına qalardım… Cavidin işsiz, boş oturan vaxtı olmazdı, ya kitab oxuyar, ya da yazıları ilə məşğul olardı. Çörək yediyi vaxtda da o fikirləşərdi. Baxırdım ki, iki qaşını bir-birinə yaxınlaşdırıb fikrə daldı. Az

çəkmədən əlindən qaşığı qoyub, qalxdı, yazı masasına yaxınlaşdı, bir neçə kəlmə nə isə yazıb, sonra gəlib oturdu.

... Bəs bu uzun illər o, qələmsiz, kağızsız o dolu ürəyini, ümman fikrini hara yazdı. Deyərdi: «Sənətkar kürreyi-ərz kimi dayanmadan çalışmalıdı, yaratmalıdı». Elə bir sənətkarı dili bağlı, əli bağlı qapalı qatarda, qarlı-şaxtalı səhralara doğru sürgünə aparırlar. Ona rəhbərlik edənlər kimlərdi? Aman Allah!

Gedib arvada təşəkkür etdim. O kömək etməsəydi mən görüş ala bilməyəcəkdim.

Soruşdum:

- Nə vaxt aparacaqlar?

- Bilmək olmaz, yarım saat bundan əvvəl iki maşın apardılar. Bu qədər camaat da durub gözləyir. Gəlsən də görə bilməyəcəksən – dedi.

Ona «sağ ol» deyib ayrıldım.

*İnsan ömrü dalğa kimi keçər, gedər*
*Hər gələn bir sevgi yolu seçər, gedər.*
*Dərdi buraq, zövqünə baq, unutma ki,*
*Hər kəs əcəl badəsini içər, gedər.*

16

**Əbülfəz Elçibəy:**

- Biz çox əziyyətlər çəkmişik. Bəzən sementin üstündə yatmışıq. Hər yerdə güdürdülər, incidirdilər. Hansı evə gedirdik, ev yiyəsini incidirdilər...

Dünən Vəzirov və Polyaniçko ilə kəskin söhbət apardıq. Polyaniçko dedi ki, dialoq aparırıq. Hikmət Hacızadə cavab verdi ki, yox, dialoq aparmırıq. Bizi həbs gözləyir. Moskvada da televiziyada İdarə Heyəti üzvlərinin adbaad çəkilib kimlərlə yanaşı qoyulması bunu göstərir. Biz vətən uğrunda, siz isə karyera uğrunda vuruşursunuz. Dava düşdü. Dedim ki, eybi yox, Polyaniçkonu sonra da başa salmaq olar.

Biz uduşa doğu gedirik. Ermənilər hər bir siyasi kapitalı xərcləyib qurtarıblar – hər yalanı deyiblər. Sessiyada bir erməni deputat deyib ki, bu azərbaycanlıların triumfudur. Bu uduşa siz apardınız.

Bir yoldaş danışır ki, görürük dörd erməni deputatı mehmanxanada daha adam tapmayıb şveytsara azərbaycanlılardan şikayət edir. Artıq moskvalılar da onlara nifrət edir. Bir neçə yerdə onların mitinq düzəltməsinə mane olublar.

Türkiyədə deyirlər ki, Azərbaycan Xalq Cəbhəsi Azərbaycan Demokratik Respubblikasının vaxtilə gördüyü işləri davam etdirir.

İndiki fəaliyyətimiz Qarabağ üzərindədir. Laçını qüvvətləndiririk. Orada üç gündür dava gedir. Bizdən iki nəfər ölüb, ermənilərdən də ölən var. Zori Balayan deyir ki, gərək qabaqca Laçını alıb sonra Qarabağa başlayaydıq, çünki Laçın Qarabağın darvazasıdır.

Rəhbərliyi çox tərifləmək olmur. Onlar o qədər Moskvanın mənafeyini müdafiə ediblər ki, xalqı yuxarıdan görə bilmirlər. Dünən 8 saat söhbət gedib. Uşaqlar dözə bilmirlər: Nəcəf bayıra çıxır, Etibar kağızı tullayır.

Komendant saatı haqqında mübahisə gedir. Birdən razılaşırlar. Onda Vəli Məmmədov qalxır ki, götürməyin, erməniləri qıracıqlar. Deyirik ki, hökumət var, milis var, qoymayın. Çıxmaq istəyirik, qoymurlar.

Könüllü birləşmirik, ancaq bu könülsüz birləşmə də ermənilərə bərk təsir edir. Onlar yazır ki, Azərbaycanda hakimiyyət Xalq Cəbhəsinin əlindədir. Hətta belə olmasa da belə göstərmək bizə sərf edir.

Ermənilər blokadadan haray çəkirlər…

Qazaxda Gürcüstana yaxın yerdə 240 türk gəlib, onlar pis vəziyyətdə yaşayır. Ermənistana Rusiyadan gələn qurama evləri öz qaçqınlarımıza veririk (xaricdən gələnləri yox). Sessiya işləsin deyə qatarları buraxacağıq. Xüsusi İdarə Komitəsini ləğv etmək üçün bizə səs toplamaq lazımdır.

Amerikada, Fransada təhlil edilib ki, demokratik hərəkatda Azərbaycan Sovet İttifaqında ön sıraya çıxıbdır (Alqışlar). Bir həftə bundan qabaq İngiltərə səfirliyinin nümayəndəsi bura gəlmişdi və mənimlə söhbətdə o da hərəkatımıza verilən bu qiyməti təsdiqlədi. Mən soruşdum ki, nə üçün o bunu bir daha dəqiqləşdirmək istəyir? Mən ona bütün Azərbaycan demokratik hərəkatının tarixi səhnələrindən danışdım. O dedi ki, fenomen bir hərəkatdır, bunu öyrənmək lazımdır ki, görək bunun kökləri haradadır? Dedim ki, onun kökü Azərbaycan xalqının qəlbində və onun tarixindədir (Alqışlar).

İkinci bir məsələni deyirəm. Bəzi yoldaşlar, ola bilsin, bunu deyildiyi kimi qəbul etməyəcək: hərəkatın romantika dövrü qurtarıb, indi şüurlu dövrüdür. Şüurlu dövrdə bilirsiniz ki, ən çox siyasi məsələlər həll edilir, yəni siyasi gediş , siyasi mübarizə formaları əsas tutulur. Bir məsələni də deyim ki, suverenlik haqqında qanunun – Konstitusiya Qanununun qəbulu vaxtı Azərbaycan xalqı son dərəcə böyük mütəşəkkillik göstərmiş, onu təmsil edən AXC – Azərbaycan Xalq Cəbhəsi öz mövqeyini, öz siyasi kamilliyini nümayiş etdirmişsə də dövlət, Azərbaycan hökuməti də bu işə siz dediyiniz qədər də soyuq yanaşmamış və bu onların da, bizim də hamımızın ürəyindən olmuşdur. Bizim suverenlik qanunumuzun qəbul edilməsi münasibətilə biz bütün xalqımızı, respblikamızın bütün vətəndaşlarını, hamını təbrik edirik. Suverenlik haqqında Konstitusiya Qanunu Azərbaycan xalqının bütöv gücünün məhsuludur və birinci dəfə olaraq biz bu qüdrəti öz düşmənlərimizə göstərə bildik. Latviyadan, Estoniyadan, Litvadan bizə zəng edib deyirlər ki, Pribaltika xalq cəbhələrinin iki ildə keçə bilmədiyi yolu AXC öz xalqı ilə qısa müddətdə keçdi (Alqışlar).

17

**22 iyun 1941.** Radio Hitler Almaniyasının müharibəyə başlaması haqda məlumat verdi. Cavid bu xəbəri Maqadanda eşitdi.

Bir düşərgədə gecəynən dustaqların çoxunu ümumi baraklardan yığıb izolyatorlara doldurdular. «Xalq düşmənləri»nə etibar, inam yox idi. Nəzarəti gücləndirdilər. Halbuki bu zavallı insanlar vətəni Stalindən az sevmirdilər. Bəzi dustaqlar partiya və Stalinə sədaqətini göstərmək üçün ərizə veridilər ki, onları cəbhəyə göndərsinlər. Bir neçə gündən sonra belələrini bir yataba yığıb, başqa yerə apardılar. Onlar kağız-sellüloz kombinatında işlədilirdilər. İş olduqca ağır idi. Məhbuslar faşistlərin əsir aldıqları sovet adamlarından seçilmirdilər. Kombinata gələn ağır şalbanları vaqonlardan boşaldırdılar, çiyinlərində konveyerə aparırdılar. Dustaqlar dəhşətli ağrıdan gecələr yata bilmirdilər. Səhər yenə də həmin ağır iş, əzab-əziyyət başlanırdı. Belə ağır işə davam gətirə bilməyən dustaqlar səssiz-ünsüz dünyadan köçürdülər. Planı yüz faiz yerinə yetirən dustaqlara dörd yüz əlli qram çörək verirdilər. Çoxu bu çörəkdən doymurdu, xəstələnirdi, ölürdü. Qalanları yaşamaq ümidlərini itirirdilər. Onlardan biri «xalq düşməni» Tağı Şahbazinin qardaşı Ələsgər Şahbazov idi. O, bir gün düşərgə rəisinin yanına çağrıldı. Ondan soruşdular:

- Sən mühasibat işini bilirsənmi? Xəstə mühasibi əvəz edə bilərsənmi?

- Az-çox bilirəm, - dedi.

- Onda ərizə yaz.

Məhbus ərizə yazdı. Ərizə savadlı yazılmışdı. Bu, rəisin xoşuna gəldi. O, təəccüblə soruşdu:

- Ərizəni özün yazmısan?

- Bəli.

Ona on beş gün müddət verildi. Məhbus etimadı doğrultdu. Əvvəlcə ona haqq-hesab stolunun hesabdarı, sonra ərzaq stolunun hesabdarı vəzifəsi tapşırıldı. Düşərgədə ərzaq təchizatı bir qədər yaxşılaşsa da, dustaqların çox yenə ac qalırdı, olduqca zəifləmişdi. Şahbazov bir professor dustağın məsləhətilə on iki tikə suiti piyi yedi. Bundan sonra onun gözləri dirildi, əmələ gəlməyə başladı…

Həbsxanada müxtəlif peşə sahiblərinə, həkimə, mühəndisə, elm adamına, aqronoma, mühasibə, təmirçi çilingərə, bənnaya... rast gəlmək olardı. Sürgündə onların hər biri üçün iş tapılırdı. Həkimlər insanların «sağlamlığı keşiyində» dururdu, mühəndislər ev tikir, yol çəkir, zavod qururdular, bənnalar hörgü hörürdülər... Bir yazanlara icazə verilmirdi ki, yazsınlar. Sürgündə canlı insan qarışqa tək qaynayırdı, insan həşəratdan seçilmirdi.

18

Şahbazov həbs edildikdən sonra arvadını tutdular. Ona Lökbatanda ərzaq kartoçkalarının hesabatını aparmaq tapşırılmışdı. Yoxladılar, hesabat düz gəlmədi, arvada on il iş verdilər. Məhbus Ələsgərin bundan xəbəri yox idi. Onların evi alınıb başqalarına verildi. Oğlunu nənəsi himayəsinə götürdü. Ələsgər geri qayıdanda lələ köçmüşdü yurdu boş idi. Ona Bakıda yaşamağa icazə vermədilər. Ağdam rayonuna göndərdilər. Ağdamda o düşərgə yoldaşı ilə rastlaşıb, bir müddət onlarda qaldı. Rayon partiya komitəsinin birinci katibi Yusif Yusifovun yanına gəldi, ərizə verdi. Xahiş etdi ki, Bakıda yaşamağına icazə versinlər. Belə bir ərizə də Mərkəzi Komitəyə göndərdi. Bağırova sidqi-ürəklə xidmət göstərən Yusifov ona məktub yazdı. Məktubda göstərdi ki, keçmiş məhbslar rayonda çoxalmağa başlayıb, onlar düşmənçilik işlərilə məşğul olurlar. Məktubda Ələsgərin də adı çəkilirdi. Onu Ağdamdan Qutqaşenə göndərdilər. Burada yenidən həbs etdilər. İstintaq 1948-ci ilin sonunda qurtardı. Materiallar respublikanın ali məhkəməsinə verildi. Məhkəmə, Şahbazova on il iş kəsdi. Şaramko, İbrahimov, A.Cavadov və Y.Bağırov onun üzünə durdular, ona böhtan atdılar. Ələsgəri uzaq, sərt Sibir havasında «ağıllanmağa» göndərdilər...

19

Cavid Xəzər dənizi ilə yol gedirdi. Ancaq bilmirdi ki, onu da Maqadana aparırlar. 1939-cu ilin yay ayı idi. Gəmi Krasnovodska çatdı.

Dustaqları göndərilmə məntəqəsinə yığdılar. Havadan od tökülürdü. Onlar Türkmənistan çöllərindən keçirilib. Aşqabada aparılmalıydılar. Cavid bu yerlərdə olmamışdı. Cavidi Türküstanla «tanış olmağa» aparırdılar…

20

**1934-cü il.** Moskvada birinci Ümumittifaq Şura Yazıçılarının qurultayı keçirilirdi. Qurultayda Məmmədkazım Ələkbərli Azərbaycan şura ədəbiyyatı haqqında məruzə edirdi. Həmin məruzədən sətirlər: «Digər bir şair – Müşfiq – köhnə xırda burjua meşşan mövhumatından və nöqsanlarından ayrılmağa çalışıb dövrümüzün aktual temaları ətrafında yazmaqdadır… Daha böyük bir şair – dramaturq və bir çox mənzum dramlar müəllifi olan Hüseyn Cavid çox yavaş bir surətdə özünü yenidən qurmaqdadır. O, öz ədəbi fəaliyyətinin başlaşğıcından tutmuş son zamanlara qədər osmanlı romantik-klassiklərinin (Əbdülhəq Həmid və başqaları) yaradıcılığının əsiri olaraq qalmaqdadır. Cavid demək olar ki, bütün əsərlərində pantürkizm ideyalarının tərənnümçüsü olmuşdur. 1923-cü ildə o, «Peyğəmbər» adlı əsərini yazır, burada islamın ilk dövrlərini tərənnüm edir və Məhəmmədi idealizə edir. Cavid 1926-cı ildə «Topal Teymur» adlı pyesini bitirir. Burada Teymurləng, bütün türk-tatar-monqol xalqlarının vahid Turan imperiyası bayrağı altında birləşdirmək ideyalarilə birlikdə idealizə edilir. 1932-33-cü ildə Cavid səhnəmizə «Səyavuş» adlı pyesini verir. Burada o, qədim İran və Turan saraylarının bütün murdarlıqlarını ifşa etməyə meyl edir, zəif bir surətdə kəndli üsyanlarını və üsyan başında duran, durmaqda çalışan aristokratların liberal haləti-ruhiyyələrinin səbatsızlığını göstərməyə çalışır. Göründüyü kimi, Cavidin yenidən qurulması xüsusi bir mahiyyət daşıyır. Cavid yalnız öz tematikasını inqilabiləşdirir. Ancaq o indiki hadisələri və indiki həqiqəti anlamaq və qavramaqdan çox uzaqdır.» («İnqilab və mədəniyyət», 1934, № 11-12).

Yayın istisi yeri-göyü yandırırdı. Dustaqları vaqonlara doldurmuşdular. Vaqonda nəfəs almaq mümkün deyildi. İnsanların nəfəsi, kirli bədənlərindən gələn qoxusu, tər iyi, ayaqlardan gələn iy – hamısı bir-birinə qarışmışdı. Vaqon qaranlıq zindandan seçilmirdi. Müxtəlif dillərdə danışırdılar, türkcə, rusca…

Sibir, Uzaq Şərq – Maqadan sürgün edilənlərlə dolu idi. Tayqa meşələrinin dərinliyindəki müdhiş səssizlik qulaqları batırırdı. Məhbus düşərgəsində ciddi və dəmir qayda-qanun vardı. Burada insanların məişəti, həyat tərzi tamam bambaşqaydı. Sürgün həyatına alışmayan dustaqlar özlərini başqa aləmdə, başqa dünyada hiss edirdilər. Burada əxlaq anlayışı da başqa cür idi. İnsanlıq anlayışı başqa cür başa düşülür, başqa cür qavranılırdı. Təcrübəli dustaqların ağıllı məsləhətinə qulaq asmaq lazım gəlirdi. Yoxsa başını bədənindən ayırardılar. Ömrünü sağ-salamat başa vurmaq istəyirsənsə, evə, ailə yanına dönmək istəyirsənsə, bu dəmir qayda-qanuna riayət etməlisən, deyilənlərə qulaq asmalısan, artıq-əskik danışmamalısan, dilini qarnına qoymalısan, yoxsa həmən işini bitirərlər. Həyatını yalnız bu yolla qoruyub saxlamaq olar. Sağ qalmağın yolu budur. Ədalət axtarırsansa, ədalət budur! Həqiqət axtarırsansa, həqiqət budur! Bir də ki, kimə şikayət edəcəksən? Yox, yox! Şikayət etməyə adam var, o – Stalindir!

Sibir öz tarixində öz qoynunda bu qədər adam görməmişdi. Sanki bəşəriyyətin bütün ağırlığı onun üstünə düşmüşdü. Sibir ağır, nəfəs alırdı. Dərddən, ələmdən partlayırdı sinəsi Sibirin.

*Məzar sükutu var hər bir tərəfdə!*
*Ürək darıxdıran qəm var, qüssə var!*
*Taleyə şükür edib ömür sürənlər,*
*Ölüm yuxusunda yatır daş üstə…*

Sibirli qızlar! İlahi, onlar göydən enmişdilərmi? İnsanlardan törəmişdilərmi? Mələk idilərmi, ceyran idilərmi? Alyanaqlı Sibir qızları həqiqətən gözəl idilər. Boylu-buxunlu, xurmayı saçlı, möhkəm bədənli,

ətli-əndamlı idilər Sibir qızları, iki göz istəyirdi ki, onlara tamaşa eləsin. Tayşetə sakinləri bunu görür, duyurdular. Bu, o Tayşetdir ki, Cavidin ömrünün son günləri burada keçəcək.

Tayşet sürgün edilənlərlə dolu idi. Burada hər cür adama rast gəlmək olardı: fırıldaqçıya, cibgirə, başkəsənə, oğruya, tülüyə, abırsıza, vicdansıza, namussuza, ziyalıya, müəllimə... İlk yolçuların Tayqada açdıqları və Anqaraya gedən köhnə yol Tayşetdən keçirdi. Tayşet çölün düzündə salınmış bağlı, bağçalı bir şəhər idi. Bu qədim türk yurdu taxta-şalbandan bol idi. Evlər taxtadan tikilir, səkilər taxtadan salınırdı.

21

Qasım Vahabzadə Sibirə sürgün edilmişdi. Kim idi Qasım Vahabzadə?

O, sürgündən qabaq Şüvəlanda yaşamışdı. Yayda burada istirahət edən Cavidə atasının göstərişi ilə xar tut, ağ şanı vermişdi. Daha doğrusu, pay aparmışdı. O zaman Qasım uşaq idi...

Cavid Maqadana gətirildikdən bir neçə gün sonra əlillər zonasında yerləşdirilmişdi. Bu zona həyatının son günlərini yaşayan, ümidlə ölüm arasında çırpınan məhbuslar üçün nəzərdə tutulmuşdu...

Qasım bir gün bir özbəkdən eşidir ki, Cavid Maqadana gətirilmişdir. O, bir neçə yoldaşı ilə onu görməyə qərar verirlər. Onlar gəlib Cavidi tonqal başında, tikanlı məftillərlə çəpərlənmiş əlillər zonasında görürlər. Gözləri çox zəifləmiş şair onları görüncə sevinir. Onlar qucaqlaşırlar, kövrəlirlər, göz qapaqları yaş ilə dolur... Cavid qəzet kağızının ağ yerlərində yazdığı «Tənhalıqda» şeirini onlara oxuyur. Sonra kağızı ovcunda əzib oda atır. Qasım maraqlandıqda deyir:

- Bala, sizi gördüm, daha mən tənha deyiləm. Yandırdığım həmən «Tənhalıqda» şeiri idi. Sonra eşidərlər, oxuyarlar, deyərlər Cavid səhv yazıb, düz yazmayıb. Mənim üçün də ayıb olar.

Şairlik adını uca tutan şairin sözünə, amalına bir bax!..

Şibir soyuğu insanın nəinki əlini, ayağını, qulağını, həmçinin beynini, şüurunu, düşüncəsini də dondururdu. «Düz və səhv yazmamaq» yalnız bundan ola bilərdi. Yoxsa Cavid səhv yazmaz, səhv danışmazdı.

*Dəryalara hökm etmədə tufan,*
*Sellər kibi aqmaqda qızıl qan,*
*Səhraları sarsıtmada vulkan,*
*Canlar yaqar, evlər yıqar insan…*

22

**Əbülfəz Elçibəy**: Biz çox qəddar bir düşmənlə üz-üzə durmuşuq və onun arxasında duranlar ondan da qəddardırlar. Nəhayət, haqqın öz səsi var, öz gücü var, yəni arxasında bütün dünya erməni mafiyası duran quldur dəstələr çaşdırılmışdır. İndiyə kimi başqa sözlərə əl atan, Saxarovun səsi ilə danışan Bonner Əlixanyan gördü ki, ərinin səsi bərk çıxmır. Fransadan bar-bar bağırır ki, qoymayın, azərbaycanlılar Dağlıq Qarabağı iqtisadi blokadaya salıblar və onlara benzin vermirlər ki, çörək bişirsinlər. Baxın, kimin səsi haradan gəlir və nə üçün gəlir. Buna görə də təşvişə düşürlər ki, azərbaycanlılar özləri Qarabağı idarə edə bilməyəcəklər, bir az düşünək o haqda. Biz də deyirik ki, siz düşünün, biz idarə edəndə görəcəksiniz. Xüsusi İdarəetmə Komitəsi 2-3 həftəyə ləğv olunar, görəcəksiniz (Alqışlar).

AXC-nin qarşısında çox iş durur. Sözsüz ki, bunu AXC təkbaşına görməyəcəkdir. Müəyyən idarə orqanları artıq bu işə qoşulmuşlar. Bildiyiniz kimi, Qarabağı çıxmaq şərtiylə, bütün Azərbaycanda komendant saatı ləğv edilmişdir. Yəqin ki, Ağdam da buna nail olacaq. Məsələ çox asan deyil, necə deyərlər, həbə tutulmuşdur. Bu həbəni təmizləmək üçün, görünür, yeni bir qüvvə lazımdır. Deyək ki, birinci bütün təxribatçı qüvvələrin yaşadığı ərazidə pasport qaydası yoxlanılsın, kənardan kim gəlibsə onlar Qarabağdan çıxarılsın. İkinci, kəndlər arasında təcridetmə, mühasirə götürüsün və onların yerinə Azərbaycan idarəetmə orqanlarının qüvvələri yerləşdirilsin.

Bəzən deyirlər ki, AXC böyük təhlükə qarşısındadır. Yox, belə deyil. Bu, müvəqqətidir: bu adamlar arzu elədiklərini görməyəcəklər, çünki AXC öz proqramı olan bir təşkilatdır. Proqramı kim yerinə yetirsə, təbii olaraq, xalqın istəyini, amalını yerinə yetirir, əks halda, o, AXC-dən getməlidir. Gələnlərin bəziləri fikirləşir ki, bəlkə AXC-də yaxşı bir rüşvət yeri oldu. Hətta institutlarda belə fikir var ki, AXC-yə daxil olaq ki, qəbul imtahanlarına özümüz baxaq.

Çoxları fikirləşir ki, AXC nə cəza verəcək? AXC-nin heç bir cəzası yoxdur – nə asır, nə də asdırır. AXC-nin arxasında onun ürəkdən sevdiyi, candan keçdiyi bir arxası – xalqı, milləti var. Və o xalq həmin adamları nə öldürəcək, nə də asacaq, ancaq qınayacaq. El qınağı qədər ağır cəza ola bilməz (Alqışlar).

Elin bir dəfə «ar olsun» deməyi kifayət edir. Bəziləri deyir ki, ona Meydanda bir dəfə «ar olsun» deyəndən sonra arvad da, uşaq da, qonşu da adamın üzünə elə baxır ki, 3 gün gecə yata bilmir.

Bu elə-belə gelişi gözəl söz deyil, əlbəttə ki, el töhməti ən ağır cəzadır, elin özünün tərbiyə üsulu – ən gözəl tərbiyə üsuludur.

Xalqımızın keçmiş adətlərini, mənliyini özünə qaytarmaq bizim birinci məqsədimizdir. Atatürk deyir ki, ey millət, sən şərəflisən, sən keçmişini, ulu keçmişini, babaların adətini öyrənsən, onda ikiqat şərəfli olacaqsan. Sizə o şərəfləri arzulayıram (Alqışlar).

23

**1936-cı il. Moskva.** İstehsalat qabaqcıllarının partiya və dövlət rəhbərləri ilə görüşü keçirilir. Stalin görüşdə iştirak edir. Görüşə hələ yeddi yaşı tamam olmayan bir qız da gəlmişdir. O, milliyyətcə buryatdır. Buryat-Monqol MSSR-in (o zaman Buryat MSSR belə adlanırdı) YİK (b) P-nin ikinci katibi Ardan Ankadıkoviç Markizovun qızıdır. Adı Gelyadır. Əziz oxucu, bu adı yaxşı yadında saxla. Gelya Markizovna!

Gelya eşidəndə ki, Kremldə qəbul olacaq, atasına dedi:

- Məni də özünlə apar.

- Atası isə razılıq vermirdi, qızcığazsa inad edirdi və deyidi:

- Mən bizim Stalin və Voroşilov yoldaşlara gül bağışlamaq istəyirəm.

Gelya rəhbəri üzdən tanıyırdı, onun şəklini çox görmüşdü, evdə, atasının kabinetində, qəzetdə, kitabda… O zaman hara baxsaydın Stalinin şəklini görərdin. Nəhayət, atası razı oldu. Səhər anası Dominika Fyodorovna iki dəstə təzə-tər gül dəstəsi aldı. Onlar yola düşdülər…

Stalin salona girən kimi hamı ayağa qalxdı. Bir alqış qopdu ki, gəl görəsən, salon titrədi. Bu, sovet adamlarının Rəhbərə məhəbbətinin ifadəsiydi. Rəhbərin sifətinə bir sevinc əlaməti qonmuşdu. Ancaq ən çox sevinən Gelya idi. O, şadlığından bilmirdi ki, nə etsin, bircə uçmağa qanadları yox idi. Gelya möhkəmcə çəpik çalırdı. Stalini salamlayırdı. O, sevincdən əllərinin ağrısını belə hiss etmirdi.

Salon sakitləşdi, salonda ölü sükut hökm sürürdü. Yalnız çıxış edənlərin səsi eşidilirdi. Stalin salona, salondakılara baxırdı. Onun fikrini anlamaq olmurdu. Qızcığız çıxışlara diqqətlə qulaq asırdı. Sonra darıxmağa başladı. Düşündü ki, bura onun yeri deyil, o, atılıb-düşməlidir, oynamalıdır. Yanında oturan İlya Vasileviç Baldınova dedi: «İstəyirəm gedib gülləri Stalin yoldaşa verim.»

Gelya cavab gözləmədən gülləri götürüb, rəyasət heyətinə tərəf addımladı. Salondakıların gözü ona zillənmişdi. Balaca qız Stalinin də diqqətini cəlb etmişdi. Səhnədə onu YİK (b) P MK-nın katibi A. Andreyev saxladı və soruşdu:

- Sən kimin yanına gedirsən?

Qız cavab verdi.

- Sənin yanına gəlmişəm…

Andreyev Stalinə müraciət elədi. Qız təəccübləndi. Andreyev «Siz» yox, «Sən» deyirdi. Stalin çevrilində qız artıq onun yanında dayanmışdı. Stalin onu əllərinə götürüb, rəyasət heyətinin stolunun üstünə qoydu. Gülləri onun əlindən aldı. Klim Voroşilov elan etdi:

- Qız nitq söyləmək istəyir.

Salonda canlanma əmələ gəldi. Gelyanın atası həm həyacanlı, həm də sevinc içindəydi. Həyəcanlanırdı ki, görəsən bu işin sonu necə qurtaracaq? Sevinirdi ki, ciyərparası rəhbərin qucağındaydı. Qız belə bir «nitq» söylədi:

- Bu gül Buryat – Monqol respublikasının uşaqlarından Sizə hədiyyədir.

Salonda gurultu qopdu. Salonda oturanlardan çoxunun ağrı-acısı bir anda yaddan çıxdı.

«Uzun nitq»dən sonra Stalin qızı yanında oturtdu. Gelya şəkillərdə gördüyü, öpüb-oxşadığı adamın indi yanında əyləşmişdi. Bundan da böyük xoşbəxtlik olardımı? Bu, qızcığaza yuxu kimi gəlirdi. O, gözlərini rəhbərə zilləmişdi. Rəhbər gülümsünürdü, gözləri gülürdü. Qızcığız bu gülümsər gözlərin arxasında gizlənən yırtıcı təbiəti görmürdü. Bunu nəinki o, heç yan-yörəsində fırlanan böyük-böyük kişilər də görmürdülər. Çünki Stalin hamı üçün ideal, hamı üçün qapalı idi. Qız özünü Stalinin deyil, sanki Allahın qucağında hiss edirdi. Özü-özünə qürrələnirdi ki, gör kimin yanında oturmuşam. Gelyanın buna haqqı vardı. Çünki hər uşaq Stalinin yanında otura bilməzdi. Gelya özünü dünyanın ən xoşbəxt uşağı sanırdı. Buna da onun haqqı var idi. Stalin hər uşağı qucağına almırdı.

Rəyasət heyətində «hədiyyələr» haqda söhbətlər gedirdi. Qızcığız dərhal dilləndi:

- Mənə də hədiyyə verəcəklərmi?

Hamı gülüşdü. Fəqət qızcığız hələ bilmirdi ki, ona hədiyyə veriləcək, ancaq sonra, dəhşətli bir hədiyyə...

Molotov qızı yanına çağırdı. Onun əlində qırmızı bir qutu vardı. Stalin ona dedi: - Ver mənə.

Molotov qutunu ona verdi. Stalin qutunu açıb Gelyaya göstərdi.

- Bu saat sənin xoşuna gəlirmi – deyə Stalin soruşdu? Qız başı ilə bildirdi: «Yox».

Stalin dedi:

- Bəs patefon?

Rəhbər qızdan cavab gözləmədən dedi:

- Ancaq onu da apara bilməzsən.

Qız dərhal cavab verdi:

- Onda mən atamı çağırıram.

Atası sıxıntı içində qızına yanaşdı. Qız öz-özünə düşündü: «Atamın da patefonu vardı. İnidi bizim iki patefonumuz oldu.» Patefonun üzərində aşağıdakı sözlər yazdırıldı: «Gelya Markizovnaya partiyanın rəhbəri İ.B.Stalindən. 27.1.36-cı il.» Belə bir yazı qızıl saatın üzərində də həkə edilmişdi.

Sabahısı gün ölkənin bütün qəzetləri Gelyanın Stalinin qucağında şəklini öz səhifələrində çap etdilər. Gelya həmin şəkli ilk dəfə mehmanxanada gördü. O qədər sevindi ki, atılıb-düşdü ki... Mehmanxanada ora-bura qaçır, qürrələnir, sevincini gizlədə bilmirdi:

- Baxın, bu mənəm! Baxın, bu mənəm!..

## 24

Adamlar Gelyagilin qaldığı otağa axışdılar. Hamı qızı təbrik edir, ona hədiyyələr verirdi. Bir anda otaq hədiyyələrlə doldu. Sonralar belə hədiyyələr qızın yaşadığı Ulan-Udeyə axdı. Şəkil bütün ölkəni, bəlkə də bütün dünyanı gəzib-dolaşdı. Şahlıq quşu Gelyanın başına qonmuşdur. Qız bütün ölkədə məşhurlaşdı. Şəkil uşağın «səadət simvoluna» çevrildi. Dünyanın, sovet ölkəsinin ən xoşbəxt uşağı olan Gelyaya rahatlıq vermirdilər. Tam qayğı ilə əhatə olunan uşağı məclislərə dəvət edir, rəyasət heyətində əyləşdirirdilər. Zarafat deyildi, Stalin onu qucağına almışdı. Stalinlə onun qəzetlərdə birgə şəkli vardı. Bu, Gelyanın vizit kartoçkası idi. O, bu şəkillə nəinki ölkənin, dünyanın hər yerinə gedə bilərdi. Çünki onun Stalinlə birgə şəkli vardı.

«Görəsən bu xoşbəxt günlər, səadətli anlar çox çəkəcəkmi?» Bu suala heç kim dəqiq cavab verə bilmirdi. Həqiqət buydu ki, Gelya öz xoşbəxt günlərini yaşayırdı. Moskvalı heykəltəraş Lavrov həmin şəklin «motivləri» əsasında əzəmətli bir heykəl də düzəltdi. Heykəl Moskvada

«Stalinskaya» (indiki Semenovskaya) metrosunun stansiyasında qoyuldu. Heykələ uşaqlar, xüsusilə qızlar həsədlə baxırdılar. Bəzisinin Gelyaya acığı, bəzisinin paxıllığı tuturdu. Paxıllıqları tuturdu ona görə ki, onların Stalinlə şəkilləri yox idi. Beləliklə, ölkədə Stalin uşaqlırn «böyük dostuna», «atasına» çevrildi. Gelya, o balaca qız Stalinlə həyatda, yaddaşlarda beləcə heykəlləşdi. Fəqət onun «xoşbəxt uşaqlığı» heç bir il də çəkmədi...

25

## Əbülfəz Elçibəy: Hamımız bir yerdə xalq cəbhəsini saxlayaq

*(Azadlıq meydanında mitinqdəki çıxışdan. 2 dekabr 1989-cu il)*

Mən çıxışıma görkəmli türk ideoloqu Ziya Gökalpın sözləri ilə başlamaq istəyirəm: ziyalılar mədəniyyəti özlərində topladıqca o qədər aludə olurlar ki, milli hisslərdən uzaqlaşırlar və onlarda köylü (kəndli) qeyrəti itir. Yəni kəndlinin torpağa bağlılığı itir...

Kəndlərə gedəndə insan daha səmimiləşir, milliləşir.

Müəyyən mühitdə, müəyyən anda bir sınıqlıq yaranmışdı. Mən də hiss edirəm. Deyirlər ki, dağılışırlar, bir-birini qırırlar. Xalq Cəbhəsi məndən, mənim dostlarımdan ibarət deyil. Xalq Cəbhəsi xalqın iradəsini əks etdirir. Azərbaycan Xalq Cəbhəsi SSRİ-dəki bütün xalq cəbhələrinin ən güclüsüdür və demokratiyanın qarşısında gedir. Müxtəlif fikirli bacı-qardaşlarımız yeni təşkilatlar, hətta yeni partiyalar yaratmağa çalışırlar.

Biz milli səviyyədə təşkilatlanmaq dövrü keçiririk, buna hamınız əmin ola bilərsiniz.

İstəyirəm ki, bizə yazılmış yüzlərlə yazıya ümumi cavab verim. Birinci məsləhətvarı söz deyəcəyəm gənclər üçün. Başlayım bayrağımızdan. Ona çox yüksək mənəvi ruhla yanaşmalıyıq. O bizim azadlığımızın rəmzidir.

Bu bayraq üçrənglidir. Yuxarıdakı mavi-türklük, səma rəngidir. Qədimdə türklər Göy Tanrıya sitayiş edərdilər. Orxon-Yenisey abidələrin-

də deyilir: «Ey mənim xalqım! Özünə dön! Sən özünə dönəndə böyük olursan!» Biz özümüzə qayıtmalıyıq. İkinci – qırmızı rəng azadlıq rəmzidir. Bunu ta qədim zamanlardan türklər Çin imperiyasının sarı rənginə qarşı qoymuşlar. Üçüncü – yaşıl rəng islam rəngidir, min dörd yüz illik islam mədəniyyətini əks etdirir. Allahın ən böyük titulu «allahu ələm»dir. İslam dini qədər elmə tələbkar din olmayıb. «Elmi beşikdən əlhəd daşına qədər öyrənin!»

Bizi islam fundamentalizmində günahlandırırlar. Yeddi milyonluq xalqın 7-8 nəfəri fundamental islamı bilir. Bu, hərəkatımıza böhtan atmaqdır. Demokratik hərəkatımıza başqa ad vermək istəyirlər. Ancaq biz dinimizi də inkişaf etdirəcəyik, məscidlər də açacağıq.

Bu hərəkat gələcəkdə böyük milli hərəkata çevrilməlidir. Azərbaycan xalqı öz iradəsini milli hərəkat şəklində ortaya qoyub. Ancaq elə amillər var ki, onlara yiyələnməsək öz məqsədimizə çatmarıq. Bu, Azərbaycan xalqının milli-demokratik hərəkatıdır.

Bir millətçi deyir ki, bizi «faşist», «quldur» adlandırırlar. Biz açıq deyirik ki, canım, biz millətçiyik, daha bizə niyə ad qoyursunuz? İndi biz də bu hərəkatımızı milli-demokratik hərəkat kimi görürük. Buna niyə başqa damğalar vurulur?!

Bizə qarşı böyük düşmənçilik var. Rayonlarda xalqı bölməyə çalışırlar – raykom xalq cəbhələri, kooperativ xalq cəbhələri, ailə xalq cəbhələri və b. yaradırlar. Bununla xalqı bir-birinə qarşı qoyurlar.

Bu mübarizədə təkcə Azərbaycan xalqının ideyalarını nəzərdə tutmuruq; başqa ağır dərdlərimiz də var. Yenə də elan edirəm: Azərbaycan xalqının müəyyən təbəqəsi qul səviyyəsindədir, biz o təbəqəni qulluqdan xilas etməliyik! Bu, Azərbaycan xalqının, ərlərin, igidlərin vəzifəsidir.

Üçüncü böyük dərdimiz başamızı qatan, demokratik hərəkatdan yayındıran Dağlıq Qarabağdır. Moskvada gündə bir qərar çıxarırlar. Xəlil Rza demişkən, şəngülüm-məngülümlər nə qərar çıxarsa öpüb gözlərinin üstünə qoyurlar. Siyasi xadim olmaq yox, vətəndaş olmaq

gərəkdir. Mənim üçün ən böyük and xalq qarşısında dediyim sözdür. Mənim heç bir ziyalıya qarşı düşmənçiliyim yoxdur. Onları döyməyin bir yolu var – millətin qınağı. Bundan ağır töhmət yoxdur. Biz demirik «öldürülsün», yox. Burada çıxıb bir cür, başqa yerdə başqa cür danışırlar. Xalqla gurultulu danışmaq gərək deyil…

26

Gelya kimi xoşbəxt qız da Bakıda yaşayırdı. O da özünü dünyanın xoşbəxt uşağı sanırdı. Niyə də sanmasın? Atası yanında, anası yanında, qardaşı yanında. Onların qayğısılə əhatə olunub bu qız. Kimdir həmin qız? Turan! Cavidin qızı, sevimlisi, Turancığazı.

Cavid ailədə çox həssas, qayğıkeş, mülayim, xoşrəftar idi. İşlədiyi zaman sakitliyi sevərdi. Ona görə də yeni əsər üzərində gecələr və səhər tezdən işlərdi. Belə hallarda ailənin bütün üzvləri, o sarıdan Turan atasına mane olmazdılar. Şair çox hallarda gecə saat üçədək işlərdi. Dan yeri ağarmamış oyanıb Ərtoğrolu, Turanı oyadır, məktəbə yola salmağa hazırlaşdırardı. Uşaqlar yataqdan qalxanadək atası onların çay-çörəyini hazırlardı.

Ata uşaqların dərslərilə maraqlanar, dərslərini hazırlamağa, bədii əsərlər mütaliə etmələrinə nəzarət edərdi. Ərtoğrolu və Turanı maraqlandıran suallara, xüsusən ədəbiyyat və incəsənətə aid suallara həmişə geniş, ətraflı cavab verərdi. O, bunu çox səbirlə, təmkinlə, böyük həvəslə edərdi, bu işdən həzz alardı.

Dramaturq gündüzlər ya gecə yazdığı əsər üzərində yenidən işlər, ya da yazdıqlarının üzünü köçürərdi. O, işlərkən evdəkilər, o cümlədən Turan sakit hərəkət edər, yavaş səslə danışar, babasına mane olmamağa çalışardı. Atası isə işlərkən ətrafdakıları görməz, hiss etməzdi. Bəzən uzun müddət sakit vəziyyətdə yazı masasının arxasından durmadan çalışardı. Bəzən otaqda var-gəl edə-edə bir obrazın sözünü və ya monoloqunu, bir dialoqu, yaxud yazdığı şeirin bir bəndini ucudan deyərdi. Atasının bu cür

hərəkətləri, xasiyyəti Turanın gözündən yayınmazdı. O, atasını iş prosesində müşahidə edərdi.

Cavid hələ uşaqlıqdan göz xəstəliyinə tutulmuşdu. O, dəfələrlə gözlərini müalicə etdirmişdi. Yaşlandıqca isə onun gözləri oxumaqdan yorulur, zəifləyirdi. Həkimlər məsləhət bilmişdilər ki, az oxusun, gözlərini qorusun, özünü çox yormasın. Yazan adam bunu edə bilərdimi? Bu, onu qəfəsə salmaq kimi bir şey idi. Şair mütaliəsiz keçinə bilmirdi. Ona görə də başqa bir üsula əl atmışdı. Ərəb əlifbasını ondan öyrənən ailə üzvləri Cavidin köməyinə gəlirdilər. Ata Turana bu əlifbanı dördüncü sinifdə, 189 nömrəli məktəbdə oxuyarkən öyrətmişdi.

1936-cı il idi. Cavid «Koroğlu» kinossenarisi üzərində işləyirdi. Turan yeddinci sinifdə oxuyurdu. Atasının ssenarinin yazılmasında istifadə etdiyi ədəbiyyatı, kitabların böyük əksəriyyətini Turan oxuyurdu. Atası isə qulaq asır, lazımi qeydlər aparırdı. Bu saat, bu dəm Turan dünyanın ən xoşbəxt uşağı idi!..

27

**1933-cü il.** «Səyavuş» pyesi Azərbaycan Dövlət Bədaye Türk Teatrında tamaşaya qoyulmuş, 1934-cü ildə nəşriyyat tərəfindən kitab halında çap edilmişdi. Cavid yenicə çapdan çıxmış pyesdən bir neçə nüsxə alıb evə gətirmişdi. O, kitablardan dostlara, qohumlara, tanışlara vermək üçün onlara avtoqraf yazmaqla məşğul idi. Turan yazı masasının yanında dayanıb, yazılanları bir tərəfə qoyur, növbəti kitabın yazılmasına baxırdı. O, hamısının yazılıb qurtarmasını gözləmədən bir uşaq sadəlövhlüyü və marağı ilə soruşdu:

- Bəs mənim kitabım hanı?

Cavid əvəlcə gülümsündü. Sonra adəti üzrə qızının alnından öpdü. Böyük məhəbbət və səmimiyyətlə, çox sakit və mülayim səslə dedi:

- Bütün kitablarım sənin deyilmi?

Şair kitablardan birini Ərtoğrola, birini də Turana hədiyyə verdi. Kitablara belə bir avtoqraf yazdı: «Sevgili Ərtoğrola bir yadigar. Bakı, dekabr 1934». «Sevgili Turanıma bir yadigar. Bakı, dekabr, 1934».

Uşaqlar – Ərtoğrol və Turan ən xoşbəxt günlərini yaşayırdılar, dünyanın ən xoşbəxt uşaqlarıydılar. Turanın bir qanadı yox idi. Qanadı olsaydı uçardı. Dünyaya səs salardı, deyirdi ki, baxın, mənim kitabıma! Zavallı qızcığız bilmirdi ki, bu xoşbəxtlik, bu səadət onların əlindən alınacaq, onların əlindən qoparılaq. Cavidsiz bu evə xoşbəxtlik yox, bədbəxtlik ayaq açacaq. Ailənin faciəli, dəhşətli günləri başlanacaq. Bu ocaqdan çıxanlardan heç biri ailə qura bilməyəcək. Bu evdə cocuq qığıltısı, çocuq ağıltısı, cocuq səsi eşidilməyəcək. Mişkinaz nəvə səsinə, nəvə nəvazişinə, nəvə şıltaqlığına, nəvə ərköyünlüyünə həsrət qalacaq…

28

Elmi işlər üzrə axtarışlarımı davam etdirirəm. Mərkəzi respublika kitabxanasında, universitetin və elmlər akademiyasının kitabxanalarında, respublika mərkəzi dövlət arxivində, Teatr Muzeyinin arxivində axtarışlar aparıram. Cavid yaradıcılığı ilə məşğul olan alimlərdən məsləhətlər alıram. Budur, oturmuşam görkəmli alimimiz Məmməd Cəfərin yanında. Bəzi sualları onunla aydınlaşdırmaq istəyirəm. Soruşur:

- Mövzun nədir?

Mövzunun adı yazılmış kağızı onun qarşısına qoyuram. O, oxuyur: «Hüseyn Cavid Azərbaycan ədəbi tənqidində» (Sonralar mövzunun adı dəyişdirilmiş, ancaq onun mahiyyət olduğu kimi qalmışdır). Respublikamızda yaxşı tanınan, sayılan, hörmət və nüfuza malik olan, Cavid yaradıcılığını dərindən bilən alim bir qədər fikrə gedir. Sonra özünəxas sakitliklə deyir:

- Bəlkə başqa mövzu götürəsən.

Mən razılıq vermirəm. Fikirləşirəm ki, bu mövzunu əlimdən almaq, mənim canımı almağa bərabər olardı…

Bu əhvalatın üstündən çox keçib. Lakin məni bu gün də Məmməd Cəfərin dediyi sözlər düşündürür. Özüm-özümə sual verirəm: «Nə üçün böyük alimimiz mənə belə dedi?..» sualın cavabını özüm axtarıb tapmağa çalışıram. Görünür, həlim insan, gözəl alim irəlicədən görürmüş ki, həmin mövzunun üstündə başım ağrıyacaq, bəlalar çəkəcək, olmazın əzab-əziyyətinə düçar olacam. Mən isə hər əzab-əziyyətə dözməyə hazıram, ta ki, mövzuma əl vurulmasın. Doğrudan da sonralar önümə böyük sədlər, uçurumlar, yarğanlar, tikanlı məftillər çıxdı, başıma oyun açıldı, elə bir oyun ki, tüstüsü başımdan bu gün də çıxır. Hər addımda mənə badalaq vuranlar, Cavidin hayıfını məndən alanlar da tapıldı, qolumdan tutan, kömək eləyən, məsləhətlər verən xeyirxah adamlar da. Əziz oxucum, mən istəyirəm ki, onların adını sən də biləsən: Məmməd Cəfər, Abbas Zamanov, Qulu Xəlilov, Cəlal Abdullayev, Paşa Əfəndiyev, Davud Hacıyev, İyanət Bəktaşi. Mən onlara minnətdaram.

Bir institutda əsərin müzakirəsini keçirirlər. Öz-özümə deyirəm: «Mənim əleyhimə çıxanlar nə çoxdur?..» Mənim zəhmətimi yerə vuranlar, əsəri heçə endirənlər (əziz oxucum, bu təvazökarsızlıq üçün məni bağışla) nə çoxdur, İlahi?!. Mənim üstümə düşüblər, nə düşüblər, qarğa-quzğun sanki leşin üstünə qonub. Deyəsən gücləri mənə çatıb. Mən açıq-aydın hiss edirəm ki, onların çoxu heç dissertasiyanı əməlli-başlı, tam şəkildə oxumayıblar. Mən isə deyilən qeydləri, doğru, səhv olsa da, düzəltməyə məcburam. Çarəm nədir?..

Müzakirə davam edir. Kiminsə mənə rəhmi gəlir. Söz atır:

- Əşşi, Cavid də balaca sənətkar deyil.

Apponentim demək istəyir ki, Caviddən yazmaq o qədər də asan məsələ deyil. Mən də mövzunun ağırlığını tam aydınlığı ilə dərk edirəm.

Başqa bir səs:

- Əşşi, yazıqdı, buraxın getsin.

«Yazıqdı!» Bu söz beynimi yandırır. Bu sözdən bərk acığım gəlir. «Yazıqdı». Bu nə sözdü? Heç alimə yaraşarmı belə söz desin? Ona cavab qaytarmaq istəyirəm. Harada olmağım gözümün önünə gəlir. Öz-özümə

«burada artıq-əskik danışmaq olar, atanı yandırarlar?» deyirəm. Fikrimdən daşınıram.

Səslər:

- Ay balam, bəlkə adamı yoxdu.

- Adamı olsaydı, bu günə qalmazdı.

- Biz də onun adamı…

Ürəyimdə deyirəm:

- Sağ olsun sonuncu sözləri deyən.

Yerdən səs:

- Yox, dissertant əsərini təzədən yazdırmalıdı. Bizim qeydlərimizi düzəltməlidi. Əsəri bu şəkildə müdafiəyə buraxmaq olmaz!

Başqa birisi:

- Əşşi, bəlkə çap etdirməyə imkanı yoxdu…

Ürəyimdə o adama yenə «Sağ olun» deyirəm.

29

**1939-cu ildi.** Cavid Bakıdan uzaq, ağır bir səfərə yola düşür. Daha doğrusu, səfərə aparırlar şairi. Aparırlar ki, görmədiyi yerləri görsün, tanımadığı insanları tanısın, görmədiyi günləri görsün. Caviddə nə günah var ki? Bəlkə tale belə yazılıb. Cavidi aparırlar. Səfər ağır, yol uzaq, arzu və ümid böyük, həyat qəribə. Şair düşüncələrə qərq olub. Alışmadığı mühitə alışmaq istəyir. Bu, mümkün deyil. Barışmadığı məişət tərzilə barışmaq istəyir. Bu, mümkün deyil. Öz keçmişinə qayıtmaq istəyir şair, bu, baş tutan iş deyil. Evdə intizarda qalan üç sevgilisinin yanına qayıtmaq istəyir şair. Bu, qeyri-mümkündür. Oxucu dostum,

- *Vaxt olub ki,*
*bütün günü ac-susuz,*
*gecə sübhə kimi yuxusuz,*
*nigaran qəlbimlə*
*baş-başa qalıb,*
*səsimi içimə salıb,*
*xısın-xısın ağlamışam.*

30

**Uzaq səfərdən ilk qaranquş.** Uzaq səfərdən ilk qaranquşlar uçub Bakıya gəldi. Onlarda Cavidin ruhu, düşüncəsi, xətti, əlinin istisi, hənirtisi duyulurdu. Bu məktublarda hələ də nə övladlarının, nə də arvadının burnundan getməyən xoş bir iy var idi. Birinci iki məktub Daşkənddən gəlib. Şair birinci məktubda (onu məktub adlandırmaq da olmur) yazır: «Sevgili Mişkinaz!

Bu gün bizi Alma-Ataya doğru aparırlar. Salamatam. Səni və uşaqları öpürəm. H.Cavid. Daşkənd, 9 avqust 1939».

Məktub əl boyda kağızda ərəb əlifbasilə qara karandaşla yazılmışdı. Belə görünür ki, şair məktub yazmağa kağız tapa bilməmişdi, bəlkə də karandaşı yox idi, yoxsa çox yazardı. Ancaq bu məktub təsəlli üçün yazılmışdı. Şair məktub yazırdı ki, evdəkilər arxayın olsunlar, Cavid sağ-salamatdır, yol gedir. Yol isə üzücüdür, yorucudur.

Şair birinci məktubu yazandan sonra çox narahat hisslər keçirdi. Narahat oldu ki, qarışıq zamandı. Bəlkə məktub sahibinə çatmadı. Bu düşüncələr içində ikinci məktubu yazdı: - «Sevgili Mişkinaz!

Mən salamatam. Bu gün bizi Alma-Ata tərəfə göndərirlər. Oğlumu, qızımı öpürəm. Qonşulara, dostlara salam. Yenə öpürəm sizi. H.Cavid. Daşkənd. 9 avqust 1939».

Şair birinci məktubda «səhv» etmişdi. İkinci məktubda həmin «səhvlər»ini düzəltmişdi. İkincidə yazdı: «oğlumu, qızımı öpürəm». Bu, daha konkretdi.

«Uşaqlar məndən «inciməsinlər» - şair belə düşünürdü. Qonum-qonşu, dost-tanış da ondan inciyə bilərdi, axı onlara salam göndərmirdi şair. O, bu «səhvini» də düzəltdi. Oxucu dostum,

*- Zənn etmə ki,*
*özümü düşünürdüm, -*
*Yox, mən*
*səhrada tək qalıb bağıran,*
*haray çəkib çağıran*
*bir itkin kimi*

*haraysız qalacaq*
*sözümü düşünürdüm…*

Məktub kiçik kağız parçasında ərəb əlifbasilə qara karandaşla yazılıb. Şair dostlara da salam göndərir. Ta demir ki, bəzi dost quduz itə dönüb. İstəmir ki, «xalq düşməni»nin nə qızı, nə oğlu, nə də arvadı onlara gəlib-getsin. Hələ əl tutması, kömək etməsi bir yana qalsın.

Şair 1939-cu il iyulun 5-də Bakıdan çıxmışdı. İndi avqust ayı idi. Demək olar ki, bir ay idi yoldaydı. Daşkəndə təzəlikcə gəlib çıxmışdı. Havalar isti keçirdi. Keçdiyi yerlər Dantenin «cəhənnəmi»ni xatırladırdı.

Evdəkilər məktubu alanda çox sevindilər, böyük bir təskinlik tapdılar. Mişkinazın əri, uşaqların babası sağ-salamat idi. Bundan da böyük sevinc nə ola bilərdi?!

## 31

**Asılılıq və sədaqət!** Stalinizm dövründə bu iki söz bir-birini tamamlayırdı. Hamı Stalindən asılı idi. Çoxları Stalinə inanır və sədaqət göstərirdi…

**Amansızlıq və faciə!** Yeni dünya tarixinin boş səhifələri getdikcə bu anlayışlarla dolurdu. Çoxları bu faciəni əvvəlcədən duymuşdu. Çoxları bu faciəni hiss etmirdi. Adamlar da var idi ki, bu faciəni duymadan, görmədən dünyadan köçürdülər…

**1951-ci il idi.** Pionerlər evinin ədəbiyyat dərnəyindən üç nəfəri həbs etdilər: Boris, Vladik, Susanna. Borisin on səkkiz, Vladikin on doqquz, Susannanın on yeddi yaşı vardı. Dostları bu dəhşətli ədalətsizlik barəsində Stalinə məktub yazdılar. Uşaqların valideynləri etiraz etdilər: «Lazım deyil, məktub yazılıb. Cavab yoxdur hələ. Neçə dəfə yazmışıq ona. Gözləyirik ki, Stalin işi aydınlaşdırsın».

Bəyəm Stalinin işi-gücü yox idi? Oturub uşaq-muşağın işini aydınlaşdıracaqdı?..

Cavid də belə bir məktub yazacaq. Ümid bağlayacaq ki, Stalin həqiqəti aydınlaşdıracaq...

1952-ci ildə işi aydınlaşdırdılar. Hər iki gənci güllələdilər. Susannaya iyirmi beş il iş kəsdilər. «Böyük Xaqanın əmri hər şeydən yüksəkdir». «Böyük xaqanın arzusuna itaət və hörmət ən böyük səadətdir».

Rəhbər yaxşı sözlər ustası idi: «Bizə sağlığımızda heykəl lazım deyil!»

Ancaq az qala ona ayaq yollarında heykəllər qoyulurdu, portretlər asılırdı. Moskvanın Stalin seçki dairəsinin seçkiqabağı yığıncağında o, birinci şəxsin dilindən danışırdı:

- Yoldaşlar, mən sizi inandırıram ki, Stalin yoldaşa arxayın ola bilərsiniz. Bir şeyi də nəzərə alın ki, Stalin yoldaş vətən qarşısında öz borcunu yerinə yetirməyi bacarır.

Stalin hər şeyi bacarırdı. Stalin hər şeyi bilirdi. Stalindən ağıllı adam yox idi dünyada. Stalin məğrur idi. «Məğrurlar həqiqəti görməz-lər...» Stalin də həqiqəti görimürdü. Öz adını Sovet İttifaqının tarixinə qızıl hərflərlə yazırdı. «Dünya diktatoru» Stalin şurasız iş görürdü. Bilmirdi ki, «urasız bir məmləkət cahil bir şəxsə bənzər ki, tutduğu işlər, söylədiyi sözlər nədamət və fəlakət doğurur...» Stalin hər şeydə haqlı idi. Stalin səhv etmirdi. O, öz seçicilərinin qabağında öyünürdü:

- Heç vaxt, dünyada heç vaxt belə azad demokratik seçkilər olmayıb. Tarixdə ikinci böylə hadisə görünməyib.

Rəhbər həmin sözləri otuz yeddinci ildə söyləmişdi. Molotov Stalini hər şeydə müdafiə etmişdi və edirdi, itaətkarlıq göstərirdi.

## 32

**Moskva. Böyük teatr.** Budur, burada Oktyabr inqilabının yubileyi keçirilir. Molotov Buxarin, Rıkov və başqaları haqqında danışır:

- Kəşfiyyatçılar dəstəsi ilə, cinayətkar və ziyankarlarla necə rəftar ediriksə, xalq düşmənləri ilə də elə mübarizə aparmalıyıq... Xalqımızın mənəvi-siyasi birliyi ölkəmizdə öz canlı təcəssümünü tapır. Bu da sovet

xalqının mənəvi və siyasi birliyinin simvoludur. Siz bilirsinizmi, bu ad Stalindir.

Canlı təcəssüm rəyasət heyətində sakit oturub Molotovu dinləyirdi.

**Xalq düşməni!** Bu söz nə qədər əzəmətli, dəhşətli, qorxunc, faciəvi səslənirdi! Bu anlayış təsadüfən ortaya atılmamışdı. Xalqı qəzəbləndirmək, xalqın nifrətini «xalq düşməni»nə qarşı artırmaq, xalqı xalqın əliylə boğmaq məqsədi daşıyırdı…

«Xalqın mənəvi-siyasi birliyinin simvolu»nun arxasında görünməmiş dəhşətlər baş verirdi. Qorki adına avtomobil zavodunun staxanovçusu Makeyev XDİ komissarı, Siyasi büronun üzvü N.İ.Yejovu deputatlığa irəli çəkirdi:

- Yejov yoldaşın bütün inqilabi qəhrəmanlıqlarını saymaq qeyri-mümkündür. Nikolay İvanoviçin ən böyük fədakarlığı yapon-alman, «Trotskiçi-buxarinçi» quldurları, təxribatçıları, cinayətkarları, sovet adamlarının nahaq qanını axıtmaq istəyənləri darmadağın etməyindədir. Biz hamımız dekabrın 12-si seçki günü öz ailəmizlə birlikdə gedib Yejov yoldaşa səs verəcəyik!

Buna bənzər çıxışlar yetmişinci illərdə Bakıda və Moskvada olurdu. Bakıda, Lenin rayonunda tərifler ərşə qalxırdı. Yalan ox tək dibsiz səmanı deşib keçirdi. Riyakarlıq, yalan, mənəvi pozğunluq baş alıb gedirdi… Sovet ölkəsində nələr baş verir, İlahi!? Hamı bunu lazımınca dərk edə bilirdimi?.. Gənc yazıçı Dmitri Kedrin yazırdı:

- Bütün adamlar yatır, bütün vəhşilər yatır, məmurlar isə adamları edam edirlər.

Stalin isə «partiyanın sevimlisi» Buxarin haqqında belə deyirdi:

- O, bir dəfə də olsun MK-nın qərarını pozmayıb. Nə ilə izah etmək olar ki, bütün bunlara baxmayaraq, hələ də yoldaş Buxarini acılayırlar? Axı, Buxarindən nə istəyirlər? Buxarinin qanını istəyirsinizmi? Bilin ki, biz onun qanını sizə verməyəcəyik!

Bu sözlər dünən deyilmişdi. Özü də Stalin tərəfindən. O, dəhşətli cəza üçün zəmin hazırlayırdı. Buxarin ağılsız adam deyildi. Bəlkə də bu

hiyləgərcəsinə deyilmiş sözlərin altında nə gizləndiyini sezmişdi. Rəhbərin xasiyyəti belə idi. Qabaqca istəklisini tumarlayıb, sonra udurdu. Pişik balasını istədiyindən yeyər. Rəhbərin siyasəti beləydi. Bir çoxları onun siyasətini anlamırdı.

Budur, Buxarin baş prokuror A.Vışinskinin hüzurunda cavab verir. Budur, rəhbərin siyasəti, hiyləgərliyi, yırtıcı təbiəti, kobudluğu:

- Bəli, yoldaşlar, mən kobudam, ancaq o adamlara qarşı kobudam ki, onlar partiyada kobudluq yaradıb, onu dağıtmağa, sarsıtmağa çalışırlar.

Bu sözləri də Stalin deyirdi. Həmin sözlər Topal Teymurun sözlərinə çox bənzəyir, Cavidin Teymurunun. Buxarin Stalinin siyasətindəki hərbi-feodal kəndli istismarını, feodal hökmranlığını, xaqanlıq təfəkkürünü yaxşı duyurdu:

- ...Bütün ölkə çörək və pis təchizatdan əzab çəkir. Hökmran proletar partiyasının konfransları isə susur. Bütün ölkə hiss edir ki, kənddə iş yaxşı aparılmır. Bizim proletar partiyasının konfransları bu haqda heç nə demir.

Bu sözləri Buxarin deyirdi. 1929-cu ildə. Həmin sözlər Stalinin ünvanına tuşlanmışdı. Stalin bu sözlərçün Buxarini bağışlaya bilərdimi?..

Bakıda tənqidçilər tələb edirdilər ki, Cavid kənddən yazsın, çünki «traktorlar çöllərə səs salıb». Məgər cavid görmürdümü ki, torpaq kəndlinin əlindən alınır? Kəndli torpaqdan uzaqlaşdırılır? Ölkəni ərzaqla, taxılla təmin edən də kəndli, döyülüb-söyülən də, təhqir olunan da kəndli. Cavid bundanmı yazacaqdı?.. Müdrik şair duyurdu ki, ölkə bu ağılsız siyasətin ağrısını sonra hiss edəcək, sonra! Sonradan məlum olacaq ki, kollektivləşmə milyonlarla kəndlinin qanı bahasına başa gəlib. Bu, ona görə baş verəcək ki, Lenin kimi, Stalin də Stolıpinin aqrar siyasətinə, Buxarinin ağıllı təkliflərinə məhəl qoymayacaq. Atlinski belə yazacaq: «1930-cu ilin martında on milyondan çox kəndli ailəsi kollektivləşdirildi. Yanan daxmalar da az olmadı, acından çoxlu uşaq qırıldı. Ümidini

itirmiş adamların çoxu ailəlikcə özünü öldürdü. Dəm qazı daxmalarda ac adamların yavaş ölümünü sürətləndirirdi».

Lakin Stalin həmişə, hər yerdə haqlı idi. Stalin səhv edə bilməzdi. Səhv Stalinə yaraşmırdı. Təntənəli yığıncaqlarda qışqırırdılar: Stalinə eşq olsun! Ura!.. Uşaq bağçalarında, məktəblərdə hayqırırdılar: «Bizim xoşbəxtliyimiz üçün Stalin yoldaş sağ olsun!» Stalin yenə nəsil, Stalin nəsli yetişdirməkdə davam edirdi.

Buna bənzər hadisələr yetmişinci illərdə Azərbaycanda baş verəcək. Stalin diriyib Bakıya gələcək…

33

**Partiyanın XVII qurultayı.** Gurultulu alqışlar qopur. «Ura!» sədaları asimana yüksəlir. Kirov Stalindən üç səs çox toplamışdı. İndi Kirov və Orconikidze Stalinin birinci düşməni idilər. On yeddinci qurultay! Qaliblər qurultayı! Qurultayın 2000-ə yaxın nümayəndəsindən 1108-i həbs edilmişdi. Mərkəzi Komitəyə seçilmiş üzv və üzvlüyə namizəd olan 139 nümayəndədən 110-u məhv ediləcəkdi. Onlardan biri, Kirov 1934-cü il dekabrın 1-də öldürüldü. Stalin tabutun arxasınca «kədərli» gedirdi… Bir neçə gündən sonra şəhərlərə, prospektlərə, ali məktəblərə, müəssisələrə… Kirovun adı verildi. Bu advermədə Azərbaycan rekord vururdu.

Qaplana vəhşi deyirlər. «Əvət, qaplan yırtıcıların ən vəhşisidir, fəqət qaplanları parçalayacaq daha böyük vəhşilər var ki, o da insandır». İstəkli oxucum, bu sözləri yaxşı yadında saxla. Bu, Cavidin sözləridi.

Selvinski deyirdi:

*Bütün köhnələr yaxşıdır və aydındır.*
*Bütün təzələr biabırçı və qaranlıqdır.*

«Sovet poeziyasının birinci dərəcəli ustası» Selvinski barəsində «Pravda» qəzetində bir anonimçi belə yazırdı: «Bu sətirləri oxuyanda özünə sual verirsən: bunları görəsən kim yazıb? Sovet şairi, yoxsa sovet quruluşuna yad olan bir adam?» Pavel Vasilyev haqqında daha kəskin

sözlər yazılırdı. Onun «Duzlu qiyam» poeması əsl qolçomaq əsəri kimi qiymətləndirilirdi. Pasternak isə belə deyirdi:

*Bizim vətənimizi tufan yandırdı,*
*Öz yuvanı tanıyırsanmı, quşcuğaz?*

Eyni hadisələr Azərbaycanda baş verirdi. Əhməd Cavadın «Göy göl»ünə, Cavidin «Peyğəmbər»inə, «Topal Teymur»una atəş açılırdı, Müşfiqə, Seyid Hüseynə… ittihamnamələr oxunurdu. Süleyman Rüstəm Mustafa Quliyev tarın əleyhinə çıxırdı, Müşfiq tarı vəsf edirdi. Mustafa Quliyev əruzu və sərbəst şeiri Azərbaycan şeirinə yabançı hesab edirdi. Cavid, Rəsul Rza əruz və sərbəst vəznlərdə şeirlər yazırdı. Azərbaycanın igid oğulları məhv edilirdi, ancaq Buxarin kimi özlərini alçaqların qarşısında alçaltmadılar. S.Koyen yazır: «Tək Buxarin, ancaq o, ölümdən yaxa qurtarmağın qeyri-mümkünlüyünü başa düşsə də, əsl kişilik göstərdi. Məhkəmə qarşısındakı 54 adamdan biri olan Buxarin istintaqın son saatlarına qədər özünü alçaltmadı».

34

**1982-ci il.** Biz bu tarixin üzərinə yenə qayıdacağıq. Ulu şairin anadan olmasının yüz illiyi tamam olurdu. Görkəmli rejissor Mehdi Məmmədov Azərbaycan Dövlət Dram Teatrında «İblis» faciəsini tamaşaya hazırlayırdı. Azərbaycan tamaşaçıları çoxdan idi ki, «İblis»in həsrətiylə yaşayırdılar. Abbas Mirzə Şərifzadənin İblis rolunda çıxışı o zaman tamaşaya baxanların gözləri önündən, gur-gur guruldayan səsi qulaqlardan hələ getməmişdi.

«İblis»i tamaşaya qoymaq böyük məsuliyyət, böyük cəsarət, mən deyərdim ki, risk tələb edirdi. Rejissor bunu başa düşürdü, dərindən-dərinə dərk edirdi. Bir də ki, Mehdi Məmmədov Cavidin şagirdi olmuşdu. Dərslərində iştirak etmişdi, sözlərinə qulaq asmışdı, bir sözlə, xasiyyətini və yaradıcılığını yaxşı bilirdi. Rejissor bütün gücü ilə çalışırdı ki, tamaşa uğurlu alınsın…

Pyesin ilk tamaşasına baxış keçirilirdi. Teatrın qapısında adamlar dayanmışdı. Onlar pyesin primyerasına gəlmişdilər, ancaq içəri buraxılmırdılar. Bu, itigözlü Turan xanımın nəzərindən yayınmadı. O, bir qədər əsəbləşdi də: «Xahiş edərəm ki, hamını buraxsınlar».

Salon tamaşaçılarla, demək olar ki, dolu idi. Əsərin ilk tamaşasının müzakirəsi başlandı. Mehdi Məmmədov, Abbas Zamanov, Əli İsmayılov... çıxış etdilər. Axırda söz Turan Cavidə verildi. Bu, gözlüklü, vücudca arıq, nisbətən zəif, əlli doqquz-altmış yaşlı qadın tamaşanın məsuliyyətindən danışdı, rejissora, aktyorlara, teatrın rəhbərlərinə öz minnətdarlığını bildirdi.

Cavid salonda yox idi. Mən buna təəssüfləndim. Yox, yox, əziz oxucum, mən səhv edirəm. Cavid salondaydı. Fəqət başqa şəkildə, başqa qiyafətdə. İndi o, Turan Cavid olmuşdu. Atasını ondan da yaxşı kim duya bilərdi? Atasını ondan da yaxşı kim əvəz edə bilərdi?..

- Dramaturq tamaşa zamanı hər hansı bir rejissorun, yaxud aktyorun mətni özbaşına dəyişməsinə, özündən söz artırmasına, əsəri ixtisar etməsinə qəti etiraz edərdi, belə halları xoşlamazdı.

Turan Cavid bu adi həqiqəti salonda oturanların nəzərinə çatdırdı. Turan xanım bir anlığa mənim təsəvvürümdə Cavid kimi canlandı. Tamaşa uğurla getdi. Ancaq onu da deməliyəm ki, rejissor pyesə üzərində əl gəzdirmişdi...

35

**Torpaq və kəndli!** Kəndlisiz torpaq ölüdür. Torpaqsız kəndli acdır. Kəndlini torpağa bağlayan, isnişdirən də budur. Kəndlini torpaqdan, təsərrüfatdan ayırmaq, soyutmaq onu məhv etmək, illərlə formalaşan kəndli psixologiyasına, şüuruna ağır zərbə endirmək deməkdi. Kəndlini torpaqdan ayırmaq bir problemdirsə, kəndlini torpağa qaytarmaq başqa bir problemdi...

**Fevral 1931.** Ölkədə qolçomaqlığın ləğvi haqda təlatüm baş verdi. Xüsusi komissiya yaradıldı. Komissiyaya A.Andreyev başçılıq elədi. O Andreyev ki, Gelyanı Stalinlə «görüşdürmüşdü».

1932-ci ilin martında ölkəni repressiya dalğası bürüdüyü üçün komissiyanın işi dayandırıldı. 1933-cü ilin mayında kənddə repressiyanın miqyasını məhdudlaşdırmaq məqsədilə sovet orqanlarına təlimat göndərildi. Azərbaycan ədəbiyyatı ümumi axına qoşularaq, qolçomaq Hacı Əhmədlərə müharibə elan etdi. Lakin həmin təlimatadək gəlin görək ölkədə nə baş verdi? Ölkənin bir sıra regionları «kateqoriya»lara bölündü. Həmin regionlardan didərgin salındı. 1930-cu ildə 105 mindən, 1931-ci ildə 260 mindən çox ailə Şimala, Urala, Sibirə və Qazaxıstana sürgün edildi. Üst-üstə 380 min «qolçomaq» yurdundan, yuvasından oldu. 250 min ailə təsərrüfatını atdı, ev-eşiyini satdı və atdı, hamısı şəhərə, tikintiyə qaçdı. Zəhmətə bağlı, ölkəni dolandıran kəndlilər qaçqına çevrildilər. Həmin illərdə cəmi 1 100 000 «qolçomaq» təsərrüfatı ləğv edildi. 1932-1933-cü illərdə SSRİ-də aclıq baş verdi. Aclıq milyonlarla adamın ölümünə səbəb oldu. Bu, Stalin və onun əlaltılarının sovet zəhmətkeşlərinə qarşı etdikləri ən dəhşətli cinayət idi!

Orta hesabla həmin illərdə dörd-beş milyon kəndli acından məhv oldu. Acından ölməməyə çalışan kəndlilər «oğruya» çevrildilər. Onlar gizlincə, gecəynən əkin sahələrinə gedir, sünbül qırır, ciblərinə, qoyunlarına doldurur, evlərinə qayıdırdılar. Yerli hökumət xəbər tutanda həmin «oğrulara» ciddi divan tutulurdu. Mən bu sətirləri yazarkən 1946-1947-ci illər yadıma düşür. O zaman dədəm Əhməd kişi bağ gözətçisiydi. Yadımdadır ki, o, gecəynən evə gələr, uşaqları acından ölməsin deyə ütülmüş sünbül, üzüm gətirərdi…

Rəhbər qəflət yuxusundan oyandı, gördü ki, ey dadi-bidad, kəndlilər… «sosialist mülkiyyətini dağıdırlar». Şəxsən öz əli ilə qanun yazdı, 7 avqust 1932-ci ildə: «Sosialist mülkiyyətinin qorunması haqqında qanun!» O zaman kəndlərdə o qanuna belə ad verdilər: «Beş sünbül haqqında qanun». Həmin qanunun qəbul olunmasından beş ay keçmirdi

ki, 54 000-dən artıq adam cinayət məsuliyyətinə cəlb edildi. 200-dən çox adam güllədəndi. Şimali Qafqazda 26 000 adam partiyadan çıxarıldı. Bunun 45 faizini kəndli kommunistlər təşkil edirdi. Kuban əhalisinin bir qismi taxıl istehsalı planını yerinə yetirmədikləri üçün şimal rayonlara sürgün edildi. Mixail Şoloxov ciddi təşviş doğuran bu xətti-hərəkət barəsində Stalinə məktub yazdı. Stalin məktubunda göstərdi ki, kəndlilər fəhlələrə, Qızıl Orduya qarşı «sabotaj», hətta müharibə elan ediblər…

Oxucu dostum, kəndli beləcə torpaqdan uzaqlaşdırılırdı, təhqir edilirdi, alçaldılırdı. Buna bənzər hallar Zaqafqaziyada, Azərbaycanda baş verirdi. Oxucum, əgər bu gün biz əti, yağı… talonla alırıqsa, bunda kəndlini günahlandırma, axı, bizim böyük ərzaq proqramımız var…

Otuz iki-otuz üçüncü illərdə Ukraynada, Şimali Qafqazda, Ön və Orta Volqada, Cənubi Uralda, Qazaxıstanda… kütləvi aclıq başlandı. Böyük-böyük kəndlər acından qırıldı. Bu gün ölənlərin dəqiq sayını göstərmək çətindi, çünki bu sahədə sovet tarixşünasları – demoqraflarının elmi tədqiqatı yoxdur. Günahsa onlarda deyil, çünki tədqiqat işi aparmağa icazə verilmirdi. Xarici alimlər yazırlar ki, SSRİ-də kənd təsərrüfatının kollektivləşdirilməsi 13 000 000 kəndlinin ölümünə, aclıq 7 000 000 adamın məhvinə səbəb olmuşdur. Tarixçilərdən Robert Devis və Stiven Uitkrof, demoqraflardan Barbara Anderson və Bayron Silver SSRİ-də acından ölənlərin sayını üç-dörd milyon göstərirlər.

Stalin və Molotov 8 may 1933-cü il təlimatı ilə əlaqədar etiraf edəcəklər: «Kolxozların sədrlərini və kolxozların idarə heyətinin üzvlərini həbs edirlər. Rayon və vilayət müvəkkillərini həbs edirlər. Hamını, hər kimi istəsələr və necə gəldisə, daha doğrusu, həbs olunmağa heç bir günahı olmayanı da həbs edirlər…»*

Bu, acı həqiqətləri etirafdırmı? Bu dəhşətli cinayətləri təsdiqdirmi? Bu, bu sözlərlə xalqı ələ almaqdımı, onun nəzərində özünü ucaltmaqdımı? Yoxsa bu da bir siyasətdir? Məncə, hiyləgər siyasətdir!..

---

* «Правда», 16 сентября 1988.

## 36

**Noyabr, 1937-ci il.** İsmayıllı rayonunun Kürdmaşı kəndində dəhşətli bir xəbər yayıldı. Kəndin 24 sakini NKVD-nin rayon şöbəsinə çağrılırdı. Çağırılanların arasında kənd sovetinin sədri, kolxoz sədri, partiya təşkilatının katibi, adi kəndlilər var idi. Bir neçə gündən sonra həmin rəqəm 76-ya çatdırıldı. Bu binəvaların kiçiyinin yaşı on səkkiz, böyüyününkü yetmiş idi. Kəndə, rayona bir vəlvələ düşdü ki, gəl görəsən. Hamı biri-birindən qorxurdu, hamı biri-birindən ehtiyat edirdi. İstintaq kənd sovetinin binasında başlandı. İstintaqı respublika NKVD-nin müvəkkilləri Asaturov, rayon NKVD-nin rəisi Şərifov, rayon milisinin rəisi Manafov aparırdılar. Şahidlər sovetliyə çağrıldı. Kim idi onlar? Tutulanların arvadları! Ssenari əvvəlcədən düşünülmüşdü: qadınları qorxutmaq, lazımi məlumatlar almaq, ərlərinin günahkar olmalarını sübuta yetirmək, hələm-asanlıqla baş tutmasa, hədə-qorxu gəlmək. İstintaq belə də başlandı. Bu, əsl tragikokomediya idi. Ən dəhşətlisi bu idi ki, arvadlar öz ərlərini ifşa etməli, «xalq düşməni» olmalarını sübuta yetirmək üçün istintaqa yardım göstərməli, öz ərlərinə xəyanət etməli idilər.

Aman Allah! Bu nə dəhşətli cəza idi ki, müsəlman arvadlarına verirdin? Göymü yerə enmişdi? Yermi göyə qalxmışdı? Uzun illər əri ilə bir yastığa baş qoyan arvadlar bunu necə edə bilərdilər? Bu, hansı əxlaq qanunlarına sığırdı? İnsaf, vicdan harada qalmışdı? Yoxsa o da İsa kimi ərşə çəkilmişdi? Günahsız ərlərinə qara yaxmaq, böhtan atmaq. Nə dəhşətli cəza!? Nə dəhşətli əxlaq dərsi!? Nə dəhşətldi istintaq!? Bu, hələ bir yana dursun, qadınlar istintaq prosesində maddi dəlillər də gətirməli idilər. Maddi dəlil silah, tapança... olmalıydı. Ərlərinin həqiqətən əksinqilabçı, sovet hökumətinin düşməni olmasını sübut etmək üçün həmin əşyayi-dəlillər lazım idi.

Hüseyn Cavid:

- Ah, zavallı qadınlar!.. Bütün mühit və qanunlar onlara düşmən, … bütün təbiət və kainat düşmən!.. Çünki zəifdirlər, onunçün də haqsızdırlar.

37

**«...İNSANLIQ HAQQINI, DEMOKRATİYA HAQQINI TƏLƏB EDİRƏM»**
**(Türkiyə televiziyasının müxbirinə verilən müsahibə. Yanvar 1990-cı il)**

**Müxbir: Yüksək səviyyədə qərar verilmişdir – Qarabağ Azərbaycanın olub və olacaqdır.**

**Əbülfəz Əliyev:** Əfəndi, qərar qərar yerində, əgər ermənilər buna əməl etmirlərsə, yəni ordu hələlik ordadırsa, sərhədlərdə adam öldürülürsə, bu məsələni qaydasına salmaq üçün dövlət hələ fəaliyyət göstərməlidir. Amma əvvəlkinə nisbətən vəziyyət bir az babatdır, yəni Qarabağda olan xüsusi komissiya kəndlərin yollarını açır, gediş-gəliş başlayır. Silahlı gəzən ermənilərin 300-ə qədəri oradan çıxarılmışdır. İndiki Qarabağdan çıxan ermənilər keçib Ermənistana, oradan Qazax, Naxçıvan, Gədəbəy sərhədlərinə hücum edirlər. Erməni silahlıları susdurulmayınca, vəziyyət düzəlməyəcək.

**M.: Moldaviyada bir hərəkat oldu, dünya bunu xəbər verdi. Azərbaycanda olan hadisəni niyə xəbər vermirsiniz?**

**Ə.Ə.:** Bu, adi bir şeydir – ermənilər həm Moskvada, həm də Avropada, ABŞ-da nüfuz sahibləridir; qəzet, mətbuat, televizor bunların əlində. Moskva televiziyasının rəhbərlərindən biri, Fransa televiziyasının bir kanalının sahibi ermənidir. Beləcə hər yerdə ermənilər bizə imkan vermirlər. Hətta Moskvanın «Oqonyok» jurnalının müxbiri az-çox düzgün məlumat yazmışdı, onu da heç bir qəzet və jurnalda çap etdirə bilmədi – ermənilər ona imkan vermədilər, sonra yenə Bakıda çap elətdirdi. Belə olan halda Azərbaycanda baş vermiş hadisələrdən dünya necə xəbər tuta bilər?

**M.: Bu ancaq ermənilərin mətbuatda nüfuzu iləmi bağlıdır, yoxsa müsəlman-xristian məsələsidir?**

**Ə.Ə.:** Təbii ki, son vaxtlar xristianlıq təsiri də güclənib. Məsələn, Buş fanatik bir xristiandır. Əgər belə bir fanatik xristian dövlət rəhbəridirsə, təbii olaraq, o, səhvlər edəcəkdir. Amma Reyqan belə yolla getmirdi. Təkcə bu deyil, Moskva bütövlükdə ermənilərə xidmət edir.

**M.: Pribaltika respublikalarının münasibəti?**

**Ə.Ə.:** Pribaltika çox istəyir ki, bu hadisələrə son qoyulsun, çünki respublikalar arasında insan ölürsə bu, ölkədə demokratiyanın qarşısını alır. Demokratik proses Gürcüstanda, Ermənistanda, Azərbaycanda davam edirsə, bu, Moskvanın xoşuna gəlmir, ona görə də məsələləri qurtarmaq istəmir.

**M.: Bu, Qorbaçovun istəyidir?**

**Ə.Ə.:** Bu, təkcə Qorbaçovun yox, sovetlər birliyinin səhvidir. Sadəcə olaraq, çıxış yolu tapa bilmirlər; başlarını itirmişlər. Əgər belə olmasaydı, Qorbaçov əmr verməzdi ki, ordu gecə dinc əhaliyə atəş açsın.

**M.: Yəni bunu Qorbaçov etmişdir?**

**Ə.Ə.:** Təbii, Yazovla Qorbaçovun işidir.

**M.: Bu halda İran və Türkiyə dövlətlərinin münasibəti?**

**Ə.Ə.:** İran bizi müdafiə edir, amma bizdəki demokratiyanı yox, ancaq müsəlman kimi azərbaycanlıları, yəni müsəlmançılığı müdafiə edir. Bu da zərərlidir.

**M.: Nə üçün?**

**Ə.Ə.:** Biz demokratiya tərəfindən kömək ala bilərik, bu müsəlmançılıq ortaya çıxdıqda demokratiya bizdən uzaqlaşır. Əgər Fransa eşidirsə ki, İran dövləti bizə müsəlmançılığa görə kömək edir, Fransa demokratiyası bizdən uzaqlaşır və deyir ki, Azərbaycanda müsəlman-xristian davasıdır. Bizə kömək edənlərin hamısına minnətdarıq, amma təkcə müsəlmançılığa görə yox, insanlığa, həqiqətə, demokratiyaya görə…

**M.: Türkiyə dövlətinin münasibətinə nə deyirsiniz?**

**Ə.Ə.:** Əsasən Türkiyənin mətbuat işçilərindən son vaxtlarda razıyıq, çünki son hadisələri olduğu kimi yazdılar («Hürriyyət»də,

«Günaydın»da, «Tərcüman»da və b.). Və bizə – AXC-yə qarşı yalan hücumların qarşısını aldılar ki, bu da bizlərə böyük mənəvi dayaqdır.

Bir də, Türkiyə ictimaiyyətinin də hadisələrdən sonra Bakıda yanvar hadisələri ilə əlaqədar nümayişlər, mitinqlər keçirməsi bizə mənəvi dayaqdır. Xarici İşlər Nazirinin bir bəyanatı çox gözəl idi, amma Turqut Özalın o cür çıxışı (yəni sünni-şiə məsələsi) və «biz buna qatışmırıq» deməsi çox qəzəb doğurdu. Mən bunu başa düşmədim. Atatürk demişkən, biz əvvəlcə türk, sonra müsəlmanıq.

**M.: Siz bunu belə də qəbul edirsiniz?**

**Ə.Ə.:** Bəli, biz bunu olduğu kimi qəbul edib, hər yerdə də deyirik. Öncə türk; bu, bizim bayrağımızda, onun rəngində də deyilir. Bayrağımızın üç rəngi var: birinci mavi – türklük, ikinci qırmızı – demokratiya, azadlıq, insan haqqı deməkdir, üçüncü yaşıldır – islamçılıq. Biz bu üçünü bir yerdə bir bayraqda yerləşdirməliyik. Amma birincisi bizim türklüyümüzdür. Bu saat insanların özünü bir millət kimi dərk etməsi lazımdır. Biz bir millət, dövlət və vahid Azərbaycan haqqında yaşamağı fikirləşirik. Heç kəsə yapışmadan, heç kəsə birləşmədən, vahid Azərbaycan dövləti haqda fikirləşirik. Bunun nə dəxli var müsəlman-xristian, sünni-şiyə? Mən başa düşmürəm. Elə bir dövlət yaratmaq ki, dövlət yalnız vətəndaşını müdafiə etsin – onun dilinə, dininə baxmadan.

**M.: Siz klassik demokratik bir dövlət istəyirsiniz?**

**Ə.Ə.:** Ancaq bunu istəyirik, bəy əfəndim. Hər bir dövlət öz vətəndaşının yaşayışına cavab verməli, onun təhlükəsizliyini təmin etməlidir: istər o, türk olsun, yəhudi olsun – fərq etməz. Biz bu cür ideyanın, dövlətin arxasınca gedirik.

**M.: Özal haqda fikrinizi bir qədər dəqiq ifadə etsəniz…**

**Ə.Ə.:** Sayın Özal bir qədər tələsibdir, yəni məsələnin kökünü araşdırmamışdır. Avropa Türkiyəyə qarşı çıxmasın deyə, o cür söyləmişdir ki, birdən türklər haqqında pis fikirləşərlər, yəni bizlər Avropa türkləriyik… Fikirləşmiş ki, Avropa necə düşünür bu hadisələrdə… Bu, düzgün deyil. Türkiyə heç vaxt öz türklüyündən

qaçmamalıdır, çünki Avropa Avropadır. Türkiyənin bir əli şərqdir, milləti şərqdir, təfəkkürü şərqdir, özünü sevəndir və min illər bunun içərisində yetişmişdir. Bundan qaça bilməz.

Turqut Özal və bütün türk hökuməti Azərbaycan haqqında çox az bilir.

**M.: Doğrusunuz. Biz indii çox şeyi başa düşürük.**

**Ə.Ə.:** Əfəndim, bizdə hər bir kəs Türkiyə haqda, onun torpağı, malı-mülkü haqda hər şeyi əzbər bilir. Amma siz türklər Azərbaycan haqda heç nə bilmirsiniz. Yəni mən nə demək istəyirəm? Əgər bu gün Moskvada təyyarə qəzaya düşübsə, həmin gün bütün türk qəzetləri yazırlar: dünya dağılır, Moskvada bir təyyarə qəzaya uğrayıb. Amma Azərbaycanda dünya dağılır, torpaq davası gedir, türklər bu barədə iki cümlə ya yazırlar, ya da heç onu da yazmırlar. Bu necə olur, əfəndim?

**M.: Bəy, son iki ayda düzəlib.**

**Ə.Ə.:** «Günaydın» qəzetinin harayından sonra. Bir az da düzəlsə, yaxşı olar.

**M.: Bəs «32-ci gün» televizyon verilişi?**

**Ə.Ə.:** Düzdür, düzdür. Amma iki ildir 200 min azəri türkü qovulub. Bir qardaş da qardaşın qovulmasını, evlərinin dağıdılmasını, yandırılmasını, uşaqların meşələrdə soyuqdan donmasını, yüzlərlə adamın qəhr olunmasını son iki ayda bilir.

**M.: Burada bir söz söyləyəcəm. Türkiyə xalqı Azərbaycanın o tayda bir qardaşıdır. İki-üç ay bundan öncə bizim televizyonlar Azərbaycandan tamam bir veriliş yapdılar, bütün türklər televizyonun qarşısında yığışmışlardı. Onda siz bizləri çaşdırdınız, biz sizləri bu qədər bilmirdik. O veriliş Məmmədəli* ilə sizin müsahibənizdən sonra bütün türk dünyasını dəyişdi.**

**Ə.Ə.:** Tanrı da Məmmədəli bəyə öz haqqını çatdırdı – o öz millətinin ağır bir günü üçün bunu etdiyindən, mükafatda birinci yeri

---

* Məşhur türk jurnalisti Məmmədəli Birant nəzərdə tutulur. – Becan İbrahimoğlu, Ədalət.

aldı… Yəni Türkiyədən gələnlərin hamısı ilə qonuşuruq, insanlar bu qonuşma içində özündə bir qüvvə tapır. Bir də qaldı sualın ikinci hissəsinə, yəni Türkiyə dövlətinə. Mən Türkiyə dövlətindən qardaşlıq haqqını tələb etmirəm, çünki türk xalqı öz qardaşlıq borcunu yerinə yetirməlidir, amma türk dövlətindən insanlıq haqqını, demokratiya haqqını tələb edirəm. Axı Türkiyə bir demokratik ölkədir, necə olur ki, 200 min qaçqın türkün hüququnu demokratiya qaydalarına müvafiq tələb etmir? Biz türk dövlətindən başqa təmənna ummarıq.

**M.: Düzdür, düzdür…**

**Ə.Ə.:** Mən türk dövlətindən müsəlman kimi yox, türk kimi yox, millət kimi yox, ancaq inasanlıq haqqını müdafiə etməsini diləyirəm.

**M.: Türk dövlətinə haçan gəlirsiniz?**

**Ə.Ə.:** Mən özüm yox, amma arkadaşlarım gəlirdilər, dəvətnamə də göndərilmişdi – 28 may-3 iyun 1990-cı ildə Türkiyədə birinci «Millətlərarası Böyük Azərbaycan konqresi»ndə iştirak etmək üçün. Amma işlər yenə qatışdı bir-birinə. Etibarı, Rəhimi həbs etdilər, başqaları da getməkdən imtina etdilər.

**M.: Bəs sən özün niyə gəlmək istəmirsən?**

**Ə.Ə.:** Bəy əfəndilər mənim üçün də dəvətnamə göndəriblər, amma mən özüm getmirəm. Anladım niyə? Əgər mən Turkiyəyə gedərəmsə, gəlib burada bir iş görərəmsə, mənə deyəcəklər: bu, pantürkistdir, yaxud türklərin agentidir. Ona görə də mən getmək istəmirəm bu məsələlər tam aydınlaşdırılmayınca. Yəni Azərbaycanda bir demokratik cəmiyyət yaransın, Sovetlər Birliyində bir az irəliləmə olsun, ondan sonra hər yerə getmək olar.

**M.: AXC-nin liderləri necə adamlardır?**

**Ə.Ə.:** Mən bunu deyə bilərəm ki, hamısı alimdir, hətta elmlər doktorumuz da var. Elmlər Akademiyasında, ali məktəblərdə işləyirlər. Ailələrini də, uşaqlarını da, işlərini də (elmi) xalq yolunda qurban vermişlər.

**M.: Mən burada olan günlərdə gördüm ki, Azərbaycan xalqı Xalq Cəbhəsinə və ən çox onun sədrinə, yəni sizə inanır. Necə oldu ki, Yanvar hadisələri baş verdi?**

**Ə.Ə.:** Bərk aldatdılar, əfəndim. Biz fikirləşirdik ki, ordular şəhərə girməzlər. Uşaqlar, qadınlar, qocalar və cavanlar etiraz əlaməti olaraq tankların və ordunun qarşısında dayanmışdılar və heç bir zor etmədən keçən dəfə də ordu şəhərə girmişdi, qan tökülmədən. Yanvarın 17-də Azərbaycan KP MK-nın məsul işçisi və Moskvadan gəlmiş Mixaylov çıxdılar, televiziya ilə xalqa müraciət edərək dedilər ki, ordu şəhərə girməyəcək, heç bir hərbi vəziyyət, qadağan saatı olmayacaq. Dövlət bunu dedi: «Olmayacaq». Biz də fikirləşdik ki, olsa da deyərlər ki, dağılın, hərbi vəziyyət olur – camaat da dağılar. Hamı aldandı, hamını dövlət aldatdı. Silahla dayanmaq olmaz imperiyanın qabağında!..

Mən özüm Moskvadan gəlmiş İttifaq Sovetinin sədri Primakov və Sov.İKP MK-nın katibi Girenkodan soruşdum: «Siz mənə deyin, Bakıda hərbi vəziyyət olacaq? Siz bunu istəyirsinizmi? Mənə söz verin, xalqa deyəcəm». Dedilər: «Yox». «Bəs qadağan saatı necə, olacaqmı?» «Olmayacaq» dedilər. Həmişə bizi hökumət aldadır.

Hər kəsin ağlına gəlməz ki, içində adam olan, dayanmış maşının üstünə tank dırmaşssın… Nə olar ki, deyəsən: «Sür maşını, buradan get».

Xalq Cəbhəsi yox, heç bir kəs düşünməz ki, on yaşında körpəni öldürəsən, oturan sakit adamlara güllə atasan. Bunu heç kimsə etməz. Heç kəsin ağlına belə gəlməz bu qədər vəhşilik. Bundan sonra bu ordudan hər şey gözləmək olar. Dünya tarixində müharibələrdə belə, həkimlərə, tibbi yardım maşınlarına atəş açılmır. Bakıda isə həkimə də, tibbi yardım maşınına da, uşağa da atəş açılır. Bundan sonra sovet ordusuna, sovet dövlətinə kim inanar? Bununla da sovet hökuməti ona inamı birdəfəlik qırdı.

**M.: Siz Sovetlər Birliyindən ayrılmaqmı istəyirsiniz?**

**Ə.Ə.:** Biz bunu indi və iki-üç il müddətində demirik. Biz istəyirik ki, burada bir müstəqil qurum yaransın. Cənubi Azərbaycanda da bir

müstəqil qurum yaransın, zaman-zaman xalq buna örgəşsin, sonra Almaniya kimi birləşsin, vahid bir dövlət qurumu yaransın. Almaniya indi birləşib. Dörd-beş il bundan qabaq desəydilər ki, «Almaniya birləşir», biz də inanmazdıq, siz də. Eləmi? Bəs indi Qorbaçov deyir ki, bu, almanların öz işidir, getsinlər, birləşsinlər. Bu vəziyyət bizlərə gəlib çıxacaq, çünki dünya demokratiya hərəkatı bura gəlir; başqa yol yoxdur. dünya demokratiyası o yerə gətirib çıxaracaq ki, şimal və cənuba, qərb və şərqə bölünmüş bütün dövlətlər birləşəcək; başqa yol yoxdur. Bunu mən demirəm, belə olsun, əzizim, bunu tarix deyir. Mən tarixçiyəm, tarixin fəlsəfəsi var, fəlsəfə tarixi yox. Tarixin fəlsəfəsi bunu göstərir, bugünkü həyatın fəlsəfəsidir. Bu, tarixin, həyatın fəlsəfəsi başlanmışdır on səkkizinci yüzildən – fransızlar özlərini ingilisə qarşı qoyub, hər millət öz taleyini həll etmək istəyəndə dünya bunu bilmədimi? Bütün türk xalqları yaşayan dövlətlər müstəqil dövlət olacaq. Mən heç bir zaman istəmərəm ki, Qazanda yaşayan türklər də bizə birləşsinlər. Yox,qoy özünün dövləti olsun. Hər bir xalq etnos kimi zaman-zaman birləşmiş, zaman-zaman uyğunlaşmışdır; onu bir-birinə qatmaq olmaz. Yüz min illərin yetişdirdiyi Həmədandan tutmuş Dərbəndə qədər və Göyçədən tutmuş Xəzərə qədər burada azəri türkləri məskən salmış, başqa xalqlarla birləşərək yaşamışdır.

**M.: İran dövlətini necə görürsünüz?**

**Ə.Ə.:** Çox pis. Mən çıxış yolunu feodal demokratik dövlətdə görürəm, yəni farslar üçün, azərbaycanlılar üçün və kürdlər üçün ayrıca dövlət olmalı və birləşməli. Buna da keçmək istəmirlər. Feodal dövlətin yaranması İranı bir qədər qurtara bilər. Əgər olmasa, parçalanma gedəcək. Heç cür ola bilməz ki, üç milyon kürdə heç nə verməyəsən. Necə olur ki, üç milyon kürdə bir məktəb də vermirsən, necə olur? Bu, mümükün deyil. Avropadan demokratiya gəldikcə, bu, öz-özünə meydana çıxacaq.

**M.: Əbülfəz bəy, qısaca olaraq özünüz haqqında danışın.**

**Ə.Ə.:** Mən özüm haqqında danışmağı xoşlamıram.

**M.: Xahiş edirəm, çox qısa da olsa.**

**Ə.Ə.:** Atam çoban olmuşdur. Özüm universitetin ərəb şöbəsini bitirmişəm. 2 il Misirdə tərcüməçi işləmişəm. 2 il həbsdə olmuşam. İndi isə Əlyazmalar İnstitutunda işləyirəm. Bu qədər bəsdirmi?

**M.: Çox sağ olun. Bir də deyirlər, siz tarix elmləri namizədisiniz. Bu beləmi?**

**Ə.Ə.:** Bəli.

**M.: Sağ olun.**

38

Ərlərinin üzünə durmaq bu qadınlar, oğullu-qızlı analar üçün əsl ölüm idi. Əksəriyyəti savadsız, əksəriyyəti vicdanlı, namuslu olan bu azərbaycanlı qadınlar çıxılmaz vəziyyətdə qalmışdılar, bilmirdilər ki, nə etsinlər. Onlara dadlı vədlər verilirdi: «Kim boynuna alsa, əri evinə buraxılacaq».

- Dul qalmaqdansa, «doğru» danışmaq lazımdı, - qadınların bəzisi belə düşünürdü. Dul qalmaq, ərsiz yaşamaq, uşaqları atasız böyütmək. Qadınlar üçün bundan da dəhşətli, faciəli nə ola bilərdi?.. Müvəkkillərin şirin dilinə, felinə, şirin vədlərinə aldanırdılar arvadlar. Dəhşətlisi bu idi ki, o zaman evdə silah saxlamaq qadağan olunsa da, bəzi evlərdə məşhur beşaçılan var idi. İstintaqa cəlb edilənlərin hamısında silah yox idi, fəqət tək-tük adamın evində beşaçılan vardı. Evində silahı olmayan arvadlar qonşudan, yaxın kəndlərdən silah almalı idilər. Ta ki onların evindən silah tapılsın. Belə olan zaman kəndlilərə əksinqilabçı damğası vurulub, «evlərinə buraxılacaqdılar». Tələb beləydi. Evində silahı olan qonşu onu qonşusuna verməyə hazır idi, ta ki onun evindən beşaçılan çıxmasın, ta ki o yaxalanmasın. Biçarə arvadlar qonşulardan, yaxın kəndlərdən silah almağa başladılar. Bilmədilər ki, bununla də ərlərinə ölüm fərmanı yazırlar. İnəklərini, öküzlərini, qoyun-keçilərini satdılar, qiymətli şeylərini verib silah aldılar, ta ki ərlərini azad etsinlər. Eh, qadınlar, sizi aldatmaq nə qədər də asanmış! «Köhnə kişilər» sizin barənizdə belə

deyib: «Qadının ağlı, toyuğun ağlı – fərqi yoxdur». Cavid isə belə demişdir:

*Qadın! Ey sevgili, şəfqətli mələk!*
*Bu qədər səbrü təhəmmül nə demək?*
*O lətafət, o nəcabətlə sana,*
*Bu əsarət, bu həqarət nə rəva!?*

- Həyat yoldaşına xəyanət etmək daha böyük ədəbsizlikdi.

Şair bir də belə demişdi.

NKVD-nin rayonda apardığı istintaq «çox uğurla» başa çatdı. İstintaq prosesində boylu bir qadın uşaq salıb öldü. 63 ismayıllı kişisi ən ciddi cəzaya – ölümə məhkum edildi. Sonralar qalanları da öldürüldü. İsmayıllıda «əksinqilabçı dəstə» ləğv edildi. İlim-ilim itirildi. Sosialist öhdəlikləri yerinə yetirildi. Bağırov Stalinin yanında alnı açıq, üzü ağ oldu. Evlərdə şivən qopdu. Neçə-neçə körpə qəlbi qanadıldı, dağlandı, parça-parça oldu. İnam itdi, etiqad itdi, Allaha da, hökumətə də, insanlara da, qanun keşiyində duranlara da! Sonralar bu inamı bərpa etmək üçün illər, onillər, əsrlər lazım gələcək. Vaxt keçəcək, məlum olacaq ki, NKVD orqanlarının işçiləri bəzi kəndlilərin evlərinə özləri silah aparıb qoymuş, sonra onu «tapmışlar».

İllər ötəcək, 1970-ci illərdə və 1993-2010-cu illərdə buna bənzər hadisələr Azərbaycanda baş verəcək. Milis işçiləri «cinayətkarların» ciblərini, evlərini axtaracaq, ora anaşa atacaq, oradan anaşa tapacaqlar. İllər ötəcək, bəzi milis işçiləri rüşvət üstündə məhkəməyə düşənlərin yaxın adamlarından rüşvət alıb görüş verəcək. İllər ötəcək gözüyaşlı arvadlar, oğullar, qızlar ərlərinin, atalarının taleyilə maraqlanacaq, onların ölüb-qalması haqda bir parça kağız istəyəcəklər. Heç kəs onlara dəqiq cavab verməyəcək. Həqiqəti öyrənmək istəyənlərə deyəcəklər: «Sənin ərin, qardaşın, atan cəzasını çəkir. Gözləyin. (Bu yerdə Cəlil Məmmədquluzadənin «Ölülər»i yada düşür…) Cəza müddəti qurtaran kimi buraxacaqlar. Heç bir yerə müraciət etməyin. Bizə inanın».

Aldadılırdı zavallı bəşər! Allanırdı zavallı bəşər! «Xalq düşmənləri» güllələnirdi, öldürülürdü! Nə öldürüldüyü, nə də basdırıldığı yer məlum idi! Günlər ötəcək, arvadlar, oğullar, qızlar, bacılar, qardaşlar əzizlərinin məzarlarını axtaracaqlar. Heç olmasa, onların məzarları üstündə doyunca ağlamaq, ürəklərini boşaltmaq istəyəcəklər. Bu səadət də onlara nəsib olmayacaq. Buna baxmayaraq, Stalinə, sovet rəhbərlərinə inam günü-gündən artacaq, özünün kulminasiya nöqtəsinə çatacaq.

- Stalin yoldaş bilsə ki, ölkədə belə biabırçılıq, belə qanunsuzluq baş verir, günahkarların dərisinə saman təpər!

İnsanlar belə düşünürdülər. Nə günah var idi zavallı insanlarda?.. Kiçik də, böyük də belə tərbiyə alırdı: Rəhbəri sevmək lazımdı, rəhbərə hörmət etmək lazımdı, rəhbər yalan danışmır, rəhbərin dilində bir söz varsa, o da həqiqət, həqiqət, yenə də həqiqətdi! Ədalət, ədalət, yenə də ədalətdi! Rəhbər hamı üçün etalondur. Həqiqət, ədalət etalonu!..

Gerçəklikdə vəziyyət başqa idi…

39

**1937.** Böyük-böyük adamlar, kiçik-kiçik adamlar saxta siyasi ittihamların, cəza tədbirldərinin qurbanı olurlar.

Nəriman Nərimanov: «İndi vəziyyət elə dözülməz hala gəlib ki, hətta bir-birinə çox yaxın olan bir sıra kommunistlər özlərini Lenindən sonra onun «qanuni» varisləri adlandıran şəxslərlə, onların dövləti idarə etmək bacarıqsızlığı nəticəsində yaranan müdhiş nöqsanlar barədə açıq danışa bilmirlər».

Həmin illərdə Azərbaycanın rəhbəri Mircəfər Bağırov idi. Onun şəxsi təşəbbüsü ilə rəhbər partiya və sovet işçilərinə divan tutulurdu. 1937-1938-ci illərdə respublikada 40 000 adam cinayət məsuliyyətinə alınmışdı. 1937-1940-cı illərdə Azərbaycanda hər il, orta hesabla, 12 000 adam saxta ittihamların, terrorun, cəza tədbirlərinin qurbanı olurdu. 1937-ci ildə Azərbaycan K(b)P MK-nın iclasında 279 adam partiyadan çıxarıldı.

*Vaxt oldu ki,*
*araya girdi qor-qoduqlar,*
*Sənəti yumruqla,*
*ilhamı zirzəmilə qorxutdular.*
*Bir də gördün, əldə möhürlü mandat,*
*gəldi ədəbiyyat darğaları.*
*Bağırdılar:*
*- Hey, fa-ra-ğat!*

40

Əziz oxucum, hər şeyi yazmaq mənim üçün çətindi. Bunu sən məndən də yaxşı başa düşürsən. Sən dünən ağıllı idin. Bu gün dünəndən də ağıllısan. Sabah isə dünən və bu gündən daha ağıllı olacaqsan. Deyilənləri ölçüb-biçsən, kimin haqlı, kimin haqsız olduğunu özün müəyyənləşdirəcəksən. Mənim üçün yazmaq çətindi, olub-keçənlər barəsində, Cavid haqqında, Turan Cavid haqqında. Ancaq yazmaq istəyirəm, düzü düz, əyrini əyri görmək istəyirəm, vicdanımın səsinə, ürəyimin dediklərinə qulaq asıb yazıram. Mən də səhv edə bilərəm, amma səhv etməməyə çalışıram. Səhvimi görsən, hiss etsən, bağışla məni. Ancaq indi hisslərimin, duyğularımın, təfəkkürümün təbii axarına qovuşub bildiklərimi, gördüklərimi, eşitdiklərimi, oxuduqlarımı ağ vərəqlərin üzərinə köçürmək istəyirəm. Cavid haqqında yazmaq çətindi. Bunu məndən əvvəl yazanlar da etiraf ediblər, mən də etiraf edirəm. Bəlkə məndən sonra gələnlər də etiraf edəcəklər. Xüsusən o adamlar haqqında yazmaq çətindir ki, onların şöhrəti özündən sonra yaşayır, böyüklüyü daha aydın görünür, şöhrəti qat-qat artır, dağlar-dərələr, ölkələr aşır, dünyanı gəzir, qəlbləri fəth edir.

Şair adi günlərini yaşayırdı. Yazır-pozur, oxuyur, teatr texnikumunda dərs deyirdi, teatra gedir, əsərlərinin məşqlərinə baxırdı…

41

**Teatr texnikumu.** Cavid burada dərs deyir. Tələbələrin əksəriyyəti, demək olar ki, hamısı onu birinci dəfədir ki, görürdü. O, tələbələrin

təsəvvüründə, əsərlərini oxuya-oxuya xəyallarında canlandırdıqları Cavid deyildi. Bədii əsər yazan Cavidlə müəllim Cavid arasında kəskin təzad, ziddiyyət var idi. Təsəvvürlərdəki Cavid tamam «qeyri-adi, heç kəsə bənzəməyən ecazkar sənətkar, bir sehrkar», fövqəlbəşər idi. Gerçək Cavid heç kəsdən seçilməyən, adi, lap adi bir adamdı. Gənclər onun görkəmində, geyimində, davranışında, rəftarında, danışığında heç bir qeyri-adi əlamət görmürdülər. Onun danışıq tərzi, ləfzi, ifadəsi Cavidi lap adiləşdirirdi. Əsərlərindəki yüksək poeziyaya, nadir və incə şeiriyyata, axıcı misralara, gözəl və gözlənilməz qafiyələrə, mürəkkəb, bəzən qəliz ifadələrə alışanlar, yaxud bundan xəbəri olanlar həyatda və məişətdə onun mürəkkəb bir dildə danışdığını güman edirlər. fəqət o, ən sadə, ən adi bir tərzdə, hamının danışdığı və başa düşdüyü bir dildə danışır, şirin-şirin söhbətlər edirdi. Cavid ədəbiyyat tarixindən və nəzəriyyəsindən sistemli şəkildə danışmırdı, ancaq ədəbi hadisələr və şəxsiyyətlər haqqında hərarətlə, ehtirasla söhbət açırdı. Toxunduğu məsələlərə, səciyyələndirdiyi şəxsiyyətlərə öz münasibətini gizlətmirdi. Hər şeyi aşkar söyləyirdi, bunu insanlığın, şairliyin ən böyük məziyyəti hesab edirdi. Əsl şair, əsl sənətkar belədə olmalı idi.

42

Cavidin ən çox sevdiyi, sənətkarlıq qüdrətinə pərəstiş etdiyi yazıçılardan biri F.M.Dostoyevski idi. Çəliyini döşəməyə, barmağını mizə döyəcləyərək, Dostoyevski haqqında hərarətlə, daxili inam hissilə danışırdı. O, 1934-cü ildə yazıçıların birinci qurultayında Maksim Qorkinin məruzəsində Dostoyevskiyə verilən qiymətlə heç cür razılaşa bilmir, bunu ədalətsiz rəftar hesab edirdi. Cavidə görə, Dostoyevski insana bəslədiyi eşqin, ehtiramın naminə həyatın dibsiz qaranlıqlarına, insan qəlbinin dərin guşələrinə baş vurur, cəmiyyəti və zehniyyəti bürüyən zülməti sənətin şüaları ilə kəsir. Maksim Qorki Dostoyevskinin rus ədəbiyyatı tarixindən silinməsini istəyirdi, Cavid Dostoyevskini tələbələrinə sevdirirdi.

43

Cavidgilin evində ağ neft qurtarmışdı. Mişkinaz ondan gedib ağ neft almasını xahiş etdi. O, neft qabını götürdü, iki küçənin tinindəki neft dükanına getdi. Şair gördü ki, dükanın qabağında adam çoxdur. Növbəyə dayandı. Növbəsi çatdı. Neft qabını satıcıya uzatdı. O, neft qabını doldurdu. Cavid ağ neftin pulunu verdi. Neft qabını götürüb evlərinə gəldi. Yolda Mehdi idə rastlaşdı. Salam verib keçdi.

Bu gün Mehdi,* Cavidin tələbəsi, müəlliminin tapşırığıilə onlara gəlmişdi. Qapını döyüb içəri keçdi. Mehdi gördü ki, şair dərin xəyallara dalıb. Yarıuzanmış vəziyyətdə yazı yazır. O, otağa nəzər saldı. Həm təəccübləndi, həm də heyrətləndi. Şair çox-çox sadə şəraitdə yaşayırdı…

Ortaboylu, dolubədənli Caviddə adətən bir sakitlik, sükunət duyulurdu. Yeriyəndə sakit-sakit yeriyir, oxumaqdan, yazmaqdan yumurlanmış omuzlarını sanki əlindəki çəlik ilə tarazlaşdırır, ağır və ləng addımlarla o qədər ehmalla tərpənirdi ki, uzaqdan baxan adam onun yerişilə duruşunu biri-birindən çətin fərqləndirə bilirdi. O, oturanda da, var-gəl edəndə də öz əl ağacından ayrılmırdı. Şairin çox vaxt yerə, yaxud uzağa dikilmiş nəzərləri ilk anda onun tamam rahat və sakit olması haqda aldadıcı təsəvvür yaradırdı. Amma ona dərindən diqqət yetirəndə gözlük altından parlayan iki zil qara, mənalı, iti baxışlı gözləri görürdü. Qara gözlərin gur işığı, iti şüası sanki adamın qəlbini almas kimi kəsirdi. Şairin sükunətində bir tufan, sadə, sakit görkəmində bir əzəmət, mis-tunc rəngli simasında heykəl vüqarı vardı. Onun gözlərindən, üzündən, görünüşündən mənəvi böyüklüyünü, böyük zəkasını, ululuğunu, sənətkar qüdrətini duymaq o qədər də çətin deyildi.

Böyük sənətkar məclisdə, dərsdə, söhbət əsnasında bəzən gözəl bir zarafatçıla çevrilirdi, duzlu-məzəli, gülməli ifadələrlə danışırdı. Cavidi nadir hallarda acıqlı, əsəbi, qəzəbli görmək olardı. Ancaq əsəbləşəndə, qəzəblənəndə dünya gözünə görünmürdü. Əsəbləşəndə, qəzəblənəndə halı-

* Mehdi Məmmədov.

təbiəti, xasiyyəti tamam dəyişir, müvazinətini itirir, saxlanmaz olurdu. Sifəti, ülgüclə qırxılmış başı qıpqırmızı olurdu, bir neçə gün danışmırdı…

## 44

Otuzuncu illərdə ədəbi-nəzəri və estetik fikirdə belə bir mülahizə yaranmışdı: «Müasir teatrda komediya ola bilməz. Sovet cəmiyyətində kimə və nəyə güləcəksən? Faciə də ola bilməz. Ona görə ki, sovet cəmiyyəti ən humanist, insanpərvər cəmiyyətdir».

Sərsəmlik! Sovet adamlarını güldürmək və ağlatmaq yaramaz – axmaqlıq! Ədəbiyyatda, sənətdə belə başabəla nəzəriyyəçilər var idi. Teatrın rəhbərləri Caviddən tələb edirdilər ki, «Şeyx Sənan» faciəsi yeni quruluşda tamaşıçalara komediya kimi göstərilsin, qəhrəmanlar əsərin sonunda ölməsinlər. Cavid isə qəti etirazını bildirmişdi: «Mən buna razılaşa bilmərəm!»

Neçə gün idi ki, həmin mübahisə davam edirdi. Cavid cana doymuşdu. O, belə mübahisədən çıxıb dərsə gəlmişdi. Haldan-təbdən çıxmışdı. Rəngi ağarmışdı. Son dərəcə əsəbi görünürdü. Cavidin halı tələbələrin gözündən yayınmadı. O, bir neçə yerdən cırılmış «Şeyx Sənan» pyesini stolun üstünə atdı. Oturdu. Bir əlini çəliyinə, o birini geniş alnına söykəyib, uzun sükuta daldı. Sonra sanki özü-özünə danışırmış kimi dodaqaltı qırıq-qırıq cümlələrlə dilə gəldi:

- Başa sala bilmirəm… Qandıra bilmirəm ki, komediya komediyadır… Faciə də faciə… Başa düşmürlər ki, faciə faciə kimi də bitməlidir… Getdim, axtardım tapdım… Axırda Marksdan da misal göstərdim, amma yenə də başa sala bilmədim ki, bilmədim… «Cahilləşmiş beyinlər!» deyib çıxdım.

Cavid başını qaldırıb, sinfi gözdən keçirdi. Tələbələr ona təəccüblə baxırdılar. O, uzun müddət özünə gələ bilmədi. Susdu, susması ilə içində acı bir fəryad qopardı. Tələbələrə elə gəldi ki, indi də ürəyində danışır. Cavid auditoriyanı beləcə də tərk etdi, qanı qara, əsəbi.

45

Cavidi incəsənətin idrak və inikas nəzəriyyəsi, obrazlılığın spesifikası çox maraqlandırırdı.* Şair bu məsələdə dövrün bir çox tənqidçilərindən daha düzgün mövqe tuturdu. Marksist tənqidçilər elə başa düşürdülər ki, Cavid ədəbiyata müasir məsələlərin və mövzuların, o cümlədən əmək mövzusunun gətirilməsi əleyhinədir. Əslində o, bunların heç birinin əleyhinə deyildi. Şair sənətdə və ədəbiyyatda mövzu, siyasi aktuallıq, şüarçılıq naminə bədiiliyin qurban verilməsinin əleyhinə idi. Nəinki əleyhinəydi, bunun düşməni idi. Cavid deyirdi: «Bədii yaradıcılıqda məzmun da, forma da, mətləb də, onun ifadəsi də, fikri də, söz də hamısı bədii, bədii ifadəli olmalıdır. Bədii əsərdə xüsusilə söz, cümlə, misra dərhal əyani bir hadisəyə – mənzərəyə çevrilməli, qəlbə, hissə güclü təsir etməlidir».

Cavid tələbələrə həmin məsələdən danışarkən bənzətmə, təşbeh, obraz gücünə, mənzərə və hadisə canlandırmaq hünərinə misal olaraq Namik Kamalın aşağıdakı beytini nümunə gətirirdi:

*Qopdu evdə acı bir vaveyla,*
*Odalar inlədi: Leyla! Leyla!*

***46***

Cavid ədəbiyyata siyasi motivlər, ictimai-tarixi və müasir problemlər gətirməyin də əleyhinə deyildi. Bu əsassız ittihamı onun yaradıcılığına, sənət haqqında görüşlərinə zorla yamamaq istəyən, canfəşanlıq edən, qulluq göstərən tənqidçilər var idi. Belə tənqidçilər ağına-bozuna baxmadan qələmini itiləyib Cavidin üstünə düşürdülər. O, belə «tənqidçilərə» məhəl qoymur, bədii ədəbiyyatda şüarçılığı, boşboğazlığı, siyasət carçılığını, kompaniyaçılığı qəbul etmirdi. Fikrini şərh etmək üçün üzünü Şekspirə, Füzuliyə, Tolstoya, Dostoyevskiyə, Tofiq Fikrətə, Əbdülhaq Hamidə tuturdu. Müəllim Cavid Hamidin «Hind qızı»

---

* Cavid 1919-cu ildə A.Şaiqlə birlikdə ədəbiyyat nəzəriyyəsinə aid «Ədəbiyyat dərsləri» adlı kitab yazmış, hökumət mətbəəsində çap etdirmişdir.

(«Duxtəri-hindu») pyesini ingilis müstəmləkəçiliyini qəzəblə ifşa eləyən parlaq ideyalı əsər təki qiyimətləndirir, tələbələrinə deyirdi:

- Halbuki «Hind qızında heç bir şüar, çağırış, yalan təbliğat yoxdur. Rayçarın və Sürücü kimi hindli obrazları siyasi mübarizə ilə məşğul olmur, bu xüsusda danışmırlar. Amma bunun əvəzində mübarizə arzusu, fikri, əzmi tamaşaçıların qəlbində oyanır, mübarizə şüuru tamaşa salonunda fəallaşır.

Bir dəfə dərsdə söhbət Hamidin «Əşbər» pyesindən düşdü. Cavid dedi:

- Makedoniyalı İskəndərin cahangir və hərbçi xarakterini, qanlar-qurbanlar, fəlakətlər bahasına yürütdüyü siyasəti ifşa üçün «Əşbər» pyesinin finalındakı iki cümlə kifayətdir. İskəndər yandırıb xaraba qoyduğu, işğal etdiyi şəhəri və şəhər qapısından asılan cənazələri Aristotelə göstərib qürurla soruşur:

**İskəndər**

Ərəstu! Nədir bu?

**Ərəstu**

Zəfər və ya hiç!..

Bu, Cavidin tarixi dramlarını qiymətləndirmək kriteriyasıdır, açardır, formuladır, düsturdur. Cavid «Peyğəmbər», «Topal Teymur», «Xəyyam» və s. tarixi dramlarında bu prinsipə əməl etmişdir…

1920-ci və 1930-cu illərin tənqidçiləri Cavidin bu bədii konsepsiyasına əhəmiyyət vermir, qılıncını sıyıran şairin üstünə hücum çəkir, onun əsərlərini biçib-tökürdülər. Müdrik şair isə belələrinə gülür, «Xəyyam» tarixi dramında Xəyyamın dili ilə deyirdi:

*- Sən ki, bir şair idin pək rəna*
*O da bir faidə verməzmi sana?*
*- Şairmi? Saqın, duyduğum ilhamə uyan yoq,*
*Şeirimdəki əsrarı duyan yoq.*
*Yoq oqşayacaq ruhumu bir nuri-səadət,*
*İzlər bəni hər dürlü fəlakət…*

47

**4 iyun 1937-ci il.** Gecə, Cavid aparılır. Cavidin ailəsinin qara günləri başlanır. Bu zaman Turanın on dörd yaşı vardı. Yeddinci sinfə gedirdi. 189 nömrəli məktəbdə oxuyurdu. Səhər yuxudan oyandı, yatağından qalxdı. Adəti üzrə onu məktəbə atası yola salmalı idi. Bu gün bu adəti pozmuşdular. Ata evdə yox idi. O, bir daha bu odaya qayıtmayacaq. Turanı məktəbə yola salmayacaq, onun nazını çəkməyəcək. Turan isə atasının həsrətilə yaşayacaq. Keçmiş günlərini xatırlayacaq, ürəyi qövr edəcək, sarsılacaq, içində tufanlar baş qaldıracaq. Bu tufanı yalnız özü duyacaq, özü hiss edəcək. Ona elə gələcəkdir ki, 1929-cu ildir. Atası ailəsini başına yığıb Barjoma istirahətə aparıb. Barjomda şəhər parkının yanında çayın üstündə bir yay restoranı var. Atası orada bir stol tutub. Hamısı oturub orada xörək yeyir. Turanın altı yaşı var. Xörəyi təzəcə yeyib qurtarıblar. Birdən Turan həcəyanla qışqırır:

- Baba! Baba! Əmini su aparır…

Hamı onun barmağı ilə göstərdiyi yerə baxır. İri bir adam portretini çay aparırdı. Atası «adamın» kim olduğunu görən kimi sakitləşir. Əlini Turanın çiyninə qoyaraq, mehribanlıqla deyir:

- Qızım, o, şəkildir, insan deyil, qorxma, bax!

Sonra özü-özünə danışırmış kimi əlavə edir:

- Eh, zavallı qız, hər insana oxşayan insan deyil axı…

İndi nə o əllər var idi, nə də o əllərin hərarəti. Turan çox istəyir ki, atasının o mehriban əlləri ona toxunsun, saçlarına sığal çəksin. O isə atasının mənalı baxışlarına doyunca baxsın. Gözləri zəifləmiş atasına kitab oxusun. Heyhat! Turan hər şeyə hazırdır, ölümə də, ta ki atası ailəsinə, doğma ocağına qayıtsın.

48

Bu gün Turanı yola anası salırdı. Nə isə anası anasına oxşamırdı, qardaşı da Ərtoğrola. Onlar Turana bir söz demirdilər. Nəzərlərini ondan yayındırmağa çalışırdılar. O, yeddinci sinifdə oxuyurdu. Bu gün ədəbiy-

yatdan imtahan verəcəkdi. Atası onun imtahana hazırlaşmasına kömək eləmişdi. O, yaxşı bilmədiyi məsələləri atasından öyrənmişdi. Amma nədənsə elə bil ki, qızın ürəyindən daş asılmışdı. İmtahana getdi, imtahanı verdi. Sonra bildi ki, atasını tutub aparıblar. Evdə bir vaveyla qopdu. Böyük bir ölkənin bir başında Turan ağlayır, o biri başında Gelya!

Turan 189 nömrəli məktəbin sonuncu sinfini bitirirdi. Yaxşı geyinməyə paltarı, ayaqqabısı yox idi. Evlərində bir pencək vardı. Həmin pencək atasının idi. Anası həmin pencəyi kəsib Turan üçün düzəltdi. O hansı hisslərlə bu pencəyi əyninə taxırdı? Bu pencəyi geyəndə hansı hisslər keçirirdi? Əziz oxucum, bunu anlamaq, başa düşmək çox da çətin deyil. Pencək, bir tərəfdən, onun əynini dalayır, bədənini yandırıb yaxırdı. Bəli, yaxırdı! Cavidin dilində bu söz çox işlənib. Mən də onu işlətmək istəyirəm: Yaxırdı!

Turan orta məktəbi bitirdi. Onların sinfi məktəbdə ilk onillik buraxılış sinfi idi. Turan sevinirdi. Sevinirdi ki, orta təhsil alıb, yaxşı dostları, yoldaşları çətin ayaqda onu tək qoymayıblar, xısın-xısınla olsa da, maraqlanıblar, atası haqda soruşublar, onu sorğu-suala tutublar, Turanın incə, kövrək, dərdli-ələmli qəlbinə toxunmamağa çalışıblar. Turan kədərlənirdi. Kədərlənirdi ki, atası onun yanında deyildi. Ancaq o çox istəyirdi ki, atası evdə olsun. Kədərlənirdi ki, atası onu təbrik etməyəcək, alnından öpməyəcək. Ancaq çox istəyirdi ki, atası onu təbrik etsin, alnından öpsün.

## 49

Bu sətirləri yazıram, əhvalım birtəhərdir. Hamıya nifrət edirəm, hər şeyə nifrət edirəm, özümə də. Dünya gözümdə bir röyadır, insanlar da aktyor, hərə öz rolunu oynayır. Yadıma Məhsəti Gəncəvinin bir rübaisi düşür:

*Bu dünya bir qızıl kuzəyəbənzər,*
*Suyu gah şirindir, gah da ki zəhər.*
*Çox da öyünmə ki, uzundur ömür,*

*Əcəl köhlənində hazırdır yəhər.*

Cavid də gözəl deyib:

*Bir oyuncaqdır cahan başdan-başa*
*Qafil insanlar da bənzər sərxoşa.*

Bu sətirləri yazıram. Daxilimdə bir tufan qopub. Keçmişdə baş vermiş hadisələrlə bu gün baş verən hadisələri tutuşdururam, götür-qoy edirəm, anlamağa çalışıram. Mahiyyət etibarilə elə bir fərq görmürəm. Allanır zavallı bəşər! Aldadılır zavallı bəşər! Ötən əhvalatlarla müasir əhvalatlar arasında əlaqə axtarıram. Keçmişi nə qədər qaranlıq görürəm. Gələcək də ona bənzəyir. Deyirlər: «Yaxşı olacaq». Pis olur. Deyirlər: «Ədalət zəfər çalacaq». Ədalətsizlik zəfər çalır. Deyirlər: «Haqlısan». Haqsızlıq görürəm. Oxucu dostum, bu qarışıq fikirlərin içində dolaşıb qalmışam, ancaq başımı itirməmişəm. Hamını maraqlandıran sualların burulğanındayam, amma batmamışam.

Nə isə, qayıdaq mətləbimizin üstünə, «Lenin – Stalin – sosializmə»…

Şair yaxşı deyib:

*Tarixin nə yaman yaddaşı vardı,*
*Qalır xatirində yaxşı da, pis də.*
*Yara var ki, sağalmağa bir nəslin ömrü çatmır,*
*Qılınc kəsmir, güllə batmır, söz sağaltmır…*

«Sevgili Mişkinaz!

İki gündən sonra Daşkənddən Vladivostoka doğru hərəkət edəcəyik. Keyfim yaxşıdır. Məndən tez-tez məktub gözləməyin, fürsət düşərsə, yazaram. Abuzərə, Qərənfilə salam. Sən də, Ərtoğrol da Turan xanımdan muğayat olun. Heç yerə yalnız buraxmayın. Öpürəm sizi.

Bu vərəq parənin aşağıdakı adresə verilməsi rica olunur: Baku, Sovetskiy ul. 92. Hüseyn Cavidin rəfiqəsi Mişkinaz xanıma. Hüseyn Cavid. Daşkənd. 26 iyul 1939-cu il».

Təsadüfə bir bax. Cavid birinci məktubu 26 iyul 1939-cu ildə yazıb. Mən 26 iyul 1988-ci ildə o məktubu bura köçürürəm.

Məktub ərəb əlifbası ilə qara karandaşla əl boyda kağızda yazılıb. Zərfə qoyulmayıb. «Ay rəhmətliyin oğlu, onda zərf hardaydı?» deyə özüm-özümdən soruşuram. Məktubun hansı ünvana çatacağı onun üzərində göstərilib. Ad çəkilən Abuzər Mişkinazın qardaşıydı, Turanın dayısı. Şairin hələlik hüququ var ki, məktubu öz ana dilində yazsın. Sürgündə bu hüquq da onun əlindən alınacaq. Məktubu rus dilində «yazacaq», daha doğrusu yazdıracaq.

Diqqət elə, əziz oxucu, bu sözlərə: «Keyfim yaxşıdır». Keyfə bir bax! Bunu əldən, ruhdan düşmüş, yol getməkdən bezmiş şair yazır. Nə üçün belə yazır şair? Bu suala biz sonra cavab verməyə çalışacağıq. «Məndən tez-tez məktub gözləməyin. Fürsət düşərsə, yazaram». Bu nə deməkdi? «Məndən tez-tez məktub gözləməyin!» Ailənin ümidi bir məktuba qalıb, onu da kəsmək istəyirmi şair? Yox! Yox! Yanılma, oxucum. Cavidin nəfəsi gələnədək, «əli qələm tutanadək» məktub yazacaq əzizlərinə. «Fürsət düşərsə, yazaram». Bu, nə deməkdi? Demək, sürgündə məktub yazmağa da imkan vermirlər? Ya şairin başı işə o qədər qarışıbdır ki, məktub yazmağa macalı da yoxdur? Suallar! Suallar! Sual vermək nə qədər də asandır. Oğul istəyirəm ona dəqiq, düzgün cavab versin. Bu isə mənim üçün çətindir. Həmin suallara şairin özü, yaxud yanında olanlar daha doğru cavab verərdi. Mənsə güman edirəm, təxəyyülümün gücünə güvənirəm, eşitdiklərimə arxalanıram.

Şair dostlara, tanışlara salam göndərməyi də unutmur. Unutmağa da haqqı yoxdur, çünki Caviddir. «Turan xanımdan muğayat olun. Heç yerə yalnız buraxmayın». Turanın on altı yaşı vardı o vaxt. Ata Turanı sevirdi, Turan da atanı. Ata Turan üçün narahat idi Daşkənddə. Turan ata üçün narahat idi Bakıda.

*O gündən ürəyimdə*
*düyün desən – düyün,*
*yara desən –*

*neçə-neçə yara var!*
*Baxıb-baxıb,*
*anlamaq istəyirdim*
*bu mürəkkəb, bu vahiməli,*
*bu təzadlı həyatı.*

Mən Turan xanımın yanında həmin məktubu nəzərdən keçirərkən, o, özünəməxsus tərzdə və kinayə ilə təkrar etdi: «Turan», «xanım». Mən onu belə anladım ki, Turanın xanımlığı səninlə getdi, Turandan xanım olmaz, çünki xanımlıq Turana yaraşmır. Turan dərd çəkməliydi, qəm yeməliydi. Çoxunun işi yumşaq torpaqdan çıxanda, Turanınkı daşdan, dəmirbetondan çıxmalıydı.

Məktub iyulun axırlarında yazılmışdı, evdəkilər onu avqustda almışdı. Həmin gün dodaqlar qaçmışdı, sifətlərə sevinc qonmuşdu, çörək boğazdan nisbətən rahat keçmişdi. Turan şirin xəyallar içində atasını xatırlamışdı.

**Haşiyə.** Bir dəfə Turan atası ilə yolda rastlaşdı. Atası fikirli idi, möhkəmcə düşüncülərə dalmışdı. Onun adəti, xasiyyəti beləydi. Qız atanı görür, ata qızı görmürdü. Qızı yaxınlaşaraq, ona yüngülcə toxunur. Atası məhəl qoymur, hərə öz yolu ilə gedir. Evə gələndə qızı bu əhvalatı atasına danışır. Atası möhkəmcə gülür, zarafatla deyir: - Elə olanda səsini çıxart da…

50

«Qırxdan bir». 1937-1938-ci illər idi. Cavid daxili həbsxanada saxlanırdı. Şair böyük sıxıntılara məruz qalmışdı. Barmaqları gicişirdi. Beyninə dürlü-dürlü fikirlər axırdı. Şair yazmaq, yaratmaq istəyirdi. Əsərin adını da fikirləşmişdi: «Qırxdan bir». Mən universitetdə oxuyanda da beləbir söhbəti eşitmişdim. Rafael Hüseynovun «Vaxtdan uca» kitabında da həmin sözlərə rast gəldim. «Qırxdan bir» nədir? Mənim yozmamda qırxdan biri belə anlamaq olar: qırx çıxaq bir, yaxud qarxdan birini çıx, bərabərdir otuz doqquza. Deməli, şair həbsxanada daha çox otuz doqquzuncu kamerada saxlanıb. Burada gördükləri rəzalətləri,

eşitdiklərini, dözülməz şəraiti, zəhər püskürən mühiti, məişəti «Qırxdan bir» əsərində təsvir etmək fikrində olmuşdur.* Fəqət bu xəyal, xəal olaraq da qalmışdır.

*Ögey analı uşaq kimi*
*qısılıb bir küncə*
*susdu ilham.*

Dramaturq belə bir əsəri yaza bilmədi. Yazmış olsaydı, güman ki, faciə janrında yazardı.

Cavid həbsxanada ailəsini düşünürdü. Ailənin bütün ağırlığı Mişkinazın üzərinə düşmüşdü. Mişkinaz ağır bir qatarın dərd yükünü çəkirdi, Cavid ailəsinin və dünyanın. O, son görüşdə Mişkinaza demişdi: «Darıxmayın, mərd olun, bu da bir cərəyandı keçib gedəcək. Mərdlik, namərdlik, kişilik, nakişilik hamısı bu illərdə məhək daşından keçəcək. Mərd ölmək namərd yaşamaqdan üstündü».

Şair! Sən nə qədər də haqlısanmış. Sən öz əqidənə, amalına, inamına sadiq qaldın. Mərd öldün, namərd yaşamadın. Yaşaya da bilməzdin. Çünki Cavid idin. Ancaq namərd yaşayanlar oldu. Sənə quyu qazanlar oldu, sonralar o quyuya torpaq tökənlər tapıldı. Beləəri adi bir həqiqəti başa düşə bilmədilər: Başqasına quyu qazan, özü düşər. Təbiət heç bir şeyi artıq yaratmır. Təbiətdə, həyatda bir ahəng, qanunauyğunluq var. Demək istəyirəm ki, sənə badalaq vuranları sonralar həyat öz ədalət məhkəməsinə çəkdi, cəzalandırdı, bəziləri öz səhvlərini boynundan atdı, bəziləri boynuna aldı. Artıq gec idi, olan olmuş, keçən keçmişdi. Sənə «dost», «qardaş» deyən bəzi qələm sahibləri namərdlik, nakişilik etdilər, ölümün gözünə şəstlə baxa bilmədilər, ölümdən qorxdular. Səni bəyənməyən, diriliyində də, ölülüyündə də pisləyən, sənə «həcv» yazan Səməd Vurğun sən bəraət alarkən ağır xəstə yatırdı. Bəraət aldığını eşidərkən halı pozulur, dərdinin üstünə dərd gəlir. Ölüm ayağında olan şair iki cümləni tez-tez təkrar edir: «Mən nə üçün ölməliyəm?!.» «Ona nə üçün bəraət verdilər!?.»

Son görüşdə Mişkinaza belə dedin:

---

* Bu da ola bilər ki, kamerada qırx bir nəfər məhbus saxlanılırdı, onlardan biri Cavid idi…

- Əfsus ki, gördüyüm rəzalətləri, keçirdiyim günləri heç bir yerdə qeyd edə bilmədim.

Sən uzaqlara aparılanda da bu fikir beynindən çıxmadı. Ümid etdin ki, geri qayıdacaqsan, gördüklərini yazacaqsan. Heyhat! Bəxtiyar şair! Sonralar bəziləri uyduracaq ki, guya sən həbsxanada, kamerada yazıb-yaradırdın, orada sənin üçün şərait yaratmışdılar. Hətta Lenin haqqında poema yazırdın. Şair, sənin haqqında çox rəvayətlər söyləyirlər. Mən həqiqətə uyğun gələnini, ağlıma batanını seçirəm. Batmayanı pəncərədən çölə tullayıram.

51

**İyul 1937-ci il.** Cavid bir aydan çoxdur ki, həbsxanadadır. «Kommunist» qəzetini vərəqləyirəm. Orada belə bir başlıq diqqətimi cəlb edir: «Ədəbiyyatımızı – yeni yüksəlişlərə». Həmin başlıq məni düşüncülərə daldırır. Öz-özümə həmin sərlövhəni bir də təkrar edirəm. Özüm-özümə deyirəm: Görəsən, ədəbiyyat da istehsalatdır, zavoddur, fabrikdir ki, bu gün planı yüz faiz yerinə yetirəsən, sabah yüz əlli faiz? Bir gündə, iki gündə, bir aydı, bir ildə ədəbiyyatı «yeni yüksəlişlərə» necə qaldırmaq olar? Axı, ədəbiyyat bədii şüur, bədii təfəkkürlə ilgəlidi. Yazıçı həyatda baş verən hadisələr haqda çox düşünməlidir, onu hisslərindən, şüurundan keçirməlidir. Mövzu yazıçını tərpətməlidir, silkələməlidir, qələmi əlinə götürüb yazmağa məcbur etməlidir. Ürək söyləmədiklərini yazıb, yazıçı vicdanına qarşı çıxmaq oxuculara hörəmtsizlik etmək, yazıçı nəzarətsiz-liyi, ədəbsizliyi demək deyilmi? Bədii-obrazlı təfəkkürün, ictimai şüurun xüsusi forması, ayrıca bir sahəsi olan ədəbiyyata bu cür yüngül münasibət bəsləməkmi olar? Burada bir nəfər «xalq sevimlisi»nin sözləri yadıma düşür: «Belə deyərlər, belə yazarıq, elə deyərlər, elə yazarıq». Bu, simasızlıqdır, bu, vicdansızlıqdır, bu, bədii ədəbiyyata edilən qəsdir, bu, mənəvi cinayətdir. Bu cür sözlər deməyin, şairlər! Bu cür şairlərdən qorunun, qorxun, oxucular!

Nə isə, gəlin görək Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri qəzetdə nə yazır? «Sovet yazıçıları sırasında Şota Rustavelinin əsərlərini Azərbaycan dilinə tərcümə etməyi çox yaxşı bacaranlar olduğu halda, bu şərəfli işi, xalq düşməni Ruhulla Axundov, öz tayı olan müsavatçı Əhməd Cavada tapşırmış idi. Bakı milyonçularının, Azərbaycan xan, bəylərinin şeypur çalanı Əhməd Cavad və xain Hüseyn Cavid kimi Azərbaycan xalqının düşmənlərinin qeydinə qalan, onları öz qanadı altına almış olan mənfur Ruhulla Axundov, Mikayıl Hüseynov və başqaları, başda Azərbaycan Sovet Yazıçıları İttifaqının sabiq sədri Şamilov olmaqla bütün heyəti belə siyasi korluqdan istifadə etmiş və ədəbiyyatda da öz ziyançı işlərini yeritmişlər» («Kommunist», 8 iyul 1937-ci il).

Mərhaba bu sözlərə! Sözə bax, fikrə bax, düşüncəyə bax! Bundan bir az əvvəl Şamilov, Cavid və başqaları haqda ittihamlar irəli sürmüşdür. İndi Şamilovun özü barəsində belə ittihamlar irəli sürülürdü. Ey insanlar, vallah məni qınamayın, deyəsən, bəşəriyyət dəli olmuşdu. Ağıllı başlar da, ağılsız başlar da dumanlanmışdı...

52

Turan xanımın kabinetindəyəm. Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Dram Teatr Muzeyinin direktoru Turan Cavidin. Söhbətimiz, necə deyərlər, cari işlərdən, cari problemlərdəndir. Səhhətilə maraqlanıram. Deyir:

- Ürəyim ağrıyır, dilimin altına volidol qoymuşam.

Öz içimdə fikirləşirəm, fəqət fikrimi ondan gizlətmirəm:

- Ürək neyləsin, bu qədər yükə dözə bilər?..

Ona ürək-dirək vermək məqsədilə əlavə edirəm:

- Mənim də ürəyim ağrıyır…

Turan xanım fikrə gedir:

- Uşaqlar necədir, - deyə soruşur?

Deyirəm ki, yaxşıdır. Toğrul məktəbə gedir, Günel və Aysel bağçaya. Bağçada da elə baxırlar ki, gündə xəstələnirlər…

O soruşur:

- Toğrul necə oxuyur?

Cavab verirəm:

-Uşaqlıqda çox xəstə olub, bu, indi təhsildə özünü göstərir.

Turan xanım fikrə dalır. Nə fikirləşir? Bu sualı özümçün aydınlaşdırmağa çalışıram. Düşünürəm: «Bəlkə öz uşaqlığı yadına düşdü. Bəlkə də qardaşı Ərtoğrol? Bəlkə də atası ilə keçirdiyi xoş günlər yadına düşdü Turan xanımın».

Yadıma düşür ki, atası bir məktubunda onu «xanım» adlandırmışdı. Mən onu hörmət mənasında «xanım» çağırıram. Fikirlər beynimdə pırtlaşmışdır. Pırtlaşmış fikirlərdən doğrusunu seçmək istəyirəm. Bəlkələr içində batıb qalıram…

Telefon zəng çalır. Kimdir danışan? Bilmirəm. Ancaq Turan xanım nəzakətlə, özünəməxsus danışıq tərzilə, sözlərlə, mülayim tərzdə danışır. Dəstəyi yerə qoyur.

- Sara xanımdır, - deyir.

- Sara xanım kimdir? Tanımıram, - deyirəm.

Özünəməxsus tərzdə, bir qədər də gülümsəyərək:

- İndi tanıyarsan, - deyir.

Xeyr, oxucum, Turan xanım gülümsəmir. Ancaq mən onun sifətində belə cizgi sezirəm. Bu, rişxəndli gülümsəməkdi. Bu gülümsümənin arxasında bəlkə bir aləm yatır. Turan xanım telefonda danışdığı adama gülümsəyə bilməzdi. O, bunu bacarmazdı. Bu, onun xasiyyətinə, təbiətinə zidd idi. İndi özün də görəcəksən ki, o, o zavallıya gülümsəyə bilməzdi.

O, düyməni basdı. İşçilərdən bir nəfəri otağına çağırdı. Ondan xahiş etdi:

- Düş aşağıya, Sara xanım gəlir, ona kömək elə.

Turan xanımın işlədiyi teatr muzeyi Nizami adına Azərbaycan Dövlət Ədəbiyyat Muzeyinin binasının dördüncü mərtəbəsində yerləşir. Ona muzey deməyə adamın dili də gəlmir. «Qeyrətli» oğullar qaz vurub qazan doldurur. Onlara muzey lazımdırmı? Turan xanım neçə illərdi ki,

«dördmərtəbəli» muzeyin pilləkənlərindən enib-qalxır. Nəfəsi darılanda mərtəblərarası «səki»nin üstündə dayanıb, yorğunluğunu alır. Sonra yoluna davam edir. onun marşurutu belədir: ev – Nizami küçəsi – 111/113 – Fontan – Azərbaycan Dövlət Teatr Muzeyi. Turan xanımı tanıyanlar bu «marşurutda» onu tez-tez görə bilərlər. Toya getmir. Toya getmək Turan xanıma «yaraşmır». Cümə axşamları, qara bayramlarda, anadan olduğu, vəfat etdiyi gündə – ildə atasını, anasını, qardaşını xatırlayır, anasının qəbrini ziyarət edir. Bunlar çoxlarına məlum deyil. Turan xanımın arzusu budur ki, atasının qəbri tapılsa, o, vətənə gətirilsə, anasının yanında dəfn edilsin. Atasının hər il yaşı tamam olanda yandırdığı şama bir şam da əlavə edir. Atasının yüz illiyində yüz şam yandırmışdı. Sonra yüz beş şam yandırdı, yüz on, yüz on beş... şam yandıracaq. İllər beləcə gəlib keçəcək, Turan beləcə ömür sürəcək.

Turan xanım neçə illərdi ki, bu muzeydə çalışır. Ömrünü-gününü muzey işinə sərf edib. Məncə, onun heç əməyi də lazımınca qiymətləndirilməyib. Oxucum, sözdür deyirəm də. Turan xanıma mükafatmı lazımdır? Məgər o, orden, medal almaq üçünmü işləyir? Əsla, kim belə düşünürsə, səhv edir. Turan xanım xeyirxah adamdı, təmənnasız işləyir, vəzifə borcunu yerinə yetirir, ona bir «sağ ol» kəlməsi də bəsdir. Turan xanım neçə illərdi ki, həmin muzeydə işləyir, amma onun yarı canı, fikri-zikri başqa muzeyin yanındadır. Atasının muzeyinin. O muzey nə vaxt təşkil ediləcək? Bunu heç kəs bilmir. Turan da, mən də bilmirəm. Ancaq belə bir muzey yaradılmalıdır. O muzey cavidşünaslığın mərkəzinə çevrilməlidir. Mərkəzi Komitənin bu haqda qərarı da var. Qərar 1981-ci ildə qəbul edilib. Fəqət ona məhəl qoyan kimdir? Bizim böyüklərin, «qeyrətli kişilərin» başı böyük işlərə qarışıb, onların xırımxırda işlərlə nə işləri var? Kiçik başlar böyük problemlərlə məşğuldur, böyük başların isə əlindən az iş gəlir. Allah sənə rəhmət eləsin, Sabir, nə yaxşı demisən: Kim nə deyər bizdə olan qeyrətə... Ermənilər «torpaqbasdı» istəyirlər, Z.Balayan, V.Mikalyan, L.Xurşudyan... türk xalqlarının, Dağlıq Qarabağın tarixini saxtalaşdırırlar. «Qarabağ», «Kurnk» komitəsinin

üzvləri aləmə səs salıblar, bizim «qeyrətli» oğullarımız qəflət yuxusundan ayılmırlar ki, ayılmırlar. Allah sənə rəhmət eləsin, Sabir, yaxşı demisən: Yat, yat, bala, lay-lay, yat qal dala lay-lay. Cavid də yaxşı deyib: Biz millətin ayılmağı qaldı qiyamətə. Onun qızı isə belə deyir: «Bizim kişilər ermənilərdən lazımınca qisas almadılar, hayıf çıxmadılar.»

53

Aradan on-on beş dəqiqə keçdi. Sara xanım içri girdi. Dəhşət! Təəccüb hissi məni bürüdü. İçimdən bir səs qopdu: «Buna da «xanım» deyərlərmiş?! Sara xanım budurmu? Aman Allah, kimə oxşayır, Sara xanım?»

Qarşımda dilənçi kökündə bir qadın dayanır. Viktor Hüqonun səfilləri, Cavidin «Dəli Dərviş»i, «Vəhşi qadın» şeiri yadıma düşdü. İnsan da belə bir dözülməz halda olarmış?..

- Kimdir Sara xanım? Oxucum, tələsmə, qoy onu gördüyüm kimi, yaddaşımda qalan kimi təsvir edim. Bu zavallı qadın bu cür də həmişəlik mənim hafizəmdə qalacaqdır. Sara xanım, bayaq dediyim kimi, dilənçi kökündəydi. Ayağında kişi botinkasına oxşar ayaqqabı vardı. Vücudca arıq, çəlimsiz, yaşlı bir qadın idi. Dərisi qabırqalarına yapışmışdı. Sağ çiynindən bir portfel asılmışdı. Portfelin tutacağına kəndir bağlanmışdı. Kəndiri çiynindən elə aşırmışdı ki, çiyinlərini incitməsin. İlk baxışda elə güman etmək olardı ki, portfel çox ağırdır.

Turan xanımın işarəsilə uşaqlardan kimsə portfeli ağır bir yük tək onun çiynindən düşürdü. Sara xanıma yer göstərdilər ki, oturub nəfəsini dərsin. Söhbətdən məlum oldu ki, Sara xanım milyonçu Hacı Zeynalabidin Tağıyevin qızıdır. İçərimdə fikirləşdim: «Aman Allah, gör milyonçunun qızı nə kökə düşüb; milyonçunun dilənçi qızı, kimin əvvəli, kimin axırı». Bildim ki, portfeldə dolandırdığı da atasının kağız-kuğuzlarıdı. Moskvayadək müraciət edib, atasının namuslu kişi olduğunu, xalqın mənafeyini güddüyünü sübut etməyə, daha doğrusu, bəraətinə nail olmağa çalışıb.

Bu gün bizim Tağıyev - «millətin atası» Hacı kimi kişilərə ehtiyacımız var. Tağıyev də nə Tağıyev! Qeyrətdə də Tağıyev kişilikdə, dəyanətdə və namusda da Tağıyev!

1903-1904-cü illərdə Cavid Urmiyada olarkən müəllimi Sidqi şagirdinə bir məktubunda bildirir ki, o, Məktəbi – tərbiyənin ehtiyacları üçün Hacıya müraciət etmişdir. Hacı ona min rubl göndərmişdir. Bu münasibətlə bir şeir yazarsan. Şair də həmin yardım münasibətilə aşağıdakı şeiri qələmə almışdır. Yanılmıramsa fars dilində yazılmış həmin şeir ilk dəfə «Şərqi-Rus» qəzetində çap edilmişdir.

54

**Hüseyn Cavid**

## HACI ZEYNALABİDİN TAĞIYEVİN YARDIMI MÜNASİBƏTİLƏ

*Ədiblərin qələmi belə hekayə yazdı,*
*Bülbüllərin dilindən gülzarə namə yazdı.*
*Şən nəğməli tutilər yaşıl rəngli qələmlə,*
*Çox bəzəklər yaratdı, gülşənsərayə yazdı.*
*Hər ölkədə, diyarda, şəhər, kənd məktəbinə,*
*Namələrlə bərabər çoxlu xitabə yazdı.*
*Məclislərdə deyilən sözlər, xitabələrdən,*
*Onun üçün katiblər bir çox hekayə yazdı.*
*Naxçıvanda gözəl bir yeni məktəb açıldı,* [*]
*O böyük şəxs adına daşda abidə yazdı.*
*Müsəlmanlar onunla sevindi, fərəhləndi,*
*Sözsüz, bu bir dərmandır, xalqın dərdinə yazdı.*
*Budur o səxavətli Hacı Zeynalabidin,*
*Soyadı Tağıyevdir, həmin ünvanə yazdı.*
*Min manat bəxşiş verib, böyük bir yardım ilə,*
*Yerlərdə və göylərdə bir parlaq ayə yazdı.*
*Tükənməz ətasilə ümumxalq arasında,*
*Günəş kimi nur saçmış geniş səmayə yazdı.*
*Qızların təhsiliyçün bir çox məktəblər açdı,*
*Onlar üçün arxayın, möhkəm himayə yazdı.*
*Qadınlara oxumaq, böyük ya kiçik olsun,*
*Daha lazımdır hər bir şeydən ziyadə yazdı.*

---

[*] M.T.Sidqinin «Məktəbi-tərbiyəsi» nəzərdə tutulur.

*Bakıda mədəniyyət işıqları yandırdı,*
*Mətbuat onun haqda hər gün bir namə yazdı.*
*Dəmiryol işlərini əlinə almasıyla,*
*Şəni müsəlmanların qalxdı ucayə yazdı.*
*Kimdir hatəm Tai ki, ona bərabər olsun,*
*Tayı yox, Süleymana onu həmpayə yazdı.*
*Avropadakı  məşhur jurnal, qəzetlər belə,*
*Haqqında çox təriflər deyib məqalə yazdı.*
*Nuşirəvana bənzər, ölməzdir, o yaşayar,*
*Adı itməz, ömrünə olmaz nəhayə yazdı.*
*Səxavətin gücilə bütün dərdlər sağalar,*
*Səxavətlə mis belə dönər kimyayə yazdı.*
*Elm əsasını qoyan, maarifin hamisi,*
*Elm əhlinə süd verən mehriban dayə yazdı.*
*Bir çox pullar sərf etdi elm, hünər yolunda,*
*Müdrik adı, şöhrəti qalxır səmayə yazdı.*
*Biliyin faydası var həm dünya, həm üqbada,*
*Biliklə əldə olar məqsəd və qayə yazdı.*
*Elm – gülüstandırsa, o, elmin bağbanıdır,*
*Çiçəklənəcək məktəb yaxın zəmanə yazdı.*
*Ağaclar yaşıllaşır elmin işığı ilə,*
*Geyindirir onları yaşıl qəbayə yazdı.*
*Çox çəkmədən ağaclar gözəl meyvələr ilə,*
*Rəngarəng incilərdən alar pirayə yazdı.*
*İndi Qafqaz əhlinə vacibdir elm oxumaq,*
*Göz açmalıdır əhli işıq dünyayə yazdı.*
*Başqa millətlər hamı bəhrə almış elmdən,*
*Bizə qalmışdır ancaq baxmaq ətayə yazdı.*
*Xarici xalqlar daim hərəkətdə zamantək,*
*Ümidi müsəlmanın qalmış ah-vayə yazdı.*
*İndi hamıdan artıq elm gərəkdir bizlərə,*
*Savadsızlıq qul edər, salar bəlayə yazdı.*
*Naxçıvanda başlanmış yeni təbdib bu yolda,*
*Şükr olsun o qüdrətli, böyük Xudayə yazdı.*
*Digər xalqlartək bu xalq elmə sahib olacaq,*
*Bu xalqın ümidinə yoxdur nəhayət yazdı.*
*Xalq elçiləri ömrü uzun olsun, əbədi,*
*Elmin talibləri də çatsın səfayə yazdı.*
*Çox çəkməz ki, bizlər də mədəniyyət alarıq,*
*Şükür böyük Allaha, o bihəmtayə yazdı.*
*Hacı Zeynalabidin uzun illər ömr etsin,*
*Rəhim Allahdan olsun ona himayə yazdı.*
*Tai istərdi olsun səxavətdə ikinci,*
*Damla olmaz bərabər sonsuz dəryayə yazdı.*
*Ondan minlərlə yardım edildi məktəblərə,*
*Çatdıraq Şərq xalqını parlaq ziyayə yazdı.*

*Durduqca dünya, adı çıxmayacaq yadlardan,*
*Heç vaxt olmayacaq o, xalqa biganə, yazdı.*
*Allah bəndəsi içrə sən yeganə yaranmış,*
*Dövran şahıtək saldın sən yerə sayə yazdın.*
*Adın böyük, lakin çox təvazökar olmusan,*
*Səni kiçildən nadan düşsün bəlayə yazdı.*
*Oxutdun yeni sistem müəllim məktəbində,*
*Baxma, deyildi sənə minlər kinayə, yazdı.*
*Göndərildi bu şeir şagirdindən Sidqiyə,*
*Nöqsanlı olsa da o, böyük ustadə yazdı.*
*Bu sözləri ən kiçik şagirdin yazmış sənə,*
*Odlu şam ətrafında uçan pərvanə yazdı.*

55

Tağıyev! Bu gün kim onun yerişini yeriyə bilər? Heç kim! Tağıyev milli teatrımız üçün bina tikdirib, neçə-neçə türk balasını oxudub, məktəblər açıb, Tağıyev öz varını, mülkünü, əmlakını könüllü surətdə sovet hökumətinə verib. İndi Tağıyevin qəbri bərbad haldadır. Bunu ürək ağrısilə yazan və Tağıyevin qəbrinin bərpası məsələsini mətbuatda qaldıran Sabir Ələsgərovu, Tağıyevin portretini çəkən İsaak Brodskini və həmin portret barəsində oxuculara məlumat verən, bizi Tağıyevlə «tanış» edən Ziyadxan Əliyevi alqışlayıram. Mən təklif edirəm: «Tağıyev teatrı», indiki Musiqili Komediya teatrı, yenə də onun adıyla adlansın, tarixi ədalətsizlik bərpa olunsun.

Xəyalım məni Naxçıvana çəkib aparır. Gözlərim önündə Cavidin məzarı canlanır. Bəzi naxçıvanlılardan gileyim var. Belə ki, Cavidin məzarı hələlik müqəddəs bir yerə çevrilməmişdir, o, lazımınca qorunmur, gənc nəsil Cavidlə lazımınca tanış edilmir. Cavidin məzarı üzərində türbə ucaldılmayıb. Ancaq elə vəzifəli adamlar var ki, «öz pulu ilə» ikinci bir Naxçıvan şəhəri sala bilər. Fəqət Naxçıvanın sosial problemləri tökülüb qalır. Hanı bizim Tağıyev kimi kişilərimiz? Hanı bizim Tağıyev kimi qeyrətli oğlullarımız?.. Heyhat!

Sara Zeynalabidin qızını atasının mülkündən, indiki Azərbaycan Dövlət Tarix Muzeyindən qovurdular. Ona muzeyə yaxın düşməyə icazə vermirdilər. Püstə xanım Əzizbəyova 26 Bakı komissarlarından bolluca

yazırdı. Hacını xalqın düşməni, 26-ları xalqın dostu kimi qələmə verirdi... Belə çətin günlərdə Hüseyn Cavidin qızı Turan xanım ona əl tuturdu. Ona xörək aparırdı, cibinə pul qoyurdu. Ehtiyac içində yaşayan səxavətli bir qadın ehtiyac və səfalət içində yaşayan bir qadına əl tuturdu...

Bəli, bu gün Sara xanım Turan xanımın yanına təşrif gətirmişdi. Bu neçənci gəlişdi? Deyə bilmərəm. Bildiyim budur ki, dərdli dərdlini tapır, zəngin zəngini, yoxsul yoxsulu. Çünki onların amallarında, əqidələrində, dünyagörüşlərində bir yaxınlıq, doğmalıq var. Mən ikinci səfər Sara xanımı Bakının küçələrindən birində gördüm. Həmən geyimdə, həmən biçimdə, həmən portfellə birlikdə. O, asta-asta gedirdi, yerişi eləydi ki, sanki bu dəqiqə yıxılacaqdı. Sara xanım sanki adi bir qarışqanı ayaq-lamamaq üçün belə yeriyirdi. O, atasının bəraət alması uğrunda çarpışıb, vuruşub, ancaq bir şeyə nail olmayıb. Möhtərəm, doxsan yaşlı, başı bəlalı, ağbirçək Sara xanım, bəlkə mənim bu yazım əlinizə keçdi, yaxud kimsə bu haqda Sizə xəbər verdi, onda mənə acımayın, mən həqiqətə yamaq vurmaq istəmirəm, Sizi gördüyüm tək təsvir etməyə səy göstərmişəm. Məqsədim budur ki, qoy, tarix Sizi də, atanızı da olduğu kimi tanısın, bər-bəzəksiz. Mənim ağbirçək anam, mən Sizin əllərinizdən öpürəm, qarşınızda, atanızın müqəddəs ruhu önündə baş əyirəm.

*Beş gün ömrün neçə əfsanəsi var.*
*Eşqi var, badəsi, peymanəsi var.*
*Sonu həsrətlə bitərkən, əfsus,*
*Yenə dünya dolu pərvanəsi var.*

56

Gelya! Əziz oxucu, yəqin ki, bu ad yadından çıxmayıb. Səni bu qızın taleyi, başına gələn müsibətlər maraqlandırır. Buyur, qulaq as.

Kreml sarayının gurultulu alqışlarından on bir ay keçirdi. Gelyanın atası vəzifəsindən azad edilib tutulmuşdu. Ondan əvvəl Buryat-Monqol vilayət partiya komitəsinin katibi M.Yerbanov, Sovnarkomun sədri*

---

* Xalq Komissarları Sovetinin sədri

D.Dorjiyev həbs edilmişdilər. Onların tutulması Ardan Ankadıkoviçin, Gelyanın atasının halını lap pozmuşdu. O, bilmirdi ki, nə etsin. Dost-tanışları Ardana məsləhət verməyə başladılar: «Yaxşı olar ki, Ulan-Udedən çıx get, gizlən...»

Ardan əsəbi və sərt cavab verdi:

- Mənim heç bir şeydə günahım yoxdur! Mən heç bir yerə qaçıb gizlənmək də istəmirəm!..

Afərin Ardan əsl türk kimi hərəkət etmisən. Azərbaycanın bir çox mərd oğlu, o cümlədən Cavid də belə etmişdi, heç əsərlərini də gizlətməmişdi.

Ardan Ankadıkoviç yerində yatmışdı. Gecəydi. Qapı döyüldü. Bir neçə nəfər içəri girdi. Onlardan biri irəli yeridi, gəlməklərinin məqsədini bildirdi:

- Sən yapon kəşfiyyatı ilə əlaqəyə girib casusluq işində və Stalinə qəsdə günahlandırılırsan.

Ardan ağıllı adam idi. Bunun nə demək olduğunu yaxşı bilirdi. Balaca Gelya da oyanmışdı. Bu sözləri eşidəndə qulaqlarına inanmadı. Onun Stalinə böyük inamı var idi. Gələnlər atasını qabaqlarına qatıb apararkən o, elə bir vaveyla qopardı ki, evlərinin divarları silkələndi. Anasının tükləri biz-biz oldu. Atası bu səsi eşitdi. Atası ölənəcən bu səs onun qulaqlarından getmədi. Ata dünyadan beləcə köçdü.

Gelya anası ilə yalnız qaldı. Ana-bala biri-birinə sarılmışdı. Bitab olanadək ağladılar. Nəhayət, ana-bala yuxarıya müraciət etmək qərarına gəldilər. Moskvaya məktub yazdılar. Yuxarıdan belə bir cavab aldılar: «A.A.Markizov qeydsiz 10 il həbs cəzasına məhkum edilmişdir».

«Qeydsiz». Bu, nə demək idi? Bu, güllələnmək demək idi, oxucum. Ancaq indilikdə bunu nə ana bilirdi, nə də bala. Ana inanırdı ki, əri, bala inanırdı ki, atası on ildən sonra evlərinə qayıdacaq. Ana-bala çox fikirləşdilər. Nəhayət, bu qərara gəldilər ki, Stalinə məktub yazsınlar. Axı, Gelyanın Stalin yoldaşla birgə şəkli vardı. Stalin yoldaşın Gelyaya yazığı gəlib, atasını buraxdıra bilərdi. Ana-bala baş-başa verib rəhbərə

məktub yazdılar. Ana deyirdi, bala yazırdı, böyük ümidlə, böyük arzuyla. Gelya bu sözləri xüsusi qeyd edirdi: «Stalin yoldaş, mən Sizinlə bir yerdə şəklimiz olan qızam – Gelya Markizova.»

Daha sonra o, yazırdı ki, atası namuslu, vicdanlı kommunistdir, vətəndaş müharibəsinin fəal iştirakçısı olub, 5-ci ordunun siyasi şöbəsində Yoroslavl Qaşek ilə bir yerdə işləyib. Buryat dilində «Ur» - «Şəfəq» qəzetinin ilk naşiridir. Buryat Muxtar respublikasının təşkilatçılarından biri olub və i.a.

Ana-bala Stalindən səbirsizliklə, böyük ümidlə, böyük inamla cavab gözlədilər. Bir saat bir günə çevrilmişdi, bir gün bir ilə. Cavab gəldi, fəqət elə bir cavab gəldi ki, ananı da həbs etdilər. Ana hey başına-dizinə döydü ki, nə üçün Stalinə məktub yazıb.

Mən bu sətirləri yazarkən düşünürəm: Əgər Mişkinaz, Ərtoğrol, Turan Stalinə məktub yazsaydılar, onların taleyi necə olacaqdı? Bunu Allah bilir. Məktubu Stalinə Cavid yazacıqdı. Özü də evdəkilərdən soruşacaqdı: «Mənim barəmdə bir yerə şikayət yazmısınızmı?» Bu barədə sonra.

Qız qardaşı Vladenlə atasız və anasız qaldı. Gelyanın Stalinlə şəkli ailəni bədbəxtlikdən xilas edə bilmədi. Əksinə, ailəyə yeni bir bədbəxtlik gətirdi. Yaxşı ki, qardaş bacıdan iki yaş böyük idi. Qardaş bacını qanadları altına aldı. Cavidin ailəsi tək, Markizovun ailəsini evdən çölə atdılar.

57

**1939-cu il.** Doqquz ay idi ki, ananı həbs etmişdilər. Doqquz aydan sonra səadət yavruların üzünə güldü. Ananı həbsxanadan azad etdilər. Onlar Qazaxıstana sürgün olundular. Qardaş və bacının bəxti burada gətirdi ki, onları anasından ayırmadılar. O zaman «xalq düşmənləri»nin övladlarını valideynlərindən ayırıb, uşaq evlərinə vermək adi hal almışdı. Buna baxmayaraq, tale uşaqların üzünə gülmədi ki, gülmədi!

Gelyanın anası xəstəxanada işə düzəlmişdi. Bir dəfə onun yanına bir uşaq gətirdilər. Uşaq ağır xəstə idi. Xəstələr evinə gec gətirilmişdi. Onun həyatını xilas etmək mümkün olmadı. Uşağın ölümündən sarsılan valideynlər Gelyanın anasını məhkəməyə verdilər. «Xalq düşməni»nin arvadı barəsində cinayət işi qaldırıldı. Ananın otuz iki yaşı vardı. Ancaq çox çəkmədi ki, palataların birindən Dominikanın meyidi tapıldı. İki yavru, iki balaca sovet vətəndaşı yetim qaldı. Yox! Yox! Oxucum, səhv edirəm, yetim qalmadı. Onların anaları da, ataları da vardı. O, Stalin idi.

58

**1981-ci il**. Cavidin anadan olmasının yüz illiyinə bir il qalır. Azərbaycan KP MK Cavid haqqında qərar qəbul edir. Həmin qərarla əlaqədar çox iş görülür, fəqət çox iş də görülmür, bəzi işlər yarımçıq qalır... Azərbaycan xalqının böyük bir arzusu var. Görəsən o həyata keçəcəkmi? Həmin arzu da bundan ibarətdi ki, ulu sənətkarlarımızın qəbri arayıb-axtarılsın, o doğma vətənə köçürülsün. Mən Azərbaycan KP MK-ya, Yazıçılar İttifaqına, redaksiyalara məktublar göndərirəm. Xahiş edirəm ki, Cavid vətənə «qaytarılsın». Mən bu haqda Turan xanıma suallar verirəm. O, deyir ki, vaxtilə buna təşəbbüs göstərilib, lap mənim özüm də gedərdim. Ancaq bir şey çıxmayıb. O, Mustafa Mərdanovun, Abbas Zamanovun, Əbülfəz İbadoğlunun adlarını çəkir. Özü-özümə fikirləşirəm: «Məgər bu, Turan xanımın işidir?» Suala özüm də cavab verirəm: «Xeyr. Bu, dövlət əhəmiyyətli məsələdir. Buna birinci növbədə respublika yazıçılar ittifaqı, mədəniyyət nazirliyi... təşəbbüs göstərilməlidirlər. Bəs onlar nə ilə məşğuldurlar? Axı, Cavid təkcə Ərtoğrolun, Turanın atası deyil. Ərtoğrol çoxdan bu dünyadan köçmüşdür. Turan isə qadın xeylağıdı, o nə edə bilər? Axı, Cavid təkcə onların atası deyil, Cavid hamımızın atasıdır, mənəvi atası! O, təkcə bir adama, iki adama məxsus deyil, o, bütün xalqa məxsusdur. O, təkcə bir xalqa məxsus deyil, bütün türklərə məxsusdur. O, təkcə türklərə deyil, bütün dünyaya məxsus

sənətkardır». Öz-özümə deyirəm: «Böyük-böyük danışmağımız var, ancaq əlimizdən bir iş gəlmir».

Səsimi Turan xanımın səsinə qoşuram, cavidsevərlərin diləyinə calayıram. 1978-1979-cu illərdə müxtəlif təşkilatlara yazılı müraciət edirəm, o cümlədən Mərkəzi Komitəyə. Xahiş edirəm ki, Cavidin qəbri axtarılıb tapılsın. Yüz illiyində doğma torpağına qaytarılsın.

Bu işə xor baxanlar, bu tarixi əhəmiyyətli məsələni kiçildənlər də var idi. Burnunun ucundan uzağı görməyən adamlara nə Cavid lazım idi, nə də Müşfiq, nə Əhməd Cavad, nə də Heydər Hüseynov... Bəziləri də bərk qorxuya düşmüşdü. Cavidin ölüsündən qorxurdular. Qorxurdular ki, Cavid canlı bir varlığa çevrilib onları əllərilə boğa bilər, əməllərinin hesabını istəyə bilər. Ey pisfikirli, pisniyyətli, eloğlu, yanılırsan, pək yanılırsan. Cavid o müqəddəs, o pak, o tərtəmiz əllərini sizin kimi vicdansızların, namərdlərin boğazına toxundurub murdarlaya bilməz. Cavid bu dünyaya müqəddəs hisslərlə, peyğəmbər ruhlu bir şair kimi gəlmişdi, Cavid bu dünyadan müqəddəs hisslərlə, mələk kimi köçmüşdü, kişi təki yaşamışdı, kişi təki ölmüşdü.

- Xeyirxahlığı itirsən, az bir şey itirərsən, şərəfini itirsən, çox şey itirərsən, kişiliyini itirsən, hər şeyi itirərsən.

Bu, Hötenin, ulu Hötenin sözləridir. Cavid nə xeyirxahlığını itirmişdi, nə şərəfini, nə vicdanını, nə qeyrətini, nə də kişiliyini. Cavid buna görə də Caviddir – əbədidir, ölməzdir, daimidir.Yeni əsrin Nəsimisidir, Nizamisidir, Füzulisidir!..

59

**1927-1928-ci illər idi**. Adilənin on üç-on dörd yaşı vardı. Pedaqoji texnikumda oxuyurdu. Bu həmin Adiləydi ki, atası Pənah Qasımov Cavidin dostu idi. Onlar ailəlikcə indiki Əlyazmaları İnstitutunun üçüncü mərtəbəsində yaşayırdılar, qapıbir qonşu idilər. Hər iki ailənin otaqlarının qapısı uzun bir dəhlizə açılırdı. Dəhlizin o başında bir-birilə

birləşmiş iki otaqda Cavidgilin ailəsi qalırdı. Onlar səkkiz il idi ki, qonşuydular. Qonşular artıq dost olmuşdular.

**Haşiyə**. 1982-ci il idi. Cavidin İrkutskdən gətirilmiş «cənazəsi»nin Əlyazmalar İnstitutunun iri salonlarından birinə, Cavidin evinə gətirilməsinə hazırlıq gedirdi. Turan xanım çox narahat idi. Mədəniyyət naziri zakir Bağırov da bura gəldi. Onlar Turan xanımla üçüncü mərtəbəyə qalxdılar. Mən də qalxdım. İlk dəfə idi ki, Cavidin yaşadığı yeri görürdüm. Turan xanım həmən dilləndi:

- Belə deyildi, dəyişdiriblər, birləşdiriblər, dəhlizi qısaldıblar. Dəhliz uzun idi.

Binanın üstünə qalxan pilləkəna baxıram. Turan xanım deyir:

- Yayda biz həmişə çıxıb damın üstündə düzəldilmiş yerdə oturardıq, çay içib istirahət edərdik. Atamın yanına qonaqlar gələrdi, şeirdən – sənətdən şirin söhbətlər başlanardı…

Kitablardan oxuduğum, ondan-bundan eşitdiyim yerləri indi öz gözümlə görürəm. Turan xanımın uşaqlıq illəri burada keçib. Buna burada hər daş, hər kərpic, qapı-baca, pəncərə, divar, hər şey, hər şey doğmadır, əzizidir. Onun ən şirin xatirələri bu ocaqla bağlıdır. Ona görə də o, əsim-əsim əsir, çox istəyir ki, atasının ev muzeyi burada yaradılsın. Fikrini məndən gizlətmir:

- Muzey burada yaradılsa, heç evə getmərəm. Gecələr də burada qalaram…

Mən Turan xanımı başa düşürəm. Onun üçün «ev» anlayışı yoxdur. Varsa da indi dəhlizində dayandığı evdir, ata ocağıdır. İnsana da ata ocağından nə şirin ola bilər? Turan xanım burada qalmaq, burada yaşamaq istəyir. O, hər daşla, divarla danışmaq istəyir. Atasının nəfəs aldığı, yatdığı, durduğu, işlədiyi otaqda, dəhlizdə yatmaq, gəzmək istəyir. Bir küncə çəkilib, atasının xəyalı ilə danışmaq istəyir. İstəyir ki, atası, anası, qardaşı ilə qarşı-qarşıya otursun, doyunca söhbət eləsin, keçənləri yadına salsın. Atası onun əlindən tutub pilləkanlardan aşağı endirsin, məktəbə yola salsın... Xəyallar, xəyallar, xəyallar! Xəyal olmasaydı

insanların həyatı necə olardı? Hətta ən çətin anlarda, ölüm ayağında da insan xəyala qısılır, son nəfəsi ağzından çıxanacan xəyalla yaşayır.

Xəyallar, xəyallar... Yaxşı ki, siz varsınız.

*Susur otaq,*
*susur hava.*
*susur divar,*
*susur tavan*
*susursan sən də!..*

Bəli, indi, bu an, bu dəqiqə Turan xanım xəyalla yaşayırdı. Yaradılacaq muzeyi xəyalında canlandırırdı. Fikrini mənimlə bölüşdürürdü. Ta düşünmürdü ki, Mərkəzi Komitənin qərarı olmasına baxmayaraq, muzey açmaq böyük bir problemə çevriləcək. Daşürəkli insanlara onun hay-harayı çatmayacaq, biganəliklə üzləşəcək, daxilən sarsılacaq, əsəbləşəcək. «Qeyrətli kişilər» isə qeyrətdən dəm vuracaq, xalqdan ağızdolusu danışacaq. Böyük ağızlara çullu dovşan yerləşməyəcək. Kiçik ağızlardan böyük sözlər çıxacaq...

Aşağı düşürəm. Böyük bir salon Cavidi qəbul etməyə hazırlaşır layiqincə. Hər addımda xalqın öz doğma, əziz övladına məhəbbətini görürəm. Sevinən milyonlardan biri də mənəm. Oxucu dostum, bəlkə də fikirləşərsən ki, özümü gözə soxmağa çalışıram. Əsla, mən o niyyətdə heç vaxt olmamışam, olmaq da istəmirəm.

Salonda Zakir Bağırovla Cahangir Qəhrəmanov yanaşı dayanıblar. Mən də bir neçə addımlıqdayam. Söhbət muzeydən gedir. Bağırov üçüncü mərtəbədə ev-muzeyin təşkil edilməsi barəsində əlyazmalar institutunun direktorunun rəyini öyrənir. O, qəti etirazını bildirir. Onun əl-qol hərəkətini aydın görürəm, onun dediklərini aydın eşidirəm: - Yox, yox, bax, bir o yox!..

*Dərdə bax, millətə, niyyətə bax!*

Özüm-özümə deyirəm: - «Cavid diriykən hər işi hələm-asanlıqla getmirdi, ölüykən işləri yenə də hələm-asanlıqla düzəlmir. Taleyə bir bax!

Görəsən anası onu hansı gündə doğmuşdur? Allahla İblisin öpüşdüyü gündəmi? İblislə Allahın çəkişdiyi gündəmi?..»

60

Adilə dərsdən yenicə qayıtmışdı. Bir tikə çörək yeyib Cavid əfəndigilə getdi. Bu balaca qız Cavid əfəndinin şirin söhbətlərini dinləməyi çox sevirdi. Söhbət isə, əsasən, Adilənin oxuduğu kitablar haqqında olardı. Bu dəfə də belə oldu. Cavid Adiləni mehribanlıqla qarşıladı. Birinci sualı bu oldu:

- Nə oxuyursan?

Adilə həmən cavab verdi:

- Sizin əsərlərinizi.

Sorğu-sual başlandı. Adilə Cavid əfəndinin suallarına dolğun cavab verməyə çalışırdı. Axırda o, şairin «Qız məktəbində» şeirini əzbərdən söylədi. Cavid:

- Ay bərəkallah, afərin, - deyə Adiləni təriflədi. Qız quş tək qanadlandı, uçmaq istədi. Cavid yeni nəşr edilmiş əsərlərindən birini müəllif imzası ilə Adiləyə bağışladı.

Bu gün Adilə üçün əsl bayram idi. Cavid onu dram teatrında «İblis» tamaşasına baxmağa dəvət etmişdi. Şair Adiləyə böyük bir şadlıq bəxş eləmişdi. Adilə Cavidin qibtə ediləcək sadəliyinə heyran qalmışdı. Axşamın düşməsini səbirsizliklə gözləyirdi. Nəhayət, gözlənən vaxt gəldi. Cavid, Mişkinaz, Adilə teatra getdilər. Onlar müəllif lojasında oturdular. Adilə bu gün, bu dəqiqə, bu an özünü dünyanın ən xoşbəxt qızı sanırdı, qürrələnirdi. Sanki tamaşa salonunda oturanlara demək istəyirdi: «Baxın, görün harada, kiminlə oturmuşam.» Yerində hərdən-birdən qurcalanırdı ki, onu görsünlər. Görsünlər ki, o, böyük dramaturqla yanaşı oturub. İblis rolunda Abbasmirzə Şərifzadə, qalan rollarda Mərziyyə Davudova, Kazım Ziya və başqaları çıxış edirdilər. «İblis» faciəsinin dərin məzmunu, Cavid şeirinin gözəl ahəngi böyük aktyorların ifasında daha da canlanıb Adiləyə unudulmaz təsir bağaşlayırdı. İblis – Abbasmirzə Şərifzadə

qırmızı mantiyaya bürünmüş halda alovlar içərisindən çıxaraq, sarsıdıcı qəhqəhələrilə tamaşaçıları heyrətə, ürəkləri təlatümə gətirirdi.

Mişiknaz xanımla Adilənin başı səhnədə biri-birini əvəz edən dramatik hadisələrə bərk qarışmışdı. Cavid bir anlığa onlara nəzər saldı. Astaca ayağa durub getdi. Çox çəkmədi ki, böyük bir qutu pirojna ilə qayıtdı. Onlar bunu hiss etmədilər. Cavid qutunu onlara uzudaraq dedi:

- Tamaşaya baxdıqca bu qutuya da arabir əl atın.

61

Dostları tez-tez Cavidgilə yığışar, söhbət edər, günlərini xoş keçirərdilər. Belə günlərdən biriydi. Dostlar bir yerə yığışmışdılar: Adilə, onun atası Pənah bəy, Bülbül, onun həyat yoldaşı Zeynəb xanım, onların evlərində tərbiyə alan İsmayıl Eloğlu. Mişkinaz xanım özünün məşhur plovunu bişirmişdi. Plovun iyi aləmi götürmüşdü. Bülbül oxuyurdu. Onun gözəl səsi, gözəl avazı hamını valeh etmişdi. Cavidin də keyfi kök idi, konyak içmişdi. O, Bülbülün oxuduğu mahnılara, segaha qulaq asır, dərindən həzz alırdı. Cavid Eloğluya dedi:

- Xahiş edirəm siz də oxuyasınız.

İsmayıl bir neçə xalq mahnısını mülayim səslə oxudu. Oxuyub qurtardıqdan sonra Cavid onu təriflədi. Dedi:

- Oxumaların çox xoşuma gəldi.

Gecə vaxtı idi. Cavid stol arxasında oturub əsərləri üzərində işləyirdi. Qapılar açıq olduğundan otağın içərisi aydın görünürdü. Otağın ev avadanlığı olduqca sadə idi, amma o çox səliqəli yığılmışdı. Otaqda bufet, yemək stolu, iki uşaq çarpayısı, kiçicik yazı masası vardı. Uşaq çarpayıları üzbəüz divarlara yaxın qoyulmuşdu. Birində Ərtoğrol, o birisində Turan yatırdı. Uşaq çarpayılarından biri yazı masasına toxunurdu. Balaca yazı masasının üstündə çoxlu kitab, jurnal yığılmışdı, boş yer görünmürdü. Otaq çıraq işığı ilə işıqlanırdı. Stolun üstündə kiçik bir çıraq qoyulmuşdu. Cavidin özü elektrik çırağını yandırmırdı. Uşaqların gözünə işıq düşməsin deyə o, çırağın ətrafını kitablarla

örtmüşdü. Çıraq balaca bir küncü işıqlandırırdı. Cavid yanını stola söykəyib, dəftəri dizləri üstünə qoyub yazırdı. Masanın aşağı taxtaları onun rahat oturmasına mane olduğu üçün şair belə oturmuşdu. Ancaq Cavidin başı yaratdığı əsərə o qədər qarışmışdı ki, o, özünün narahat vəziyyətini hiss eləmirdi. Şair arabir yerindən durub dəhlizə çıxır, burada qoyulan əlüzyuyana yaxınlaşır, üzünü su ilə yuyurdu. O, bununla yuxusunu azdırırdı. Sonra o, yenə öz yerinə qayıdır, işinə davam edirdi. Böyük şairin dahiyanə əsərləri beləcə, kiçik masa arxasında, gecələr yaranırdı. Mişkinaz çoxdan yatmışdı, Ərtoğrol və Turanın mışıltısı eşidilirdi. Ancaq şairin qulaqları heç bir səs eşitmirdi. Sənət aləminə qərq olan şair yazmağına davam edirdi. Fəqət bilmirdi ki, bu yazmağı da ona çox görəcəklər. Vaxt gələcək ki, o, kitaba, dəftərə, qələmə həsrət qalacaq, gördüyü rəzalətləri qələmə ala bilməyəcək.

62

Köhnəlmiş, vərəqləri əprimiş, saralmış, cırılmış, ad-familiyaların üstü qaralanmış, kəsilib götürülmüş qəzet və jurnalları nəzərdən keçirirəm. Mətbuat səhifələrində o kəslərin ad-familiyalarının üstü qaralanmış, oxunmaz olmuş, kəsilib götürülmüşdü ki, onlar vaxtilə öz qələm yoldaşına, çörək kəsdiyi adama, gündə salamlaşdığı yazıçıya böhtan atmış, qara yaxmışdı. Onlar bununla öz adlarını, nişanələrini tarixin yaddaşından silmək istəmişlər. Ancaq buna nail ola bilmişlərmi? Əlbəttə, yox! Artıq tarix onları məhşər ayağına çəkir və çəkəcək. Onlardan haqq-hesab istəyəcək. Tarixi saxtalaşdıranların atasına od vurulacaq, onlar əbədi və sönməz tonqalda yandırılacaq.

Mən də susmaq istəmirəm, həqiqəti olduğu təki qavramağa, yazmağa təşəbbüs göstərirəm; heç bir şeyə göz yummaq, mühafizəkar olmaq istəmirəm, mənim oxucu dostum, istəmirəm.

**Tarixi xronika.** S.Şamilov: «Əhməd Cavad Azərbaycan xalqının ən qatı düşməni olan musavat hökumətinin sevimli və dərvişlik edən şairi olmuşdur… » («Kommunist», 17 mart 1937-ci il).

**S.Vurğun. «Səhvlərimiz haqqında»**: - Birinci əsas səhvimiz, Sovet Yazıçıları İttifaqına qəbul zamanı, siyasi korluq üzündən, öz cərgəmizə bir sıra yabançı və düşmən adamları qəbul etməyimiz olmuşdur. Biz onların fəaliyyətini bir yanda buraxaraq quru vədlərinə aldanmışıq. Demək ki, öz bolşevik sayıqlığımızı zəiflədərək qapılarımızı dosta da, düşmənə də açmışıq... Hə üçün H.Mehdi, Nəzərli, S.Rüstəm, Rza və başqa yoldaşlar özlərini Az. APP vaxtı buraxdıqları səhvlərdən və averbaxçılığın onlara olan təsirindən danışmayırlar?.. («Ədəbiyyat qəzeti», 9 iyun 1937-ci il).

**«Sonadək ifşa etməli»**: - İttifaqımıza, şəxsiyyəti və yaradıcılığı etibarilə sovet platformasında durmayan Əhməd Cavad, Hüseyn Cavid, H.K.Sanılı, Musaxanlı, Seyid Hüseyn, Yusif Vəzir kibi millətçi, musavatçı yazıçılar; yaradıcılıq işi ilə heç bir əlaqəsi olmayan tacir Səlman Mümtaz, başqa sahələrdə öz mövqelərini itirmiş B.A.Talıblı və Tağı Şahbazi xalq düşmənləri, Mikayıl Müşfiq kimi proletariata və sosializm quruluşuna sabiq olmayan, hələ də öz qəlbində millətçilik fikirlərini daşıyıb, bizi aldatmaq istəyən əclaflar qəbul edilmişdir. («Ədəbiyyat qəzeti», 9 iyun 1937-ci il).

Bu sözlərin müəllifi kimdir? Qəzetdə müəllifin adı kəsilib götürülmüşdür. O kimdirsə, tarixin gözündən yayınmağa çalışır. Heyhat!..

**«Sıralarımızda düşmənlərə yer yoxdur»**: - Xalq düşmənləri trotskist-musavatçılar R.Axundov, Əli Nazim, Ə.Cavad, H.Cavid, M.Müşfiq, Hacı Kərim Sanılı, Əminbəyli, Zeynallı, Şahbazi və başqaları öz murdar fikirlərini yürütmək məqsədilə yazıçılar arasında ayrı-ayrı şəkillərdə hərəkətlər törətmişlər («Ədəbiyyat qəzeti», 9 iyun 1937-ci il).

Qəzetdə müəllifin adı pozulub, elə pozulub ki, oxunmur.

**O.Sarıvəlli. «Nizamnamə təhrif edilmişdir»**: Yazıçılar İttifaqına «... Salman Mümtaz, «Mötəbər əfəndilər (H.Cavid kimi) ümumiyyətlə xalq düşmənləri qəbul edilmişlər. H.Mehdi, R.Rza averbaxçılıq «propoqan-da»sının ən görkəmli nümayəndələri olmuşlar...» («Ədəbiyyat qəzeti», 9 iyun 1937-ci il).

Çıxışın başlanğıc hissəsi cırılıb götürülüb.

**M.Rahim «Kontrrevolyusioner, kondrabantçı, oğru...»**.

- Müşfiq ilk qidasını Türkiyənin aristokrat şairi Hamid və kontrrevolyusioner Hüseyn Caviddən almışdır... («Ədəbiyyat qəzeti», 21 avqust 1937-ci il).

Müəllif M.Müşfiqin «Küləklər» şeirini «geniş təhlil» edir. Bu «ittihamnamələrin»sayını artırmaq da olardı. Fəqət bizim məqsədim bu deyildir ki, köhnə sandıqların ağzını açıb, içindəki pambığı çölə tökək, kimisə nəzərdən, hörmətdən salaq. Yox, oxucum, bu sözləri kim sənə desə, inanma. Mənim məqsədim bu deyildir. Onların hər biri Azərbaycan xalqının oğludur; onların hər biri türk qadınının döşündən süd əmmişdir. Mən həmin yazıçıların əsərlərindən pöhrələnmişəm, tərbiyə almışam. Onların hər birinin bizim ədəbiyyat, mədəniyyət tarixində öz yeri, öz yuvası, mövqeyi, xidməti var. Bunları danmaq, bunların üstündən qara xətt çəkmək namərdlik, nakişilik olardı. Mənim məqsədim diqqəti o zamankı ədəbi mühitə cəlb etməkdir. Məqsədim səhvləri qeyd etməyə, onların bir daha təkrarına yol verməməyə çağırışdır. Kim səhv etmir? Hamı səhv edir. Ancaq səhv var bağışlanır, səhv var bağışlanmır. Kim kimi bağışlayırsa, kim kimi bağışlamırsa, bu onun şəxsi işidir. Məqsəd mühitin, kommunist rejiminin doğurduğu iyrəncliyi, insanların törətdikləri cinayətləri, səhvləri bir daha xatırlatmaqdır. Sayıq olun, insanlar! Sayıq ol, insan övladı! Yadında yaxşı saxla: hansı xalqı məhv etmək istəyirsənsə, onun öz övladlarını öz övladlarının, ziyalılarını ziyalılarının üzərinə qaldır, onları biri-birinə salışdır. Qorun bundan, insan oğlu, qorun!

## 63

- Allo.

- Bəli.

Turan xanımı telefona olarmı?

- Bu dəqiqə.

Bu dialoq mənimlə katibə arasında gedir. Turan xanım dəstəyi qaldırır.

- Bəli.

- Salaməleyküm.

Bir anlıq pauza. Səsindən kim olduğunu tanımaq istəyir. Sonra dərindən köks ötürür. Deyəsən tanıyıb kimdi.

- Hə... Salam.

- Necəsiniz?

- Necə olacam, bilmirsiniz.

- Bilirəm.

- Bu dəqiqə dilimin altına volidol qoymağa hazırlaşırdım. Siz necəsiniz?

- Pis deyiləm. Özünüzü qoruyun, siz hələ bizə lazımsınız.

Mən bu sözləri Cavidin təşkil edilməyi müşkül məsələyə çevrilmiş ev-muzeyinə işarə vuraraq deyirəm. O, məni həmən anlayır. Yenə köks ötürür.

- İstilərinən necəsiniz?

Turan xanım birdən cavab verir, elə bil ki, bir az bundan əvvəlki Turan deyildi.

- Çox pis!

- Hava bürküdü, nəfəs almaq olmur.

- Hə...

- Uşaqlar, babuşka necədir?

- Yaxşıdı.

Oxucular «babuşka» sözünə təəccüblənə bilərlər. O bizim himayəmizə götürdüyümüz rus qadınıdır. Kimsəsiz bir qadın.

- Məzuniyyətə çıxmırsınız?

- Ay rəhmətliyin oğlu, nə məzuniyyət?..

Turan xanım bu sözləri qəribə bir tərzdə deyir. O, istirahət, məzuniyyət nə olduğunu bilmir. Səbri-qərarı tükənib, ancaq öz mülayimliyini, diqqətliyini, nəcibliyini, vüqarını bir zərrə qədər də itirməyib. Dərdi azdı

deyən, bu tərəfdən bir dərd də çıxıb. Atasının ev-muzeyi yaradılmır. Görəsən bu tilsimi kim sındıracaq? Demək çətindi. Ümid Turan xanımın özünə qalıb. Bu boyda Bakıda, bu böyüklükdə şəhərdə Cavid üçün bir ev tapılmır...

64

Turan xanımla üz-üzə oturmuşuq.

- Çay içirsənmi?

- Xeyr, içib gəlmişəm.

- Sən nə ac olursan, nə susuz. Qəribə adamsan.

Böyük şairimizin anadan olmasının yüz illiyi barəsində söhbət edirik. O, Mərkəzi Komitənin qərarını çox yüksək qiymətləndirir, deyir:

- İndiyədək belə qərar qəbul edilməmişdi.

Mən onun sözlərini təsdiq edirəm.

Turan xanım «Xəyyam» tamaşasından söz salır, tamaşaya baxan Heydər Əliyevlə görüşündən danışır. Onun «Şeyx Sənan»dan bir sıra misraları əzbərdən dedeyini eşitdirir.

- Sənin işlərin necədir?

- Mən də Cavid haqqında xatirələri toplamışam, hazırdı. Ancaq deyirlər həmin kitaba məqalələr də daxil ediləcək. Mən isə məqalələrin ayrıca getməsini istəyirəm. Özü də qoy başqasına tapşırılsın.

O, qəti etirazını bildirir:

- Xatirələri kim toplayıbsa, məqalələri tərtibçisi də o olacaq.

Susuram. Haqqım nədir ki, etiraz edəm. Turan xanımın bir sözünü iki eləmək olmaz.

Deyirəm:

- Adil İsgəndərov, Rza Təhmasib, Rəsul Rza, Mehdi Məmmədov nə qədər ki, sağdılar, Cavid haqqında xatirələrini lentə köçürmək lazımdı, muzey üçün.

- Hə, doğru deyirsən.

Sonra əlavə edir:

- Mən onun əsərlərinin çapını da o qədər istəmirəm, ancaq xatirələr çıxmalıdır, mütləq çap edilməlidi!

Bu, Turan xanımın səmimi sözləridir, ürəkdən gələn sözləridir. Mən onu başa düşürəm. O, çox çalışır ki, atası haqqında xatirələri hamı oxusun. Xatirələrdə atası həyatda olduğu kimidir. Cavid, ümumiyyətlə, artıq bəzək-düzək götürən şair deyil. Cavid necə varsa, eləcə də görünməlidir, eləcə də oxunmalıdır. Xatirələr də məhz bu niyyətlə, bu arzuyla toplanmışdı. Kitabın redaktorları Abbas Zamanov və Həmid Məmməzadə idi. Xatirə və məqalələri onlarla birlikdə oxuyub çapa hazırlayırdıq...

65

Abbas müəllimgilin mənzilindəyəm. Alazanın Cavid haqqında xatirələrimi oxuyuram, Abbas müəllim qulaq asır. Özümü saxlaya bilmirəm, qəhər məni boğur, ağlamaq məni tutur. O, bunu görən tək dərhal otaqdan çıxır. Mən ürəyimi boşaldandan sonra gəlir. Utanıram Abbas müəllimdən. O, özünü o yerdə qoymur. Xatirələri sıxıla-sıxıla, utana-utana təzədən oxuyuram. Mustafa Quliyevin adını oxuyuram. Abbas müəllim dözmür, deyir: «Çox köpəkoğlu adam olub!» Abbas Zamanov kitaba belə bir ümumi ad qoyur: «Cavidi xatırlarkən». Bu ad Mişkinaz xanımın əri xaqqında xatirələr kitabından alınmışdı. Abbas müəllim elə beləcə də dedi:

- Qoy, elə arvadının işlətdiyi ad olsun.

Kitab həmin başlıqla məqalələr və xatirələr toplusu kimi otuz min tirajla nəşr edildi. Bir dəfə «Akademkitab»ın yanından keçirdim, gördüm ki, həmin kitabdan bir neçə nüsxə masanın üstünə qoyulub. Birini əlimə götürüb baxdım. Məni kitabın çap kefiyyəti maraqlandırırdı. Stolun yanında isə qoca bir kişi dayanmışdı, əlində də həmin kitabdan. Qoca mənim kitaba diqqətlə baxmağımı görüb dedi:

- Al, yoxsa sonra tapılmayacaq.

Birini də mən aldım.

66

Turan xanımın kabinetinə alçaq boylu, qırx beş-əlli yaşında bir nəfər girdi. O, bizi tanış etdi:

- Ömər Eldarovdur, tanış olun.

Görkəmli heykəltəraşla tanış olmağıma şad oldum. Mən onun adını eşitmişdim, özünü görməmişdim. Əsərlərinə baxmışdım. Böyük sənətinə qibtə edirdim. Daxilimdə qəribə hisslər baş qaldırdı: «Bu kiçik adam o boyda böyük sənət əsərlərini necə yaradır?» Heykəltəraşın xarici görkəmilə sənəti arasında böyük bir təzad vardı. O, Cavidin Bakıda qoyulacaq heykəlini hazırlamalıydı. Turan xanımın yanına məsləhət, bir çox məsələni öyrənmək üçün gəlmişdi. Heykəltəraş azəri türkcəsində yaxşı danışa bilmirdi. Rusca danışırdı. Qəribəsi bu idi ki, o, Cavid haqqında yazılanları oxuyub, heykəlini yaratmalıydı, Füzulinin heykəlini yaratdığı kimi. Heykəlin maketi çoxdan hazır idi. Heykəl çox orijinal kompozisiyaya malikdir, sənətkar düşüncəsinin monumental məhsuludur. Heykəltəraş fantaziyası ilə Cavid romantikası heykəldə özünün gözəl təcəssümünü tapmışdır. Xeyirlə şərin əbədi çarpışması heykəldə rəmzləşdirilmişdi, özü də böyük ustalıqla. Mən heç yerdə bu cür kompozisiyalı heykəl görməmişəm. Heykəlin «İnşaatçılar» prospektində, elmlər akademiyasının önündəki Cavid meydanında qoyulması qərara alınmışdı.* Ona ayrılmış vəsait lazım olduğundan az idi. «Qayğı» cəmiyyəti bu sahədə xüsusi təşəbbüskarlıq göstərməli idi ki, bakılılar Cavidin abidəsini pastamentin üzərində tezliklə görə bilsinlər...

67

Cavid haqqında düşünürəm, axtarışlar aparıram. Onun sənətinin intəhası yox, dibi yox! Sonsuz kainata bənzəyir Cavid sənəti. Onun əvvəli görünür, sonu görünmür. Əsrlərə boylanıram, qərinələrə boylanıram. Cavidi görürəm, ancaq onun sonunu görmürəm. Gələcəyə uzun bir yol

* İndiki «Cavid» prospektindəki Cavid bağı

uzanıb gedir. Cavid yolu, Cavid cığırı. Bu yolun başlanğıcı var, sonu yoxdur. Sonsuzdur Cavid, sonsuzdur Cavid sənəti. Xəyal məni gələcəyə aparır. İndi onu Yerdə deyil, göydə də oxuyurlar, Marsda, Yupiterdə... Kosmosa uzun bir yol uzanır. Ona Cavid yolu deyirlər. Şairi dərk etmək, anlamaq dərin bilik, böyük zəka, geniş həyat təcrübəsi, uca amal, əqidə, məslək istəyir. O da məndə yox. Cavidi oxuyarkən gərək qəlbin təmiz olsun, oradakı xəbis hissləri çıxarıb bir kənara tullayasan, yarımcavid olasan. Yarımcavid! O da məndə yox. Milli qeyrəti, namusu, vicdanı olmayan adam gərək Cavid əsərlərinə toxunmasın, kirli əlləri, xəbis ürəyi ilə onu murdarlamasın. Cavid sənəti pak bir sənətdir - ləkə götürməz, məkr istəməz. Cavid ədəbi bir işıqdır. O sönməz. Yandıqca yanar, ətrafdakıları da yandırar, işıqlandırar...

Cavidi düşünərkən beynimə bu cür qarmaqarışıq fikirlər gəlir. Mən bu fikirlərlə dissertasiyamı qoltuğuma vurub, elmlər akademiyasının institutlarından birinə gedirəm. Dəhlizdə bir nəfəri görürəm. Onu tanımıram. Söhbətimiz tutur. Deyir ki, aspirantam. Mən də deyirəm ki, dissertantam. Gəlişimin səbəbini soruşur. İzah edirəm. Deyir: «Apar bir hörmət elə rəy yazacaqlar...»

Ona bir söz demirəm. Daxilimdə özüm, özümlə döyüşə girirəm. Qalib gələn də mənəm, məğlub olan da. Yadıma Qulu Xəlilovun sözü düşür: «Apar bir tula payı ver ona...»

Haradan alasan bu «tula payını»?

Daxilimdə özüm, özümlə vuruşuram: «Başqaları haradan alır, sən də oradan.» Yox, o mənim işim deyil. Bu, alçaqlıqdır, öz şəxsiyyətini cındaya bərabər tutmaqdı. Bu pul hərisliyi insanlarda haradan yaranıb? Hər şey pul ilə ölçülür: yaxşı yaşamaq da, vəzifəyə sahib olmaq da, vəzifədən kənar edilmək də, cəmiyyətdə öz mövqeyini möhkəmlətmək də... Qışqırmaq istəyirəm, bütün dünyaya haray salmaq istəyirəm: Dayanın insanlar! Uçuruma gedirsiniz, insanlar! Bu uçurum adi uçurum deyil, mənəvi uçurumdur! Bu, insanın mənəvi iflasıdır! Eşidin məni,

insanlar! Öz cızığınızdan, ata-babalarınızın yolundan çıxmısınız!.. Məni eşidən kimdir?.. Cavid gözəl deyib:

*Altun! Altun, hər bir dərdin dərmanı,*
*Altun pəncəsindən qurtulan hanı?*

Başımda qarmaqarışıq fikirlər tufan qoparır. Başqa bir alimlə söhbətim yadıma düşür.

- Harada işləyirsən?

- Filan yerdə.

- Niyə məktəb direktoru olmursan?

- Bilmirəm.

- Direktor olsan işin yaxşı olar. Çak-çukun olar.

Əqidəyə bir bax! Hara gedirik bu əqidə ilə? Ağıllımız da belə düşünür, ağılsızımız da.

Direktor olmuram. Ancaq müavinliyin dadını görürəm. Həmin alimin söhbəti yadıma düşür.

Rüşvət almaq, rüşvət vermək sovet cəmiyyətində adi həyat normasına çevrilib. Bəla burasındadır ki, bu biabırçılıq bütün təhsil sistemində bütün çılpaqlığı ilə özünü göstərir. Mən işlədiyim məktəbin başqa bir direktor müavini direktorun toruna düşür. Şirin dillərinə, vədlərinə aldanır. Üç yüz manat rüşvət alarkən yaxalanır. Məktəbin adı Mərkəzi Komitənin plenumunda çəkilir. Yenə də direktora «gözün üstə qaşın var» deyən yoxdur. O, isə yırtıcı kimi yeyir, dağıdır, yuxarıları da yaxşı yedizdirir. Direktor üçün pul yığan məhkəmə qarşısında cavab verməli olur. Direktor məhkəmədə sorğu-suala tutulur. «Elə bil ki, başına bir qazan qaynar su töküblər.» Bu ifadənin həqiqətdə necə olduğunu gözlərimlə görürəm. Xəcalət təri tökür, rüşvətxor təri yox. Şərikli cinayətdən yaxa qurtarır…

O yerdə ki, elmə, məktəbə, maarifə rüşvət, əyrilik yol açıbsa, müəllim, məktəb direktoru rüşvət üstündə məhkəmə qarşısında dayanırsa, deməli, o məmləkətdə çox şey qaydasında deyil. Ey «böyük insanlar»,

«böyük kişilər», bizim balalarımızın əxlaqını korlamayın! Şüurlarını, psixologiyasını zəhərləməyin! Xalq Təsərrüfatı kimi böyük bir institut bunun üstündə bağlanmadımı?

İnsanlar, insanlar! Siz yolunuzu azmısınız. Siz çox kobudlaşmısınız, yonulmamış odun parçasına dönmüsünüz. İnsanlar, insanlar! Siz doğru yoldan sapmısınız!..

*Diyorlar insan yonulmuş meymundur,*
*Bu söz həqiqətə pək az uyğundur.*
*Şimdi də «meymunlar» gərçi az deyil…*

## Ü Ç Ü N C Ü  H İ S S Ə
## Tarix və faciə

### 1

**Sentyabr 1939-cu il.** Cavid artıq Vladivostokdadır. O, Daşkəndən Vladivostoka, demək olar ki, iki aya gəlib çıxmışdı. Özü-özünə fikirləşmişdi: «Nə ağır, nə uzun, nə üzücü yoldur. Bizi deyəsən, dünyanın o başına aparıb çıxaracaqlar.» Şair yorulmuşdu, çox yorulmuşdu. Şair üzülmüşdü, çox üzülmüşdü. Ev üçün, ailəsi üçün çox darıxırdı ürəyi. Nanə yarpağı tək əsirdi. Uzaq Şərqdə onu nələr gözləyirdi? Onun burada başına nələr gələcəkdi?..

Gözətçilər dustaqlarla sərt rəftar edirdilər. Onları dinləmək belə istəmirdilər. Ədəbsiz söyüşlər söyür, yeri gələndə bir təpik ilişdirir, ya da tüfəngin qundağı ilə kürəyindən irəli itələyirdilər. Dustaqlar hələ məhbus düşərgəsində deyildilər. Buna baxmayaraq, onlar cəhənəm əzabı çəkirdilər. Haqqın nəydi ağzını açıb bir kəlmə söz deyəsən, yaxud etirazını bildirməyə cəsarət edəsən…

Cavid dinmirdi, danışmırdı, dözürdü, çarəsi nəydi. Hərdən vaxtilə yazdığı bu sözləri xatırlayırdı: «Siz insanlıq şərəfini ayaq altında çeynəyən vəhşilərsiz».

Cavidin olduğu yatab sentyabrın 22-də Vladivostoka çatdı. O, evə məktub yazmağa, özü haqda məlumat verməyə tələsirdi. Bilirdi ki, evdə onun məktubunu gözləyənlər var. O, sayca dördüncü məktubunu «yazmağa» başladı:

«Sevgili Mişkinaz! Sənə və uşaqlara Vladivostokdan salam göndəririm. Bura 22/IX gəldik. Bizi buradan nə vaxt və hara göndərəcəklər, məlum deyil. Mən sağ və salamatam,sizin hamınıza da bunu ürəkdən arzu edirəm. Mənim ikinci məktubumu gözləyin. Məktub yazmayın. Öpürəm sizi. H.Cavid. Vladivostok, 29/IX.»

*Bir zaman ki,*

*tanrısı «Gözəllik və sevgi» Cavid*
*olmuşdu «xalq düşməni!»*
*Vəzifəli Borşovlar*
*doldururdu, boşaldırdı*
*tez-tez dustaqxananı.*
*... gecə-gündüz qurşağa qədər*
*Suda qalan acları...*

Məktub əl boyda kağızda rus dilində, bənövşəyi karandaşla yazılıb. Məktubda il göstərilməyib. İl zərfin üstündə var: 1939. Daha başqa dildə məktub yazmağa qoymurdular. Göstəriş beləydi. Evdə rus dilini bilən tapılar, tapılmaz, fərqi yoxdu. Dustaqlar, o cümlədən Cavid onları Vladivostokdan hara göndəriləcəkdi, bilmirdilər. Bu, «dövlət sirri» idi. Bunu onlara demirdilər, soruşan payını alırdı.

Evdəkilər Caviddən məktub aldılar. Üçü də bir yerə yığışdı. Oxudular. Sevindilər. Sanki Cavidin özü gəlmişdi. Məktubdan Cavidin ürəyinin hərarəti duyulurdu, döyüntüsü eşidilirdi. Xət Cavidin xətti deyildi. Evdəkiləri narahat edən bu idi.*

2

**Oktyabr 1982-ci il.** Cavidin sümüklərinin qalıqları İrkutskdən Vətəninə gətirilir. Turan xanımın bundan xəbəri yoxdur. Söhbət əsnasında o, bunu məndən gizlətmir, öz etirazını bildirir:

- Gedəndə bir deməzlər? Mən axı, bilməliydim!..

Turan xanım haqlıdır. O, Cavidin yeganə övladı idi. O, bilməliydi. Ancaq bu xəbər ona deyilməmişdi, səbəbi vardı. Səbəbi də bu idi ki, birdən xəbər ürəyi xəstə Turana pis təsir edər. Ancaq bilmirdilər ki, Turanın ürəyi çox şeylərə tab gətirib, buna da tab gətirərdi.

Cavidin cənazəsi Moskvadadır. Moskvadan Bakıya xəbər verirlər: «Naxçıvanlılar cənazəni birbaşa Naxçıvana aparmaq istəyirlər.» Bakı buna razılıq vermir: «Cavid Bakıya gəlməlidi, Bakı ilə, doğma evilə, elm, mədəniyyət xadimlərilə, partiya və dövlət rəhbərlərilə görüşməlidir». Əmr

* Cavidin Uzaq Şərqin məhbus düşərgələrindən göndərdiyi məktubların hamısı rus dilindədir və özü tərəfindən yazılmamışdır.

belədir. Bunu pozmağa heç kəs cürət edə bilməz. Cavid Moskvadan yola düşür.

Mərkəzi Komitədən zəng vurulur. Turan xanım dəstəyi qaldırır. Salam-kəlamdan sonra «sirr» ehtiyatla Turan xanıma açılır. O, bir anlığa duruxur, tərəddüd keçirir, halı dəyişir. Haçandan-haçana dillənir:

- Bəs bunu qabaqcadan deyə bilməzdinizmi?..

Bakıda və Azərbaycanda çoxları bilmir ki, Cavid Bakıya qayıdır. Bilsəydilər hamı Bakı təyyarə limanına axışardı, yollara gül, çiçək səpilərdi. Bilənlər Cavidi qarşılamağa hazırlaşırlar. Hərə bu xəbəri bir cür qavrayır, bu xəbər hərəyə bir cür təsir edir. Fəqət heç kəsə Turan xanım qədər təsir etmir. O, hamıdan çox həyəcanlıdır, hamıdan çox narahatdır, hamıdan çox darıxır.

3

Səhər saat doqquz ilə onun arasıdır. Cavid bir neçə saatdan sonra təyyarə limanında yerə düşəcək. Hamı avtobusa minir, mən də. Burada mənim tanıdığım və tanımadığım adamlar var. Turan xanım bir təhərdir. Narahatlığını büruzə verməməyə çalışır. Mən ona baxıram. Sifətindən, baxışından, yerişindən, duruşundan onun hansı hallar keçirdiyini bilmək istəyirəm. Duyuram ki, Cavidin son beşiyi qəribə hisslər keçirir, yəqin öz-özünə suallar verir: «Gətirilən həqiqətən babamdırmı?» Babası İrkutskdə öləndə onun əlli doqquz yaşı var idi. İndi Turanın da bir o qədər, əlli doqquz yaşı var. Təsadüfə bir bax!

Avtobus tərpənir, təyyarə limanına istiqamət götürür. Mən arxa sırada oturmuşam, Turan xanım ön sırada. Arxadan ona baxıram, onu müşahidə edirəm. O, bunu hiss edirmiş kimi yerində qurcalanır. Bir qədərdən sonra mənə baxır. Mən də ona baxıram. Turan xanımın keçirdiyi hissləri tutmaq istəyirəm. O, çevrilib qabağa baxır. Avtobusda ölü sakitlikdir. Mən Turan xanımı arxadan müşahidə edirəm. Sanki onun sifəti alma tək iki hissəyə bölünmüşdü. Mən onun arıq, tutqun, qarayanız sifətini sanki düzxətli bucaq altında görürəm. Narahatdır Turan xanım.

Zarafat deyil, 41 ilin ayrılığından sonra atasını görməyə gedir Turan xanım.

Avtobus Bakı təyyarə limanına çatır. O limana ki, gündə buradan yüzlərlə adam uçub gedir, bura yüzlərlə adam uçub gəlir. Bəziləri öz əzizlərilə burada ayrılır, bəziləri qovuşur. Turan öz əzizi ilə çoxdan ayrılmışdı, bu gün görüşməliydi. Bakı təyyarə limanı bugünədək bu cür hadisənin şahidi olmamışdı. Bu liman heç bir vaxt belə bir böyük dahinin cənazəsinin qalıqlarını qəbul etməmişdi. Bu limana indiyədək otuz yeddinci ilin qurbanı olan sənətkarlardan heç biri gətirilməmişdi. Cavid birinci idi. O, ədəbiyyatda həmişə birinci olduğu kimi, burada da birinci idi.

Turan xanım öz dost-tanışlarının əhatəsindədir. Qəribə hisslər keçirir o.

Obaşdan yağan narın yağış havaya qəribə bir sərinlik gətirmişdi. Bakının küçə və meydanlarını sulamışdı. Şəhər Cavidi qarşılamağa hazırlaşırdı. Onu qarşılamağa gedənlər arasında bir yaşlı qadın da var idi. O, Turan xanım idi. O, bu günü çoxdan, lap çoxdan gözləyirdi.

Təyyarə limanında respublikanın partiya və hökumət nümayəndələrini, elm, mədəniyyət və ədəbiyyat xadimlərini – Qulam Məmmədlini, Fikrət Əhmədovu, Məmməd Cəfər Cəfərovu, Abbas Zamanovu, Bəxtiyar Vahabzadəni... görürəm.

4

**Əbülfəz Elçibəy**

- Biz istəmirik ki, bizim gənclərimiz gedib bu gün əzilsin, qabırğası sınsın, qolu sınsın və s. Elə Fəhminin özünü elə döymüşdülər ki, heç tanımaq olmurdu. ... Bu, vəhşi, murdar imperiyanın ordusudur. Buna görə də mən deyəndə ki, ehtiyatlı olun, hamı deyirdi ki, qorxuzur. Qorxu deyil! Bu hökuməti, bu ordunu mən yaxşı tanıyıram. Biz onun 100 illik tarixini görürük bu gün. Gözümüzün qabağında 1 milyon əfqanı qırıb-töküb, indi də deyir ki, gəlmişəm burada beynəlmiləlçiliyi yerinə yetirməyə. Abır yox, həya yox! İndi buna nə deyəsən? Siz bilməlisiniz ki,

düşmənimiz kimdir və kimlə oturub-durursunuz. Yazov* əgər deyirsə ki, mən gəlmişəm Xalq Cəbhəsinin strukturunu dağıdam, deməli, Xalq Cəbhəsinin bütün uşaqlarını tutub əzəcək. Mən gedəcəyəm, bəs niyə imkan verək ki, bu cavanların qol-qabırğasını sındırsınlar, gözlərini qorxutsunlar, əzsinlər? Xalq cəbhəsi, sizə deyim ki, nə onun aparıcı 5 nəfərindən, nə 20 nəfərindən asılı deyil. Xalq Cəbhəsi artıq millətin hərəkat formasıdır, hərəkatıdır. Buna heç kim bata bilməz! Bunu heç kəs saxlaya bilməz! Mən onları başa sala bilmirəm ki, bunu 5-10 nəfər eləmir, bu, milli hərəkatdır, xalq hərəkatıdır və gedir. Onun dalğası bizdən asılı olmayaraq gedəcək Cənubi Azərbaycana və sonra da keçəcək Türkiyəyə. Mən türklərə deyəndə ki, bir vaxt bizim milli hərəkatımız sizə də təsir edəcək, gülürdülər ki, nə cür təsir edəcək? Amma indi Çətinqaya o gün mənə zəng edib deyir ki, Bəy, düz deyirsən, sizin hərəkatınız bizim üzümüzü Avropadan Şərqə çevirdi və indi biz qardaşlarımıza tərəf çöndük. Bütün Türkiyə başqa cür baxır həyata. Tamam bir milli şüur yaranıb, tamam bir özünüdərketmə yaranıb, avropalaşmaqdan yaxa qurtarmaq yaranıb. Yəni bu hərəkat dalğası hələ gələcək İrana, Orta Asiyaya, Əfqanıstana. Əfqanıstanda da Nəcibullanı süpürüb atacaqlar. İrandakı diktaturanı yıxacaqlar… Demokratik hərəkat bu formada olmalıdır…

Bu hərəkat Azərbaycan səviyyəsindən kənara çıxır və getdikcə Yaxın Şərq hərəkatına çevriləcək və Böyük bir hərəkat olacaqdır. Təbii olaraq, bunun qarşısını heç kim ala bilməz.

**Sual:** Deyə bilərsinizmi, Bakı işğal olunan zaman nə qədər adam ölmüş və yaralanmışdır?

**Cavab:** Tamerlan Qarayevin 3 gün bundan əvvəl mənə dediyinə görə, dəqiq 143 ölən var. Əvvəl 195 biz saymışdıq.

Bəzilərini elə hesab edirdik ki, onlar öldürüblər, sonra tapıldılar. 400 itkin düşmüşdü, ondan qalıb 37-si. İndi bilmirəm. Tamerlan deyir ki, onlardan da bəziləri tapılıb. Bəziləri də, dediyimiz kimi, itkin düşüblər.

* SSRİ-nin keçmiş müdafiə naziri

Ancaq ola bilsin ki, hərəkatın gedişində bəziləri hələ gizlindədirlər, istəmirlər üzə çıxsınlar; belələri də var. Yaralananların sayını bilmirik, hələ tam öyrənməmişik. May ayının 6-7-sində komissiyanın işi qurtaracaq, onda məlum olacaq*. Yekunları biz ya qəzetlərdə çap etdirəcəyik, ya da müxtəlif vasitələrlə sizə çatdıracağıq. Sizdən xahiş edirik ki, imkanınız olsa o yaralılara harada olursa-olsun lazımi köməklikləri edin. Onları yaddan çıxarmaq olmaz. Onlara kömək eləmək, yardım etmək Xalq Cəbhəsinin, yerli rayon şöbələrinin yadından çıxmamalıdır. Bəzilərinə təqaüd kəsdirmək lazımdır, onlar müdafiə olunmalıdır.

Sonra. Mənə yazmışdılar ki, Qaradağda Xalq Cəbhəsi və İdarə Heyəti bu cür adamlara kömək etmir, onlarla maraqlanmırlar. Onu hökmən qeydiyyata almaq lazımdır. Məclisin üzvlərindən göndərmək lazımdır; həm görsün o məsələni, həm də bir ölçü götürsünlər. DTK onları bir az sıxır və DTK-da adam kimdirsə onun da adını yazıb gətirsin bizə ki, onlar yerlərini bilsinlər; dərəbəylik olanda lap qorxudurlar. Biləndə ki XC-nin məlumatı var, yuxarıdan bir az ehtiyat edirlər.

5

Moskva – Bakı reysi ilə uçan təyyarə yerə enir. Hamının gözü ona dikilir. Xüsusi bir maşının üstündə sinklənmiş tabut yaxınlıqda dayanan təyyarəyə tərəf yüyürür. Hava tutqundur. Hamı təyyarənin pilləkənləri yanında toplaşıb. Hamı həyəcan içindədir. Ancaq Turan xanımdan həyəcanlı, təlaşlı, kədərli adam görmürəm. Bu, təbiidir. Ancaq o, özünü dəyanətli, əsl kişi kimi aparır. Hər bir hərəkətini ölçüb-biçir, yaxşı başa düşür ki, dost var, düşmən var. Məzar sükutu var təyyarə limanında. Sərnişinlər adamlar toplaşan yerə baxırlar. Tabut təyyarədən bir neçə addımlıqdadı. Adamlar onun ətrafına toplaşıblar. Turan asta-asta yeriyir, sanki bu dəqiqə ayağı ayağına dolaşacaq, yer ayağının altından qaçacaq.

---

* Tamerlan Qarayevin müavin olduğu deputat komissiyasının son məlumatına görə, Yanvar hadisəsində 131 nəfər həlak olub, 4 nəfər itkin düşüb. 744 nəfər yaralanıb, 841 nəfər isə tutulub.

Yerişinə fikir verirəm. Bu yeriş Turan xanımın həmişəki yerişinə bənzəmir. Halı da həmişəki hal deyil. Onun yerişi xəstə, taqətsiz bir qadının yerişini xatırladır. Ağlamır Turan xanım. Ağlamayacaq da. O, evdə ürəyini boşaldacaq.

Ayağı-ayağına dolaşa-dolaşa tabuta yaxınlaşır. Ona yol verirlər. Tabutun yanında dayanır. Əlini ehmalca tabutun üstünə qoyur, elə qoyur ki, babasının ruhu inciməsin. O, bir müddət beləcə dayanır, babası ilə danışır, elə danışır ki, bunu heç kəs eşitmir. Turan xanımın sifətini qara buludlar örtmüşdü. Qəribə hisslər keçirir bu qadın, babası ilə keçirdiyi günlərimi xatırlayır bu qadın?.. Susur Turan xanım!

*Susmaq, o da dürlü fəryad!*

Olmuş bir əhvalatı xəyalında canlandırır Turan xanım:

«Bir dəfə Cavidgilin qonşuluğunda yaxşı bir adam rəhmətə getmişdi. Turan balaca qız idi onda. Babasını sorğu-suala tutur: Niyə həmişə yaxşı adamlar ölür?» Babası ona baxıb gülümsəyir: -«Ay şeytan, bəyəm biz pis adamıq – deyir?..»

Eh, xəyallar, xəyallar!.. Siz nə qədər şirinsiniz, şirin olduğunuz qədər də acısınız.

Təyyarə limanında Cavidin Bakıya gəlməsi münasibətilə mitinq keçirilir. Mitinqi Nazirlər Soveti sədrinin müavini Fikrət Əhmədov açır. Bakı təyyarə limanında indiyədək bu cür mitinq keçirilməmişdi. O, sözü akademik Məmmədcəfər Cəfərova verir. O, asta-asta, qorxa-qorxa danışır. Onu güclə eşitmək olur. Danışdıqca da qəribə bir baxışla o tərəf-bu tərəfə nəzər yetirir. Sanki dediklərinin kimə necə təsir elədiyini anlamaq istəyir. Söz Bəxtiyar Vahabzadəyə verilir: «Bu gün tarixi bir gündür...» O, çıxışına belə başlayır, Caviddən danışır. Şairin ilk sözü məni bərk tutur. Özüm-özümə deyirəm: Çox gözəl dedi. Görünür, şair şairin ürəyindəkiləri daha yaxşı duya bilir. Bu gün həqiqətən tarixi gün idi. Cavid Uzaq Şərqin buzlağından çıxarılıb doğma torpağında əbədi uyumağa gətirilmişdi.

Cavidin tabutu qoyulmuş təcili tibbi yardım maşını şəhərə istiqamət alır, Şirvanşahlar sarayına tələsir. Hamı öz aləmindədir. Turan xanım hamıdan düşüncəli görünürdü. Cavid qədim bir saraya tələsir. Burada doyunca nəfəs almaq istəyir. Bakının havasından doyunca udmaq istəyir. Şimalın şaxtası, yad məmləkətin soyuq torpağı onu cana doydurmuşdu. Şair vətənsizlik həsrətinə son qoymaq istəyir.

6

Cavid 1939-cu ilin sentyabrın iyirmi doqquzunda artıq Vladivostokda idi. Bakıdan çıxanı dörd ay idi yol gedirdi. «Daimi yaşayış» yerinə çatmamışdı. Dustağın daimi yaşayış yeri varmı? Hara göndərsələr, ora da getməlidir. Öldü. Qaldı. Bu, heç kəsi maraqlandırmır. Cavid Vladivostokdan dəniz yolu ilə Maqadana aparılmalıydı. O, bunu hələ bilmirdi. Bunu bütün yatab da bilmirdi. Onları Vladivostok dəniz limanına gətirdilər. Buralarda havalar soyuq keçirdi. Qışın düşməyinə iki aydan bir qədər çox qalırdı. Ancaq soyuq, cənubdan gələnlərə ağıllı-başlı təsir edirdi. Yatabı Vladivostok dəniz limanından gəmiyə doldurdular. Gəmidə adam adamın üstünə çıxırdı. Çoxları ac-susuz idi, döşəməyə sərilmişdi. Hamı taqətdən düşmüşdü. Taqətdən düşmüş dustaqlar danışmaq belə istəmirdilər. Hamı üşüdüyündən biri-birinə sığınmışdı. İnsanlar qoyun sürüsünə çevrilmişdi. Onlar bir-birini və özlərini nəfəsləri ilə qızdırırdılar. Dənizin rütubətli havası gəmiyə çökmüşdü. Ağır havadan insan boğulurdu. Məhbusların çoxu fikrə getmişdi. Kimi keçmişini xatırlayır, kimi gələcəyini düşünürdü. Kimi isə özünü Yapon, Oxot dənizinə atıb boğulmaq istəyirdi. Cavid üç nəfər barəsində fikirləşirdi. Geriyə dönmək ümidilə yaşayırdı. Gəmidə lal bir sükut var idi. Mişkinazın surəti onun gözləri önündə dayanmışdı. O da danışmırdı.

*Lakin belə sükuta*
*nə tabım var,*
*nə tavanım.*
*nə qərarım!*
*Elə bil ki, dil-dil ötür*

*hər hüceyrəmdə*
*göz-göz açılmış yaralarım.*
*Bir söz de!*
*heç olmasa*
*Məni məzəmmət elə!*
*Danla!*

Gəmi Yapon və Oxot dənizlərindən keçib Maqadana yol aldı. Gəmi çox yol getdi. Səbirlər tükənmişdi. Ancaq heç kimin etiraz etməyə haqqı yox idi. Əsəblərə tarım çəkilmişdi. Ancaq heç kəs bunu açıq büruzə vermirdi. Məhbus həyatının öz qayda-qanunları var, kim buna əməl etməsə, boğazı üzülər…

7

Cavid Maqadana çatdı. Xəstələnmişdi. Halı yox idi. Yol onu üzmüşdü. Çox narahat idi şair. Evə məktub yaza bilmirdi. Çünki daimi yeri məlum deyildi. Maqadanda qışın oğlan çağı idi. Şaxta qılınc tək kəsirdi. Şair özünü pis hiss edirdi. Səhhəti getdikcə pisləşirdi. Evdəkilər ondan məktub gözləyirdilər. Şair isə susurdu. Səbəbi evdəkilərə, o cümlədən bu sətirləri yazana dəqiq məlum deyil. Onun dördüncü məktubu yazmasından uzun bir vaxt keçirdi, düz səkkiz ay. Budur, «şair qələm və kağızı titrəyən əllərinə götürüb, yazmaq istəyir. Əli, barmaqları üşüdükcə ağzına təpir. Fikirlərini bir balaca kağıza köçürməyə heyi çatmır şairin.» Məktubu rus dilində bir rus məhbusa yazdırır. O deyir, məhbus bənövşəyi mürəkkəblə yazır. Məktubun aşağısında bir cümlə də yazdırdır. Sonra pozdurur. Elə pozdurur ki, evdəkilər oxuya bilməsinlər. Şair gördüklərini, bildiklərini, ağır günlərini kağıza köçürmək istəyir. Ancaq bacarmır…

*Şairin ürəyi söz üstə yanır*
*Ömrünü şeirə ver, şeirə qat deyir…*
*Bir dustaq dillənir qonşu barakdan*
*Cavid, «dincəl» deyir, Cavid, «yat» deyir.*

Cavid dincəlmək, yatmaq üçün dünyaya gəlməmişdi. Cavid əzab çəkmək, yazmaq, yaratmaq üçün doğulmuşdu. İndi bu hüququ onun əlindən alınmışdı…

8

O, növbəti məktubu diktə edirdi, məhbus yazırdı:

«Sevgili Mişkinaz! Mən yaxşı yaşayıram. 2 aydan sonra yüz manat pul göndərin. Əgər bağlama lazım olsa teleqrafla xəbər verərəm. Onda 2 kilo qənd, 1 kilo quru ev halvası, 1 kilo ərinmiş yağ, 1 kilo yağlı duzlu qovurma, 2 qutu qatılaşdırılmış süd, 20 ədəd maxorka, 2 f. ucuz tütün, 1 kilo sarımsaq, 1 kilo nanəli konfet göndərərsiniz. Hələlik heç bir şey lazım deyil. Turanı sizə tapşırıram. Qoy tibb institutunun uşaq xəstəlikləri fakültəsinə hazırlaşsın. Əgər zəifdirsə qoy 1 il dincəlsin. Sevimli Ərtoğrolum mən gəlincə sizə kömək edər. Mən Moskvaya şikayət məktubu yazmışam.»

Oxucu, həmin axırıncı cümlədən sonra yazılmış cümlə qaralanmışdır. Turan xanım da o cümləni oxumağa cəhd göstərmişdi, mən də cəhd göstərdim. Oxuya bilmədim. Sözləri çox qaralanmışdı. Nə yazılmışdı o cümlədə bilinmir. Məktubun ardını oxuyaq:

«Öpürəm sizi, yaxın adamlara salam. Hüseyn Cavid. Maqadan, 31 may 1940-cı il.»

Mənim ünvanım: DVK, q. Maqadan, poçtovoy əşik 261/5. Quseyn Djavid. Dlə teleqramm sokraşen. Maqadan, P/Ə 261/5, Quseyn Djavid.»

Diqqət edin, narahat şair hətta teleqramın qısaldılmış şəkildə mətnini də yazdırtdırıb ki, evdəkilərə asan olsun. Məktubdakı sözlərin bəzisi qısaldılmış formada yazılıb. Məsələn, «dom. suxaə xalva 1kq», «top. maslo 1 kq», «deşevıy tabak 2 f», «mətn.konf. 1 kq» və s. «Deşevıy tabak 2 f». «2 f» sözünü mən «2 futlyar» kimi oxuyuram, yəni iki qutu, iki qab ucuz tütün. «DVK» – dalnovostoçnıy kray «Uzaq Şərq dairəsi» deməkdir.

Cavid bütün məktublarının altından özü imza atdığı kimi, həmin məktubun altından da özü imza atıb. Mən həmin imzalara Turan Cavidlə bir yerdə baxdım, tutuşdurdum. O, təsdiq etdi ki, atasının imzalarıdır. İmzaların bəzisi səliqəli, bəzisi səliqəsizdi.

Yeni məktub evdəkilərə yeni sevinc bəxş edəcək, Mişkinaz fikirləşəcək ki, şükür Allaha Cavidim sağ-salamatdı. Ancaq daxilən böyük narahatlıq keçirəcək, halı pərişan olacaq, düşünəcək ki, gör bir kişini hara aparıb çıxarıblar, orada da insan yaşayar?

Cavidin sürgündə həyatı ağır keçirdi. Hər şeyə tamarzı idi. Doyunca yeyə bilmirdi, ürəyincə geyə bilmirdi. Verdikləri xörək nəydi? Dəni-düşü yox, bircə bulanıq suydu. Şairin könlünə bərk qovurma düşmüşdü. Bunu ona görə məktubda qeyd etmişdi. Evdə siqaret çəkən, ləzzətli xörəklər yeyən şair, indi maxorkaya, zəhərli tütünə, bir qarın çörəyə möhtac idi.

## 9

15-16 il Maqadanda məhbus həyatı yaşamış, Cavidlə görüşmüş Qasım Vahabzadənin yaddaş kitabından sətirlər:

«Cavid əfəndi haqqında ilk məlumatı mənə Vladivostokda dustaq düşərgəsində «Yeni yol» qəzetinin keçmiş redaktoru şair Ağahüseyn Rəsulzadə verdi. Nəhayət, mən Maqadan yaxınlığındakı «23-cü km» deyilən xəstə və əlil dustaqların düşərgəsinə düşdüm. Bu düşərgə çox böyük, həm də həyatdan, yaşamaqdan ümidini üzmüş xəstə və əlillərlə dolu idi. Bu düşərgədə mənə inşaatda işləyən bir özbək ziyalısı Cavid əfəndinin burada olduğunu dedi. Cavid əfəndini tapdım. Həyatımda ən acı və xatirimdən silinməz anlardan biri.

Qaranlıq bir barak narların üzərində (yatacaq yeri) heç bir döşənəcək yox. Cavid əfəndinin əynində teleqreyka (sırıqlı), sırıqlı şalvar, gözündə gözlük, əlində ağac, bir katilok*, bir də taxta qaşıqdan başqa heç bir şey yox idi. Cavid əfəndi məni – gənc bir azəri ziyalısını görərkən sevinirmi, kədərlənirmi, hansı hisslər keçirdiyini müəyyən edə bilmədim.

---

* Котелок – qazança, sürgundə (orduda) məhbusların (əsgərlərin) xörək qabı, xörək qazanı.

Mən onu bağrıma basıb, dəfələrlə öpdüm, ikimizin də gözü yaşardı, o məni oğlunu görər kimi oldu, hər ikimiz ağladıq. Artıq Cavid əfəndidə Cavidlik qalmamışdı. Bu, 1941-ci ilin yaz aylarında idi. O, çox zəifləmişdi, aclıq onu əldən salmışdı; işə gedə bilmirdi. Ona gündə 500 qram çörək, üç dəfə sup, bir dəfə günorta 250 qr kaşa verirdilər. Bu suplar bulanıq sudan ibarət idi. O, həyat haqqında belə bəzən mühakimə yürüdə bilmirdi. Hamı kimi o da yemək, qida haqqında düşünürdü. Aclığın canavar gözü hamının mənəviyyatana hakimlik edirdi. O, vətəni, ailəsini tez-tez yadına salırdı, az danışırdı, aclıq və soyuqdan şikayətlənirdi. Anamın tikib mənə göndərdiyi qolsuz canlığı ona geyindirdim, çox razı qalıb, dedi ki, nə qədər sobalar yanında durub qızınmaq istəmişəmsə, yenə canım qızmamış, ancaq əl ilə tikilmiş bu canlıq canımı isidər. Bir gün arabada düşərgəyə çörək gətirirdilər; at qoşulmuş araba darvazadan düşərgəyə daxil oldu, atın balası məftillə hörülmüş düşərgədən kənarda qaldı. Bir-birindən aralı düşmüş ana və bala çox təsirli səslə kişnəməyə başladılar. Bu səhnə Cavid əfəndini çox mütəəssir etdi. O, dedi ki, şüursuz, dilsiz heyvanlar ana baladan ayrı düşdüyü üçün necə də dəhşətli fəğan qoparırlar. Bəs bu günahsız, zavallı, ailəsini qeyb etmiş insanlar?.. Ömür vəfa etsə, bu mənzərəni yazacağam. Bunu da əlavə etdi ki, «İblis», «Peyğəmbər» yazmışam, imkan olsa «Allah» adında bir əsər yazıb, bu fəlakətləri göstərəcəyəm. Burada yazmaq imkanı qəti yox idi, nə kağız, nə də qələm tapmaq olmurdu. Əgər məktub yazmaq üçün az bir kağız tapılsa idi, bu, xoşbəxtlik hesab edilirdi. Mən ona əzbər bildiyim «Knyaz»dan, «İblis»dən, «Şeyx Sənan»dan parçalar oxuyurdum. Arifin ilk, İblisin və Knyazın son monoloqlarını mənə dəfələrlə təkrar etdirir; bu günləri görürmüş kimi təsəlli tapırdı. Mən ona xar tut yığdığımı söylədikdə yadına düşüb, məni tanıdı, həmin günləri xatırladı. Bir dəfə mən özümü bilməməzliyə qoyub, ondan İblisin həqiqətən olmasını soruşdum; o mənə dedi ki, sən İblisin son monoloquna yaxşı fikir verməlisən, bəs bu fəlakətləri törədənlər İblis deyilmi?!.»

Q.Vahabzadə vaxtilə Şüvəlanda dincələn, yaxın dost-tanışları ilə deyib-gülən Cavidə xar tut yığıb verməsinə işarə edir. O, sürgündən qabaq Cavidlə şəxsən tanış idi.

«Biz başqa-başqa baraklarda yaşayırdıq. Bir gecə məni qəflətən yatdığım yerdən qaldırıb təxminən 100 km şimala qızıl mədənlərinə göndərdilər; nə qədər çalışırdım, yalvardım ki, Cavid əfəndi ilə vidalaşım, qoymadılar. «Sanki vətən və ailədən ikinci dəfə ayrılırdım. Bu, 1941-ci il iyun ayının əvvəllərində idi. Bir daha Cavid əfəndini görə bilmədim...»*

10

Turanın on yeddi yaşı vardı. 1939-1940-cı tədris ili başa çatmaq üzrəydi. O, onuncu sinfi bitirirdi. Atası məktubda təsadüfən yazmamışdı ki, Turanı sizə tapşırıram. O, bu «şeytanı» çox istəyirdi. Fikirləşirdi ki, kaş evdə olaydım, Turancığımı təbrik edərdim, alnından öpərdim. Təəssüf ki, bu mümkün deyildi. Ona səkkiz il iş vermişdilər. O, üç ilini çəkmişdi. Beş ili hələ qabaqdaydı. Bu, Cavidə beş il yox, əlli il kimi görünürdü. Kim bilir, o vaxta qədər salamat qala biləcəkmi? Səhhəti getdikcə pisləşirdi. Gözləri işıqdan düşürdü. Ayağının altını soyuq aparmışdı. Sərt iqlim şəraiti şairin dərdinin üstünə dərd qoyurdu.

Turan atasının arzusunun əksinə getmədi. 1944-cü ildə Tibb İnstitutuna daxil oldu, müalicə fakültəsinə. Beş gün oxudu. Ancaq seçdiyi ixtisas onun ürəyincə deyildi. Buranı atmalı oldu. Vaxtilə atasının dərs dediyi teatr texnikumu indi genişlənib böyük bir tədris müəssisəsinə çevrilmişdi. Turanı bura özünə cəlb edirdi. O, 1945-ci ildə bura da qəbul oldu, teatrşünaslıq fakültəsinə. Atasının əlyazmaları, kitabları üzərində işə başladı. Onları səliqə-səhmana saldı, göz-bəbəyi kimi qoruyub saxladı. Ancaq institutu qurtardıqdan sonra çox əzab-əziyyətə düşdü, iş tapa bilmədi. Özü dediyi kimi, onu top kimi buradan ora, oradan bura vururdular. «Xalq düşməni»nin qızına kömək etmək istəmirdilər. Sağ

* Vahabzadənin yazısı Cavidin Bakıdakı ev muzeyində saxlanılır

olsun Cəfər Cəfərovu, Turan xanıma kömək elədi, işə düzəltdi. Tələsiyəndə «darıxma» dedi…

«Əgər zəifdirsə qoy 1 il dincəlsin». Cavid bu sözləri də təsadüfən yazmırdı. Qızcığazının qayğısına qalırdı, balasını bağrına basmaq istəyirdi, onun nazını çəkməyə hazır idi. Sevimli Ərtoğrol kişilikdə, mərdlikdə, vüqarda atasına oxşamışdı, ailənin ağırlığını öz üzərinə götürməyə hazırlaşırdı ki, əsgərliyə çağırdılar…

«Mən Moskvaya şikayət məktubu yazmışam».

Şair Moskvaya nə yazmışdı? Stalinə yazmışdı? Nə xahiş edirdi? Suallar, suallar… Dəqiq heç kəs bilmir şair Moskvaya nə yazıb. İndi hardadır həmin məktub? Heç kəs bilmir. Bəlkə də arxivlərin künc-bucağında yatıb qalır? Bəlkə də gələcəkdə üzə çıxacaq? Bəlkələr, bəlkələr!.. Gümanlar, gümanlar!.. Fərziyyələr, fərziyyələr!.. Ehtimallar!.. Görəsən sizi ard-arda düzsələr hara gedib çıxarsınız?.. Hər halda şair belə yazmış olardı ki, mənim heç bir günahım yoxdur, mənim tutulmağımda bir anlaşılmazlıq var, Stalin yoldaş, xahiş edirəm mənim məsələmə yenidən baxılsın… Kim bilir, bəlkə həmin məktub heç ünvanına gedib çıxmayıb? Nə yaxşı ki, Beriyanın əlinə düşməyib…

11

## Elçibəylə müsahibə

**Sual:** Mayın 28-də Milli bayrağımızın qaldırılması, milli simvolumuzun bərpa olunması realdırmı?

**Cavab:** Bəli, MK-da belə bir söhbət gedibdir. Biz də qabaqcadan yazıb vermişik ki, 28 aprel bayram kimi keçirilməsin, 1 may keçirilməsin. MK da razılaşıb. Deyəsən, keçirməyəcək və 28 May haqqında bir də iclas çağıracaqlar ki, o rəmzləri bərpa etsinlər. Belə bir fikir var, dövlət səviyyəsində. Bəli, bərpa edilməsi nəzərə alınır.

Sonra bir məlumatı da verim. Nihat Çətinqaya mənə zəng etmişdi Türkiyədən. Zəng edir, danışırıq, tez də kəsirlər. Yarısını heç olmasa

deyir, 3 gündən sonra düzəldirik telefonu, bir də zəng edir, yenə də kəsirlər. Bu hökumət yaman kəsir telefonu. Nə isə... O dedi ki, onu, Xəlil Açıqgözü, bir də Turan Yazqanı çağırırlar Türkiyədəki rus səfirliyinə, Çernışov (rus səfiri) onlara deyib ki, bəs siz 28 mayda Böyük Azərbaycan Konqresi, mədəni məclis keçirmək istəyirsiniz, bu nə deməkdir? Onlar deyiblər ki, hə, keçiririk. Səfir soruşub ki, bu ona görə mümkün deyil ki, həmin gün Müsavatın yaradılması günüdür. O da deyib ki, yox, ay kişi, bizim elə bir fikrimiz yoxdur; siz qorxub-eləməyin. Səfir yenə soruşub ki, niyə axı 28-nə salıbsınız? Çətinqaya deyib ki, tələbələr o zaman tətilə buraxılır, ona görə də o günə salmışıq... Təbii olaraq odur, amma mən keçən səfər də məlumat verdim, sentyabrın axırı – oktyabrın əvvəlində Türkiyədə böyük, daha böyük milli Azərbaycan konqresi olacaq, orada Azərbaycanın 20 Yanvar hadisələrinə qiymət veriləcək. BMT-dən də nümayəndə olacaq, AXC-dən də orada 10-15 nəfər nümayəndə iştirak edəcək. Çalışacaq ki, başqa partiyalardan da nümayəndələr dəvət etsinlər.

**Sual:** Mütəllibov televiziyadakı çıxışında qeyd etdi ki, qırğının günahkarı Xalq Cəbhəsidir.

**Cavab:** Bu, Mütəllibovun fikri deyil. Yazov deyib ki, mən dağıdacam Xalq Cəbhəsini. Qorbaçov da deyib ki, yox, dağıtma, qoy hələ qalsın. Deyib: bu, orada faşist partiyasıdır. Deyib: faşist-zad deyil, amma içərilərində millətçilər var. Deyib: demokratlar da var? Deyib: bəli, var. Demokratik fikirliləri də çoxdur. Deyib: onda demokratik fikirlilər o millətçiləri, radikalları təmizləsinlər, sonra onlarla danışığa girərsiniz.

İki dəfə bunu Moskvada büroya qoyublar – Xalq Cəbhəsinin məsələsini. İndi A.Mütəllibov da deyir ki, mənə belə deyiblər. İndi o da gözləyir ki, biz təmizlənək. Özü də deyir ki, biz də təmizlənəcəyik. Partiya da təmizlənib qurtarıb, heç danışmağa ehtiyac da olmayacaq. Bunları partiyanın taleyi düşündürür. Doğrudan da bu, maraqlı şeydir.

Bu Qorbaçov da bircə şeyi başa düşmür ki, talonla yuxarıdan verilən demokratiya ilə xalqı aldatmaq olmaz. Azərbaycan Xalq hərəkatı tamam başqa hərakatdır. Avorpada Azərbaycan Xalq hərəkatına bu saat

yuxarı qiymət verirlər, Çexoslavakiyanın prezidentindən tutmuş senatorlara qədər öyrənirlər ki, bu nə fenomendir, bu niyə belədir? Göstərirlər ki, nə Litvanın hərəkatına oxşayır, nə də Latviyanın. Başa düşürlər ki, Latviyada, Litvada, başqasında yuxarıdan, Qorbaçovun icazəsi ilə verilən səviyyədə islahatlardır, yəni demokratik islahatlar. Amma Azərbaycanda demokratik Xalq hərəkatıdır. Bu, tamam başqa şeydir. Yeganə olaraq Xalq hərəkatıdır Sovet İttifaqında. Bu hərəkat gedir, hələ gedəcək də. Bilmirlər ki, bunun axırı nə ilə qurtaracaqdır. Ona görə o başqa şeydir, bu başqa. Qorbaçov da deyir ki, yox, xalq hərəkatı olmaz, başqa cürdür.

**Sual:** Nemət haqqında belə şayiələr gəzir ki, guya, yanvar hadisələrinin əsl günahkarı odur. Bu haqda sizin fikriniz?

**Cavab:** Mən neçə yerdə demişəm, indi də deyirəm: bu hərəkat o qədər böyükdür ki, burada 1-2 nəfər heç bir şey edə bilməz. Generallar, marşallar bir şey edə bilmədilər burada, Nemət kimdir? Xalq hərəkatıdır bu, qardaş. Həmin mitinqlə sual verirlər sizə: Əbülfəz ilə Etibar adam göndərib, özləri də gedib deyib ki, çıxın gedin. Üstündən iki saat keçəndən sonra Nemət gəlib deyib ki, getməyin. Yaxşı, mən gəlib demişdim «çıxıb gedin», niyə getməmişdiniz? Gözəlmisiniz iki saat. Niyə? Nə məcbur olub ki, mənə qulaq asmırsan, Etibara qulaq asmırsan, iki saat gözləyirsən ki, görəsən Nemət gəlib mənə nə deyəcək. Getmir də. Çağırırsan, deyirsən belə, aparırsan o tərəfə, qaçır gəlir tankın yanına. Məsələni elə yerə gətirib çıxarmışıq, yəni yuxarının təzyiqi ilə beynimizi şikəst ediblər. İstəyirik fikirləşək ki, ya Nemətdir, ya Həsəndir, ya Etibardır təqsirkar. Ay canım, bu imperiya gəldi üstümüzə, nə dəxli var? İndi istəyirik deyək ki, şəhid olanlarımız aldanmış bədbəxtlərdir. Tankın üstünə gedir iki əlində butulka, cumub tankın üstünə atıbdır, yandırıbdır, özü də öldürülübdür. Nə deyirsiniz buna? Gedib görüb ki, atışmadır, gedib tüfəngini evindən götürüb, gəlib əsgəri vurub. Vurub, onu da vurublar. Nə deyirsən? Siz deyirsiniz yəni… İndi buna Etibar nə etsin, Nemət nə etsin, sən nə edəsən? Oğuldur, vətəni belə görür, cumur. İndi biz istəyirik

həmin adamları ki, canlarını xalqın yolunda fəda ediblər, eləyək «aldanmışlar», «yoldan çıxarılmışlar», nə bilim nə…

**Sual:** Xəlil Rzadan niyə danışmırsınız?

**Cavab:** Xəlil Rza yoldaşı ilə görüşüb, deyib ki, dəmir kimi girmişəm, polad kimi çıxacam buradan. Xəlil Rza Azərbaycan Xalq hərəkatında çox böyük şəxsiyyətdir. O, millətin oyanmasında çox böyük işlər görübdür. Sadəcə olaraq, elə bir vaxt var idi ki, təbii olaraq, misal üçün, MK işçilərinə onda demək olmurdu (indi demək olur, axı o dəqiqə deyərdilər ki, hökumət işçisinə şər atırlar), o «boşqab dibi yalayanlar» deməklə bütün fikirləri dəyişdirdi – yəni mən qorxuram. Sözünü deyirdi, millətin üstündən də qorxu gedirdi. Mən Xəlil Rza ilə çox olmuşam kəndlərdə, rayonlarda. O, çıxış edən kimi camaatın üstündən qorxu gedirdi.

Nə isə… Xəlil də açıq adamdır, mübariz adamdır. Xəlil siyasi adam deyil. Şarlik, hiss duyumu o qədər güclüdür ki, imkan vermir tam siyasi tarazlığa apara. Birdən coşur belə, neçə dəfə biz MK-da olmuşuq, oturub yazır, yazır, dinib-eləmir. Birdən başlayır: iki ildir genosid hücum elədi, nə bilim, faşizm belə oldu, Rusiya belədir… Darmadağın eləyir qoyur. Katiblər deyir ki, Xəlil, sən Allah dayan. Xəlil, dayan görək bu ikinci genosid nə oldu? Dayanmaq-zad yoxdur. Bir sözlə, çox güclü adamdır, vətənpərvərdir.

**Sual:** Deyirlər ki, Nemət Qazaxa gedib. Orada Milli Müdafiə Komitəsi yaradıb. Onlar rus ordusunun oradan çıxarılmasını tələb ediblər. Əgər bu haqda məlumatınız varsa, xahiş edirik məlumat verəsiniz.

**Cavab:** Hamısı yalandır. Bilirsiniz, Neməti vurmaq üçün DTK və milis sistemi güclü surətdə altdan işləyirlər. Bu, yenə də məqsədyönlüdür. Tək Nemət məsələsi deyil. Sadəcə olaraq, nöqsanları AXC-nin üstünə atmaqdır məqsədləri. Necə edək ki, birini ilişdirək, o birinin üstünə qoya-qoya nöqsanları yıxsınlar Xalq Cəbhəsinin üstünə və Azərbaycan xalqının özündə olsun günah. Vəssalam! Bütün bu oyunların başı oradadır. Zabitlər evində silah nümayiş etdirirlər – tutulan silahları. Orada (mən

görməmişəm) deyirlər, tabaşirlə ortada bir dairə çəkiblər, mənim adımı yazıblar. Sonra xətlər çəkiblər, yazıblar «Nemət». Guya burada hərbi şura imiş. Hərbi şuranın məqsədləri nə bilim, filan-filandır. Gələnlərə göstərirlər ki, bu silahlar, nə bilim, Lənkərandan tutulub, hamısı budu və hamıya elə təbliğat aparırlar. Məqsəd aydındır, tamamilə aydındır ki, bu hərbi-şura qurma olan şeydir…

**Sual:** Əgər ayın 19-u [1990-cu ildə] camaat dağılsaydı bura gələn ordu Xalq Cəbhəsinə qarşı terrora başlayırdımı?

**Cavab:** Təbii, hökmən, hökmən! Mən yenə deyirəm, keçən dəfə də dedim: Qırmızı əsgər meydanında, Salyan kazarmasının ətrafında piketlər düzəldilib – orada 23 nəfər ölüb. Cəmi 23 nəfər piyktlərdə ölüb, qalanları hamısı şəhərdə. Giriblər evlərə, güllələyiblər… Bu ordunu siz tanımırsınız ki? Qazaxıstanda elə elədi, hər yerdə elə edir.

**Sual:** Orta məktəblərdə yeni Azad Gənclər Təşkilatı yaranmışdır. Sizcə, bu, məqsədəuyğundurmu?

**Cavab:** Bəli, lazımdır, məqsədəuyğundur. Orta məktəblərdə 8, 9 və 10-cu siniflər üçün yaranmalıdır gənclərin təşkilatı.

**Sual:** Sizdən çox xahiş edirəm ki, Ağstafada keçirilmiş AXC Məclisi haqqında məlumat verəsiniz. Bu haqda çoxlu şayiələr gəzir burada, guya cəbhədaxili parçalanma gedir. Bəlkə bu məclis heç keçirilməyib?

**Cavab:** Yox, Məclis olubdur. Təbii olaraq, orada yeni proqram təqdim edirik ki, qurultayda proqramımızı dəyişdirək. Namizəddən birində göstərilir ki, sədr olmasın, digərində sədr nəzərdə tutulur, ona müəyyən səlahiyyətlər verilir. Mayın 28-ə kimi hazırlanacaq, həmin gün yeni Məclis olacaqdır. Hansı məqsədəuyğun olsa, o da qurultaya təqdim olunacaq.

**Sual:** Şayiələr gəzir ki, aprelin 24-də nə isə olacaq.

**Cavab:** Bu, ermənilərin qorxutmasıdır. Hay-küyüdür…

## 12

**12 oktyabr 1982.** Naxçıvan Vilayət Partiya Komitəsinin bürosu belə bir qərar çıxarır: «Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid Rəsizadənin [Rasizədənin] məzarı tapılıb vətənə gətirilsin…»

Günlər, aylar, illər ötdükcə bu qərarın əhəmiyyəti daha da artacaq, mahiyyəti daha yaxşı dərk ediləcək. Üç eloğlumuzun, üç naxçıvanlı igidin adı tarixə düşəcək: Həmid Cəfərov, Zakir Nəsirov, Telman Əliyev. Həmid böyük əzab-əziyyətdən sonra, yazışmalardan sonra istədiyinə nail olacaq. Hələlik axtarışlar gedir, daxildə şübhələr, tərəddüdlər, suallar baş qaldırır: «Tapa biləcəyikmi? Uzaq səfərimiz necə başa çatacaq? Sibirdən üzüağ, yoxsa üzüqara qayıdacağıq? Yox, yox! Tapmalıyıq, biz o insanı tapmalıyıq! Öldü var, döndü yoxdur!..»

Səfərə çıxanlara kimsə demişdi: cavidi 1941-ci ilin mayında Maqadanda görüb. Kim idi o adam? Ancaq onun sözü Cavidin göndərdiyi məktubdakı tarixlə düz gəlir. Onun göndərdiyi məktub təsdiq edir ki, o, qırx birinci ilin may ayında Maqadanda olub. Məsələni dəqiqləşdirmək üçün Maqadan daxili işlər şöbəsinə məktub yazılır. Oradan cavab gəlir ki, Hüseyn Cavid Rasizadə 1941-ci ilin sentyabrın 28-də Maqadandan İrkutsk vilayətinə göndərilib. Nə üçün? Səbəb nəyidi? Dəqiq məlum deyil. Fəqət bu haqda yozmalarımız olacaq.

Üç eloğlumuz bu məktubda işıq ucu görür. Məktub onların inamını artırır. İrkutsk vilayət daxili işlər şöbəsinə məktub yazılır. İrkutskdən Naxçıvana iri bir qovluq göndərilir. Onun üzərində belə yazılmışdı: «İş№ 13133. Hüseyn Cavidlə bağlı sənədlər buradadır». Orada göstərilirdi ki, Cavid Maqadandan İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndindəki əlillər evinə göndərilmişdir.

Üç eloğlunu – Həmidi, Zakiri, Telmanı ağır səfər gözləyirdi. Onlar məsuliyyətli, tarixi bir işə girişmişdilər. Şairin məzarının tapılmamasına şübhə edənlər də var idi. Turan xanımın bu işdən xəbəri yox idi. Heç o üç nəfər Turan xanımı da tanımırdı. Sonra Həmid bu sözləri yazacaq: «Səfərə çıxanlardan biri də mən idim. Sevinirdimmi? Bəli.

Qorxurdummu? Yenə də bəli… Zakir, Fransaya sonra da gündə bilərsən. Gedək Sibirə. Cavidin məzarını gətirək… Zakir tərəddüdsüz dedi: «Mənim gözlərim üstə. Cavidin oğlu qalmayıb. Biz onun oğulları. Mən hazır».

Cavidin oğlu qalmamışdı, ancaq Mərkəzi Komitə vardı, dövlət vardı, hökumət vardı, yazıçılar təşkilatı vardı… Cavid bir-iki nəfərin yox, bir xalqın böyük oğlu idi. Onun məzarının tapılıb vətənə köçürülməsi isə dövlət əhəmiyyətli məsələydi. Bu, nə Ərtoğrolun işiydi, nə də Turanın. Siz sağ olun, dostlar, böyük bir tarixi iş görmüsünüz. Tarix sizin bu xeyirxah işinizi unutmaz!

Həmidin başına qəribə fikirlər gəlirdi. O, özünü unutmuşdu, fikri-zikri Cavidləydi: «Ya qəbiri tapıb gətirməliyəm, ya da o sonsuz çöllərdə itib-batmalıyam, Cavid kimi! İkinci bir yol yoxdur!» Eloğlularımız işə inamla girişdilər. 1982-ci il oktyabrın 14-də Yerevan təyyarə meydanından Moskvaya uçdular. Belə qərara aldılar ki, qayıdanda Moskvadan Yerevana, oradan da Naxçıvana gəlməliyik. Cavid Naxçıvan torpağında əbədi uyumalıdır.

13

**15 oktyabr 1982-ci il.** Üç eloğlu İrkutsk şəhərinə uçan 127 nömrəli təyyarə reysinə bilet alırlar. Başladıqları işin məsuliyyəti, ağırlığı onları bir an belə rahat buraxmır, bir dağ kimi çiyinlərinə çöküb. Lütfiyar imanov, Yusif Hüseynov eloğlularına ürək-dirək verir, uğurlu yol arzulayır, Uzaq Sibirdən «əlidolu» qayıtmağı diləyirlər. Eloğlular özlərində bir yüngüllük hiss edirlər. Elə bil ki, ağır bir dağı onların üstündən itələyib salırlar. Bu yüngüllük o qədər də çəkmir. Yenə hərə öz aləminə qapılır. Yenə hərə öz dünyasilə məşğuldu. Həmin dünyada isə fırtınalar qopur, şimşəklər çaxır. Xəyallar Sibiri qarış-qarış gəzir.

Təyyarə İrkutsk şəhərinə gecə çatır. Üç nəfər təyyarədən düşür. Onların ayağı ilk dəfədir ki, Sibir torpağına dəyir. Torpaq, torpaqdı. Ancaq Sibir torpağı Naxçıvan torpağına bənzəmir. Naxçıvanın hərarəti

burada yoxdur. Üç eloğlunu təyyarə meydanında polkovnik Kuznetsov qarşılayır, mehmanxanaya aparır. Səhər İrkuts vilayət partiya komitəsində söhbət Caviddən, Cavidin taleyindən gedir. Eloğluların yana-yana danışması partiya işçilərini də yandırır, mütəəssir edir. Partiya işçilərindən kimsə dillənir:

- İndiyə qədər hələ heç kim belə bir məqsədlə Sibirə gəlməyib.

Mən düşünürəm: Cavid həmişə ədəbiyyatda, sənətdə birinci olub. Burada da birincidir. Rəhmətlik birinciliyi burada da əldən vermək istəmir. Yadıma sevimli şairimiz Mikayıl Müşfiqin 1937-ci il iyunun 5-də aparılmış istintaq prosesində protokola yazılmış sözləri düşür:

- Əksinqilabçılardan kimləri tanıyırsınız?

- Heç kəsi.

- Düz demirsiniz! Bəs Hüseyn Cavid! Onu tanıyırsınızmı?

- Tanıyıram.

- Siz onunla görüşlərinizdə hansı əksinqilabi-millətçi söhbətləri aparırdınız?

- Heç bir belə söhbət aparmamışıq…

Özüm-özümə deyirəm: «Sağ ol, Müşfiq, əsl kişisən, əsl qeyrətli vətəndaşsan, namuslu insansan. Cavidin qəbrini axtarırlar, sənin isə qəbrinin izi-tozu yoxdur. Çox təəssüf! Sənin qəbrin qalsaydı, heç olmazsa, xalqına bir təsəlli olardı».

## 14

İrkutsk Vilayət partiya komitəsinin katibi Antipin üç cənublunun xahişinə diqqətlə yanaşır:

- Mənim sizə köməyim nədən ibarət olacaq?

Həmid Cəfərov deyir:

- Biz Tayşet rayonunun Şevçenko kəndinə getməli, oradakı əlillər xəstəxanasında işləmiş adamlarla görüşməliyik. Tibbi eksperti və kriminalisti də bu işə qoşmaq lazımdır.

- Nə kömək lazımdırsa, edəcəyik. Vilayət daxili işlər şöbəsinin rəisi Lütsenko işə rəhbərlik edəcəkdi.

Budur üç cənublu, üç eloğlumuz rəisin kabinetində oturub. Həmid soruşur:

- Sizin idarədə o vaxt Şevçenkoda işləyən veteranlardan varmı?

Rəis dəstəyi qaldırır. Telefonla danışır. Bir az sonra xoş xəbər eşidilir:

- Var. Rafael Qriqoriyeviç Medvedyev.

Üç yoldaş Rafael Qriqoriyeviçlə görüşür. Məlum olur ki, o, qafqazlıdır. Onlar ürəklərində fikirləşirlər: «Nə yaxşı oldu». Qoca rus kişisi deyir ki, valideynləri Qars şəhərində yaşayıb. Özü ixtisasca həkimdir. Tayşetdə həkim işləyib. Şevçenko kəndi ilə əlaqəsi olub. Üç cənublunu səmimiyyətlə dinləyən qoca həkim onların niyyətini biləndən sonra deyir:

- Amma ilin bu vaxtında Şevçenko kəndinə getmək çox çətindi.

- Çətinlik bizi qorxutmur. Necə olursa olsun getməliyik. Vladimir Vasilyeviç Ostaşenko daxili işlər idarəsində ekspertiza və kriminalistika şöbəsinin rəisidir. O da bizim dəstəyə qoşulmağa razıdır, - deyə cənublular bildirirlər.

Onlara bir nəfər də fotoqraf verirlər.

**18 oktyabr 1982-ci il.** Eloğlularımız iki-üç gündür ki, İrkutskdədir. Artıq bütün məsələlər həll edilmişdir.

15

**R S F S R**

**İrkutsk Vilayət Səhiyyə Şöbəsi**

**Tayşet rayon sanepidstansiyası**

Tayşet ş. Puşkin küç.28

Tel.40-76

Çıx.№ 142.10 «22» oktyabr 1982-ci il

## İ C A Z Ə

Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Cəfərov Həmid Qara oğluna verilir ki, o, İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndindəki məzarıstan indiki 59 nömrəli qəbirdən 7 dekabr 1941-ci ildə basdırılmış və qeyri-yoluxucu xəstəlikdən ölməmiş Böyük Azərbaycan Şair-Dramaturqu Hüseyn Cavidin (Rasizadənin) cənazəsinin qalıqlarını aparsın.

Cənazənin qalıqları sinklənmiş metal tabuta qoyulsun, lehimlənsin, taxta tabuta qoyulsun, metal tabutun döşəməsinə ağac yonqarı tökülsün. Cənazənin qalıqlarının bu şəkildə başqa yerə, onun vətəni Naxçıvan ş. dəmiryolu, təyyarə və nəqliyyatın başqa vasitələri ilə aparılıb basdırılmasına icazə verilir.

**Tayşet rayon Baş Dövlət sanitar həkimi : imza A.V.Yemelyançik**

16

## Tayşet rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi

## S Ə R Ə N C A M

21.10.82 №141
Tayşet ş.

Azərbaycanın görkəmli şair-dramaturqu Hüseyn Cavidin (Rasizadənin) cənazəsinin qalıqlarının aparılmasına razılıq haqqında

Azərbaycan KP Naxçıvan vilayət partiya komitəsinin 1982-ci il 12 oktyabr tarixli qərarına (protokol №40, §13) əsasən Azərbaycan KP Naxçıvan vilayət partiya komitəsinin katibi Cəfərov Həmid Qara oğluna İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndindəki məzarıstandakı

59 №-li qəbirdən Azərbaycanın görkəmli şair-dramaturqu Hüseyn Cavidin (Rasizadənin) cənazəsinin qalıqlarının onun vətəni Naxçıvan şəhərinə aparılmasına və orada dəfn edilməsinə icazə verilsin.

**Tayşet rayicrakomunun sədri imza V.A.Smirnov**

17

**21 oktyabr 1982-ci il.** Bu gün üç dost günortadan sonra üzü küləyə, çovğuna doğru yola düşəcəkdir. Hələ vaxta var. Üçü də Baykal gölünün sahilinə gəlir. Gölün gözəlliyinə heyran qalırlar. Onun göz yaşı kimi təmiz, dupduru, buz kimi suyundan içirlər.

Onlar dəmiryolu vağzalına gəldilər. İrkutsk dəmiryol daxili işlər şöbəsinin rəisi onların məqsədini biləndə həyəcanlandı, cənublulara qəribə bir sürpriz düzəltdi. Tayşetədək öz vaqonunu onların ixtiyarına verdi. Vaqonda hər cür şərait var idi, hətta televizor da. Naxçıvanlılar sevindilər, düşündülər: «Əgər cənazəni tapsaq, bu vaqonda aparırıq, rahat olar, Cavidin ruhu da inciməz».

Telman Naxçıvana zəng vurdu. Xəstə bacısının səhhətilə maraqlandı. Acı bir xəbər aldı: «Bacısı ölmüşdü».

Üç dostun, üç yoldaşın, üç həmyerlinin kefi pozuldu. Həmid düşündü: «Gör bir harada axşamladıq? Zalım fələk gör bir başımıza harada iş açdı? Telman ailənin böyüyüdür, ata əvəzidir…»

Üç həmyerli bir-birinə sığındı. Həmid və Zakir Telmana baş sağlığı verdilər. Onu Naxçıvana yola salmaq üçün çamadanını hazırladılar. Mehmanxanadan çıxdılar. Əsəblər gərginləşmişdi. Hərə özünü bir cür hiss edirdi. İki nəfər özü-özünə fikirləşdi ki, onu yola salarıq, gedərik Cavidin dalınca. Cavidin də ki, hər işi daşdan çıxırdı, əzab-əziyyətlə başa gəlirdi. Anası onu hansı gündə doğmuşdu? Tanrı ilə İblisin öpüşdüyü gündəmi? İblislə Tanrının çəkişdiyi gündəmi?..

İnsan çətin ayaqda tanınır. Telman həyatında ən çətin məqamları yaşayırdı. Bacısı dünyadan köçmüşdü. Qardaşa bacıdan şirin nə ola bilər?

O, daxilində özü-özü ilə müharibə aparırdı. Odla su arasında qalmışdı. Birdən çamadanı yerə qoydu və dedi:

- Düzü, bacımı itirmişəm. Bu, ağır itkidi. Amma mən buradan heç yana getməyəcəm. Sizi tək qoyub gedə bilmərəm. Biz Cavidi bir yerdə axtarmalıyıq.

Üç dost, üç yoldaş, üç həmyerli biri-birilə qucaqlaşdı, bir qadına Sibir torpağında yas tutdu. Naxçıvanda isə yas məclisini Telmansız da yola verdilər. Ölünü el adətiylə ağır-əziz son mənzilə yola saldılar. Telmanı soruşanlara dedilər: «Gedib Cavidin qəbrini tapıb Naxçıvana gətirsin».

Dünyanın işinə bir bax! Bir nəfəri məmləkətin o başında dəfn edirdilər, bir cənazəni qəbirdən çıxarıb vətənə aparırdılar…

18

Dostlar qatara axşam minirlər. Heç birinin kefi yoxdur. Adət var, bu adəti pozmaqmı olar? Telmanın bacısı ölüb. Onlara deyib-gülmək yaraşmaz. Bir də irəlidə onları ağır, çətin bir iş gözləyir – Cavidi axtarıb tapmaq. Cavidin ruhu artıq bunu hiss etmişdi. Çoxdan hiss etmişdi üç nəfər eloğlusu onun dalınca gəlir. Gəlirlər ki, onu çıxarıb vətənə aparsınlar. Şairin ruhu şad idi. Şad idi ki, vətənə gedəcək. Şad idi ki, neçə illərdi Sibirdə üşüyürdü, indi qızınmağa aparılacaq. Mişkinazını, Ərtoğrolunu, Turanını görəcək. Ancaq şair yanılırdı. Mişkinaz, Ərtoğrol çoxdan dünyadan köçüblər. Onun yolunu gözləyən bir nəfər varsa, o da Turandır. Bilmirdi ki, oğlu dünyadan nakam köçüb, heç evlənməyib də. Bilmirdi ki, Turan ərə getməyib. Yox, yox, oxucu, bilirdi! Çünki bir zamanlar ona əyan olmuşdu ki, Ərtoğrol vərəmdən öləcək, Turan sonsuz qalacaq. Ancaq o zamandan çox keçmişdi. Sərt Sibir mühiti ona çox şeyi unutdurmuşdu. həmin acı həqiqətdən xəbəri yox idi şairin. Vaxt gələcək, onun soyundan heç kim qalmayacaq bu dünyada, heç kim! Əsərlərindən savayı.

Turan xanımın yanında oturmuşam. Ordan-burdan söhbət edirik. Dünyadan da, taleyindən də razıdı da, narazıdı da. Həyat belədir, bu da həyatın ziddiyyətidir, təzadıdır. Deyəsən, cümə axşamıdır. O, deyir:

- Yaxın qohumumuz rəhmətə gedib, gərək gedim baş sağlığı verim.

O, hazırlaşır. Asta-asta, tələsmədən. Ora-bura baxır. Telefonu xətdən ayırıb, katibənin telefonuna birləşdirir. Pəncərəni örtür.

- Telefon katibəyə lazım olar; pəncərəni örtüm, birdən külək qalxar pəncərənin şüşələrini sındırar.

Kimsə nəyisə dəqiqləşdirmək üçün Turan xanıma müraciət edir. O, aydınlaşdırır. Əski ərəb əlifbasında yazılmış materialları özü oxuyur. Əski hərfləri görən kimi atası yadına düşür. Axı, həmin əlifbanı atası ona öyrətmişdi. Səhhətindən gileylənir. Necə də gileylənməyəsən? Deyir:

- Gözlərim ağrıyır, çox oxuya bilmirəm.

Yadıma düşür: «Axı mən xatirələri oxumaq üçün ona vermişdim. Gərək verməyəydim, gərək özüm ona oxuyardım».

Gözlərindən gileylənir, deyir ki, gözlərimin qarşısında nöqtə boyda qara şeylər rəqs edir. Deyir:

- İşdə yoruluram, İsgəndər, bərk yoruluram. Kaş ora tez açılaydı, baş götürüb qaçardım.

Bu sözün oxucular üçün şərhinə ehtiyac var. «Ora» deyəndə Turan xanım atasının ev-muzeyini nəzərdə tuturdu. O, yuxusuzluqdan gileylənir. Deyir:

- Elə gecələr olur ki, yata bilmirəm. Səhərə qədər oyaq qalıram.

Mən özüm-özümə fikirləşirəm: «Necə də oyaq qalmayasan, atanın muzeyinin açılması sənə dinclik verir ki, rahat yatasan?..» Ancaq bu sözləri ona aşkar deyirəm:

- Qoruyun özünüzü, Turan xanım, qoruyun, siz hələ bizə lazımsınız, siz hələ atanızın muzeyində işləməlisiniz.

O: - Eh!.. O günü görə biləcəyəmmi?

Ona ürək-dirək verirəm. Ancaq hiss edirəm ki, gözü gördüklərindən qorxur, çox şeyə inamını itirib. Deyir ki, dişimi düzəltməliyəm, yonulmasından qorxuram. Hələ heç bir şey yoxdu ətim ürpəşir.

Turan xanım bugünkü, sabahkı qayğılarilə yaşayır; pis, yaxşı. Turan xanım beləcə ömür sürür; pis, yaxşı. Atasının kitablarını tərtib edir, çapa hazırlayır. Atasının şəxsi arxivini qaydaya salır…

19

**22 mart 1988-ci il.** Çərşənbə axşamı. Gündəliyimdə yazdıqlarımı olduğu kimi bura köçürürəm: «İşdən sonra Turan –xanımgilə getdim. Bahar bayramını təbrik etdim. Cavid haqqında hazırladığım kitablar haqqında danışdım. Cavid haqqında salnamə kitabı üçün şəkillər istədim. Dedi ki, o, asan məsələdi, gələrsən bir yerdə oturub rahatca hər şeyi həll edərik. Cavidin atası və anasının anadanolma və ölmə tarixini soruşdum. Bilmədi. Dedim: əmisi, dayısı, xalası, bibisi var idi. Bilmədi. Azərbaycan televiziyası ilə «Zita və Gita» hind bədii filmi verilirdi. Birinci hissəsinə Turan xanımgildə baxdım. O, hadisələri çox həssaslıqla izləyirdi. Haqsız hərəkətlər görəndə dözmürdü, ona dərhal öz münasibətini bildirirdi, yeri gələndə qəzəblənirdi. Xüsusilə Zitanın əmisinə bərk acığı tuturdu. Mən sanki yanımda Cavidi görürdüm, onun incə və həssas qəlbini duyurdum».

**11 may 1988-ci il.** Gündəliyimdən: «Turan xanımla telefonla 5-10 dəqiqə danışdım. Səsi dərindən, zəif gəlirdi. Dedi ki, çox əsəbləşirəm, neçə gündü ürəyim ağrıyır, gecələr yata bilmirəm…»

20

O, artıq hüzr yerinə getməyə hazır idi. Teatr muzeyinin pilləkənlərindən aşağı düşdük. Dedi ki, mən avtobusa Azərnəşrin yanından minməliyəm. Dedim ki, nə xoş təsadüf, mənim də yolum oradandır. Yenidən qurulmaqda olan Nizami bağının yanına çatdıq. Pilləkənləri qalxdıq. Birdən Turan xanım ayaq saxladı. Mənə elə gəldi ki, nəfəsini

dərmək istəyir. Ancaq bu, nəfəsdərməyə oxşamırdı. Mən ona baxaraq ayaq saxladım. O, bir oturacağa tərəf baxıb, dedi:

- Burada o qədər oturmuşuq ki, o qədər söhbət etmişik ki…

«Oturmuşuq». Kiminlə? Dayısı Abuzər, əmisi oğlu Tahir, qonşuları Qərənfilin qardaşı Həsənqulu ilə. Atası tutulduqdan sonra bura onların daimi görüş yeri olub. Bütün məlumatları burada bir-birinə ötürüblər. Bütün məlumatları biri-birindən burada alıblar, o qanlı-qadalı illərdə. O zaman evlərdə telefon yox idi. Ancaq insanların telefonu, teleqrafı hökumətinkindən yaxşı işləyirdi. Şəhərdə baş verən hadisələri çoxları həmin gün bilirdi.

Əziz oxucum, mən bilirəm, sən də bil ki, indiki Nizami bağında, o zaman Nizaminin heykəli yox idi, orada Turan Cavidin ayaq izlərinin yeri qalıb; dərdli-ələmli çağlarının, qorxulu anlarının nişanələri qalıb, göz yaşları burada torpağa hopub.

Oxucu dostum, teatra gedərkən Cavidi yada sal, bil ki, o həmişə müəllif lojasında oturar, əsərlərinin tamaşasına baxar, alqışlarla qarşılanardı. «Kommunist» küçəsindən* keçərkən Əlyazmalar İnstitutunun önündə bir anlığa ayaq saxla. İnstitutun binasına vurulmuş xatirə lövhəsini oxu. Bil ki, Cavidin ayaq izləri bu küçədə qalıb. Bu binada Cavid yaşayıb. O, bu küçə ilə həmişə ğeatr texnikumuna, dəniz sahilinə gedər, getdiyi yolla da geri qayıdardı. Naxçıvana yolun düşsə, Cavidin ev-muzeyinə get, qəbrini ziyarət elə, bil ki, onun cənazəsini Sibirdən bura Həmid, Zakir, Telman gətirmişlər…

21

**30 iyun 1940-cı il.** Maqadan. Şair Maqadanda sürgündədir. Evə yazdığı sonuncu, beşinci məktubundan düz bir ay keçir. Uşaqlar narahat olmasın, gözləri yolda qalmasın deyə altıncı məktubunu yazdırır:

- Sevgili Mişkinaz xanım! Bu günə qədər mən sizə bir neçə məktub yazmışam. Hələlik heç bir bağlamaya ehtiyacım yoxdur. Ancaq hər iki

* İndiki «İstiqlaliyyət».

aydan bir teleqrafla yüz manat göndərin. Əgər bağlama lazım olsa, teleqrafla xəbər verəcəm. Mənim məktubumu alan kimi gözləmədən teleqrafla hər ay 50 manat göndərin. Öpürəm sizi, sevimli oğlumu, qızımı. Əgər Turan xanım orta təhsil məktəbini bitiribsə, qoy bir il dincəlsin və mənə yazın görüm o, hansı ixtisası bəyənir? Necə yaşamağınız barəsində mənə ətraflı yazın, yazın görüm mənim barəmdə bir yerə ərizə veribsinizmi? Yaxın dostlara və qohumlara salam. Yenə də sizi öpürəm. Hüseyn Cavid. Adp. Maqadan Xabarovskoqo kraə 261/5 Zona invalidov. Quseyn Djavid. İmza. 30/VI-1940.

Şair bu məktubu ilə evdəkiləri altıncı dəfə sevindirdi. Evdəkilərin eyni açıldı. 31 may 1940-cı il tarixli məktubundan fərqli olaraq, qalan məktublarında qısa şəkildə yazılmış sözlər, demək olar ki, yoxdur. Varsa da, hərəsində bir neçədir. Görünür, şair 31 may tarixli məktubunu yazdırarkən ya çox keyfsiz imiş, ya da sadəcə olaraq «tənbəllik» etmişdi…

Mişkinaz məktubu oxutdurarkən diqqətini «Mişkinaz xanım» kəlməsi cəlb etdi. Şair bir neçə məktubunda Turanı «Turan xanım» yazmışdı. Ancaq bu məktubunda ilk dəfə idi ki, «Mişkinaz xanım» yazırdı. O bu sözləri eşidərkən kinayə ilə deyəcək: «Xanıma bir bax!» Mən həmin məktubu Turan xanımın yanında nəzərdən keçirərkən eyni sözləri ondan eşidirəm:

- «Turan xanım?» Turan xanıma bir bax!

Bəli, onların xanımlıqları Cavid ilə başladı, Cavid ilə də bitdi.

Məktubda diqqəti cəlb edən bir neçə cəhət də var. Şair əvvəlki məktubunda «adresini» «Maqadan Dalnovostoçnıy kray» kimi qeyd eləmişdi. Bu məktubunda deyəsən krayın adı dəqiqləşdirilmişdir. Onun bu məktubu da, sonuncu məktubu da rus dilində mürəkkəblə bir parça kağızda yazılmışdır. Sevgili oğlunun, qızının adını ayrıca qeyd etmişdir. Turanın, bu sevimli qızının gələcək həyatı, təhsili, səhhəti atanı çox maraqldandırırdı. Ona görə də şair məktubda Turana ayrıca yer vermişdi, haqqında ayrıca sözlər yazılmışdı. O ki qaldı pul məsələsinə, şair yaxşı

bilirdi ki, bu cəhətdən evdəkilərin imkanı məhduddur. Ancaq nə etməliydi, çarəsi nəydi? Mişkinaz xanım özünün və evin qiymətli əşyalarını, nişan üzüyünü dəyər-dəymәzinə satıb ərinə pul göndərirdi.

Oxucu dostum, mən bunları ona görə yazıram ki, sən biləsən. Sənə xatırlatmaq istəyirəm ki, indi qoltuğa sığınan kişilərin sayı çoxalıb, arvadının, qaynatasının, qaynanasının, atasının hesabına vəzifə başına keçənlərin, mənzil, maşın, rütbə alanların sayı artıb. Yaltaqlar, ikiüzlülər, rüşvətxorlar göbələk kimi artıb çoxalır, vicdan da pula satılır, ar da, namus da, insanlıq şərəfi, ləyaqəti də. Yazıram ki, biləsən: Cavidin özü, ailəsi olmazın məşəqqətlərinə, faciəli, dözülməz həyat tərzinə dözdü, fəqət heç kəsin qarşısında alçalmadı, heç kəsin önündə əyilmədi, dünyaya kişi təki gəldilər, dünyadan kişi kimi köçdülər.

22

**20 oktyabr 1982-ci il.** Bu gün qatar üç nəfər igidi Tayşetə çatdırdı. Cavid bu torpaqda doğulmamışdı. Ancaq bu torpaqda ölmüşdü, bu torpaqda basdırılmışdı. Soyuq Sibir torpağı Azərbaycan şairini qoynuna almışdı. Cavid bu torpaqda əbədi yuxuya getmişdi.

*İştə, [Cavid] o böyük sənətkar!*
*Sarmış ətrafını şən yıldızlar.*
*Kəhkəşan saçların əsrarı nihan,*
*Açdı irfan ilə bambaşqa cihan.*
*Onu duymaz, duyamaz hər şaşqın.*
*Bir dəniz şişəyə sığmışmı? Saqın!*
*Gün dəyişdikcə o həp gənc olacaq,*
*Şən könüllərdə pərəstiş bulacaq.*

Yer donmuşdu, buz bağlamışdı. Havada otuz dərəcə şaxta var idi. Bu otuz dərəcə şaxtaya necə dözmüşdü şair?

Tayşet rayon partiya komitəsinin katibi Oleq İliç Qorbunov üç nəfər cənublunu gülərüzlə qarşıladı. Onlar ona Cavid haqqında danışdılar, ailə şəkillərini göstərdilər. Qorbunov dedi:

- O, həm sizindi, həm də bizim. Naxçıvanda doğulub, Tayşetin Şevçenko kəndində dünyadan köçüb…

O, başını ağır-ağır tərpətdi. Bu tərpənişdə böyük məna var idi. Əhvalı dəyişmişdi, kədərin nişanələri üzünə qonmuşdu. O, dəstəyi qaldırdı. Rayonun arxiv idarəsilə danışdı:

- Xahiş edirəm Şevçenko kəndindəki əlillər xəstəxanasının sənədləri-ni tapın.

Sonra əlavə etdi:

- Bəlkə elə o faciəli günün şahidlərindən hələ sağ qalanı var.

Xoş təsadüfə bir bax! Arxivin müdiri Şevçenko kəndinin özündən idi. Üç nəfərin qəlbi şübhə ilə, tərəddüdlə doldu-boşaldı. Suallar baş qaldırdı: «O vaxtdan qırx bir il keçib, çox şey dəyişə bilər. Bəlkə arxiv saxlanmayıb? Bəlkə sənədlər tələf edilib? Bəlkə arxiv köçüb, yanıb?..»

Arxiv idarəsinin müdiri məlumat verdi ki, indi nə o əlillər evi var, nə də ki, düşərgə. Amma sənədlər durur.

**Dorofey Leontyeviç Traydakalo.** O, 1941-ci ildə Şevçenko kəndində keşikçi dəstənin rəisi olub. Xəstəxanada ölənlərin dəfn olunduğu məzarlığı yaxşı tanıyır. Həmid, Zakir, Telman bunu biləndə çox sevin-dilər. Arxivdə axtarış başlandı, nəhayət, sənədlər tapıldı. Sənədlərin arasında şairin ölümü haqqında akt var idi.

- Mən İrk. vil. Tayşet şəh. Kooperativ küç. 27 mənz. 2-də yaşayan vətəndaş Traydakalo Dorofey Leontyeviç 1941-ciilin oktyabr ayından Tayşet şəhərində və Tayşet rayonunda partkom katibi və partiya təşkila-tının katibi işləmişəm, 1941, 1942, 1943, 1944. İrkutsk vilayəti Tayşet rayonu Şevçenko kəndinin yaxınlığında olan xəstəxananın yerləşdiyi yeri yaxşı tanıyırdım, Azərbaycandan gələn yoldaşların dəvətilə 21 oktyabr 1982-ci ildə şair-dramaturq Hüseyn Cavidin məzarıstanda qəbrinin axtarılıb tapılmasında iştirak etdim. Qəbir tapılmış, qazılmış, cənazənin qalıqları Hüseyn Cavidin vətəninə aparmaq məqsədilə götürülmüşdür ki, bu haqda da imza atıram.

**21/X-1982-ci il.** **imza** **(Traydakalo)**

Sənədə imza atanlar:

İ.V.DİI şöbə rəisi podpolkovnik – Kostovski Yuri Georgiyeviç

Qurbanov Qəhrəman Babışeviç – rayon daxili işlər şöbəsinin işçisi 21.10.82

Musayev Azər Məmmədağa oğlu – Ağdaş rayon Qaradağlı kəndi. 1978-ci ildən yaşayıram. İrkutskin Tayşet şəhərində. 21-10-82

Zankarxanov Şərurmazan Xalidbəyoviç-Dağ. MSSR Xosrovyurt ş. 1978 ildən Tayşet ş. yaşayıram.

Zankarxanov Namiq Bahadur oğlu – Ağdaş rayon ev №54, küç. Lenin. Tayşet, Kirov küçəsi, 226. 1978-ci ildən Tayşetdə yaşayıram. Hüseyn Cavidin qəbrinin tapılmasında iştirak etdim. 22.X.82

SSRİ Ali Sovetinin deputatı – Nəsirov Zakir Şahmərdan oğlu. 21.X.1982

Tayşet rayonlararası prokuroru ədliyyə müşaviri – Xaritonova. 21 oktyabr 1982-ci il. Tayşet ş. N.Tereşkova küç., 5, mənzil 42. tel.2-46-42, 3-19-18 (ev).

İrkutsk vil. Tayşet ş. Tereşkova küç., 4-50, tibb həkimi Podqornı Leonid Nikolayeviç. Tel.2-40-70, ev 318-23.

«İ.V.» - İrkutski vilayəti.

Şahidlərin hamısı həmin sözləri öz xəttilə, azərbaycanlılar ana dilində yazmış, imza atmışlar. Mən də bunu olduğu kimi oxucuların nəzərinə çatdırıram.

## 23

Şevçenko kəndi Tayşetdən yetmiş beş kilometr aralıdır. Amma bu boyda yol sanki yeddi min beş yüz kilometrə bərabərdir. Qorxulu nağıllardakı gedib-gəlməz yola bənzəyir bu yol. Bu yolda hər cür hadisə ilə qarşılaşmaq olar. Bu yolda hər cür təhlükə baş verə bilər. Qorxuludur bu yol! Üç nəfərdən kimsə dilləndi:

- Gör neçə min kilometr yol keçib gəlmişik, indi bu iynə boyda yolun qarşısında aciz qalmışıq.

- Ehtiyat igidin yaraşığıdır, - deyiblər.- Bu üç nəfər də çox ehtiyatlı hərəkət edirdi. Hər şeyi ölçüb-biçirdilər. «Sağ-salamat geri qayıtmaq lazımdır, Cavidi vətənə aparmaq lazımdır». Onların fikrini məşğul edən bu idi.

Son hazırlıq işləri gedir. Cavidə tabut sifariş vermək gərəkdir. Onlar məhbusların işlədikləri və tikanlı məftillərlə çəpərlənmiş bir emalatxanaya gəlirlər. Ustaya niyyətlərini bildirirlər. Qələmini qulağının dibinə keçirmiş usta soruşur:

- Ölçüsü nə qədər olsun?

«Ölçüsü?» - Həmid sanki öz-özünə deyir. Sona fikirləşmədən dillənir:

- Geniş eləyin, lap geniş. Heç olmasa, qoy, indi yeri rahat olsun.

Uzunluğu 1 metr 90 sm, eni 1 metr olan tabut sifariş verilir.

24

**İyun 1938-ci il.** Tarixdən səhifələr. Üç nəfər məhkəmə qarşısında dayanmışdır. Onlardan biri həkim Lev Levindir. O Levin ki, Vladimir İliçi, Romen Rolanı, Maksim Qorkini... müalicə edib. O Levin ki, Qorkinin dostu olub. İndi o, Qorkinin ölümündə təqsirləndirilirdi. Levin məhkəmə prosesində özünü mərd, kişi kimi aparır. Son söz deyir. Deyir ki, mənim altmış səkkiz yaşım var. Ömrünün sonuna o qədər də qalmayıb. Əgər siz mənim burada, məhkəmədə dediyim sözlərə inanırsınzsa, onda mənə imkan verin ki, mən qalan ömrümü də Vətənimə həsr edim və bu ömrü yaxşı, əməkçi sovet ailəsində başa vurum...

Mən həmin sözləri orijinalda vermək istəyirəm: «...Leqko mojno umeretğ politiçeskomu boyüu, kotorıy umiraet za svoi idei, kotorıy s qordo podnətoy qolovoy idet na plaxu, na qilğotinu.* No umeretğ

* 1872-ci ildə fransız həkimi Gilyotinin ixtira etdiyi başkəsən maşina, Gilyotinə işarədir.

pozornoy smertğö, koneçno, təjelo...»* («Mediüinskaə qazeta», 22 iölə 1988 q.)

Cavid: - Ölmək yaşamaqdır,
Sərsəm yaşayış ömrə yamaqdır.

Dramaturq bir əsərində belə yazmışdır:

- Hər kəs ölümdən qaçar, fəqət, mən onu dörd gözlə bəkləyərəm.

Ölümü bəkləmək mərd adamlara məxsusdur, qorxaqlara, vicdansızlara, yaltaqlara yox.

25

Sürgündə bir neçə nəfərin söhbəti:

- İşə bax, həbsxanada teleqraf hökumətinkindən yaxşı işləyir.

- Dövlət bizi qorumur, gərək özümüz-özümüzü qoruyaq.

- Bizim günahımız var, bəs bu ziyalıların?

- Bizim nə günahımız var?

- Mən mətbəəçiydim. Stalin yoldaşın çıxışında «vskrıt» sözünü səhvən «skrıt» yığmışdım. Beş il veriblər.

- Hələ bu harasıdır, fabrikdən ayaqqabı içi oğurlayana on il veriblər.

Keçmişdəkilərin müasir yozumu. Bir neçə sovet adamının söhbəti:

- İndi o qədər adamın günahı var ki, heç cəzalandırılmırlar.

- Elə şey olmaz.

- Keçmişdə dövlətin bir xısma buğdasını oğurlayanı tuturdular.

- İndi heç böyük-böyük kolxozları, sovxozları, müəssisələri dağıdanlara dillənmirlər.

- Elə şey olmaz.

- Amerikada prezidenti məhkəməyə veriblər.

- Bizdə heç birinci katibə bata bilmirlər.

- Elə şey olmaz.

---

* Siyasi döyüşçü öz ideyaları uğrunda asan ölə bilər, başını məğrurcasına qaldıraraq cəllad kötüyünə, gilyotinə baş qoymağa gedər. Fəqət biabırçı ölümə məhkum olmaq, əlbəttə, ağırdı.

- Keçmişdə rüşvətxorlara qarşı yaman mübarizə aparırdılar.

- İndi böyük-böyük başları idarə edən rüşvətxorlardır.

- Brejnevin köməkçisi rüşvət alanda, özgəsinə nə deyəsən?

- Elə şey olmaz.

- Bir nəfər günahsız adamı tutublar. Bir neçə il türmədə qalıb. Sonra məlum olub ki, günahı yoxdu, buraxıblar.

- Deyəsən, mərkəzi qəzetlər də bu barədə yazmışdı, o, Nemət Əliyevdi.

- Müəllimlər narkotik maddə alverilə məşğul olurlar.

- Məktəb direktorları, müəllimlər rüşvət üstündə məhkəmə qarşısında dururlar.

- Elə şey olmaz.

*Biri izlər, biri dəhşətlə qaçar,*
*Biri dovşanq, biri qızmış canavar.*
*Üç qarış torpaq ikən son yatağın,*
*Bu didişmək nəmə lazım bu qadar.*

26

Azərbaycan türkləri dünyanın çox ölkəsinə yayılıb. Deyilənə görə, yer üzündə əlli milyonadək Azərbaycan türkü var. Onlar Tayşetdə də yaşayırlar…

Azərbaycanlılar üç həmyerlisinin Tayşetə nə məqsədlə gəldiyini bilib, onlara qoşulurlar.

Dəstə yola çıxır. Şevçenko kəndinə doğru üz tutur. Qabaqda zirehli maşın gedir. Onun arxasınca bir milis maşını, daha sonra yük maşını. Maşının içində on nəfər silahlı əsgər var. Üç dost isə «QAZ-24» markalı maşında əyləşiblər. Yol sürüşkəndir, bu cür yolu uğurla başa vurmaq sürücüdən ustalıq istəyir. Budur, dəstə hələ yola sıxmamış hadisə baş verir. Tayşetli Qəhrəmangilin maşını sürüşüb yoldan çıxır. Onu çətinliklə çəkib yola çıxarırlar. Dəstə yoluna davam edir. Paris Kommunası, Verxni Qoqolevka, Nijni Qoqolevka, Kvitok, Kostomarovo kəndləri arxada qalır. Həmid cib dəftərçəsində belə bir qeyd yazır: «Belə saz maşınlarda

sağlam adamlar bu yolu belə çətinliklə gedirlər. Bəs o vaxt ayaqlarını soyuq aparmış Cavid bu yolu necə gedib?»

Nəhayət, kimsə dilləndi: «Bu da Şevçenko».

Həmid Dorofey Traydakalodan soruşur:

- Qəbiristanlıq haradadı?

Yetmiş iki yaşlı qoca Dorofeyin gözləri yaxşı görmür. Ona görə də deyir:

- Mənə körpünü göstərin.

Onu körpünün yanına gətirirlər. Ona deyirlər:

- Bu da körpü. O tərəfdə üç-dörd taxta ev var.

- Hə, məzarıstan təqribən səkkiz yüz metrlikdədir, - deyə qoca dillənir.

Hamı meşəyə gəldi. Donmuş qar altındakı qəbirlərin baş «daşları» qaralırdı. Cavidin qəbrini axtarmağa başladılar. Cavid sanki cana gəlmişdi. Həmyerlilərinin səsini eşidirdi, nəfəsini duyurdu. Sanki deyirdi: «Mən neçə vaxtdır ki, sizi gözləyirəm. Mənə Mişkinazımdan, Turanımdan, Ərtoğrolumdan bir xəbər».

Onların heç biri bu adamı tanımırdı, görməmişdi... Adamlar iki saatdır ki, Cavidin məzarını axtarırlar. Budur, 53, 54 nömrəli qəbirlər. Bəs, 59? Hanı o? Budur, 56, 57... Bəs, 59? 59 hanı? Nəhayət, 59 rəqəmi gözə dəyir. Həmin rəqəm elə bil ki, məhzun nəzərlərlə insanlara baxır. Deməyə sözü çoxdur, lakin bacarmır, soyuqdan dili tutulub, ayağı donub, beyni donub. Çürümüş, donmuş, qaralmış taxtanın üstündəki «59» rəqəmi aydın oxunur. Xaritonova dillənir: Budur Cavid! Budur Cavidin qəbri!

Cavidin qulağına səs dəyir. Kimdir onun ana dilində danışan? Ərtoğroldurmu? Yox, onun səsinə oxşamır. Turandırmı? Yox, o da deyil. Cavid onların səsini tanımır. Kimdir bu xeyirxah adamlar? Kimdir talesiz şairi arayıb-axtaranlar? Üç nəfər dillənir:

- Bizik, böyük şair, biz: Həmid, Zakir, Telman!..

27

# A K T

**İrkutsk vilayəti**

**Tayşet rayonu**

**Şevçenko kəndi**

**21 oktyabr 1982-ci il**

Komissiya, tərkibində Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin katibi H.Q.Cəfərov, Naxçıvan MSSR daxili işlər nazirinin müavini polkovnik T.B.Əliyev, SSRİ Ali Sovetinin deputatı Z.A.Nəsirov olmaqla, İƏİ-21 xüsusi hissənin rəisi mayor A.S.Ovsyannikovun, İrkutsk vilayətinin Tayşet rayonu ərazisində yerləşdirilmiş azadlıqdan məhrum edilənlərin qaldığı yerin keçmiş işçisi D.A.Traydakalonun, İrkutsk vilayət icrakomu Dİİ səhiyyə şöbəsinin rəisi R.Q.Medvedyevin, Dİİ OTŞ şöbəsinin rəisi polkovnik V.V.Ostaşenkonun, Dİİ şöbə rəisi podpolkovnik Y.G.Kostovskinin, Tayşet rayonlararası prokuroru ədliyyə müşaviri E.Y.Xaritonovanın, Tayşet ŞDİŞ rəis müavini baş leytenant N.S.Tkaçenkonun, cinayət axtarışları şöbəsinin rəisi kapitan A.P.Demidoviçin, ŞDİŞ sahə inspektorları V.O.Klinqin, Q.V.Qladkovun, V.N.Semyonovun, Tayşet rayon sanepid stansiyasının həkimi L.N.Podqornının iştirakı ilə bu akt ona görə tutulmuşdur ki, 21 oktyabr 1982-ci ildə Tayşet rayon xalq deputatları Sovetinin 21 oktyabr 1982-ci il 141№-li qərarına əsasən, SES-in 21 oktyabr 1982-ci il razılığı ilə Azərbaycan SSR-in görkəmli şair-dramaturqu Hüseyn Cavidin (Rasizadənin) cənazəsi basdırıldığı yer axtarılıb tapılmışdır.

Arxiv sənədləri, keçmiş İƏİ işçilərindən, keşikçilərindən sorğu əsasında Hüseyn Cavidin (Rasizadənin) dəfn edildiyi məzarstan müəyyən edilmiş, komissiya 59 №-li qəbri tapmışdı, arxiv qeydlərinə görə Hüseyn Cavid burada uyuyurdu. Təpəciyi xatırladan qəbir otla örtülmüşdü, üstündə 59 №-li rəqəm yazılmış taxta birka – göstərici vardı. Məzar açıldı, süxur qumlu, quru idi. Taxtadan hazırlanmış tabut 2 metr dərinlikdəydi,

forması tabuta uyğun idi, tabutun taxtası bəzi yerlərdən çürümüşdü, tünd parça görünürdü, tabut açılarkən meyitin qalıqları – qıç, qol, boyun və bel sümüyü, omba-çanaq sümüyü, kəllə sümüyü tapıldı. Sümüklərə heç bir zərər dəyməmişdi. Hamısı tünd parçaya bürünmüşdü ki, o da odeyala oxşayırdı, ayağının pəncəsindəki sümüklərdə kətanın qalıqları görünürdü, o, boz rəngdən əldə toxunmuş yun coraba oxşayırdı. Cənazənin qalıqları dəfnin bütün tibbi və qəbul edilmiş ümumi normalara riayət edilməklə götürülüb, taxtadan hazırlanmış tabuta yığıldı. Bundan sonra Hüseyn Cavidin (Rasizadənin) qəbri torpaqla dolduruldu və əvvəlki vəziyyətinə salındı. Məzarın üstündə topvantı keçirildi, yaylım atəşi açıldı. Cənazənin qalıqları xüsusi maşında, onun göndəriləcəyi yerə gətirildi ki, bu haqda akt tərtib edilmişdir.

Tayşet rayonlararası prokuroru, ədliyyə müşaviri – E.Y.Xaritonova

Azərbaycan SSR KP Naxçıvan Vilayət Partiya Komitəsinin katibi – H.Q.Cəfərov

Naxçıvan MSSR daxili işlər nazirinin müavini polkovnik – T.B.Əliyev

SSRİ Ali Sovetinin deputatı – Z.A.Nəsirov

İƏİ 21 xüsusi hissəsinin rəisi mayor – Ovsyannikov A.S.

Azadlıqdan məhrum edilənlərin qaldığı yerin keçmiş işçisi – D.A.Traydakalo

İrkutsk vilicrakomu DİI-nin səhiyyə şöbəsinin rəisi polkovnik – R.E.Medvedyev

DİI OTŞ şöbəsinin rəisi polkovnik – Ostaşenko V.V.

DİI-nin şöbə rəisi podpolkovnik – Kostovski Y.G.

6619 h/h mayoru – Alekseyev M.V.

Tayşet ŞDİŞ əvəzi rəis kapitanı – Quzenko Y.V.

ŞDİŞ rəisinin müavini baş leytenant – Tkaçenko N.S.

Cinayət axtarış şöbəsinin rəisi – Demidoviç A.P.

ŞDİŞ-in sahə inspektoru – Klinq V.O.

ŞDİŞ-in sahə inspektoru – Qladkov V.V.

ŞDİŞ-in sahə inspektoru – Semyonov V.N.

Tayşet rayon SES-in həkimi – Podqornı L.N.

«İƏİ» - islah əmək idarəsi, «DİI» - Daxili İşlər idarəsi, «OTŞ» - operativ texniki şöbə, «ŞDİŞ» - şəhər daxili işlər şöbəsi, «h/h» - hərbi hissə, «SES» - sanitariya epidemologiya stansiyası. Hər kəs öz adı və soyadı qarşısında imza atmışdı.

Budur, adamlar yığışıb Cavidə yas qururlar. Bayatı, ağı, hıçqırıq səsləri eşidilir. Yerli adamlar cənubluların bu hərəkətinə mat qalıblar. Düşünürlər: «Axı buradakıların heç biri Cavidin qohumu, övladı deyil. Gör uzaq adamlar neçə ildən sonra onun qəbri üstündə göz yaşları tökürlər?..»

*İştə, ən sevgili şən dostlarımız*
*Qara topraqda uyur yapyalnız.*
*Gülməz artıq o gülümsər üzlər,*
*Bizə küskündür o munis gözlər.*
*Uyuyub qaldı, onun həsrəti çoq,*
*Bu amansız gecənin gündüzü yoq!*
*Parlaıb söndü qaranlıqlarda,*
*Bir xəyal oldu, nə səs var, nə səda.*

28

Şairi məhv etmək istəyirsənsə, sənətkarı öldürmək istəyirsənsə, qələmini əlindən al. İndi böyük Cavid bu vəziyyəidə qalmışdı. Sibirin soyuğu hər şeyi dondurur, beyini də, düşüncəni də. Çox vaxt üşüməmək, yaxşıca qızınmaq barədə düşünürsən. Bəzən evi də, ailəni də unudursan. Doyunca qızınmaq, yemək haqda fikirləşirsən. Əllər donur, ayaqlar donur, kürəyinə sanki buz yapışır, burnunun ucu göynəyir, qulaqlarını soyuq aparır. Sərtdir Sibir qışları, olduqca sərt!

**May 1941-ci il.** Alman faşistləri Sovet İttifaqına basqın etməyə hazırlaşırlar. Cavid bunu dəqiq bilmir. Ancaq Moskvadakılar, hərbçilər,

---

Qeyd. İrkutsk v. Tayşet r. Şevçenko kəndində yazılmış və əldə edilmiş arxiv sənədlərinin hamısı rus dilindədir. Sənədləri ana dilinə kitabın müəllifi tərcümə etmişdir. İ.A.

kəşfiyyatçılar bunu dəqiq bilirlər. Hətta tarixi də dəqiq deyirlər. İyunun 22-də. Stalin buna məhəl qoymur, o qədər də əhəmiyyət vermir. Kim nə deyirsə, yalandır. Kim nə danışırsa, yalandır. Stalinin dedikləri doğrudur. Ölkə onun iradəsinə tabe olmalıdır. Allah bir olduğu kimi, rəhbər də bir olmalıdır…

Cavid çoxdandı ki, əlillər zonasındadır. Şair lap arıqlayıb, əldən düşüb. Dözülməz, faciəli həyata müharibə elan edib öz daxilində. Moskvaya böyük ümidlər bəkləyir. Ümid edir ki, Moskvadan məktubuna müsbət cavab alacaq. Ancaq Moskvadan cavab yoxdur. Cavab olmayacaq. Onun məktubunu «nəzərə alıb», yerini dəyişəcəklər. Dəhşətli cəhənnəmin bir bucağından başqa bir bucağına atacaqlar. Elə bir bucağına ki, Sibir onu orada öz qoynuna çəkəcək ki, o, bir daha geri qayıtmayacaq.

29

Cavidin altıncı məktubu evə göndərməsindən on bir ay keçir. O, bir ilə yaxındır ki, evə məktub «yazmır». «Yaza bilmir». Evdəkilər isə təlaş içindədirldər. Ərtoğrolla Turan fikirləşirlər: «Nə üçün babadan məktub yoxdur?» Mişkinaz düşünür: «Bu kişidən niyə məktub gəlmir? Axı, o, bu səbirin sahibi deyil. Deməli, nə isə olub. Bəlkə xəstələnib? Bəlkə icazə vermirlər? Bəlkə heç yaza bilmir?..» Bəlkələr, bəlkələr!.. Gümanlar, gümanlar!.. Ancaq heç kəs həmin suallara dəqiq cavab tapa bilmir. Mən də!

30

**27 may 1941.** Maqadan. Şair əlillər zonasında bir küncə qısılıb məktub yazdırır. Özünün əli qələm tutmur. Sanki əllər o əllər deyil, sanki barmaqlar o barmaqlar deyil. Sözə baxmır, key kimidir. Ayaqlarda da keylik hiss olunur. Yaratdığı əsərlər bir-bir gözləri qarşısından keçir: «Şeyx Sənan», «İblis», «Uçurum», «Afət», «Peyğəmbər», «Topal Teymur», «Knyaz», «Atilla», «Cingiz», «Səyavuş», «Xəyyam»… Öz-özünə fikirləşir: «Görəsən əsərlərimi ailəmə qaytaracaqlarmı?..» Beynində

dumanlı fikirlər dolaşır. Şair suallarına qəti və aydın cavab tapa bilmir. O, bir rus məhbusuna məktub yazdırır. Məhbus qələmi bənövşəyi mürəkkəbə batırıb rus dilində məktub yazır. Bu, şairin axırıncı məktubudur. Amma o, bunu bilmir.

«Sevgili Mişkinaz! Mən köhnə yerimdə yaşayıram, sağ-salamatam. Hər ay göndərdiyiniz pulu alıram. Mən sizə yazdığım kimi hər ay teleqrafla mənə 50, yaxud 60 manat göndərin.

Bağlama lazım deyil, ancaq yarım aydan bir mənə özünüzün sağlamlığı barəsində qısa məktub yazın. Burada bəzən yüzlərlə məhbusu buraxırlar və cəza müddətini azaldırlar. Arxayın olun, mənim də növbəm yaxınlaşır. Səni, ağıllı, istedadlı oğlumu, xüsusilə məlahətli, sevimli Turancığımı öpürəm. Öz işlərinizdən yazın. Mən tənbələm, hər ay sağlamlığım barəsində sizə məlumat verə bilmirəm. Yenə sizi öpürəm. Hüseyn Cavid. Maqadan, 27 may 1941».

Bu, Caviddən bu gün bizə bir yadigar, sənəd təki qalan son məktubdur. Son məktub bir sıra müəmmaların aydınlaşmasına kömək edə bilər. Gələcəkdə cavidşünaslar onun məktublarının üzərinə qayıdacaqlar. Mən ancaq bəzi mülahizələr irəli sürmək istəyirəm.

Öncə «sağlamlıq» sözü barəsində. Şair əvvəlki məktublarının heç birində ailəsinə yazmır ki, sağlamlığınız (rusca «pişite korotkoe pisğmo o svoix zdorovəx»), həmin sözü «səhhətiniz» kimi də başa düşmək olar, barəsində mənə xəbər verin, yaxud «mən tənbələm, hər ay sağlamlığım (!) barəsində sizə məlumat verə bilmirəm». Həmin sözlərə Mişkinaz inanmayacaq, evdəkilərin heç biri inanmayacaq. Ona görə ki, Cavid tənbəl-zad deyildi. Cavidin ailəsi bunu yaxşı bilirdi. Onun ailəsi bunu da yaxşı bilirdi ki, o, on bir aydı məktub yazmırdı. Bu da səbəbsiz deyildi. Yoxsa Cavid Mişkinazsız, Ərtoğrolsuz, Turansız (axırıncı məktubundakı sözlərə diqqət edin, «miloqo löbimoqo Turançika») yaşaya bilməzdi. Şair təskinliyini evə yazdırdığı, evdən aldığı məktublardan tapırdı. Deməli, şair məktubda «sağlamlıq» sözlərini təsadüfən işlətməmişdir. Bu, incə bir işarəydi. Görünür, özü ağır xəstə idi, sağlamlığı tamam pozulmuşdu. Evə

gec məktub yazmasının səbəblərindən birini burada axtarmaq gərəkdi. Özü-özlüyündə «zona invalidov» sözləri də çox şey deyir, çox gizli mətləbləri anlamağa bələdçilik edir.

İkincisi, bu sözlərə diqqət yetirin: «Zdesğ inoqda osvobojdaöt sotnəmi zaklöçennıx i umenşaöt srok». Bu sözlər bəzi mülahizələr yürütməyə əsas verir. Əvvəlcə bir məsələni dəqiqləşdirək. Oxucunun yadındadırsa, Cavid 31 may 1940-cı il tarixli beşinci məktubunda qeyd edirdi ki, mən Moskvaya şikayət məktubu («Ə pisal jaloba v Moskvu») yazmışam. Cavid sonuncu məktubu yazarkən artıq o vaxtdan bir il keçirdi. Görünür, Moskva məktubu almışdı. Ancaq məktub kimin əlinə düşmüşdü? Ermənininmi?.. Kim ona dərkənar qoymuşdu? Stalinmi? Molotovmu?.. Bu, tapmacadır. Ola bilər ki, gələcək araşdırıcılar həmin tapmacaya cavab tapacaqlar. Hər halda Cavidin məktubu Moskvaya çatmışdı. Moskva onun xahişini «nəzərə almışdı». O, Tayşet rayonunun Şevçenko kəndindəki əlillər xəstəxanasına göndərmişdi. Ancaq məktubu yazarkən Maqadanda əlillər zonasında olan, min cür əzab-əziyyətə qatlaşan şair Moskvaya inanır, ümidini üzmür, cavab gözləyirdi.

Digər tərəfdən, başqa bir məsələyə nəzər salaq: «Tutulanlar buraxılır, həbs cəzasının müddəti azaldılır.» Cavid sonuncu məktubunu yazarkən Yejov artıq yox idi. Stalin onun yerinə Beriyanı hazırlayırdı. Yejov xalq düşməni elan edilib, ciddi qanun pozuntusuna yol verildiyi üçün, «müqəddəs sovet qanunlarını pozduğu» üçün güllələnmişdi. Siyasətcil, uzaqgörən, ikiüzlü Stalin bunların hamısını qabaqcadan ölçüb-biçmişdi. Ona xalqın hörmətini, etimadını qazanmaq lazım idi. Xalq onu sevirdi. O isə xalqı sevmirdi. Yejovu güllələndirməklə Stalin çoxlarının gözündə böyüdü. Çoxları dedi: «Rəhbər, bax belə olar!» Başqa sözlə, Yejovla əlaqədar hadisələrdən sonra kütlənin Stalinə inamı bir qədər də artdı. Kütlə Stalinin dediklərini həqiqət kimi qəbul etdi. Bax, tutulanların buraxılma, cəza müddətinin azaldılmasının bir səbəbini burada axtarmaq lazımdı. Bu, olduqca bic, hiyləgər, düşünülmüş, eyni zamanda ağıllı, siyasətcil hərəkət idi. Bu hərəkət Stalinə etiqadı artırmalıydı, artırdı da.

Ancaq bu incə məsələlər indilikdə şairə, çoxlarına bəlli deyildi. O da inanırdı, Moskvaya, Stalinə, çarəsi nəydi, suda batan saman çöpündən də tutar. Ancaq şikayət məktubu ona uğur gətirmir. Həmin məktubdan sonra şair qarda, çovğunda, soyuqda yüz kilometrlərlə yolu təzədən qət etməli olur...

«Tutulanları buraxırlar». Mən bu sözlərə inanmaq istəyirəm də, istəmirəm də, şair. Bəlkə də onların bir çoxunu «buraxmaq» adı altında güllənməyə aparırdılar, sənin kimi elə bir yerə göndərirdilər ki, soyuqdan donsunlar. Bir çoxu da yəqin ki, geri, evlərinə qayıdırdı. Müqəddəs sovet qanunlarına, Stalinə inamı artırmaq artırmaq üçün!

*- Səndəmi, ah, səndəmi güldün bana?*
*Tanrı cəhənnəmdə verir yer sana!*
*- [Stalin] əsrarını bilsəydin əgər*
*Bəlkə ölümdən də bilirdin xəbər.*

Şair sonuncu məktubunu yazdırır. O, bir daha məktub yazdırmayacaq. Üç nəfərin, Mişkinazın, Ərtoğrolun, Turanın gözü-könlü yolda qalacaq. Onlar bir daha Cavidin məktubunu oxumayacaqlar, onu öpüb sinələrinə basmayacaqlar. Üç nəfər intizarda qalacaq. Üç nəfər suallar, tərəddüdlər, şübhələr içində boğulacaq. Daha Cavid məktubda «Turan xanım», «Turançik», «məlahətli, sevimli Turan» yazmayacaq. Turan içində yana-yana qalacaq. İçi özünü yandıracaq, çölü özgələrini...

31

Mən Hüseyn Cavidin Moskvaya yazdığı məktubla əlaqədar lazımi yerlərə yazılı müraciət etdim. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi yanında marksizm-leninizm institutunun mərkəzi partiya arxivindən cavab aldım. Budur həmin məktub və ona verilən cavab.

İnstitut marksizma-leninizma pri ÜK KPSS Üentralğnıy partiynıy arxiv: 103821 q. Moskva, Puşkinskaə ul., d. 15, tel. 292-47-91. 17.101988, № 1824-18-4.

Uvajaemıy t. Orudjaliev! V otvet na Vaş zapros soobhaem, çto kakimi-libo materialami, Quseyna Djavida /Rasi-zade/ ot aprelə-maə 1940 q. Üentralğnıy partiynıy arxiv, k sojaleniö, ne raspoloqaet.

Zam. zav. Üentralğnım partarxivom İnstituta marksizma-leninizma pri ÜK KPSS Ö.Axapakin.

Tov. Orudjaliev İ.A. Vaşe zaəvlenie napravleno dlə dalğneyşeqo rassmotreniə v KQB Azerbaydjanskoy SSR, otkuda Vam budet dan otvet. V Üentralğnom arxive KQB interesuöhix Vas svedeniy ne imeetsə. Zamestitelğ naçalğnika Üentralğnoqo arxiva KQB SSSR V.K.Vinoqradov. 18 oktəbrə 1988q.

**Tərcüməsi.** Sov. İKP MK yanında marksizm-leninizm İnstitutunun Mərkəzi partiya arxivi: 103821 Moskva ş., Puşkin küç. Ev 15, tel. 292-47-91. 17.10.1988, № 1824-18-4.

Hörmətli Orucəliyev! Sizin sorğunuza cavab olaraq bildiririk ki, Mərkəzi partiya arxivi aprel-may 1940-cı il tarixdə Hüseyn Cavidə (Rasizadəyə) aid heç bir materiala, təəssüf ki, malik deyildir.

Sov.İKP MK yanında marksizm-leninizm İnstitutunun Mərkəzi partiya arxivinin müdirinin müavini Y.Axapakin.

İ.Ə.Orucəliyev yol.

Sizin ərizəniz baxılmaq üçün Azərbaycan SSR DTK-na göndərilmişdir, oradan Sizə cavab veriləcəkdir. DTK-nın mərkəzi arxivində Sizi maraqlandıran məlumat yoxdur.

SSRİ DTK-nın Mərkəzi arxivinin rəis müavini V.K.Vinoqradov. 18 oktyabr 1988-ci il.

**Qeyd.** Mən Azərbaycan SSR DTK-nın əməkdaşı Qarabağlı yoldaşdan şifahi cavab aldım ki, Cavidin sənədləri içində maraqlandığım məktub yoxdur.

## Siyasət və əxlaq

Əbülfəz universitetin Şərqşünaslıq fakültəsini bitirdikdən sonra ərəb-rus tərcüməçisi vəzifəsində Misirə gedir. «Siyasət»in nə olduğunu ilk dəfə orada görür.

«Səfirlərlə, səfirlik işçiləriylə görüşlərim oldu. Məsələn, rus ilə ərəb görüşür. Bir-birlərini qardaş kimi qucaqlayıb öpürlər. Sonra başlayırlar bir-birinin əleyhinə danışmağa. Niyə belə olduğunu soruşduğum zaman «bu, siyasətdir, sən anlamırsan» deyirdilər. Mən bu cür insanlığı qəbul edə bilməzdim».

Zəki Vəlidi Toğanın 1971-ci ildə Türkiyədə nəşr olunmuş xatirələrindən birini söyləməklə Əbülfəz siyasətlə bəşəri-humanitar elmlər arasındakı fərqi anladır:

«Azərbaycanın bir bədbəxtliyidir ki, bizdə də var. Bizim siyasətə gələn ziyalılarımızın hamısı beldir: ədəbiyyatdan gəlib siyasətçi olmuşuq. Nəriman Nərimanov da beləydi. Biz ilhamımızı haradan alırıq? Nizamidən, Füzulidən və onlar kimi insanlardan. Buna görə də bizi siyasətdə aldatmaq asan olur. Nərimanovu da belə aldatdılar: «Bahadır və Sona» ilə beynəlmiləlçilik təbliğ edirdi: bilmirdi ki, siyasət elə deyildir. Biz türklərin bir xüsusiyyətidir, siyasətdə mərkəzi həmişə üstün tutarıq.

Zəki Vəlidi Toğan Leninə demişdi:

- Bəs sən söz vermişdin ki, Tatarıstan müstəqil olacaq?

Lenin belə cavab vermişdi:

- Sən siyasətlə əxlaqı qarışdırırsan.

Toğan rəhmətlik də:

- Belə əxlaqsız siyasətmi olur? – demişdir. Sultan Qalləvini belə aldatdılar.

Misirdən dönəndən sonra Əbülfəz Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində müəllim işləyir və tələbələrinə anladırdı: «Tələbələrə deyirdim ki, bu dövlət imperiyadır. Sosializm də yoxdur. O zaman Moskvada Brejnev, Azərbaycanda Babaheydər başda

idi. Heydər Əliyev tarixçi sayılırdı. Mən tələbələrə deyirdim ki, onun elmi yoxdur, tarixi bilmir, belə bir gestapoçu millət başçısı necə ola bilər?»

33

## DTK-nın həbsxanası tərəfindən

Buna görə Əbülfəz partiyaya çağırılır və özünə də böyük imkanlar şəraitində partiya təbliğatçısı vəzifəsi təklif edilir. Rədd etdikdə həbs edilir: 1975-ci il.

Müqəssir bilinərək 1 il altı ay məhkum edilir. Suçu millətçi olmaq, Leninin əleyhinə danışmaq – Əbülfəz bunları inkar etmir və məhkəmədə də Leninin siyasətini tənqid edir. Soruşurlar:

- Sənin yolun nədir?

- İsveçrə yolu… Lenin də bir zaman ən gözəl yol İsveçrə yoludur, - demişdir.

Çaşan məhkəmə:

- O zaman sovet dövləti yoxdu. Lenin ona görə belə söyləmişdi. İndi ən yaxşı yol sovet yoludur.

## Və həbs

Həbsxanada qəzet və kitab sərbəstdir, çünki hamısı rejimin nəzarəti altındadır. Amma ailə ilə görüşmək yasaqdır, ümumiyyətlə, istənilən adamla görüşmək qadağan olunur. Evdən yemək gəlməsinə belə ancaq 2 ayda bir 3 kilonu götürmək şərtiylə izn verilir. Əbülfəz 6 ay DTK həbsxanasında qaldıqdan sonra daş karxanalarında 1 il müddətinə daş daşımağa göndərilir.

«Buna əməklə islahetmə deyirlər. Yəni ziyalılar o qədər ağır işlərdə çalışacaqlar ki, əmək onları islah etsin!»

Daş karxanasında gündə 35-40 kilo ağırlığında kəsmə daş parçalarından gündə 900 dənəsini maşina yükləmək məcburiyyəti vardı. Əbülfəz də iki ay bu daşlardan daşıdı. Məhkumlarla çox yaxşı əlaqə yaratmış, fikirlərini onlara da anlatmışdı. Nəhayət, məhkumlar Əbülfəzin

daş daşımamasını tələb etdilər. Hadisə böyümməsin deyə rəhbərlər bu tələbə boyun əydilər.

Həbsdən sonra Əbülfəz rejim tərəfindən təcrid edilir və Əlyazmalar İnstitutunda işləyir. Universitetin qapıları onun üzünə bağlanmışdı…

34

## Və azadlıq meydanında

Və keçən ilin noyabrında ilk dəfə minlərlə insan Lenin meydanına mitinqə toplaşmış və gecə-gündüz meydandan ayrılmırdılar. Azərbaycanın hər tərəfindən bu nümayişçilərə yemək daşınırdı. Tanklar izdihamın ətrafını mühasirəyə almışdı.

Əsgərlərə «hücum» əsri verilir və Lenin meydanında bir Azadlıq mübarizəsi başlayır. O gündən meydanın adı «Azadlıq meydanı»dır. Zonalar, dəyənəklər, gözyaşardıcı qazlar… İnsanlar qan içində… Əbülfəz bir lider olaraq ön cərgədədir və yaralıdır. Əsgərlərin ilk hədəfi olur. Fəqət illərlə çilə çəkərək yetişdirdiyi universitet tələbələri Əbülfəzin ətrafında keçilməz sədd qururlar və beləliklə, Əbülfəz ölməkdən qurtulur. Zor və güclə izdiham dağıdıldıqdan sonra yaralarından qan sızan 14 nəfər həbsxanaya salınır. Əbülfəz də onların arasındadır.

*(«Tərcüman» qəzeti, 23 dekabr 1989- cu il)*

*Füzuli Hüseynov çevirib.*

2-3 yanvarda «Azərbaycan» fenomeni bütün dünyanı çaşdırdı. Özünü itirməyən prezident, baş nazir qalmadı: Buş, Mitteran, Tetçer, Turqut Özal, Qorbaçov. Bir neçə gündən sonra özlərini ələ ala bilən Pakistan, İran, İsrail, liviya və Əlcazair Sovet hökumətinin işğalçı hərəkətlərini pislədilər. Dünya olub-bitmişdən ayıldı. 20 Yanvar Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı, imperiyalar tarixinə qara, qapqara ləkə oldu. «Demokratiya, demokratiya» bağıran Vaşinqton və Moskva Azərbaycan xalqının demokratik hərəkatını qandalladı.

Azərbaycan xalqını fövqəladə vəziyyətdə seçki keçirməyə məcbur etdi. Bu, dünya tarixində üçüncü belə hadisə idi. Bunu da sınadıq.

Bir ildir ağır faciə və qaranlıq zülmət içərisində yaşayan xalqımız özünə gəlmiş, azadlıq yolunda yenidən yürüşə çıxmışdır. Xalqımız qəhrəmandır və bu qəhrəmanlığını həm özünə, həm də dünyaya bir daha göstərdi. Ancaq nə yazıq ki, siyasi həyatda yetkin deyilik, siyasi mübarizədə səriştəsizik, təşkilatlanmağı bacarmırıq, təkbaşına, yaxud kiçik qruplarla imperiyalara qarşı mübarizə meyli və ya «xəstəliyi» aramızda geniş yayılıb. Oyuncaq dövlət aparatı ya xalqa yaxın gəlmir, ya da onu gəlməyə qoymurlar. Ziyalılarımız tərəddüd içərisində iflic olub.

İmperiyanın da mövqeyi aydındır, xalqın da. Təkcə respublika dövlət aparatının mövqeyi aydın deyil, axı bu bədbəxt aparatın heç mövqeyi yoxdur. Bu aparatın işçiləri daim əsməcə içərisindədir. Xalqın qəzəbini, düyünlənmiş yumuruğunu gördükcə əsir, Moskvanın qapazını yedikcə əsir, əsir. Bunlar əsl əsr-yesirdirlər, qulaqları Moskvanın qulluq qarmağına keçib, umudları göydə xaliqə, yerdə xalqa qalıbdır. Bu əsir-yesir [Azərbaycan] dövlət aparatı ilə xalqın arasında özünü itirmiş bir təbəqə var – ziyalılar. «Ziyalı» sözünü xalqımız əsl mənasında işlətmir. Ziyalı elmdə, incəsənətdə, mədəniyyətdə müəyyən yaradıcılığa malik və ardıcıllar yetişdirən, xalqın (yaxud millətin) həyatı təhlükəyə düşəndə ön cərgədə dayanan, onun qabağında gedən adama deyirlər. Bizim ziyalıların çoxu bu təyinatı tam ödəmədikləri, ya da ödəyə bilmədikləri üçün onlara «yarımziyalı» demək daha doğru olar…

## 35

Mişkinaz Cavid böyük sovet imperiyasında Cavidini axtarırdı. Rəsmi orqanlara yazılı müraciət edir, əri haqqında dəqiq məlumat almaq istəyirdi. Ancaq sovet orqanları onun ərizə və məktublarına başdansovdu cavablar verirdilər. O, ümidini itirmirdi, Cavidini «tapacağına» əmin idi.

Mişkinaz xanımın ora-bura yazdığı ərizə və məktublara aldığı ötəri və səthi cavablara nəzər salaq:

**1945-ci il**

**Vətəndaş Mişkinaz Cavidə**

**Bakı şəh.**

15/330

24.03.45

Azərbaycan SSR

Sovet küç., ev 70

Bildiririk ki, Hüseyn Cavid Abdulla oğlu – O\X «Naxodka»ya gəlməyib.

İnspektor. İnspektor imza atıb, familiyasını göstərməyi unudub.

«O\X» - Mən həmin baş hərfləri əslində olduğu kimi yazmışam və belə oxumuşam: Oblast/Xabarovskiy – Xabarovski vilayəti. Naxodka liman şəhəri bu vilayətdə yerləşir.

36

**10 dekabr 1946.** Mişkinaz daxili işlər orqanlarına ərizə yazır, Cavidinin yerini öyrənmək istəyir. Ümid edir ki, ona dəqiq cavab verəcəklər. Təxminən bir ildən sonra ona cavab verirlər.

6.10.47-ci il Bakı ş. Sovet küç. 70

Mişkinaz Cavid

Sizin 10.11.46 sorğunuza cavab olaraq bildiririk ki, Hüseyn Cavid Abdulla oğlu, 1880-ci il, bizdən İrkutsk ş. Tayşet lag. 6.9.41-ci ildə getmişdir. Bundan sonra ora müraciət edə bilərsiniz.

Hiss. rəisi

«1880-ci il» - bu tarix Cavidin anadan olduğu ilə göstərir, ancaq səhvdir. Şair 1882-ci ildə doğulmuşdur. Belə bir səhv onun Maqadandan göndərdiyi məktublardan birinin üstündə də yazmışdı. Hissənin rəisi qol çəkib, ancaq öz familiyasını göstərməyib.

37

**1956-cı il**

**Vət. Mişkinaz Cavid qızına**
**Bakı şəh., Sovet küç. № 70**

Əriniz Hüseyn Cavidin ölümü haqqında sizin ərinizə xahişnamə ilə birlikdə baxılmaq üçün Primorski vilayəti Vladivostok ş. DİNİ göndərilmişdir ona görə ki, Hüseyn Cavid 4.VII.1939-cu ildə cəza müddətini başa vurmaq üçün ora göndərilmişdir.

Bundan sonra Siz nəticə üçün yuxarıda göstərilən ünvana müraciət edə bilərsiniz.

Azərbaycan SSR DİN şöbə rəis müav. V.Panyukov
20 dekabr 1956-cı il
№ 11/17-2214
Bakı ş.

Məktubda səhvən Mişkinaz «Cavidin qızı» kimi qeyd edilib.

Mişkinaz Cavid Cavidini axtarırdı. Onu tapa biləcəkdimi?.. Hərdən özünə təsəlli verirdi, «ölünü qoyub dirini ağla» deyirdi.

## 38

Sibirdə şaxta hər şeyi dondurmuşdu. Təkcə üç nəfər cənublunun göz yaşlarını dondura bilmirdi. Onların ürəyinin hərarəti Sibir şaxtasını qızdırmağa qadir idi. Üç nəfərin göz yaşı buzun üstündə tumurcuqlanırdı. Cavidə Sibir meşələrində yas tutulmuşdu. Üç dost Cavidin qəbri üstündə diz çöküb ağlayırdı. Tayşetli azərbaycanlılar da onalara qoşulmuşdu. Böyük şairə ehtiram və məhəbbətini, hüzn və kədərini bildirirdilər. Şair sanki Sibir torpağından baş qaldırıb deyirdi: «Gedin «Xəyyam»da yazdıqlarımı oxuyun, o, Xəyyam deyil, o mənəm, bizim taleyimizdə nə qədər yaxınlıq var, «Xəyyam»ı təsadüfən yazmamışam.

*İştə, Xəyyam, o sapıtmış insan,*
*Püskürür göylərə nifrət, üsyan.*

Mən belə yazmışam. Siz belə oxuyarsınız:

*İştə, Cavid, o sapıtmış insan,*
*Püskürür göylərə nifrət, üsyan.»*

Sibir torpağında üç nəfər biri-birinə toxtaqlıq verirdi. Ən böyük toxtaqlıq isə Cavidin qəbrinin tapılması idi. Həmid gözlərinin yaşını silib, arxiv müdirinə tərəf çevrildi. Qoca rus Həmidin nə demək istədiyini baxışlarından anladı, dərhal da cavab verdi:

- Burada ikinci «59» nömrəli qəbir ola bilməz.

O, bu sözü inamla dedi. Qəbri açmaq üçün prokurorun icazəsi lazım idi. Bu məsələ də əvvəlcədən düşünülmüşdü. Rayonun prokuroru Yelena Xaritonova həmin məqsəd üçün bura gəlmişdi.

Həmid məzarın baş tərəfində dayanıb. Yoldaşları qəbri əhatə ediblər. Elə bil ki, Cavidi Sibirin şaxtasından qorumaq istəyirlər. Cavid sanki indii əbədiyyətə qovuşmuşdu. Cavidin məzarının üstündə mitinq keçirilir. Həmid danışır. Səsi titrəyir. Sibirin soyuğu ağzına dolur. Həmidin hərarətli sözlərini dondurmağa çalışır. Həmid danışır:

- Yoldaşlar! Hüseyn Cavid görkəmli Azərbaycan dramaturqu və şairidir. Ancaq tale ona belə ömür qismət eləmişdi. Siz sağ olun ki, xalqımızın fəxri Cavidin qəbrinin axtarılıb tapılmasında bizə kömək elədiniz. Biz olduqca sizə minnətdarıq…

Üç dost, üç yoldaş don atıb dəmirə dönmüş torpağın üstünə düşürlər, qaz ki, qazasan. Əllər, ayaqlar soyuğun nə olduğunu hiss etmir. Torpaq təxminən yarım metrdən sonra yumşalmağa başlayır. Üç nəfərlə gələn adamlar da işə qoşulurlar. Cavidin qəbrini qazmaq da şərəfdir. İki metr qazılıb. Torpaq oyulub tökülməyə başlayır. Tabut görünür. Zakir tabutun üst qapağını qaldırır. Hamı həyəcanlıdır, təlaş içindədir. Hamının diqqətini Cavidin kəllə sümüyü, iri, enli alnı, tünd parça cəlb edir.

*[Sizi] ürkütdümü halım?*
*Keçmişdə, xayır, böylə deyildim.*
*Bilsən nə gözəl, ah nə gözəldim…*

*Gözlər məni həsrətlə apardı,*
*Hüsnümdə səhər cilvəsi vardı.*
*Birdən-birə soldum da, dəyişdim,*
*Issız, əbədi heçliyə keçdim.*

39

Şair xəstəxanada üstünə örtdüyü qara qara ədyala bükülüb tabuta qoyulmuşdu. Həmid aşağı endi. Əvvəlcə təzə gətirilən tabuta Sibir torpağı töküldü. Zarafat deyil, şair qırx bir il idi ki, bu torpaqda uyuyurdu. Bu vaxt Telman diqqəti yun corabların torpağa ilişib qalmış izlərinə cəlb etdi:

- Baxın, ayağındakı yun corabın izi durur.

Həkim Rafael Medvedyev bunu təsdiq elədi. Ekspertlər, kriminalistlər işə başladılar. Şəkillə cəsədin qalıqlarını tutuşdurdular. Bütün cizgilər, necə deyərlər, parametrlər uyğun gəlirdi. Bu, Cavidin cənazəsinin qalıqları idi. Ona şübhə etmək olmazdı...

**İrkutsk vilayəti Tayşet rayonu**

**Şevçenko kəndi**

**21 oktyabr 1982-ci il,** saat 14:30, (İrkutsk vaxtilə). 2 saat axtarışdan sonra İrkutsk vilayəti Tayşet rayonu Şevçenko kəndinin yaxınlığındakı böyük bir məzaristanda yerli sakinlərin və əlillər xəstəxanasının keçmiş işçilərinin yaxından köməyi ilə 41 ildən sonra (5 dekabr 1941-ci il) məşhur Azərbaycan şair-dramaturqu Hüseyn Cavidin məzarı tapılmışdır (akt №59 5 dekabr 1941-ci il), aktı imzalamışlar: idarənin rəisi D.J.Sinişin, xəstəxananın müdiri P.P.Vartminski, palata növbətçisi F.E.Fisunenko yoldaşlar.

7.12.1941-ci ildə Hüseyn Cavidi dəfn etmiş şəxslər: Əmək üzrəköməkçi Sitnik A.T., təsərrüfat müdiri Sinişin D.Y., növbətçi feldşer Lapkin K.İ.

Hüseyn Cavidin qəbrindən torpaq və 59 №-li tanıtma nişanı*
aşağıdakı şahidlərin yanında götürülmüşdür.

Medvedyev Rafael Qriqoryeviç – İ.V.Dİİ səhiyyə şöbəsinin rəisi.

Cəfərov Həmid Qara oğlu – Azərbaycan KP Naxçıvan vilayət partiya komitəsinin katibi 21.X.82.

Alekseyev Mixail Valentinoviç – 6619 h/h komandir müavini 21.10.82.

Quzenko Viktor Yuryeviç – ŞDİŞ rəis müavini 21.X.82.

Astaşenko Vladimir Vasilyeviç – İ.V. Dİİ təcili kriminalist şöbəsinin rəisi 21/X.82.

Əliyev Telman Bayraməli oğlu - Nax.MSSR daxili işlər nazirinin müavini 21/X.82.

«İ.V.» - İrkutsk vilayəti, «h/h» - hərbi hissə.

40

Şair Moskvadan cavab gözləyirdi, müsbət cavab. Fəqət Moskva ona cavab vermirdi, nə müsbət, nə də mənfi. Şair ümidlə yaşayırdı, xəstəliyini də bir qədər unutmuşdu. Ümid edirdi ki, onu evə buraxacaqlar, çünki günahı yox idi. Ümid edirdi cəzasının müddətini azaldacaqlar. Ümid, yenə ümid! Siz olmasaydınız insanlar nə edərdilər?

Şair təsadüfən deməmişdi:

*Ümidsiz bir insan, ümidsiz millət*
*Səfil və bədbəxt olur ən nəhayət.*

Şair bunu da yaxşı bilirdi ki:

*Ümid ilə insana gələn hiss,*
*Ya kizbü riyadır, ya təbəsbüs.*

Moskvadan cavab gəlmədi. Ancaq sərəncam verildi. Bir zabit Maqadanda əlillər zonasına gəldi. İçəri girdi, qışqırdı:

* Hazırda həmin tanıtma nişanı – taxta baş daşı Naxçıvanda Cavidin ev-muzeyində saxlanılır.

- Kto tut Xusayn Dja…vid Rasi…za…de?*

Cavid zəif səslə cavab verdi:

- Mənəm.

Qəlbində həmən an kədərə bürünmüş bir sevinc hissi baş qaldırdı. İldırım sürəti ilə fikrindən keçdi:

- Yəqin Moskvadan xəbər var.

Şairin canına sanki can gəldi. Bir andan sonra bütün fikirləri alt-üst oldu, ümidləri puça çıxdı.

- Tı s jalobami obraşalsə v Moskvu?

- Da.

- Tak vot, qotovsə, mı tebə perevedem v druqoe mesto.**

Dizləri uçundu şairin. Sanki köksünə bir xəncər saplandı şairin. Müxtəlif fikirlər beynində fırlanmağa başladı, suallar baş qaldırdı: «Görəsən, məni hara aparacaqlar? Yenə də üzücü yollarmı?.. Bəlkə elə burada qalmağım yaxşıdır? Uşaqlar ünvanımı, yerimi-yurdumu bilirlər. Özü də xəstə-xəstə hara aparırlar məni bunlar? Kimə müraciət edim?..»

Böyük şair sualların içində batıb qalmışdı, onlara cavab verməyə aciz idi. Şairin ən çox gözünü qorxudan uzun-uzadı yollar, soyuqlar idi. Təqvimə görə, may-iyun ayları idi. Buna baxmayaraq, havalar soyuq keçirdi. Üç nəfər gəlib gözünün qabağında dayandı. Şair onları əlinin içindəki kimi görürdü. Bunlar onun ən doğma, əziz adamları idi. Bu üç nəfər Cavidin halına yanırdılar.

*Sən nə hekayət,*
*nə söhbət,*
*nə rəvayət idin.*
*Sən bütün iztirabı,*
*dərdi, qəmi ilə*
*qarşımda dayanmış*
*canlı həqiqət idin.*

---

* Burada Hüseyn Ca…vid Rasi…za…də kimdir?

** - Sən Moskvaya şikayət məktubu yazmısanmı?
- Bəli.
- Onda hazırlaş, biz səni başqa yerə göndərəcəyik.

41

Bir dəstə dustağı Maqadandan gəmiyə mindirdilər. Gəmi Oxot, Yapon dənizlərindən keçib Vladivostoka istiqamət aldı. Cavidə bu yol tanış idi. İndi o, həmin yolla geri qayıdırdı. Səhhəti getdikcə ağırlaşırdı. ağır nəfəs alırdı. Onları Vladivostoka gətirdilər. Buradan Xabarovska göndərdilər. Tayşet rayonuna getmək üçün uzun yol keçəcəkdi şair. Xəstəlik bir tərəfdən, soyuq və yorğunluq bir tərəfdən, ruh düşkünlüyü bir tərəfdən şairi sanki məngənəyə salıb sıxırdı. Şair yorulub taqətdən düşmüşdü. Bəzən ucuz ölüm arzulayırdı. Ancaq üç nəfər gəlib gözünün qabağında dayanırdı. Onları görmədən ölmək, məhv olmaq! Aman Allah! Şair üçün bundan müdhiş nə ola bilərdi?! Üç nəfəri görmədən sönmək, onların xoş sözünü eşitməmək, oğlunun çiynində qəbrə getməmək... Bu, şair üçün əsl faciə idi.

Şairi qabaqda böyük bir yol qət etmək əzabı narahat edirdi: Xabarovsk-Blaqoveşşensk, Never, Çita, Ulan-Ude, İrkutsk. Yol Tayqa meşələri tək uzanıb gedirdi. Dustaqları yük vaqonlarına doldurmuşdular. Ağır, üfunətli havada dustaqlar havasızlıqdan boğulurdular. «Görəsən insan üçün bundan dəhşətli cəza varmı?» Çoxları belə fikirləşirdi. Həyat dözülməz idi, insanlar vəhşi təbiətli. İnsanlar arasında ülfət, səmimiyyət, məhəbbət pozulmuşdu:

- Məhəbbət! Məhəbbət!.. Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir. Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticəsində bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa... bütün həyata, bütün kainata nifrətlər olsun!

42

Cavid 6 sentyabr 1941-ci ildə İrkutsk şəhərinə çatdı. Buradan Cavid Tayşet düşərgəsinə yola saldılar. Məhbuslar iki ay idi ki, yol gedirdilər. Yol hələ qurtarmamışdı. Yol acı bağırsaq tək uzanıb gedirdi. Dustaqlar yol gedirdilər. Tayşet rayonu, Şevçenko kəndi hələ uzaqda idi. Lap

uzaqda. Bəzisinin ayaqqabısı cırılmışdı, bəzisi ayağına cır-cındır dolamışdı, bəzisinin heç əməlli-başlı ayaqqabısı, üst geyimi də yox idi. Dustaqların üst-başından kir yağırdı, kimini bit basmışdı, kimini sirkə. Cırım-cınır paltarlarda onlar dilənçidən seçilmirdilər. Bəzisinin ayağı qabar atmışdı, soyuq aparmışdı. Üzləri tük basmışdı. Nə idi bu zavallıların günahı? Düşün, oxucu dostum, düşün bu sualın üçtündə, çox düşün…

Arabaçı qaş-qabaqlı idi. Sifətindən zəhrimar yağırdı. Ağır şeyləri, dustaqların yatacağını onun arabasına yığmışdılar. Konvoy söhbətcil adama oxşayırdı. Ancaq dustaqlarla danışmaqdan ehtiyat edirdi. Axşam düşürdü. Hava getdikcə soyuqlaşırdı. Dustaqlara dayanmaq əmri verildi:

- Gecəni burada qalmalıyıq!

Əmr belə idi. Əlli-ayaqlılar odun qırdılar, tonqal qaladılar. Cavidin artıq əlli doqquz yaşı vardı. Dustaqlar ona hörmət edirdilər, bu fağır adama qayğı göstərirdilər. Sibir meşəsində tonqal yanırdı. O, ətrafa işıq saçırdı. Dustaqlar tonqalın başında büzüşüb yatmışdılar. Gecənin soyuğu bədənlərə işləyirdi. İnildəyənlər, can ağrısından əzab çəkənlər az deyildi. Gecə yuxuya gedib səhər oyanmayanlar, ölənlər də var idi…

*Nədir bu xilqəti-bimərhəmət, şu pərdəli hikmət?*
*Bu zülmə qarşı nolur bir də bir ədalət olaydı.*
*Tükəndi taqatü səbirim, ədalət! Ah, ədalət!*
*Nə öncə öylə səadət, nə böylə zillət olaydı.*

43

Arabaçı atı dəhmərlədi. Birdən qar yağmağa başladı. Cavid yorulmuşdu. Tez-tez yeriyə bilmirdi, xəstəydi. Üstəlik, ayaqlarının altını soyuq aparmışdı. O, təngənəfəs olurdu, bəzən dayanır, ağaca söykənib dincəlirdi. Kimsə türkcə dilləndi:

- Cavid əfəndi, arabaya minin.

Gözətçi qışqırdı:

- Po-russki qovori...[*]

Arabaçı onu arabaya minməyə qoymadı. Deyinməyə başladı. Onlar bir kəndə gəlib çatdılar. Kənd əsl Sibir kəndinə oxşayırdı. Baraklar diqqəti cəlb edirdi. İnsanlar sanki cəhənnəmdə yaşayırdılar. Baraklardan hərdənbir sərxoşların çığırtıları, mahnı səsləri eşidilirdi. Sibirlilər bu soyuqda içməyə bilməzdilər. Sibirdə içməsən,canını, beynini içgi ilə qızdırmasan, yaşamaq mümkün deyil. Sibirlilərin özlərinə məxsus məişəti, həyat tərzi var idi. Həmin məişətin, həyat tərzinin üzərində illərin, əsrlərin izləri görünürdü. Bəzi mujiklər küçələrdənləngər vura-vura keçirdilər. Üst-başlarından pas yağırdı. Onlar xumarlanmış gözlərini dustaqlara dikmişdilər. Sibirlilərin bu zavallı insanlara yazığı gəlirdi. Onların üz-gözündən yorğunluq, yuxusuzluq yağırdı. Sibirlilər bunu yaxşı görürdülər. Bir çoxu türk soyndan olan adamlara oxşayırdılar. Qıyıq gözləri, yastı sifətləri, ətli-əndamlı üzləri, şappan dodaqları var idi. Bir neçəsi gözlərini Cavidə zilləmişdi. Onun yerişinə baxırdı. Amma onlar bilmirdilər ki, o, kimdir? Bilmirdilər ki, o, «Şərqin Şekspri»dir, Azərbaycan dramaturgiya-sının tanrısı, Azərbaycan faciəsinin atası, qızıl tacıdır. Bu böyük adamın, əvəzsiz sənətkarın canı Sibir torpağında çıxırdı.

## 44

Üç dost sibirdən qayıdıb. Zakir Cavidin dalınca gedərkən Fransaya səfərini təxirə salmışdı. İndi budur, o, artıq Fransadadır. Paris kafelərinin birində oturub. Yoldaşları ilə. Onlardan aralı bir neçə nəfər də əyləşib. Şirin türk ləhcəsində danışırlar. Bu dəm onlardan biri ayağa qalxıb, özünəməxsus tərzdə, ehtirasla Cavidin «Mənim Tanrım» şeirini oxuyur:

*Hər qulun cahanda bir pənahı var,*
*Hər əhli-halın bir qibləgahı var,*
*Hər kəsin bir eşqi, bir Allahı var,*
*Bənim Tanrım gözəllikdir, sevgidir.*

*Gözəl sevimlidir, cəllad olsa da;*

[*] Rusca danış...

*Sevgi xoşdur, sonu fəryad olsa da;*
*Uğrunda bənliyim bərbad olsa da,*
*Son dildarım gözəllikdir, sevgidir…*

Uzaq Fransanın paytaxtında, qərib bir məmləkətdə türk dilində Cavidin şeiri səslənir. Qəlbləri riqqətə gətirir, sevinclə, fərəhlə doludur bu şeir, insanlara qol-qanad verir. Zakir Sibir səfərindən danışır. Fərəh hissi onun daxilini bürüyür. Azərbaycanlılar tanış olurlar. Məlum olur ki, cavanlar Təbrizdəndir. Quzeyli-güneyli azərbaycanlılar bir stolun başına toplaşırlar. Məclis qızışır, söhbət uzanır. Quzeylilər eşidəndə ki, Zakir böyük şairin cismən vətənə qovuşmasında şəxsən iştirak edib, onun başına dolandılar. İnsana bundan da artıq xoşbəxtlik qismət ola bilərmi? Sonralar Fransa səfərindən söhbət düşəndə Zakir belə deyəcək:

- Düzünü desəm, mən o günə kimi Sibir səfərimizin mahiyyətini lazımınca qiymətləndirə bilməmişdim…

İllər ötəcək. Üç naxçıvanlının Cavidin cənazəsinin qalıqlarının Sibir torpağından çıxarılıb vətənə gətirilməsinin tarixi əhəmiyyəti daha dərindən dərk ediləcək.

45

Həmid 14 oktyabr-2 noyabr 1982-ci ildə ötdükləri marşurutu qələmə alıb hesabladı, xəritəsini cızdı.

Naxçıvan-Yerevan 170 km, Yerevan-Moskva 2766 km, Moskva-İrkutsk 5042 km, İrkutsk-Tayşet 670 km, Tayşet-Şevçenko 75 km bərabərdir 8723 km. Onlar bu qədər yol getmişdilər. Şevçenko-Tayşet 75 km, Tayşet-İrkutsk 670 km, İrkutsk-Moskva 5042, Moskva-Bakı 2858 km, Bakı-Naxçıvan 536 km bərabərdir 9281 km. Onlar bu qədər yolu geri qayıtmışlar. Üst-üstə 18004 km.

Həmid Cəfərov Cavidin dəfn edildiyi yerin və onun cənazəsinin qalıqlarının Naxçıvan şəhərinə gətirilməsinin marşurut sxemini də çəkmişdir. Burada İrkutsk vilayətinin, Tayşet rayonunun inzibati ərazi bölgüsü, vilayətin kilometrlə sahəsi, əhalisinin sayı və s. göstərilmiş, gediş-

gəliş hesablanmışdı: 17898 km. Həmin məsafəni biz də hesabladıq – 17904 km oldu. 17904 km çıx 17898 bərabərdir 6 km. Bu qədər fərq verdi.

Sxemdə Cavidin dəfn yerinə gedən komissiyanın üzvləri göstərilmişdir. Həmid Cəfərov – Azərbaycan KP Naxçıvan vilayət partiya komitəsinin katibi; Telman Əliyev – Naxçıvan daxili işlər nazirinin müavini; Zakir Nəsirov – SSRİ Ali Sovetinin deputatı.

Marşrut sxemi tam şəkildə belədir: Naxçıvan – Yerevan – Moskva – Selinoqrad – İrkutsk – Tayşet - Paris Kommunası - Verxnaya Qoqelevka - Nijnaya Qoqolevka – Kostromovo – Şevçenko – Kvitok – Tayşet – Omsk – Moskva – Bakı - Naxçıvan.

Cavidin «üç oğlu» şairin məzarının axtarıb tapılmasında zəhmət çəkən, iştirak edən, bu işə kömək göstərən xeyirxah adamlardan bir şey yazmağı xahiş etdilər. Onlar canla-başla razı oldular, öz xətlərilə aşağıdakıları yazdılar. Bunlar da tarix üçün çox əhəmiyyətli sənədlərdir.

46

**Medvedyev Rafael Qriqoryeviç** – 1925-ci ildə anadan olmuşam, 1945-ci ilin noyabrından DİN sistemində işləyirəm, Tayşetdə. 1941-ci ildə Hüseyn Cavidin dəfn olunduğu yerdə əlilləri müalicə etmək üçün böyük xəstəxana var idi. Xəstəxana ixtisaslı tibb kadrlarilə komplektləşdirilmişdi. Azərbaycan nümayəndələri ilə Şevçenko kəndinə getməmişdən qabaq, mən idarənin işçilərilə, təqaüdçülərlə, bir yerdə qulluq elədiyim adamlarla danışmış, yaddaşlarda qalan müəyyən şeyləri aydınlaşdırmışam. Çox həyəcan keçirirdim, ona görə ki, bəlkə 41 ildən sonra qəbri tapmaq mümkün olmadı. Çox şadam ki, Dİİ keçmiş işçilərinin, təqaüdçülərindən Tradakalonun, Ovsyannikovun – xüsusi hissənin işçilərinin köməkliyi ilə qəbri uğurla tapmaq və Hüseyn Cavidin meyitinin qalıqlarını götürmək baş tutdu. Ünvanım: İrkutsk ş. 47, A-Nevski küç, 69/88 Medvedyev Rafael Qriqoryeviç. Tel. ev 3-30-44. 21/X-82.

**Podqornı Leonid Nikolayeviç** – İrk. vil. Tayşet ş. Sanitar həkimi, rayon SES həkimi. Tereşkova küç., 4-50. İş t. 2-40-76, ev 3-18-23. Böyük

şair-dramaturq Hüseyn Cavidin cənazəsinin qalıqlarının tapılması mərasiminin iştirakçısı.

**Ovsyannikov Aleksey Stepanoviç** – 1926-cı ildə Altay vilayətinin Sovet rayonunun Krasnıy kəndində anadan olmuşam. İrkutsk vilayətinin Tayşet ş. yaşayıb və işləyirəm, Pobeda küç. № 236. Mən xəstəxananın yerləşdiyi yeri 1945-ci il sentyabr ayından tanıyırdım. Həmin xəstəxanada dəfələrlə olmuşam və buna görədir ki, mənə məzaristanın və qəbrin yerləşdiyi yeri tez tapmaq nəsib oldu. 22.10.1982-ci il.

**Jdankina Aleksandra Vasilyevna** – Tayşet ş. 5 km yaşayıram, ev 10, mənzil 4. mən 52-ci ildən 59-cu ilədək kalonun əlillər evində işləmişəm və Şevçenko kəndində yaşamışam. 21 №-li kalonu və orada işləyənləri üzdən yaxşı tanıyıram. 20/X-82.

**Şaydarov İqor Pavloviç.** № 24-69 isl. 21 okt. Mən Cəfərov H.Q., Əliyev T.B., Nəsirov Z.Ş. Yoldaşları Şevçenko k., Hüseyn Cavidin tapıldığı 59 №-li qəbrin olduğu yerə apardım və onu Tayşet ş. gətirdim. 2.30-tapdıq, 4.30 yola düşdük. Mənim ünvanım: Tayşet ş., Qorki küç., ev 5, mənz. 67. Tel. 30857.

Bu yazıdan aydın olur ki, İqor sürücüdür, «24-69 İSL» - maşının nömrəsidir.*

47

Cavid qara vaqonda yol gedirdi. Vaqonun təkərləri relsə dəyib taq-taq taqqıldayırdı. Vaqon qaranlıq idi. Göz-gözü görmürdü. Gecələr qatar stansiyalarda dayanarkən keşikçilər çəkici əllərinə alıb vaqonları bir-bir taqqıldadırdılar. Bununla vaqonların taxtalarının dustaqlar tərəfindən sındırılıb-sındırılmamasını yoxlayırdılar. Təkər və çəkiclərin taqqıltısı beyinlərə düşmüşdü. Dustaqlara məxsus vaqonlarda qəribə səslər eşidilirdi. Kimisi öskürürdü, kimi asqırırdı, kimin xorultusu vaqonu başına almışdı, kimi ağır nəfəs alırdı, kimi mürgüləyirdi. Kimi öz aləminə qapılmışdı, kimi zarıyırdı, kimi kimisə söyüb yamanlayırdı. Vaqon

* Həmin sənədlər Həmid Cəfərovun şəxsi arxivində saxlanılır.

cəhənnəmə bənzəyirdi. Sürgünçülər Sibirin torpaqlarını ölçürdülər. Parovoz növbəti stansiyalardan birində dayandı. Gözətçi vaqonun qapısına yaxınlaşıb qışqırdı:

- Kto xoçet opravitsə?

Yəni, su başına çıxan varmı? Vaqonun qapısı açıldı. Soyuq hava sel təki içəri doldu. Gözətçi yoğun səslə qışqırdı:

- Poçemu molçite? Kto xoçet otpravitsə, spuskaytesğ![*]

Dustaqlar yerlərini güclə isitmişdilər. Odur ki, bir çoxu ayağa durmaq istəmirdi. Bir nəfər vaqondan düşərkən gözü vaqonun qapısı ağzından bir qədər aralı uzanmış cansız bir vücuda sataşdı. O, hərəkətsiz idi. Əyilib baxdı. Gözləri bərəlirdi. Dustaq ölmüşdü. Gözətçiyə tərəf dönüb həyəcanla dedi:

- Smotrite, kto-to umer![**]

- Spuskayte eqo vniz![***]

Dustaqlar öləni aşağı düşürdülər. Dəmiryolundan bir qədər aralı qoydular. Bir neçə dəqiqədən sonra əmr verildi:

- Hamı vaqona!

Dustaqlar vaqona doluşdu. Kimsə dilləndi:

- Görəsən öləni götürüb basdıracaqlarmı?

Səslər eşidildi:

- Kimdir onu basdıran?

- Qurd-quşa yem olacaq…

Parovoz fısıldaya-fısıldaya sinəsini qabağa gətirib sürətlə gedirdi. Vaqonlar toyuğun balaları təki onun dalına düşmüşdülər. Vaqonda qəribə səslər eşidilirdi. Şairin başı bərk ağrıyırdı. Ayaqları ona əziyyət verirdi. Uzadıb-yığırdı ki, blkə ağrısı azalsın. Öz aləminə qapılmışdı şair. Üç nəfər barəsində fikirləşirdi şair…

---

[*] Nə üçün susursunuz? Kim su başına çıxmaq istəyirsə, aşağı düşsün!
[**] Baxın, kimsə ölüb!
[***] Onu aşağı düşürün!

48

Cavid bir ay idi ki, yol gedirdi. Təqvimdə yay ayı idi. Dustaqları «isti» vaxtda Tayşetə aparırdılar. Qışda oralara getmək mümkün deyildi. Şevçenko kəndinə getmək isə müşkül məsələydi. Ölkədə vəziyyət ağır idi. 1941-ci il iyunun 22-də alman faşistləri Sovet İttivaqına basqın etmişdilər. Dustaqlar bu xəbəri Maqadanda, Sibir torpağında… eşitdilər. Dərdləri az idi, bir dərd də üstünə gəldi…

«Böyük Vətən müharibəsi» anlayışı Stalin tərəfindən təsadüfən düşünülməmişdi. Oxucu dostum, bu rəqəmləri yaxşı yadında saxla. On doqquz milyon sovet vətəndaşı repressiyaya məruz qalmışdı, müharibədə otuz milyon sovet adamı həlak olacaq.

Yatab artıq Tayşetdə idi. Şevçenko kəndinə dəmir yolu yox idi. Ölkə ağır günlərini yaşayırdı. Sürgündə hər şey biri-birinə qarışmışdı. Hamıda bir əsəbilik, narazılıq, narahatlıq duyulurdu. Tayşetdən Şevçenko kəndinə yetmiş kilometrdən artıq yol vardı. Sürgünçülər bu yolu piyada getməli idilər. Cavidin səhhəti günü-gündən xarablaşırdı. Ayağını çəkirdi. Yol isə qurtarmaq bilmirdi ki, bilmirdi. Yatabda Cavidin həmyerliləri, sovet türkləri var idi. Onlar şairə kömək eləyir, bəzən taqətdən düşmüş şairin qoltuğuna girib aparırdılar. Hamı yorulub əldən düşmüşdü. Yolun hər iki tərəfi ağaclarla sıralanmışdı. Yol meşənin dərinliklərindən keçirdi. Göyə millənən ağacların başı görünmürdü. Havası burunlara dolub boşalırdı. Tayqa ağır nəfəs alırdı.

**Tayqa meşələri.** Burada qaçab heç bir yerdə gizlənə bilməzsən. O andaca qurd-quşa yem olarsan.

Tayqa meşələri! Burada yad adam o andaca tanınır. Hətta ağaclar da yad adamı tanıyır. Ona birtəhər baxır. Məhbuslar arasında qaçmaq xəyalına düşənlər də var idi. Qəlbi azadlıq həsrətilə çırpınan bir məhbus meşənin dərinliklərinə qaçırdı. Onu qarşıda nə gözləyirdi? O, bu haqda fikirləşmirdi. Dabanına tüpürüb qaçırdı. Ta ki dözülməz həyatdan xilas

olsun, azad nəfəs alsın. O, özünü vəhşi heyvanların qucağına atmağa hazır idi. Ta ki həyatını insan kimi vəhşi heyvanlardan qurtarsın.

Sürgündən həmişə qaçmaq olmaz. Bunun da vaxtı var. Yaz, payız. Payızda insanlar dəhşətli qışın gəlməsi barəsində düşünürdülər. Düşünürdülər ki, üzlərinə gələn qışdan sağ-salamat qurtaracaqlarmı? Qışda həbsxanada donub ölməkdənsə, bəlkə Sibir meşələrində yırtıcı heyvanlara yem olmaq yaxşıdı?.. Yazda-yayda məhbuslar qış barəsində fikirləşərkən canlarına üşütmə düşürdü. Qış ayları sürgünçülər üçün gözülməz əzaba çevrilirdi. Buna dözməyən, qışda həbsdən qaçan məhbusları bəzən yazda əriyən qarın altından, ya da buzun altından tapmaq olardı. Sibirin qışı, Sibir mühiti dəşhət, ölüm, qan püskürürdü.

49

Yatabdan qaçan az olur. Demək olar ki, olmur. Çünki onlar həbsxanadan, düşərgədən, üfunətli vaqondan düşürülüb, harasa aparılan adamlar olurlar. Onlar yerdə doyunca nəfəs almağa, hava udmağa çalışırlar. Onlar nisbətən azad, sərbəst məhbuslara çevrilirlər. Yatacaqları arabada olur. Onu da gizlincə götürə bilməzsən. Bir də görürsən ki, o dünyalıqsan. Yatabda sənəd yazılmır. Yazılsa da bir sənəd yazılır. O da belə bir «rəsmi» sənəddir: Sən qaçsan, yoldaşlarını yaman gündə qoyarsan. Sənin əvəzinə hamını güllələyərlər. Di hünərindi qaç!

Sibirdə hara baxırsan yaşıl meşə görürsən, qar, buz görürsən. Meşələrin ucu-bucağı yoxdur. Cansıxıcıdır. Hara baxırsan gördüyün şam ağacıdır, qara şam. Təkəmseyrək küknar, sidr ağacı, nadir hallarda isə tozağacı, ağcaqovaq görmək olar. Ağacların başında külək vıyıldayır. Külək ağacları yırğalayır. Ağacların başı bir-birinə toqquşub geri qayıdır. Arıquşuların səsi eşidilir, dələlər ağacdan-ağaca tullanır…

Cavid Şevçenko kəndinə aparılır. O, həddindən artıq zəifləmişdi, tez-tez təngənəfəs olur, kəsik-kəsik öskürür. Dərisi qabırğasına yapışıb. Ayaqları taqətdən düşüb. Şair tanınmaz dərəcədə dəyişib. Ancaq bir şeydə dəyişiməyib. Cavid, Cavid olaraq qalır.

- Bu da Şevçenko kəndi, - kimsə dilləndi.

- Bu da bizim əbədi məkanımız, - kimsə əlavə etdi.

Cavid Şevçenko kəndində az yaşayacaq. Cəmi bir neçə həftə. O, bu kəndə yaşamaq üçün deyil, ölmək üçün gətirilmişdi. O, bu kəndə çatanda payız düşmüşdü. Qış qapını almışdı. Ancaq şair qışı başa vurmayacaq, daha doğrusu, vura bilməyəcək.

Şairin vəziyyəti ağırlaşmışdı, halı pozulmuşdu, ayaqlarının altını soyuq aparmışdı. Son günlərini yaşairdı şair. Özünü-sözünü bilmirdi şair. Bəzən sayıqlayırdı. Halı yaxşılaşanda üç nəfər barəsində düşünürdü şair. Özü-özünə suallar verirdi: «Görəsən, necə yaşayır uşaqlar? Vəziyyətləri necədir? Dolanacaqları necədir? Görəsən, Ərtoğrolu əsgərliyə aparıblarmı?..» Suallar cavabsız qalırdı. Suallar dumanlı fikirlər içində bir anda yoxa çıxırdı. Şairin özü də sanki dumana bürünmüşdü.

O, 21-ci kalonun xəstəxanasına gətirildi. Soyuq aparmış ayaqlarının altı bərk incidirdi şairi. Həkim Vartminski yaxşı adama oxşayırdı. Şair hey ona deyirdi:

- Ürəyim zəifdir, ayağım incidir məni.

Həkim bildirdi ki, sənin ürəyinin döyüntüləri zəifləyib, ayaqlarını soyuq aparıb. Bu, xəstə üçün yaxşı əlamət deyil. Müdrik şair ölümünün yaxınlaşdığını hiss edirdi. Dəhşətli həyatın əlindən qurtulmaq üçün ucuz ölüm axtarırdı. Ancaq yaşamaq hissi ölmək hissinə qalib gəlirdi. Vətənə qayıtmaq arzusu ölümü dəf edirdi. Üç nəfərlə görüşmək arzusu ölümün üzərinə zərbələr endirirdi. Yaşamaq, yaratmaq həvəsi ölümün üzərində zəfər çalırdı. Bu qalibiyyət və məğlubiyyətin ömrünə isə az qalırdı. Şair bir zamanlar bir şeirində yazmışdı:

*Nə fəlakət bu, həm də müdhiş,*
*Ah, ölüm ən böyük səadət imiş.*

İndi onun özü həmin müdhiş fəlakət içində ölümü özünə ən böyük səadət hesab edirdi.

**5 dekabr 1941.** Oxucu dostum, bu tarixi yaxşı yadında saxla. 5 dekabr sovet adamları üçün əziz gün idi. Bu gündə sovet adamlarına böyük hüquqlar verilmişdi, SSRİ Konstitusiyası qəbul edilmişdi. Budur həmin hüquqlar: milyonlarla namuslu, günahsız sovet adamı Sibir meşələrində soyuqdan, aclıqdan, hüquqsuzluqdan məhv olur. Onlardan biri Caviddir. Əziz oxucum, bu tarixi yadında saxla. Həmin gün Sibirdə tufan qopacaq. Dəhşətli bir tufan! Sibir həmin günədək belə tufan görməmişdi. Vəhşi heyvanlar da qış yuxusundan oyanacaq. Hamısının gözü bərələ qalacaq. İnsanlar özlərini itirəcək, səksənəcək. Sibir belə tufan görməmişdi. Sibir belə acı fəryad eşitməmişdi…

Turan Cavid adi günlərini yaşayır. İşə gedir, işdən gəlir, məişət işlərilə məşğul olur, yasa gedir, qohum-əqraba, dost-tanışla görüşür, dərdləşir… Beləcə keçir Turanın günləri, güzəranı. Nə vaxtsa ona eşitdirmişdim ki, Cavidin həyatını yazmaq istəyirəm. O, heç bir söz deməmişdi. Susmuşdu. Mən isə ona çox nadir hallarda atasilə bağlı suallar vermişdim. Elə etməyə çalışmışdım ki, onun yaralarının gözünə duz səpməyim. Çox şeyi onun özü mənə danışmışdı. Bu, dünən olmuşdu. Fəqət bu gün mən bəzi şeyləri dəqiqləşdirmək üçün ona suallarla müraciət etməli oluram. Bəzi sualları verərkən o, tutulur. Bulud tək dolur. Dolan bulud boşalmalıdı. Ancaq bulud boşalmır. Daha da tündləşir, daha da sıxlaşır. Bir anlığa donub qalır Turan Cavid – hərəkətsiz, müşkül. Mənzildə lal bir sükut hökm sürür. Elə bir sükut ki, məni darıxdırır. Verdiyim sualın peşmançılığını çəkirəm. Mən Turan xanımı bu halda az görmüşəm. İndi isə o, sanki mənə deyir: «Gör, mən nələr çəkmişəm? Gör, mən nələr çəkmişəm? Gör suallar mənə necə təsir edir? Gör mən necə haldan-hala düşürəm? Gör, gör, gör…»

Mən özümü onun önündə günahkar bir adam təki hiss edirəm. Fəqət günahım yoxdu mənim. Mən həqiqəti bilməliyəm, öyrənməliyəm. Turan Cavid isə mənə həqiqətin həqiqətidir, həqiqətin açarıdır, tanrısıdır. Aradan bir müddət keçir. Handan-hana o, özünə gəlir. Təbii halına düşür.

İndi o, sanki bundan əvvəlki Turan deyildi. İnsan qəribə varlıqdı. İnsan aləmi nə qədər əlçatmazdı? Nəhayət, mənim də üzərimdən psixoloji gərginlik götürülür.

- Cavidin gözlüyü itmişdimi? – İlk sualım belə olur.

- O, gedəndə gözlüyünün ikisini də özüylə aparmışdı. Deyilənə görə, sürgündə itirib.

- Ənvər müəllimlə telefonla danışdım. Bəlkə görüşdük. Deyir ki, Cavidlə altı ay bir kamerada yatmışam.

- Hansı Ənvər? Ənvər Yusifoğu?

- Bəli.

- Hə, mən onu yaxşı tanıyıram. Bəs indiyədək nə üçün mənə bir kəlmə də olsun söz deməyib? Neçənci kamerada?

- Əlli dördüncü. Deyir ki, Cavid Lenin haqqında kamerada əsər yazırdı, ona yazmaq üçün yer düzəltmişdik.

Turan xanımı təəccüb, şübhə hissi bürüyür.

- Ehtiyatlı olmaq lazımdı, - deyir.

- Cavid tutulmamışdan qabaq Alma-Atada, Daşkənddə olmuşdur-mu?

- Yox.

- Cavid haqqında rəsmi orqanlara nə vaxt müraciət etmisiniz?

O, Cavidin şəxsi arxivində səliqə ilə saxlanılan kağızları mənə göstərir…

- Atanız səkkiz il həbs cəzasına məhkum olmuşdu. Siz bunu nə vaxt bildiniz?

- Elə həmin gün. Onda evlərdə telefon yox idi. Ancaq bir şey olan təki bütün şəhər bilirdi.

- Həbsxanada Cavidin Müşfiqlə üzləşdirilməsi ola bilərdimi?

Turan xanım çiyinlərini çəkir.

- Cavid Bakıda ən çox hansı həbsxanada yatıb?

- Daxili həbsxanada, NKVD-nin daxili həbsxanasında.

- Bəs Bayılda, Keşlədə?

- Orada çox az yatıb, bir-iki ay ola-olmaya.

- Atanız sürgündə olarkən yazmışdı ki, Turan tibb institutuna girsin. Girdinizmi?

- Girdim.

- Bir il oxudunuz?

Bu sual ona çox qəribə görünür. O,gülümsəyərək deyir:

- Beş gün!

- Neçənci ildə?

- 1944-cü ildə.

- Bəs teatr institutuna neçənci ildə daxil oldunuz?

- 1945-ci ildə...

Suallar, suallar! Sizi vermək nə qədər asandı...

## 51

Bakı, Nizami küçəsi 111/113, mənzil 66. Turan xanımın odası. İşdən təzəcə gəlib. Yorğun görünür. O, tez mətbəxə qaçır. Türk makaronundan dadlı xörək hazırlayır. Səhhətindən gileylənir. Deyir ki, gecə saat 3-4-də yatıram. Sara* xanımgilə getmişdim. Vəziyyəti ağırdı. Sara xanım dedi ki, uşaqlar atamın qəbri üstünə gül-çiçək dəstəsi aparıb qoyublar, bəlkə qəbrinin üstünü düzəltdilər.

Turan xanım mənim suallarımla bağlı keçmişə qayıdır.

- Qərənfillə qonşu idik. Tuta-tut dövrü idi. Birdən qapı döyüldü. Ürəyimiz içimizə düşdü. Ölüb dirildik. Ancaq səsimizi çıxarmadıq. Qorxurduq. Sən demə, qapını Qərənfilin qardaşı Həsənqulu döyürmüş. O, bizə baş çəkməyə gəlmişdi. Haçandan-haçana Həsənqulu dedi:

- Mənəm.

Qərənfil dözmədi:

- Zəhərimar mənəm, səsini çıxart da!..

O danışır, gözlərim önündə faşist cəlladları canlanır...

---

* Hacı Zeynalabidin qızı Sara xanım.

Uzaqdan Turan Cavid gəlir. Asta-asta, aram-aram. Onun yerişi atasının yerişinə oxşayır. Sanki Cavid gəlir… Onunla danışıram. O deyir:

- Dünən beş dəfə ürək dərmanı içmişəm. Ürək ağrısı üçün yaxşı dərman tapmışam. Mənə damcıynan yox, litrlə içmək lazımdı. Çox əsəbləşirəm. Əsəbləşməyim neyləyim? Əsəb neyləsin? Axı, neyləsin əsəb? Muzeyin açılışını bu qədər yubatmaqmı olar? Ürək nə qədər dözsün? Dözürsən, axı ömür gedir, gün gedir!..

Səsimi içimə çəkib, Turan xanımı dinləyirəm. İstəyirəm ürəyini boşaltsın. Mən də onun dediklərini olduğu kimi kağıza köçürüm. O, Cavid muzeyinin təşkil edilməsinə mane olan bir nəfərdən çox gileylənir, çox-çox…

- Dünyada nə qədər murdar adamlar, kirli domuzlar varmış?..

Bu sözləri ürəyimdə mən deyirəm.

52

**12 sentyabr 1988. Bakı.** Şəhərə bərk yağış yağıb. Turan xanımla telefonla danışıram.

- Hava tutqundur. Ürəyim bərk sıxılır. Dərman içmək istəmirəm. Ancaq deyəsən içəcəm.

Bunları o deyir. Mən soruşuram:

- Muzeylə əlaqədar birinci şəxsin yanına getdinizmi?

- Yox hələ. Abbas Zamanov zəng vurmuşdu. Deyəsən yer axtarırlar. Sonra başqa bir yerdən zəng eləmişdilər. Bərk hirsləndim. Sərt danışdım. Dedim ki, muzeylə əlaqədar bütün məsələləri mənimlə həll edin. O işi məndən yaxşı kim biləcək?.. Bir nəfəri gördüm. Dedi ki, nə yaman arıqlamısan. Necə arıqlamayım? Nahar yeməyi də yadımdan çıxır... Mağazaya getmişdim. Şey-şüy aldım. Pulunu vermək yadımdan çıxdı. Qayıdıb verdim. O qədər fikirliyəm ki… O qədər əsəbləşirəm ki…

- Dünən televizorda Hüseyn İbrahimovun çıxışına qulaq asdınızmı? Dedi ki, Cavid haqqında roman yazıram.

- Hə…

53

**Şevçenko. 5 dekabr. 21-ci kalonun xəstəxanası.**

**Saat 22:30.** Oxucu dostum! İrkutsk vaxtilə saat on birin yarısına az qalıb. Burada bir nəfər böyük şair və dramaturq, bir namuslu, vətənpərvər, qeyrətli, dəyanətli sovet vətəndaşı can üstədir, könlü intizardadır. Yaxın adamlarından heç kəs yanında yoxdur. O, Caviddir! Xalqın sevimlisi Cavid!

Şair can üstəydi. Onun ahı Sibirdə ölənlərin ahına qarışmışdı. Buna görə də Sibir meşələri dənizlər, okeanlar tək təlatümə gəlmişdi. Buna görəydi ki, Sibirdə tufan qopmuşdu. Elə bir tufan ki, Sibir onu görməmişdi, eşitməmişdi. Sibirin ürəyi göynəyirdi. Sibirin ürəyinə ox sancılırdı. Sibir torpağı ah-naləyə çevrilmişdi. Sibir torpağı Vətənin şərəfli, vicdanlı, mərd, igid oğullarını kamına çəkirdi. Bu gün Cavid can üstəydi. Sanki Sibir torpağında əbədi uyuyan adamlar baş qaldırmışdı. Səsini Cavidin səsinə qoşub kainata, insanlara, Allahlara qarşı üsyan edirdi.

*Dinləyin, bir də bulunmaz [Cavid],*
*İştə, məndən gələcək nəslə pəyamid:*
*Xilqətin şənliyi, hər rəngi sizin,*
*Parlayıb gurlayın ahəngi sizin.*
*Gömməyin heçliyə fürsət dəmini,*
*Xoş görün zövqü səfa aləmini.*
*Dün bir əfsanə, yarındır xülya,*
*İki heç… hər biri müzlüm röya*
*Geri dönməz bu şətarətli zaman.*
*Qıyaraq bir gün əcəl verməz aman.*
*Bir nəfəsdir bu sürəksizcə həyat.*
*Bir nəfəs!.. Getdimi? Gəlməz…*
*Heyhat!..*

54

Qasım Vahabzadə:

- 1942-ci ilin aprel ayında mən olduğum düşərgəyə (Susuma) 23-cü km-dən yatab (dustaqlar) gətirdilər. Onların arasında bir azərbaycanlı da var idi. Əlbəttə, birinci işim Cavid əfəndidən bir xəbər bilmək idi. Həmin adam Cavid əfəndinin artıq həyatda olmadığını bildirdi. Beləliklə, Cavid əfəndinin vəfatı ya 1941-ci ilin noyabr-dekabr, ya da 1942-ci ilin yanvar-fevral aylarına təsadüf edir.

Mənimlə düşərgədə Azərbaycan ziyalılarından 1907-ci ildə Qori seminariyasını bitirmiş, şəxsən Cavid əfəndiilə tanış-dost olmuş Əliyev Yusif vətəndən uzaq, tənhalıqda göz yaşları, qəlb ağrıları ilə vətənimizin, xalqımızın bu əvəzsiz oğluna matəm saxladıq.

Cavid əfəndiyə hörmət və məhəbbət əlaməti olaraq yeganə qızımın adını Cavid əfəndinin çox sevdiyi yeganə qızı Turan xanımın adı ilə adlandırmışam. Vahabzadə Qasım Hənifə oğlu, əməkdar müəllim, Bakı. 15.XI.75.

55

Cavid 5 dekabr 1941-ci ildə həlak olmuşdu. Beş aydan çox idi ki, ölkədə Böyük Vətən müharibəsi gedirdi. Qəhrəman sovet adamları döyüş meydanlarında ölürdülər. Qəhrəman sovet adamları Sibirdə can verirdilər.

Həmin ölümün böyük rəmzi mənası var idi. SSRİ konstitusiyası – Stalin konstitusiyası beş dekabrda qəbul edilmişdi. Şair həmin gün təsadüfən ölməmişdi. Bu, şairin Stalin konstitusiyasına bəlkə də protesti, Stalin rejiminə etirazı idi...

Cavid 1941-ci il dekabrın 5-də öləcək. Ancaq həmin tarix Azərbaycan ədəbiyyatı tarixi kitablarında, orta məktəb üçün yazılmış ədəbiyyat dərsliklərində «1944» göstəriləcək. Bir nəfərin ağlına gəlməyəcək ki, onun ailəsinə müraciət etsin, şairin ölüm tarixini dəqiqləşdirsin. Biz də həmin kitabları oxuyub, orada yazılanlara inanacağıq.

Həmin gecə ərindən çox-çox uzaq olan Mişkinazın yuxusuna Cavidi girəcək. Mişkinaz nə şəkildə görürdü Cavidini?.. İlan vurmuş təki yerindən qalxacaq Mişkinaz. Əli çırağa dəyəcək, şüşə yerə düşüb çilik-çilik olacaq. Cavidin evinin «işığı sönəcək», Cavidin ocağına «qaranlıq çökəcək». Bir daha bu evdə Cavid işığı yanmayacaq. Bu, telepatiyadırmı? Təsadüfdürmü? Zərurətdirmi? Xeyr, oxucum, bunun hamısıdır.

Cavid Mişkinazsız, Mişkinaz Cavidsiz, Cavid Ərtoğrolsuz, Turansız yaşaya bilmirdi, hər dərddən yaman idi ayrılıq dərdi. O gecə Cavidin ruhu Sibirdən uçub Bakıya gəlmişdi. Evi-eşiyi dolanırdı. Evdə üç nəfər yuxuya getmişdi. Şairin ruhu hər yeri dolandı, qapıya baxdı, pəncərəyə baxdı. Bu, Cavidin əvvəlki evi deyildi. Cavidin ailəsi doqquz kvadrat metrlik bir daxmada yaşayırdı. Cavidin ruhu köhnə evə getdi. Orada hər şey dəyişmişdi, hər şey şairə yad görünürdü. Otaq soyuq, divar soyuq idi. Sibirin havasından da soyuq idi. Şairin ruhu «yeni mənzilə» qayıtdı. Dar və rütubətli idi bu mənzil. Nəfəs almaq olmurdu bu mənzildə. Ancaq şair üçün əziz idi bu mənzil. Burada onun iki əzizi yatırdı. Üçüncüsü – Ərtoğrolu əsgərlikdə idi. O, bir-bir onlara yaxınlaşdı. Hər birinin üzündən öpdü. Ayrılmaq istəmirdi şair bu iki nəfərdən. Hər bir dərddən yaman idi ayrılıq dərdi. Şair pıçıldadı: Əcəl güclü, bən gücsüzəm, kimsə ondan qurtulmaz... Uçub getdi şairin ruhu Sibirə. Mişkinaz yerindən dik atıldı. Gözləri Cavidini axtardı. Yox idi Cavid, olmayacaq Cavid, bir də bu evə ayaq basmayacaq Cavid!..

Şair Sibirdə can üstəydi, gözləri yolda, könlü intizardaydı. Fikirləri dumana, çənə bürünmüşdü. Özünü zil qaranlığın içində görürdü şair. Dilində qırıq-qırıq sözlər eşidilirdi: Miş..., Ər...to...ğ..., Tu...r...an... 5 dekabr 1941-ci il İrkutsk vaxtilə saat 22:30 dəqiqə idi.

*Getdi, eyvah!.. O fəzilət, o zəka!*
*Əbədi susdu o qüdrət, o dəha...*
*Söndü bir anda o sönməz atəş.*
*Fərqi yox, batsa da parlar o günəş!*

56

Xəstəxanaya səs yayıldı. Səs yayıldı ki, bir nəfər xəstə ölüb. Bir azdan sonra hamı bildi ki, o, Caviddir. Şairdi, dramaturqdu, azərbaycanlıdır. Özlərini saxlaya bilməyib ağlayanlar da oldu. Həkimlər, növbətçilər, azərbaycanlılar, başqa millətlərdən olanlar palataya toplaşdı. 21-ci kalonun xəstəxanasının palata növbətçisi F.Fisunenko kalonun rəisi D.Sinişinə, əlillər xəstəxanasının müdiri həkim P.Vartminskiyə xəbər verdi. Onlar palataya gəldilər. Şair xəstəxanaya noyabrın on yeddisində gətirilmişdi. Cəmi on səkkiz gün idi ki, xəstəxanada yatırdı. Bu gün isə keçinmişdi. Şair keçinərkən palatanın ordinatoru palatada yox idi.

Sibirdə qışın oğlan çağı idi. Bərk tufan qopmuşdu. Şairin əlli doqquz yaşının tamam olmasından otuz beş gün keçirdi. Onu tibbi müayinədən keçirdilər. Belə bir nəticəyə gəldilər: Ölüm hər iki ayağın pəncəsini soyun aparması nəticəsində əmələ gəlmiş sepsisdən ürək fəaliyyətdə olarkən baş vermişdir.

Onun əynində tünd alt paltarı var idi. Ayaqlarındakı toxunma yun coraba toxunmadılar. Həmin yun corabları vaxtilə Mişkinaz toxumuşdu. Ayaqlarının pəncələrini soyuq apardığından şair corablarını nəinki gündüzlər, heç gecələr də çıxarmazdı, corablarda yatardı. Yun corabları çıxarmadılar ki, «Caviddən bir nişanə qalsın.» Nə bilmək olar gələcəkdə nə olacaq?.. Şair yatarkən üstünə qara odeyal salardı. Cənazəni həmin odeyala bükdülər. Şair əlli doqquz yaşında ölmüşdü. Onun ölümünə aid əlli doqquz nömrəli akt tərtib etdilər.

Sibirdə «hər tərəf məzarlıq, hər yer qəmxana» idi…

57

**A K T № 59**

**1941-ci il 5 dekabr**

Zaplak şöbəsi _______ kalon İnvalidlər №21

Biz, aşağıda imza atanlar, kalonda kalonun rəisi Sinişin D.J. İnv. xəstəxanasının müd. həkim Vartminski P.P. palatanın ordinatoru

__________ və palatanın növbətçisi Fisunenko F.E. bu aktı ona görə yazırıq ki, bu gün 5 dekabr ayı 1941-ci ildə saat 22:30 dəq. müalicədə olan, yuxarıda adı çəkilən xəstəxanada inval. məhbus Hüseyn Cavid öldü, müalicə olunmağa gəlmişdi 17.XI.1941-ci ildə məhbus Hüseynin 59 yaşı vardı ______________________ Zaplag, gəlib

evli, subay, arvadı ölüb, boşanıb

«___» _______ 193-cü ildə məhbus kimi _____Osob. Soveh D.İ.X.K. ASA

kim tərəfindən, nə vaxt

CM___ maddə üzrə __8__ müddətinə doğulduğu yer Naxçıvan ş. ________

neçə il

Onun ailəsi yaşayır ____________________________________________

Meyitin zahiri müayinəsi zamanı aşağıdakı əlamətlər müəyyən edildi: boyu orta sm. gözlərinin rəngi boz, tüklərinin rəngi: başında xurmayı, saqqalı çal, bığlarında _______ bədəninə şəkil döydürmüşdü, _________ şəkildədi ________ Bundan başqa, ________ tapılmışdı _________ Ölüm hər hər iki ayağının pəncəsini soyuq aparması nəticəsində əmələ gəlmiş sepsisdən ürək fəaliyyətdə olarkən baş vermişdir.

Hüseyn ölərkən onun keçmiş, əlillər xəstəxanasına düşərkən üstündə olduğu şeylər götürülüb saxlanmaq üçün saxlama yerinə №-li ________ qəbzlə «___» ________ 193__ -cü ildə verilmişdir.

Həmin akt yazılmışdır __________ nüsxə

İmzalar: Sinişin
Vartminski
Fisunenko

58

Mən aktın formasını olduğu kimi saxlamağa çalışmışam. Yazılışında cüzi sərbəstliyə yol vermişəm. Başqa sözlə, ixtisarla yazılmış bəzi sözləri açmışam. Ancaq elə sözlər var ki, onlar bu sətirlərin müəllifi üçün qaranlıqdır. «Zaplag»ri ya «Zapadnıy lager» («Qərb düşərgəsi»), ya da «zapreşşyonnıy lager» «Bağlı düşərgə» kimi oxumaq olar. «Osob. Soveş» - Cavid həmin sözü məktublarından birində də göstərib. Mənası «Xüsusi Müşavirə»dir, tam şəkildə belədir: «SSRİ XDİK-nın 1939-cu il 9

iyun tarixli Xüsusi Müşavirəsinin qərarı». «UK-CM» - «uqolovnıy kodeks» - «cinayət məcəlləsi», «ASA» - antisovetskaya agitasiya – antisovet təbliğatı. «D.İ.X.K.» - Daxili İşlər Xalq Komissarlığı. «Xurmayı» - «açıq şabalıdı rəngli» də oxuna bilər və s.

Orta boylu şairi taxta tağbuta qoydular. Tabutu mismarladılar. Bel sapı boyda bir ağacın üstünə taxta vurdular. Orada belə bir rəqəm oydular: 59. Bu, həm aktın, həm də qəbrin nömrəsi idi.* Məzaristanda ikinci belə bir nömrəyə rast gəlmək olmazdı. Hər dustağın, hər ölənin bir nömrəsi vardı. Qayda beləydi. Cənazəni Moskvadan xüsusi komissiyanın nümayəndəsi gələnədək saxladılar. Öz əcəli ilə ödüyünü müayinə edib təsdiq etdilər. Dəfninə icazə verdilər.

**7 dekabr 1941.** Dörd nəfər, Sitnik, Sinişin, Lapkin və Koçnyev məhbusların köməyilə tabutu məzarıstana gətirdilər. Şevçenko kəndinin yaxınlığındakı körpüdən keçdilər. Buradan qəbiristanlığa min addımlıq yol vardı. Hava çox soyuq idi. Onlar məzarlığa çatdılar. Tabutu qarın üstünə qoydular. Şaxta hər şeyi dondurmuşdu. Torpağın üst qatı dəmir kimiydi. Onlar buzu qırmağa başladılar. Nəhayət, süxur yumşaldı. İki metr dərinliyində məzar qazıldı. Tabut məzara endirildi. Cənazənin başı şərq tərəfə qoyuldu. Meşədəki dərin sükutu Cavidi dəfn edənlərin səsi, nəfəsi, hənirtisi pozurdu. Tabutun üstünü torpaqladılar. Torpaq yerin səthindən hündür oldu. «59» rəqəmi oyulmuş və bir parça taxtaya mıxlanmış ağacı möhkəmcə torpağa quyuladılar. Şairin cənazəsi Sibir torpağına tapşırıldı.

59

**A K T № 59**

1941-ci ilin dekabrın 7-si günü biz, aşağıda imza atanlar, əmək üzrə köməkçi Sitnik A.T., təsərrüfat müdiri Şinişin D.Y., növbətçi feldşer Lapkin K.İ. və hərbi mühafizənin növbətçi döyüşçüsü Koçnyev bu aktı ona görə yazırıq ki, bu gün 7 dekabr 1941-ci ildə İrkutsk vilayətinin

* Şair 59 yaşında ölmüşdü. Bəlkə həmin rəqəm onun ömürsürmə tarixini də göstərir.

Tayşet rayonunun Şevçenko kəndi yaxınlığındakı məzarıstanda 21 nömrəli kalonun məhbusu l/d 13133 1882-ci ildə doğulmuş, Naxçıvan şəh. anadan olmuş, cəza müddəti 4/VI-1937-ci ildən başlanan Hüseyn Cavid dəfn edildi.

Əlamətləri: orta boylu, gözləri – boz, başındakı tükünün rəngi – xurmayı. Hüseyn Cavidin meyiti taxta tabuta qoyuldu, əyninə tünd alt paltarı geyindirilib, başı şərq tərəfə qoyuldu. Qəbrin dərinliyi iki metr, yeri-59.

21 nömrəli kalon. Əmək üzrə köməkçisi
Təsərrüfat müdiri
Növbətçi feldşer
Hərbi mühafizənin növbətçi döyüşçüsü

«L/d» - mən bu sözü rus dilindəki təki yazmışam, belə oxuyuram: liçnoe delo – şəxsi işi.

60

Üç nəfər cənublu yoldaşları ilə bərabər, Cavidin tabutunu çıxarıb qarın üstünə qoydular. Hamı həyəcanlı idi. Sonra bir sənəd yazıldı. Sənəddə göstərilirdi: «Bu qəbirdən böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin cənazəsi çıxarılıb aparılmışdır».

Sənədi hamı imzaladı. O, şüşə qaba qoyuldu. Ağzı surquçlandı. Sonra qəbirə qoyuldu. Üstü torpaqlandı. Cavid sanki indicə vəfat etmişdi. Mitinq açıq elan edildi. Polkovnik Telman əliyev, Medvedyev danışdı. Onlar Caviddən, onun taleyindən söhbət açdılar. Mitinq iştirakçıları həm qəmləndi, həm də sevindilər. Sonra əsgərlər yüz yaylım atəşi açdılar. Sibir meşləri səksəndi. Sibir meşlərində çoxlu atəş açılmışdı, güllə səsi eşidilmişdi. Ancaq bu səs o səsə bənzəmirdi. Ona görə də bu səs Sibir meşələrini sanki dilə gətirdi, sanki danışdırdı. Sibir meşələri Cavidin anadan olmasının 100 illiyini qeyd edirdi. Dərin hüzn və kədər böyük şadlıq və sevincə qarışmışdı.

Həmid, Telman, Zakir, Qəhrəman, Qəhrəmanın dostları tabutu qaldırdılar. Çiyinlərində yüz-yüz əlli metr apardılar. Maşina qoydular. Cavid qabaqda gedirdi. Arxadakılar onu müşayiət edirdilər. Axşam saat doqquzun yarısında Tayşetə çatdılar. Sibirli Qəhrəmanın evində gözəl bir məclis quruldu. Stolun üstündə Cavidin vətənində gətirilmiş bütün nemətlər var idi. İlk tikələr səssizcə, dinməz-söyləməz kəsildi. Sonra məclisə şeir gəldi, Cavid şeiri. Çox maraqlı bir Cavid məclisi quruldu. Məclisdə ulu şairin yaşının yüz illiyi qeyd olunurdu. Minnətdarlıqlar, göz yaşları, sevinclər məclisə xüsusi məna verirdi.

Cavidi təyyarədə aparmaq üçün lazımi sənədlər hazırlandı. Sibirə üç nəfər gəlmişdi. İndi Sibirdən dörd nəfər geri qayıdırdı. Onlardan biri saçı-saqqalı qar kimi ağarmış qoca Cavid idi.

## 61

**26 oktyabr 1982.** 861 nömrəli Moskva-Bakı reysi ilə uçan təyyarə havaya qalxır. Aylarla yol gedən şair bir neçə saatdan sonra Bakıda təyyarədən yerə enir. Şairə vətən havası dəyir. Onu qarşılamağa çox adam toplaşmışdı. Ancaq onun gözü üç adamı axtarır. Onlardan ikisi yoxdu. Heç olmayacaq da. Cavidin görüşünə gələ bilməycəklər. Biri gəlib. O da Turandır. Saçlarına dən düşüb Turanın. Yaşa dolub Turan. Bir ildən sonra altmış yaşı tamam olacaq Turanın. Ata-bala xəyalən bir-birinə sarılırlar.

- Cavid harada dəfn olunacaq?

Bu sual hamını düşündürdü. Böyüyü də, kiçiyi də, fəhləni də, kəndlini də, ziyalını da, alimi də. Ancaq hamıdan ziyadə onun qızını düşündürdü. O, çox istəyirdi ki, atasını anasının yanında Bakıda dəfn etsinlər. Uzun illər bir-birinə həsrət qalan bu iki adam, ər-arvad heç olmazsa o dünyada yanaşı yatsınlar. Doyunca dərdləşsinlər, doyunca söhbət etsinlər. Cavid başına gələn müdhiş hadisələrdən söhbət açsın, Mişkinaz onu dinləsin. Cavidin dünyadan nakam gedən oğlunun taleyini onun anasından öyrənsin.

Üç dost, üç yoldaş isə çox istəyirdi ki, Cavid ana vətənində, qədim Naxçıvan torpağında dəfn edilsin. Azərbaycan SSR Elmlər Akademiyasında bu məsələni müzakirə etmək üçün böyük məclis quruldu. Məclisdə partiya və hökumət nümayəndələri, şair və yazıçılar, alimlər və ziyalılar, zəhmətkeş xalqın nümayəndələri iştirak edirdilər. Fikir haçalandı, təkliflər parçalandı. Biri dedi:

- Bakıda, fəxri xiyabanda dəfn edilsin.

Başqa birisi etirazını bildirdi:

- Naxçıvanda, boya-başa çatdığı yerdə dəfn edilsin, bu qədim şəhər müqəddəs ziyarətgaha çevrilsin.

İkinci təklifin tərəfdarları üstün gəldilər. Həmin qərardan razı qalanlar da var idi, qalmayanlar da…

Heydər Əliyev:

- Hüseyn Cavidə gəlincə, o, Azərbaycan ədəbiyyatında görkəmli simadır, ona «Şərqin Şekspiri» deyərdilər. Əsərlərini oxuduqca Cavidin Azərbaycan üçün necə böyük bir sərvət olduğunu bir daha yəqin edirsən. Onun qəbrini tapmaq, sümüklərini gətirib doğma torpağında basdırmaq o qədər də asan deyildi. Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, fəxri xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin, hansı təklif daha düz olub! Fəxri xiyabanda yan-yana yatan dahilər çoxdur. Lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək.

62

**3 noyabr 1982.** Cavidin «Kommunist» küçəsindəki evi. İndiki Elmlər Akademiyasının Əlyazmaları İnstitutu. Cavidin yaşadığı bina matəm libası geyib. Böyük bir salon xalçalarla bəzədilib. Yuxarı başdan Cavidin portreti vurulub. Portret qara haşiyəyə alınıb. Ortada böyük bir tabut qoyulub. Bu, şairin tabutudur. O, gül-çiçəyə qərq olub. Yüz yaşlı şair sanki indi ölüb. Adamlar Cavidi son mənzilə yola salmağa gəlib. Cavidin «mənzili» həyəcan, kədər, sevinc, şadlıq içindədir. Hamı

respublikanın partiya və hökumət rəhbərlərini gözləyir. Alimlər, şairlər, yazıçılar, ziyalılar, adi zəhmət adamları, Cavidin xatirəsini əziz tutanlar salona toplaşıb. İynə atsan, yerə düşməz. Salonda səslər eşidirəm:

- Utanmırlar, hələ bir ölüsünün üstünə də gəliblər.

Bunu deyən sanki hamı onu eşitsin deyə həmin sözləri bir də təkrar edir.

*Mənə hər çeşiddə quyular qazır,*
*- Ağda, qırmızıda, göydə, mavidə.*
*Ayağımdan çəkir, başımdan basır.*
*Sonra yas saxlayır Hüseyn Cavidə.*

Salonda səslər eşidilir:

- Cavidi güdaza verənlərin bəzisi buradadır.

Kimsə kinayə ilə belə deyir:

- Nə qədər alçaq adamlar varmış?!.

- Utanmır, hələ başına bir papaq da qoyur!..

Son fikir Süeyman Rüstəmin ünvanına deyilir.

Qulu Xəlilovun səsi daha hündürdən eşidilir. Səsini çıxarmayanlar, içində boğanlar da var. Beləlləri vaxtilə Cavidə böhtan atanlar, qara yaxanlara qarşı nifrət və qəzəblərini içlərində ifadə edirlər, ürəklərində deyirlər. Mən də onlar kimi...

## 63

Başda Heydər Əliyev olmaqla, respublikanın partiya və hökumət rəhbərləri Cavidi son mənzilə yola salmağa gəlirlər. Partiya və hökumət rəhbərləri fəxri keşikdə dayanırlar. Əliyev cənazənin qarşısında baş əyir. Turan xanıma tərəf addımlayır. Ona başsağlığı verir. Turan xanımla on-on beş dəqiqə söhbət edir. Turan xanım danışır, Əliyev şairin qızının dediklərini diqqətlə dinləyir. Turan xanım ona dərin, səmimi təşəkkürünü bildirir. İşarə ilə yuxarını, üçüncü mərtəbəni göstərərək deyir: «Biz

---

Qeyd. Əliyevin təşəbbüsü ilə Nazirlər Kabinetinin qərarı ilə Cavidin ev muzeyi 1995-ci ildə vaxtilə yaşadığı mənzildə təşkil edildi. Turan xanım dedi: «Onların illərlə həll edə bilmədiyi məsələni Heydər Əliyev iki saatda həll etdi.»

ailəlikcə orada yaşamışıq, on yeddi il. Xahiş edirəm Cavidin ev-muzeyi burada təşkil edilsin».

Cavidin cənazəsi el qaydası ilə yerdən qaldırılır. Cavid iyirmi ildən çox yaşadığı Bakıyla vidalaşır… Bakı-Naxçıvan reysilə uçan «YAK-40» markalı xüsusi təyyarə havaya qalxır. Təyyarə Cavidi naxçıvanlılarla görüşə, qədim Naxçıvan torpağında əbədi yuxuya dalmağa, son mənzildə uyumağa aparır. Naxçıvan şairi böyük sevinc, tükənməz kədər içində qarşılayır. O, bir gecə doğma evlərində gecələyir. Noyabrın 4-də şəhərin mərkəzində, doğulduğu evin yaxınlığında dəfn edilir.

64

**12-16 aprel 1956.** Bakı, Dzerjinski adına klub. Burada SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası keçirilir. Məhkəmə prosesi SSRİ-nin baş prokuroru, dövlət ittihamçısı R.A.Rudenkonun iştirakı ilə keçir. Məhkəmənin sədri general-leytenant A.Çeptsovdur. Müttəhimlər kürsüsündə dəhşətli cinayətlər, fəlakətlər törədənlər oturmuşlar: M.Bağırov, X.Qriqoryan, A.Markaryan, T.Borşev, A.Atakişiyev, S.Yemelyanov. Y.Sumbatov – Topuridze xəstə olduğu üçün müttəhimlər kürsüsündə əyləşməyib… Məhkəmə ədalətli qərar çıxarır. Minlərlə adamı güllələyənlərin özləri güllələnir.

Azərbaycan dərindən köks ötürdü. Azad nəfəs aldı. Azərbaycan dərindən ah çəkdi. Fəqət xof, qorxu, hürkü, səksəkə hələ beyinlərdən silinməmişdi. Onun silinməsi üçün vaxt lazım idi…

Bağırovdan qabaq Beriya həbs edildi. Xruşşov bu işdə xüsusi şücaət göstərdi. Qəzetlər Beriyanın həbsi barəsində məlumatlar verdilər. Çoxları buna inana bilmirdi. Adamlar düşünürdülər:

- Bəlkə yalandı?..

- Birdən hər şey dəyişsə?.. Zaman geri dönsə?..

- Allah eləməsin!..

Beriya güllələndi. Sovet İttifaqı dərindən köks ötürdü. Azad nəfəs aldı. Ölkə dərin ah çəkdi. Ancaq xof, qorxu, hürkü, səksəkə beyinlərdən

silinmirdi ki, silinmirdi. Adamlar Beriyanın ölümünə inanmırdılar. O isə ölümə hazır deyildi. Yaşamaq istəyirdi, qan çanağında rəqs etmək istəyirdi. O, ölümün gözünə dik, mərdi-mərdanə, kişi təki baxa bilmirdi. Yalvarırdı, dizin-dizin sürünürdü. «Öldürməyin məni, mənim günahım yoxdur!» deyirdi. Ölümün əlindən qurtulub qaçmaq istəyirdi. Artıq gec idi…

65

**Sentyabr 1988-ci il.** Moskva, Vorovski küçəsi, SSRİ Ali Məhkəməsinin binası. Burada zırpı-zırpı adamların, vəzifəli şəxslərin korrupsiya, rüşvət… üstündə açıq məhkəməsi gedir. Stalinin vaxtında rüşvətxorluğun, demək olar ki, kökü kəsilmişdi. İndi rüşvətxorluq yenidən dirçəlib, korrupsiya ictimai təhlükəli, dəhşətli bir bəlaya çevrilib. Müqəssirlər kürsüsündə oturanların hamısı daxili işlər orqanlarının məsul əməkdaşlarıdır. Xarici görkəmlərinə görə adi insanlardı, başqalarından heç nəylərilə fərqlənmirlər. Onlar yaxşı geyinmiş, üzlərini qırxdırmış, saçlarını vurdurmuş gözəl-göyçək adamlardı – cinayətkarlardı. Onların ittihamnaməsi beş ağır clddə toplanmışdı. Təkcə həmin ittihamnaməni oxumaq üçün bir neçə gün vaxt gərəkdi…

Azərbaycanda yetmişinci illərdi… Respublika daxili işlər naziri Arif Heydərovu, onun müavini S.Kazımovu nazirliyin əməkdaşı qətlə yetirir, qatilin özü də qətlə yetirilir. Nadir Mehdiyev tutulub həbs edilir, iki il həbsxanada yatır, Moskva işə qarışandan sonra azad edilir. Respublika prokurorluğunun istintaq şöbəsinin rəisi İ.Babayevi güllələyirlər. Belə-belə işlər, oxucu dostum…

66

**Noyabr 1956. Bakı.** Cavidin ailəsi nigarançılıq içindədi. Cavidin ailəsi Cavidi axtarır, daxili işlər orqanlarına müraciət edir. Cavablar isə dəqiq-dürüst verilmir. Budur, Mişkinaz 1956-cı il 29 noyabr tarixli ərizə ilə Primorsk Daxili İşlər İdarəsinə müraciət edir. Cavidini axtarır Mişkinaz. Ona dörd aydan sonra cavab verirlər.

Primorsk zəhmətkeş deputatları soveti

Daxili İşlər İdarəsi

№ 3/3-D-5 «5» aprel 1957-ci il Vladivostok ş.

Vətəndaş Mişkinaz Cavidə

Bakı ş. Sovet küç. № 70

Bildiririk ki, Sizin Hüseyn Cavidin axtarışı ilə əlaqədar 29.XI.1956-cıil tarixli ərizəniz «5» aprel 1957-ci ildə əlavə yoxlanmaqdan ötrü bu ünvana göndərilib: İrkutsk vilayəti, Zaqorsk qəs. poçt qutusu HS-120.

Axtarılan adam haqqında bizdə məlumat yoxdu.

Primorsk vilrayicrakomu DİN şöbə rəisi

Rəis imza atmış, ancaq familiyasını göstərməyi «unutmuşdur».

«HS» - hərbi səhra.

Nisgilli Mişkinaz Cavid SSRİ Daxili İşlər Nazirliyinə müraciət edir. Cavidini axtarır Mişkinaz. Onu tapa biləcəkmi?.. Onun öldüyünü, qaldığını dəqiq öyrənmək istəyir Mişkinaz. Budur, nəhayət, ona düzgün cavab verirlər. Mişkinazın dizləri uçunur, ürəyi ovucda sıxılmış sərçə ürəyi kimi çırpınır Mişkinazın. Sanki kimsə bağırır:

- Al, bu da dəqiq cavab, dincəl Mişkinaz!..

67

SSRİ DİN İdarəsi

18 aprel 1957-ci il

№ 150

Bakı şəhəri, Sovet küç. 70

Mişkinaz Cavidə

Sizin məktubunuza cavab olaraq bildiririk ki, Sizin ərizəniz, 1882-ci ildə anadan olmuş Hüseyn Cavid «5» dekabr 1941-ci ildə ölmüşdür. Ölüm haqqında şəhadətnaməni almaq üçün Bakı şəhər DİNİ VVAŞ-a müraciət edə bilərsiniz.

Bildiriş onlara 18 aprel 1957-ci ildə göndərilmişdir, №-si 23623/arx.

VP – 120 P/Q şöbəsinin rəisi Traspov

VVAŞ – vətəndaşların vəziyyəti aktı şöbəsi;

DİNİ – Daxili İşlər Nazirldiyi İdarəsi;

«VP» - mən bu sözü rus dilində olduğu təki yazmışam, belə oxuyuram: voenno polevoy – hərbi səhra.

68

**1957.** Mişkinaz Cavid göstərilən ünvana tələsirdi. Elə bil ki, ona Cavidini bağışlayacaqdılar. Gəldi, Cavidin əvəzinə ona qara kağız bağışladılar.

**Cavidin ölümü haqqında şəhadətnamə.** Nömrəsi: İE № 019887. Orada yazılıb: Ölüb – beş dekabr min doqquz yüz qırx birinci il. Ölümünün səbəbi: Paraliç serdüa (ürək iflicindən). Bu barədə ölüm haqqında vətəndaşlıq vəziyyəti aktları kitabında 1948-ci il martın 31-də 253 nömrə ilə lazımi qeyd edilmişdi. Qeyd edildiyi yer: Bakı şəhəri, Caparidze rayonu. Verildiyi vaxt: 4 may 1948-ci il.

Kağız Mişkinazın əlini yandırdı. O, kağızı bir də diqqətlə oxudu. Kor-peşman evə qayıtdı. Cavidsiz…

69

Cavidin ölümünün səbəbi iki sənəddə göstərilib: Şevçenko kəndində tutulan 59 nömrəli aktda və İE № 019887 nömrəli ölüm haqqında şəhəadətnamədə. Bu iki sənəd arasında uyğunsuzluq var. Daha inamlı 59 nömrəli aktdı. Orada belə yazılmışdı: «Smert posledovala ot sepsisa na poçve obmorojeniə obeix stop, pri naliçii serdeçnoy deətelnosti».

Həmin akta həkim P.Vartminski imza atmışdır. Görünür, Şevçenkoda Cavidi Vartminski müayinə eləmişdir. Ölüm hər iki ayağın pəncəsini soyuq aparması nəticəsində əmələ gəlmiş sepsisdən ürək döyünərkən baş vermişdi. Sepsis qana düşmüş xəstəliktörədici mikroorqanizmlərlə bütün bədənin, qanın zəhərlənməsi deməkdi. Bütün bunların ölümə səbəb olması mümkündü…

70

**Fevral 1956. Bakı.** Azərbaycan Yazıçıları İttifaqı Rəyasət heyətində Cavidin və başqa yazıçıların bəraət alması üçün onlara yaradıcılıq xasiyyətnaməsi verilməsi məsələsi müzakirə olunur. Cavidə yaxşı xasiyyətnamə verilməsi mübahisəsiz keçmir. Həmişə olduğu kimi, yenə də mübahisələr baş qaldırır, nəhayət, xasiyyətnamə yazılır: «Bir sıra ciddi yaradıcılıq – ideya büdrəmələrinə, səhvlərinə, əsərlərində nəzərə çarpan burjua idealogiyasının təsirinə, yaradıcılığındakı, dünyagörüşündəki ziddiyyətlərə baxmayaraq, Hüseyn Cavid Rəsizadə Azərbaycan ədəbiyyatı tarixində müəyyən rol oynayır».

Xasiyyətnamədə yazılanlarla iyirminci-otuzuncu illər Azərbaycan ədəbi tənqidində Cavid haqqında irəli sürülmüş ittihamlar arasında fərq demək olar ki, yoxdur…

71

**Azərbaycan Sovet Sosialist Respublikasının**
**Ali Məhkəməsi**

№ 7-0/249 19 mart 1956-cı il

**A R A Y I Ş**

Azərb.SSR Ali Məhkəməsinin CMK 6 mart 1956-cı ildə Hüseyn Cavidin mühakiməsi üzrə işə baxmışdır.

SSRİ DİXK-nın Hüseyn Cavidə aid 9 iyun 1939-cu il tarixli Xüsusi Müşavirəsinin Qərarını ləğv etmiş və cinayət tərkibi olmadığına görə onun haqqındakı işə xitam verilmişdir.

Azərb. SSR Ali Məhkəməsi
Sədrinin müavini imza S.İmanov

Arayış rus dilində yazılıb. CMK – Cinayət Məhkəmə Kollegiyası, DİXK – Daxili İşlər Xalq Komissarlığı (NKVD).

Nəhayət, ədalət zəfər çaldı. Cavid bəraət aldı. Mişkinaza, Turana gözaydınlığı verdilər. Cavidin əsərləri zülmətin qaranlığından işıqlığa çıxdı. Cavidə həsrət qalan oxucular, xalq, cavidsevərlər Cavidə qovuşdu. Oxucuları, tamaşaçıları, tədqiqatçıları Cavidlə yeni görüşlər gözləyirdi. Onlar Cavidlə görüşdülər, dərdləşdilər, söhbətləşdilər, əsərlərini tamaşaya qoydular…

72

**21 oktyabr 1987.** Turan xanımın mənzilində məclis qurulub. Cavidin anadan olmasının yüz beş illiyi qeyd olunur. Cavidi sevənlər, şairin xatirəsini əziz tutanlar onun başına toplaşıblar. Cavidin şəkildəki olduqca mənalı baxışı məclisə toplaşanlara dikilib. Həmid Cəfərov, Turan xanımın «qardaşı», Cavidin «oğlu» da buradadır. Mən Həmid müəllimi ilk dəfə Bakı təyyarə limanında, sonralar Şirvanşahlar sarayında görmüşdüm. Sarayda Şevçenkoya necə gedib-gəlməsindən danışırdı, hərarətlə, ağızdolusu. Suallara cavab verirdi. Onda ona bir sual da mən vermişdim:

- Bu, həqiqətənmi şairin cənazəsinin qalıqlarıdı?

O danışdı, danışdıqca inamım artdı, sonralar şübhələrim tamamilə yox oldu. İndi məclis yenə ondan danışır, hərarətlə, kədərlə, sevinclə, fərhlə, qəmlə, qüssə ilə. Həmid danışdıqca həyəcanlanır, od-alov tutub yanır. Turan xanım mətbəxdədir, guya orada çox işi var. Halbuki imkan verir ki, Həmid müəllim ürəyini boşaltsın, dolan buludlar kimi ağlasın. Ağlayır Həmid müəllim məclisi ağladır Həmid müəllim; məclisə dərin bir sükut çökür…

Oxucu dostum, mən Cavid haqqında kitabımı onun sözlərilə başladım. Yazımı onun sözlərilə, şeirilə davam etdirmək istəyirəm, fikrimə son nöqtə qoymuram. Sən bu şeiri bəlkə də oxumamısan. Bu şeirdən bəlkə də xəbərin yoxdur. Həmin şeir 1910-cu ildə mətbuatda işıq üzü görüb, «Bahar şəbnəmləri» şeirlər kitabına salınmayıb. 1920-ci illərdə ədəbiyyat dərslikləri və proqramlarına daxil edilib, məktəbdə balalarımı-

za öyrədilib. Mən şeirin çap edilməsinə çalışmışam, ancaq müvəffəq ola bilməmişəm. Hansı redaksiyaya getmişəmsə, şeiri oxuyub, tərifləyib özümə qaytarıblar. Mən çox istəyirəm ki, bizim gənc nəsil həmin şeiri düşünə-düşünə oxusun.

Şeir belə adlanır: «Qoca bir türkün vəsiyyəti».* O zaman bəzi-bəzi redaksiya işçiləri «türk» sözünü oxuyan kimi qorxuya düşdülər. Stalinizm dövrünün qorxusu, vahiməsi beyinlərdən silinməmişdi, durğunluq dövrünün ətaləti hökm sürürdü. Xalqı öz milli köklərindən, qədim keçmişindən, əcdadından qoparıb atmağa cəhd göstərənlər var idi. Bu, millət üçün dəhşət idi, millət üçün faciə idi, dürlü, dəhşətli bir faciə ki, biz onun ağrı-acısını zaman keçdikcə daha çox duyacağıq. Şeirdə bir romanlıq məzmun, məna var, oxucum. Mən onu xırdalamaq, təhlil etmək istəmirəm. Sən atğıllısan, dərrakəlisən. İnanıram ki, onu oxuyub hər sözün, hər fikrin, hər misranın, hər beytin altında yatan qızıl xəzinəni özün kəşf edəcəksən, özün anlayacaqsan. Ancaq bir onu demək istəyirəm ki, həmin şeir Cavidin bizə, xalqına, vətənini sevən hər kəsə, çocuğa da, ağsaqqala da, ağbirçəyə də, gənc anaya da vəsiyyətnaməsidir. Həmin vəsiyyətnaməni sevə-sevə, düşünə-düşünə oxu, oxucum, deyilənləri yaxşı yadında saxla, oxucum.

73

## QOCA BİR TÜRKÜN VƏSİYYƏTİ

*Yavrularım! Ey ömrümü şənləndirən, güldürən,*
*Alnı açıq oğullarım, gözəl, yosma qızlarım,*
*Bir qayəsiz uçurum var, ayrılmıyor önümdən,*
*Ömrüm vəfa etməz bana, bəlkə pək az yaşarım.*

*Artıq bana dar gəliyor həp şu əngin üfüqlər,*
*Sanki ruhum qanatlanıb şimdi pərran olacaq.*

---

* 1990-cı ilin yayında şeiri Cavad Cavadlıya verdim. Diqqətlə oxudu, «bəyəndi». Dedi: - Şahinlə danışaram, çap edərik. Nəhayət, şeir 10 oktyabr 1990-cı ildə «Azərbaycan müəllimi» qəzetində dərc olundu.

*Qarşımızda yanğın kibi görünən al şəfəqlər,*
*Ehtimal ki, yarınki gün bəni sönmüş bulacaq.*

*Əcəl güclü, bən gücsüzüm, kimsə ondan qurtulmaz,*
*Toplaşınız, vardır sizə bir qaç sözüm, dinləyin.*
*Getməliyim, vəsiyyətsiz ölsəm ruhum şad olmaz,*
*Qulaq verin sözlərimə, birər-birər bələyin.*

*İlk istəyim: hiç bir zaman sevgidən əl çəkməyin,*
*İnsan oğlu sevgi için yaratılmış, doğmuşdur.*
*Yer yüzünü qardaş bilin, insan qanı dökməyin,*
*Bu dünyada bir qaşıq suda çoq zalımlar boğmuşdur.*

*Kimsəyə kin bağlamayın, yigit olun, mərd olun,*
*Vicdanınız elmas kibi nur saçaraq parlasın.*
*Qonum-qonşu, yaqın-uzaq hər kəslə həmdərd olun,*
*Qırıq gönülləri yapın, bıraqmayın sızlasın.*

*Zülmə hərgiz yaqlaşmayın, doğru yoldan şaşmayın,*
*Tanrı haqdır, haqqı sevər, ədalətdən xoşlanır.*
*Yaltaqlığa imrənməyin, kibrə hiç yanaşmayın,*
*Öz haqqını bilməyənlər ən sonunda daşlanır.*

*Arslan kibi cəsur olun, fəqət haqsız çıqmayın,*
*Haqsızlığa qarşı qoyun, bıraqmayın şımarsın.*
*Zalımları, cəlladları çeynəyin, hiç qorqmayın,*
*Türk milləti, görülməmiş, boyun büksün, yalvarsın.*

*Baq! Şu yanda gülümsüyən yeni doğmuş ay nədir?*
*Şəfəqlərin doğurduğu bir qızdır ki, hər yerdə*
*Türk adını elan için bir səmavi aynədir,*
*İştə! Bizim tariximiz… həm yerdə, həm göylərdə.*

*Ey sevgili quzularım! Sizdən bən ayrılırkən,*
*Bəndən sizə son vəsiyyət: hərgiz məhzum olmayın.*
*Vicdanımla, namusumla yaşar, haqqı bilirkən,*
*Güclükmü var himmətinə qavuşmaqda Tanrının!?*

*Namus, vicdan insanlarda iki böyük qanatdır,*
*Onlar ilə Adəm oğlu yüksək göylərdən aşar.*
*Namus, vicdan bizlər için daimi bir həyatdır,*
*Türk eli həp o hiss için doğmuş, onunla yaşar.*

*Bir millətin tarixidir kökü, yurdu, yuvası,*
*Tarixiniz baş ucundan hərgiz əskik olmasın.*

*«Altay» dağı, «Makan» çölü, həm də «Yasın ovası»,**[*]
*Birər aydın səhifədir, hər türk gərək anlasın.*

*Südü təmiz, əsil oğul bilməzmi ki, əcdadı*
*Nasıl doğub yaşamışlar, nə ərliklər etmişlər.*
*Bilməli ki, tez məhv edər zaman nankor evladı,*
*Öz nəslini unutanlar çoqdan sönüb getmişlər.*

*Bir millət öz kökü üstə bitər, böyür, yüksəlir,*
*Köksüz ağac çabuq qurur, çiçək açmaz, bar verməz.*
*Baqın, görün tarixiniz sizə nələr göstərir,*
*Həp şərəf, həp böyüklükdür, ancaq şaşılar görməz.*

*Mərd atalar yigitlikdə nam almamış yalınız,*
*Ta əskidən onlarda var elm, hikmət həvəsi*
*Günəş kibi tarixləri parlatıyor, baqsanız,*
*Səmərqəndin darülfünunları, rəsədxanəsi.*

*Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,*
*Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.*
*Əsr, iyirminci əsrdir! Vəzifəsi pək ağır…*
*Arş iləri!*
*Qomşular yol aldı, geri qalmayın**[**]

74

Kainat hərəkətdədir. İnsan da. Planetlər və insan kainatın oyuncağıdı. Hər kəs bu dünyada öz rolunu oynayır: yaxşı, pis, tragik, komik, bəsit, mürəkkəb, sönük, atəşli. Kainat dünyanı, rəhbərlər insanları oyuncaq kimi atıb-tutur. Kimini uca bir zirvənin başına qaldırır. Sonra yerə çırpır. Ancaq çoxları öz yerində oturmayıb, çoxları öz donunda görünmür.

*Ağıllı ağlını at kimi qovur,*

---

[*] «Bu yerlərin hər üçü türk tarixi-ümumisincə böyük bir əhəmiyyəti haizdir… – H.C.»
Qeyd. Şairin qeydi həcmcə çoxdur. Çox kiçik ərəb hərflərilə yığılmışdır. Mətni nə Turan Cavid, nə də mən oxuya bilmədik.

[**] Bu şeir ilk dəfə 19 aprel 1910-cu ildə «Həqiqət» qəzetində çap edilmişdir. 1922-1925-ci illərdə Abdulla Şaiqin orta məktəblər üçün hazırladığı «Milli qiraət kitabı» və «Qiraət kitabı» adlı dərsliklərə salınmışdır. Mən onu aşkara çıxarıb Turan Cavidə vermişdim. O, uzun müddət şeiri Cavid əsərlərinə daxil etmədi. Mən onu «Azərbaycan müəllimi» qəzetində çap etdirdim. Turan Cavid şeiri şairin müstəqillik illərində tərtib və çap etdirdiyi birincicildə daxil etdi. Şeir demək olar ki, bir əsrdən sonra onun müəllifinin kitabında işıq üzü gördü.

*Ağlın mənzilində dağ-dərə heçdi.*
*Qəfil bir döngədə ağlın cilovu*
*Vay odu, ağılsız əlinə keçdi.*

Beləcə də olur. Ağılsızlar ağıllıları at təki cilovlayıb, dibsiz bir uçuruma aparır... Biz belə bir təzadlı dünyada yaşayırıq. Turan Cavid belə bir dünyada ömür sürür. Ömür keçir, gün keçir, dünya fırlanır. Ömrünün altmış beş baharını, qışını, yayını, payızını yaşayır Turan Cavid!

75

**13 sentyabr 1988.** Qonaq otağında Cavidin əli qoynunda portreti şabalıdı rəngli divarboyu qab-qacaq şkafının üstünə qoyulub. Bu, Cavidin daimi yeridi. Turan xanım onun önündə oturub. Portretlə canlı insana profildən baxıram. Onların arasında bənzəyiş axtarıram. Sifətinin quruluşu da, ifadəsi də, başqa cizgiləri atasınınkına uyğun gəlir. Saçlarını vurdurub. O, həmişə saçlarını qısa saxlayır. Xurmayı saçlarına çoxdan dən düşüb. Qaşları qalındı, sifəti arıq. Altmış beş illik ömrün acısını, şirinini, yaxşısını, pisini onun vücudundan oxumaq olar, sözündən-söhbətindən eşitmək olar. Gözləri qaradır, baxışı ifadəli, mənalı. Əlləri arıq, barmaqları nazikdir. Sol əlinin şəhadət barmağını büküb. Bükük yerində kiçik bir domba görür. Sanki birinci dəfə görürmüş kimi deyir:

- Bu nədir?

Sual elə bil ki, uşaq sadəlövlüyü ilə verilir. Mən də baxıram, balaca bir çıxıntı görürəm. Barmaq açılan tək çıxıntı yox olur, deyirəm:

- Düzəldi, yox oldu.

O:

- Barmaq düz olmalıdı da.

Həmən əlavə edir:

- Haram düzdü ki, barmağım da düz ola?.. Yaxşı borş bişirmişəm. Anam deyərdi: Ölü yesə, dirilər. Bir dəfə istirahətə getmişdim. Birinci

dərəcəli restoranda borş yedim. Sonra özümə gələ bilmədim. Diskindim. Uzun müddət borş yeyə bilmədim…

Turan Cavid danışır. Sadə, zəhmətkeş, nəcib, qayğıkeş, təvazökar, heç bir kəsdən fərqlənməyən, eyni zamanda fərqlənən türk qadını beləcə ömür-gün sürür.

İndi qul olmağa layiq adamlar şah yerində oturub, şahlığa layiq adamlar nökər yerində. Qəribə işləri var dünyanın. Elə bu an televizorda Q. Cahangir görünür. Jurnalist onunla müsahibə aparır. Nifrətə layiqdi bu adam. Cavidin «ev-muzeyini zəbt edib bu adam». Yöndəmsiz-yöndəmsiz danışır. Nə adına hörmət edir, nə tutduğu vəzifəyə, nə də alimliyinə. Jurnalist də naşılıq göstərir. Yöndəmsiz danışığa düzəliş verir. O isə ağzına gələni danışır. Ağ yalanlar deyir. Cavidin ev-muzeyinin açılmamasının səbəblərini doğru izah etmir. Turan Cavid od tutub yanır, yaxılır. Bir anda büsbütün dəyişir. Sifəti qıpqırmızı olur.Yerində otura bilmir.

- Rafael də vaxt tapdı saçını vurdurmağa. Gərək buna baxardı. Gərək eşidərdi filankəs nə danışır. Görəsən bərbərxanada televizor olur?

Mən deyirəm:

- Bəzisində olur.

- Jurnalistə bax bir. Bu da mənim hörmət bəslədiyim aparıcı. Sabah ona zəng vuracam. Ürəyimi boşaldacam. Allah yaxşıları aparır, pisləri saxlayır. Ürəyim ağrıdı. Bu gecə yata bilməyəcəm. Tər basdı məni. Boğazım qurudu. Gör bir nə qədər əsəbləşdirdi məni!..

Alimin ağzı söz tutmur. Danışığının çoxu yalandı. Deyir ki, Cavid yaşadığı binada Müşfiq də yaşayıb, filankəs də… Jurnalist ona düzəliş vermir. Jurnalistin toxunulan məsələyə hazırsızlığı həmən bilinir. Böyüklər öz hərəkətlərindən utanmır, kiçiklərə nə deyəsən?..

- Xər həmən xər əst, çul digər.

Yəni, eşşək həmən eşşəkdi, çul başqadır. Bu atalar sözünü o xanım deyir. Həmin söz bir çoxlarına necə də gözəl yaraşır. Od, alov tutub yanır Turan Cavid. Hirsindən əsir Turan Cavid. Fikirləşirəm: Gecəni necə

yatacaq o? Səhəri necə duracaq o? Sabah nə gözləyir onu? Dərd çəkməkdən, qəm yeməkdən üzülür Turan Cavid.

Biz belə bir təzadlı dünyada yaşayırıq, oxucum. Turan Cavid belə bir dünyada ömür sürür, oxucum. Ömür keçir, gün keçir, kainat fırlanır, insanlar da. Ömrünün altmış beş baharını, qşışını, yayını, payızını yaşamış Turan Cavid...

Durnalar Şimala uçur. Qayıdacaqmı durnalar? Soyuqdan öləcəkmi durnalar? Qanadları qırılacaqmı durnaların?..

## E P İ L O Q

Sovet quruluşu xalqların və insanların fəlakət və bədbəxtliyi üzərində qurulmuş bir siyasi sistem və rejim olmuşdur. Sovet tarixi yalnız lenin və stalinin sosializmin, xalqın Hitler faşizmi... üzərində qələbəsi tarixi deyildi, həm də milyonlarla insanın məhvi, faciəsi və repressiyası tarixidir. Avtoritarizmin, stalinizmin, kommunist siyasəti və rejiminin qurbanları haqqında qəmli bir dastanı xatırladan bu kitabda mən Hüseyn Cavidin özü və ailəsinin timsalında başqa namuslu və vicdanlı sovet adamlarının ağrılı-acılı, faciəli, məşəqqətli və müsibətli həyatına qısa nəzər saldım, keçmişdə və bugünlərdə baş vermiş hadisələr arasında əxlaqi, tarixi və mənəvi bağlılıq axtarmağa çalışdım. İnsanların və xalqların ahı, fəlakət və bədbəxtliyi üzərində qurulmuş bir quruluşun siyasi mahiyyəti barəsində oxucularda təsəvvür yaratmağa çalışdım. Öz-özümə sual verdim: «Sovet İttifaqında nə üçün bu cür dəhşətli tarixi hadisələr baş verdi?» Sualıma sadə bir cavab tapdım. Bel qənaətə gəldim ki, diktatura hökm sürən və insanların susdurulması dövlət siyasətinə çevrilən bir yerdə, yalanın həqiqət, zorakılığın humanizm üzərində qələbə çaldığı bir məmləkətdə faciəvi hadisələrin baş verməsi təbiidir. Bu haqda nə qədər çox yazılsa, yenə də azdır...

**1988**

## KİTABIN İÇİNDƏKİLƏR

BİRİNCİ HİSSƏ. Durnalar Şimala uçur ................................3
İKİNCİ HİSSƏ. Canlar yaqar, evlər yıqar insan ....................67
ÜÇÜNCÜ HİSSƏ. Tarix və faciə ........................................166

**İ s g ə n d ə r   A t i l l a**

# Mərd ölmək namərd yaşamaqdan üstündü

*(Azərbaycan türkcəsində)*

**İ s k e n d e r   A t i l l a**

# Luçşe umeretğ s çestğö, çem jitğ vezçestnım

*(na törkskom əzıke)*

**Mətni yığdı: Arzu Hüseynova**

**İsgəndər Əhməd oğlu Atilla**

1943-cü ildə Naxçıvan MR Şahbuz r. Mahmudoba kəndində anadan olmuşdur. Ailəsi 1949-cu ildə Naxçıvan ş. köçmüşdür. 1971-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1986-ci ildə Hüseyn Cavid yaradıcılığı Azərbaycan sovet ədəbi tənqidi və ədəbiyyatşünaslığında mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 2005-ci ildə dosent elmi adı almışdır. Respublikanın əməkdar müəllimidir. Uzun illərdir ki, Cavid irsinin araşdırılması ilə məşğuldur. «Ata naləsi» avtobioqrafik romanının, «Cavid» dramasının, «Əsrin şairi. Hüseyn Cavidin həyatı və taleyi» monoqrafiyasının və s. kitabların müəllifidir.